AZƏRBAYCAN DİLİ VƏ TARİXİ



# QARABAĞNAMƏLƏR

MİRZƏ
YUSİF QARABAĞİ

TARİXİ-SAFİ

MİR MEHDİ XƏZANİ

KİTABİ-TARİXİ-QARABAĞ

RZAQULU BƏY
MİRZƏ CAMAL OĞLU

PƏNAH XAN
VƏ İBRAHİM XANIN
QARABAĞDA
HAKİMİYYƏTLƏRİ
VƏ O ZAMANIN HADİSƏLƏRİ

*Üçüncü kitab*

# AZƏRBAYCAN DİLİ VƏ TARİXİ



# QARABAĞNAMƏLƏR

MİRZƏ RƏHİM FƏNA
TARİXİ-CƏDİDİ-QÄRABAĞ

BAHARLI
ƏHVALATİ-QARABAĞ

HƏSƏN İXFA ƏLİZADƏ
ŞUŞA ŞƏHƏRİNİN TARİXİ

HƏSƏNƏLİ QARADAĞİ
QARABAĞ VİLAYƏTİNİN QƏDİM VƏ CƏDİD KEYFİYYƏT VƏ ÖVZALARL...

ABBASQULU AĞA BAKIXANOV
GÜLÜSTANİ-İRƏM.

Üçüncü kitab

ŞƏRQ-QƏRB
BAKI 2006
Bu kitab "Qarabağnamələr. II kitab" (Bakı, Yazıçı, 1991) nəşri əsasında

təkrar nəşrə hazırlanmışdır

Tərtib edəni: Nazim Axundov
Elmi redaktoru: Akif Fərzəliyev

**947.54-dc22**
**AZE**
**Qarabağnamələr. III kitab.** Bakı, "Şərq-Qərb" 2006, 248 səh.

"Qarabağnamələr"in üçüncü kitabında Azərbaycanın XX əsr salnaməçiləri Mirzə Rəhim Fənanın, Baharlının, Həsən İxfa Əlizadənin, Həsənəli Qaradağinin, Abbasqulu ağa Bakıxanovun Qarabağ haqqında tarixi, ədəbi-bədii, publisistik oçerkləri toplanmışdır.

**ISBN10 9952-34-070-2**
**ISBN13 978-9952-34-070-9**

© "ŞƏRQ-QƏRB", 2006

## TƏRTİBÇİDƏN

"Qarabağnamələr"in üçüncü kitabına Qarabağ tarixi haqqında Azərbaycan dilində yazılmış aşağıdakı salnamə və materiallar daxil edilmişdir:

Baharlının "Əhvalati-Qarabağ", Mirzə Rəhim Fənanın "Tarixi-cədidi-Qarabağ", Həsən İxfa Əlizadənin "Şuşa şəhərinin tarixi" əsərləri, Həsənəli Qaradağinin "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları, Pənah xan, İbrahim xan və Mehdiqulu xan əyyami-hökumətlərinin əksər vəqaye və hekayətləri" əsərindən iqtibas, A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinin V fəsli.

Bu əsərlər tarixi, coğrafi, etnoqrafik, onomastik məlumatlarla yanaşı, zəngin dil materialları verən abidələrdir.

Kitaba daxil edilən əsərlərin əlyazmaları aşağıdakı arxiv və fondlardan toplanılmışdır.

Baharlının yazdığı "Əhvalati-Qarabağ" əsərinin yeganə nüsxəsi Ermənistan Əlyazmaları Fondu - Matenadaranda saxlanılır. Həmin əsərin fotosurəti Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmaları İnstitutunda FS-455 nömrəli şifrlə saxlanılır.

Həsən İxfa Əlizadənin "Şuşa şəhərinin tarixi" əsəri müəllifin Respublika Ədəbiyyat və İncəsənət Arxivində şəxsi fondunda saxlanan əlyazması əsasında çapa hazırlanmışdır. Nəzərə çatdırmaq lazımdır ki, Həsən İxfa başqa Qarabağ salnaməçilərindən fərqli olaraq Türkmənçay müqaviləsindən (1828) sonra Şuşada baş verən siyasi və mədəni hadisələri də qələmə almışdır. Həmin nəşrdə isə Həsən İxfanın 1828-ci ildən sonrakı dövrə aid fikir və mülahizələri əvvəlki "Qarabağnamə"lərin xronolojisinə uyğun gəlmədiyindən hələlik ixtisar olunmuşdur.

Tarixi mənbələr göstərir ki, Həsənəli Qaradaği də "Qarabağ tarixi" yazmışdır. Hələlik həmin əlyazma əldə yoxdur. Qaradağinin oğlu həmin əlyazmasını oxumuş və 1936-cı ildə oradan bəzi iqtibaslar edib əsərin

qısa xülasəsini vermişdir. Bu iqtibas Əlyazmaları İnstitutunda B-1949 nömrəli şifrlə mühafizə olunur. Qaradağinin əldə olan təzkirəsi də aydın şəkildə göstərir ki, o, Qarabağ tarixinə yaxşı bələd imiş. Buna görə də Həsənəli Qaradağinin "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları" adlandırdığı əsərdən iqtibası həmin kitabda vermək məqsədəuyğun sayılmışdır.

Mirzə Rəhim Fənanın "Tarixi-cədidi-Qarabağ" əlyazması da Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmaları İnstitutunda saxlanılır.

Əvvəllər rus, Azərbaycan və fars dillərində çap olunmuş A.Bakıxanovun "Gülüstani-İrəm" əsərində Qarabağ xanlığının tarixi və onun başqa Azərbaycan xanlıqları ilə əlaqələrindən bəhs edən, dəyərli fakt və fikirlər olduğundan V fəsli əlavə şəklində bu kitaba daxil edilmişdir.

Bir küll halında "Qarabağnamələr" yalnız adi tarixi salnamələr deyildir. Bu əsərlərdə etnoqrafik materiallara, tarixi-memarlıq abidələrinin təsvirinə, Qarabağın bir çox maraqlı şəxsiyyətlərinə, adət-ənənələrinə dair zəngin faktlarla, vəqf mülkiyyətinin Qarabağda geniş vüsət tapmasına dair tutarlı sübutlarla rastlaşırıq.

**MİRZƏ RƏHİM FƏNA**

# TARİXİ-CƏDİDİ-QARABAĞ

## MİRZƏ RƏHİM FƏNA

Mirzə Rəhim Fəna (1841-1929) Azərbaycanın tanınmış şairi və ictimai xadimlərindən biridir. Xan qızı adı ilə məşhur olan Xurşidbanu Natəvanın yanında xidmət etmişdir. 1864-cü ildə Mirzə Rəhim Fənanın təşəbbüsü ilə Şuşada "Məclisi-üns" ədəbi məclisi yaradılmışdır. Sonralar da o, məclisin rəhbərlərindən biri olmuşdur. "Məclisi-üns" haqqında dəyərli xatirələri ikicildlik "Azərbaycan ədəbiyyatı" əsərində əlavə şəklində çap edilmişdir. Şeirlərindən nümunələr inqilabdan əvvəlki dövri mətbuatda: "Təzkireyi-nəvvab", "Riyazül aşiqeyn" əsərlərində çap olunmuşdur. Tarixə və ədəbiyyata geniş marağı olan Mirzə Rəhim Fənanın "Tarixi-cədidi Qarabağ" əsərindən yalnız bəzi fraqmentlər mühafizə edilmişdir ki, oxuculara təqdim olunur. Əsərin ərəb əlifbasından transliteriyasını Arif Ramazanov etmişdir.

## TARİXİ-CƏDİDİ QARABAĞ

Qarabağ əyaləti barəsində yazılmış tarixlər vəz və üslubi-tarixnigaranlıqdan xaric və vüqui-tabani-hadisələr müfəssəl şərh olunmayıb. Bəlkə əksər vəqaye eynən fəramuş olduğuna binaən və əlavə mən cəm etdiyim vaqei xəbərlər ilə və günagün idarələrdə gördüyüm əsnad ilə qeyri-mütabiq olduğuna görə mən belə təsəvvür etdim ki, tarixi-səhihi-Qarabağ hənuz nəzm olunmamış. Ona görə çox vaxtlar bu arzuda olmuşam ki, öz məlumatıma görə təzə "Tarixi-Qarabağ" yazam. Bu anəcən fərağət olmayıb, ancaq şimdi fürsət olduğuna tazə "Tarixi-Qarabağ" yazmağa cəsarət etdim.

## QARABAĞ

Qarabağ əyaləti cüzvi-əzimi-Azərbaycani-qədim və Azərbaycan həm cüzvi-qədimi-məmləkəti-İran olubdur.

Qarabağ əhli öz vətəninin sorağını və adını ancaq Mirzə Camal və Mirzə Adıgözəl tarixləri ortaya çıxandan sonra cuya olmuşlar. Çünki Səfəvi övladının əsrindən sonra saheyi-Qarabağ bir ad ilə məşhur olmayıbdır.[1] O cəhətə məzkur tarixlərdən sabiq zikr edən olmayıbdır.

Fəqət min yüz altmışıncı (1160) səneyi-hicri Nadir şah Əfşarın qətlindən sonra onun hüzurunda olan qoşun sərdarları və əyan ləşkər pərakəndə olan zaman hazıri-hüzur olan şəxslərdən biri də Pənah xan Sarıcalı Cavanşir olubdur ki, həmə vaxt rikabda və mültəzimi-əmir-nizam var imiş. İnqilabi-vəzi-səltənəti nəzərə alıb, zəhməti-qürbətdən özünü xilas etmək qəsdilə vətənə müraciət edir. Onun vətənə müraciət etməyi və Qarabağ rəyasətini qəbul etməyi tarix üçün təzə bir məhəl açıb Qarabağı müzakirəyə saldı. Qarabağda xanlıq bina olmağına bais olubdur. O yerin iştiharına və bu ittifaq

1Qeyd: Müəllif səhv edir. Səfəvilər dövründə Qarabağ bəylərbəyliyi mövcud olmuşdur.

yada salıbdır. Qarabağın qədim şəhamətini Bərdədən başlamış, Mil səhrasında vaqe Aran qala şəhərini Araz nəhrin üstündə vaqe Əshabi-rəs şəhərlərini, Bayat-Beyləqan şəhərlərini, ələlxüsus şəhamətli Sultanbud təpəsini və sairləri hala bu arada zikr etdiyimiz təzə Qarabağ tarixini Pənah xan qurduğu xanlıq dairəsində və o zamana dair Həvadisat tərəfində yazmağa şüru edirik. Çünki əksər vəqayeyi-Qarabağ mərbutə dər İran və həmsayə məmalik Gürcüstan, Osmanlı, Rusiya məmləkətinə. Ona görə bu məmalikin adı və şamil olan vəqaye mərqum olacaqdır. Xatimeyi-tarixdə qədim Qarabağa müxtəsər işarə olunacaqdır.

## HÜDUDİ-ƏYALƏTİ-QARABAĞ

Cənub tərəfdən mis mədənləri olan Qapan dağlarının imtidadilə bir yerdə sariyal ru be məşriq gedir Araz çayınadək. Oradan məcrayi-nəhri-Araz ilə bir yerdə şərqdən gedir ta haman suyun qərbdən şərqə dəryayi-Xəzərə tərəf cari Kür nəhrinin məcrasınadək ki, oradan hər iki nəhrin suyu bir yerə qarışıb axar dəryayə. Bu nöqtə Qalaqayın adlı qəsəbədir ki, sabiqi Mustafaxanlı pristavlığına daxildir. Oradan Kür nəhrinin məcrasilə sərhəd şərqdən qərbə qayıdıb Kür nəhrilə üz yuxarı gedir. Sabiqi poçta stansiyonu Türyan çay adlı yerədək ki, Duzdağ burnunda vaqedir. Sərhəd Goran mülkündən yuxarı Duzdağ burnu şimal tərəfdən ru becənub gedir Mirov dağının ətəyində vaqe Molla Vələdli mülkünədək. Oradan Qara Çinar mülklərinin əmlakını əhatə edib üz yuxarı cənubən haman dağın qarlı və buzlu sarıyalı-nadək ki, hər yerdən ucaraq nöqtədir və ucalıqda Böyük Qafqaz dağlarına özünü həmduş göstərəndir. Bu nöqtədən şərqdən qərbə tərəf hər yerdə sarıyal sərhəd gedir. Ayrım kəndinin başının üstünədək ki, o kənd vaqedir Tərtər çayının əvvəlinci şaxəsindən olan çeşmələrdən. Bu nöqtədə Mirovdan gələn uca dağlar silsiləsi iki şaxə olub, biri Gəncə uyezdinə tərəf və biri Rumbasır və Kəlbəcər adlı uca dağlar ilə ki, İrəvan quberniyası ilə Gəncə quberniyasının sərhədidir, məzkur dağlar şimaldan üzü cənuba tərəf Qarabağ sərhədidir.

## HÖKUMƏTİ-PƏNAH XAN

Bayat mülki hökumət olduqda hər tərəfdən xalq Pənah xanın başına cəm olar. Az vaxt keçər ki, cəmi-kəsir səvarə və piyada müntəziri-xədəmat olub və sükunət üçün dəxi fərahəm gəlirlər. Bu avazədən Xəmsə məliklərinə dəhşət hasil olar ki, təzə siyasət ilə nə əlaqədə olmaq hər kəs nə xəyal edirsə, əvvəlcə məhəbbət yolu ilə xan ilə mülaqat edib, əlaqədar olan Məlik Şahnəzər olar ki, onun hasari-təməkkünü Çanaqçı kəndinə olar. Sair məliklər dəxi yavaş-yavaş xan ilə mülaqat edib hər kəs öz iradətini izhar etməkdə ehmal etməzlər.

## MƏRKƏZ HÖKUMƏTİN ŞAHBULAĞA KÖÇMƏYİ

Üç-dörd sənə zərfində izdihami-xəlayiq Bayat mülkünə cəm olmağı, kim ləşkəri və kim əhli-sükunət mürури-zaman ilə isbat edir ki, şöhrət və abadiyi-əzimə şərayiti Bayat mülkündə kifayət verməyəcəkdir. Əlavə cəmiyyəti-müxtəlif üt-təbaye məzacında hifzi-səhhə üçün əksərən müzürr olduğuna səbəb aran nöqtəsində Şaxlıqda və su azlıqda Bayat mülkünün vaqe olmağı əvvəlcə nəzərə gələn münasibata zəif yetir. Əvvəlcə ümdə münasibət Bayat mülkü vəsətdə olmağı üçün və zəxirə cəm etmək üçün asan və tamam dörd tərəf İslam əhli olduğu və sair bu qism şərtlər idi. Şimdi hökumət nüfuzu qüvvət tapdıqca o münasibət Qarabağın hər tərəfində mümkün olduğuna lazımdır. Hökumət başına cəm olan camaat üçün hifzi-səhhə və sühüləti-maaş və abü həvayi-məhəlli-mərkəz, hənuz mədəniyyət rayihəsi damağlarına dəyməmiş kənd camaatı padşahi-məmləkət yoxluğunda vilayət hərçü mərc olacaqdır, xəyalından şiddət ilə qorxub, istərlər ki, külliyən İran o cümlə Qarabağ nə surətdə qalmaq sözünü Pənah xan dilindən eşitsinlər. Öz aralarında məşvərət edib belə məsləhət gördülər ki, bu halda əgər Pənah xan qəbul etsə, onun irşad pahnümalığı ilə dolanmaq bizim səlahımızdır. Bu məqsədi Pənah xana izhar edib, müntəzir olurlar ki, bu mətləbi o qəbul edəcəkdir, ya yox? Pənah xan dəxi övzai görmüş və bilərkən ki, hökuməti-müstəqilə zamanında rahat və aram ömür sürməyə qabil

olmayan camaat necə rəyasətsiz ömür edirlər. Ona görə bu əmrdə xalqın iltimasını qəbul edir. Çünki müddətlər Nadir şah hökumətin görüb, təcrübə yolu ilə şəraiti-hökmdarlıqdan baxəbər idi. Şəxsən özünün və əşirəsinin səlahını həm bunda görər və belə də olar. Ta zamani-ayəndə siyasəti-adilə nə vaxt iqamə olmaz. Pənah xan xalqın xahişini qəbul edəndən sonra əvvəlcə mərkəz hökumət üçün bir mötəbər yer Şahbulağı intixab edirlər və məhəlli-mərkəz Bayat mülkünü müqərrər edirlər ki, Pənah xan orada əyləşib, xalq yavaş-yavaş orada sükunət etsinlər.

## XƏMSƏ MƏLİKLƏRİ

Hənuz Pənah xan rəyasəti başlanmamış lazım biliriz ki, zikr etdiyimiz məhdud Qarabağ dairəsində mövcud və erməni əhlinə şamil iddiayi-məniyyət edən şəxslər kimlər olduğunu zikr edək. Erməni tayfasına müqabil beş nəfər məlikzadələr olubdur ki, həmə vaxt səlatini-İranə ya dövləti-Osmani təsərrüfündə olan zaman Osmanlı sultanlarına təbəiyyət edib. Hər biri bir erməni səkənəsi olan dairədə məhdud halətdə ermənilərə nəzarət ediblər. O cümlədən: 1) Dizaq Cavanşirdə Məlik Aslan əcdadı İslam məzhəbi qəbul etmiş; 2) Vərəndədə Məlik Cəmşid övladı ki, Pənah xan zamanı Məlik Şahnəzərdir; 3) Çiləbörd-Xaçın mahalında Məlik Məcnun, Məlik Mirzə xan və sairlər; 4) Tərtərbasar mahalında Məlik Dani və sair; 5) Gülüstanda, yəni Mirov dağının şimalı baxar üzündə Məlik Usub və Məlik Hüseyn övladı ki, Məlik Bəylərov dəxi o cümlədəndir...

## MƏLİK ŞAHNƏZƏRİN PƏNAH XANI MEHMAN DƏVƏT ETMƏYİ

Şahbulağında neçə vaxt rahatlıq hasil olandan sonra Məlik Şahnəzər Pənah xanı Çanaqçı kəndinə qonaq təklif edir. Pənah xan güclü süvari ilə Çanaqçıya gedir. Neçə gün mehman olursa, Məlik Şahnəzər hüsni-ətvar və nəcabət kirdarı ilə mehmannəvazlıq şərtini ifa edir və öz sidqi-əqidətini və xülusi-niyyətini mehmana izhar edir. Xan

lazimeyi-rizayət və məmnuniyyət edəndən sonra Şahbulağına müraciət edən zaman Məlik Şahnəzər Şuşa kəndinədək ötürmək istər. Şuşa kəndinin həvalisinə yetdikdə xan vaxtı ilə qala yerini nəzərə götürər ki, vaqiə xudadadi bir hüsni-həsindir. Bu xüsusda məlik ilə nə söhbət keçirsə, məlik o yeri xana məsləhət bilir. Xan həm riza-mənlik söylər. Məxfi qalmasın ki, qala yeri Şuşa kənd əhlinin qaramal saxlamaq binə yeri olubdur.

## PƏNAH XANIN GƏNCƏBASARA GETMƏYİ

(təxminən 1167-ci sənə) [1]

Məlik Şahnəzər qonaqlığından gələndən sonra xan neçə min süvari cəm edib Qarabağın şimalına tərəf hərəkət edir. Axır nöqtə Qarabağ hesab olunan Molla Vələdli kəndində mənzil edib, Talış ya Gülüstan məliklərindən əhval cuya olar. Məlum olar ki, o məliklərdən fəqət qoca Məlik Yusif qalır. O da Ağca qala hasarında mütəhəssin olub, xaricdən əlaqəsini kəsibdir. Məlik Yusifə xanın gəlməyi xəbər verilən kimi hüzura gəlib, izhari-iradət və itaət edir.

Molla Vələdlidə oturan zaman xan hər gün Gəncəbasarın bir tərəfinə gedib, xalqın güzarişindən və Nadir şah vəfatından sonra siyasi halatından məlumat hasil edir. Məlum ola ki, İran məmləkəti bisahib qaldığına valiyi-Gürcüstan özünü İslam padşahlarının təbəiyyət zəncirindən azadə hesab edib, qədimül-əyyamdan Gürcüstana mail və Qafqaziyyənin sair guşəsindən qafil Gəncəbasar, Şəmsəddinli və Qazax camaatlarının himayət edib, onlar ilə əlaqədar olubdur, ta vəzi-dünya gələcəkdə nə surət göstərə. Bu məni mühəqqiq olandan sonra Pənah xan vəcheyi-hümmət edir ki, gahgahi Gəncəbasara həmlə gətirsin. Pənah xan Gəncə həvalisində cilvə etməyi Gəncə əhli vali hüzuruna xəbər verirlər.

1 1167-ci hicri ili 1753-cü miladi ilə bərabərdir

## ŞUŞA QALASININ BİNASI

Gəncə sahəsinin məlumatından sonra Pənah xan ətraf hakimlərin və sair xudsər və qarətgər tayfaların halından xəbərdar ikən və hənuz məmləkəti-İranda bir tacidar, müstəqil zühur etməsini mülahizə edibən ki, Qarabağ kimi böyük bir əyalətin hifz və himayəsini dər öhdə alıb əhali üçün hənuz bir siyasəti-möhkəm təyin etməmiş və əsasi-müstəhkəm mərkəz rəyasət naminə əmniyyətli bir yerdə qurmamış, qəflətən bir qəvi düşmən Qarabağın üstünə gələrsə, hər ayinə əhali pamal olub. Mən öz zəhmətimə qəbul etdim ki, fərizə hədər gedər. Yaxşıraq bu ki, bu gündən mərkəz rəyasət və sükunət xəyalında olanlar Şahbulağından Şuşa kəndinin binə yerinə köçməyinə əmr verilsin və belə də olar.

## ŞUŞA ŞƏHƏRİNƏ KÖÇMƏK

Köç başlanmaq ilə Pənah xan şəhərin yerinə baxıb öz şəxsi dəstgahından ötrü bir tərəfdən güşadə və vəsi bir qitə yerdə, daş və əhəng ilə bir möhkəm hasar çəkdirib əvvəl xaricdən əndərun, daxil yerdə neçə pişxidmət otaqları və yemək mənzili, sonra özündən ötrü mötədid otaqlar, qonaq otaqları, ondan sonra hərəmxana otaqları, hamam, məscid, sonra bir böyük mətbəxxana təmir etdirir. (Bu dairə sonra Əhməd xan oturan evdir.) Bu hasara yavuq göz qabağında bir müsəttəh divan otağı, sonra məhdud bir surətdə xaricdən baxan bir mənzərədə otaqlar yapdırar, xaricdən varid olanları görməkdən ötrü. (Bu otaqlar Mehdiqulu xan oturan xoş mənzərə evlərdir.) Ondan sonra məşriq tərəfdən qaya başında otaqlar yapdırır. (Məhəmmədhəsən ağa oturan evlərdir.) Sükunət fikri ilə gələnlər dəxi hər kəsi öz əhvalına münasib yerdə özü üçün məskən və məva bina edirlər. İbtidada hamı müsəlman səkənəsi olduğuna orta hesab olunan bir yerdə böyük məscid, mütəəddid hamamlar, bazar yeri və sair ləvazimatı-şəhriyyə hər tərəfdən inşa olunar.

Bu məmurənin adını Pənah xan özü üçün Pənahabad adlandırar. Buraxdığı gümüş pulun adını Pənahabad söylər ki, İran pulu yarım qran[1] olur.

1 İranda 1826-1932-ci illərdə kəsilmiş gümüş sikkə. Çəkisi 7 qram, nominal dəyəri 1000 dinara bərabər idi.

Əl-hasil Pənah xan Pənahabad şəhərinin məmuriyyəti və hər qism ləvazimat dürüst etmək yolunda, yəni kəndlilərdən təhsili-maliyat, nəzmi-əmri-ticarət, sənayeyi-müxtəlifə və sair ləvazimati-maaşiyyə və tərtibi-ehtiyacati-şəhriyyə yolunda tədbirlər edir və qanunlar qoyur. Filcümlə fəraqət hasil olan kimi Gəncə üzərinə həmlə etmək fikrində olur.

## PƏNAH XANIN GƏNCƏ ÜZƏRİNƏ HƏMLƏ ETMƏYİ

Pənah xan çox güclü süvari qoşunu ilə Gəncə tərəfə rəvanə olur. Bilamane şəhərə daxil olur. Qoşun əhli bilatəxir əl açarlar qətl və qarətə. Nalə və fəryadi-əhli şəhər asimanə bülənd olur. Şuriş və qövğayi-əzim vaqe olur. Neçə gün bu məzluma tul çəkər xəbər yoxdur. Neçə gündən sonra Pənah xan Qarabağa müraciət edir.

## ŞƏKİLİ HACI ÇƏLƏBİ HAMAN İLDƏ GƏNCƏ ÜZƏRİNƏ HÜCUM EDİR

Pənah xan Gəncə şəhərinə gedib təsxir etmək xəbərini və Pənah xan Qarabağa qayıdandan sonra Gürcüstan qoşununu Gəncə vilayətini mühafizə qəsdi ilə Gəncədə oturtmaq xəbərini təfsilən Hacı Çələbi Şəkidə eşidib haman il çoxsaylı süvari ilə Gəncə tərəfə rəvanə olur. Bu qəsd ilə ki, gürcü qoşununu oradan çıxarsın, yainki tamam qətlə yetirsin.

Hacı Çələbi Gəncəyə varid olan saat gürcü qoşunu qabağa çıxıb müqabilə edir. Şəki süvariləri qızmış şirlər kimi hər tərəfdən gürcülərə həmlə edib onları şikəst edirlər. Qaçmaq bacaran qaçır, yerdə qalan tamam məqtul olurlar. Gəncə əhli Hacı Çələbidən qorxub gürcülərə kömək edə bilmirlər. Əgər kömək edən olubdursa, onlar da qətlə yetişibdilər.

## İRANDAN PƏNAH XANA YETƏN XƏBƏRLƏR

İran məmləkətindən Pənah xana səhih xəbər çatar ki, iki nöqtədə dəviyi-səltənət edən şəxslər peyda olmuş. Biri Astarabad tərəfdən türkman içindən Məhəmmədhəsən xan Qacar ki, Nadir şah zamanında əhli-üsyan hesab olunduğuna türkman tayfalarına əmr olunmuşdu ki, onu ya qətlə yetirsinlər, ya məhbus hüzura yetirsinlər. Türkmaniyyə Heybəti-Nadiridən qorxub Məhəmmədhəsən xanı öz içlərindən xaric edirlər. Məhəmmədhəsən xan bir nəfər süvarə ilə biyabənlərdə olar. Biri də, Kərim xan Zənd ki, əkabiri-taifeyi-Zəndiyyədən və Şirazda xüruc edib dəviyi səltənət edər. Hər iki tərəf bir-birinin üzərinə təhacum və ləşkərkeşlikdə bulunurlar.

Əlbəttə, bu xəbər Pənah xanı böyük qeydə və fikrə salır ki, atəşi-fitnə İranda vaqe olub və bu odun səfnəsi onu da yandıracaqdır. Bununla belə Pənah xan nə vaqe olarsa, təqdirə həvalə edib Qarabağ mülkünün islahında ikiqat çalışmağı özünə vacib edir. Belə qərara gəlir ki, 1) əvvəla xaric xəbərləri ələ gətirmək; 2) Qarabağın hər guşəsində nə vaqe olduğun istixbar etmək; 3) zəxireyi-nan və hububat və sair ləvazimati-təhamiyə cəm etmək; 4) mühafizəti-Pənahabad. Bu maddələrdə hər iki tədbir yolu gedib şəhər mühafizəsindən ötrü iki tərəfdən yol və tərəddüd təyin edər. Biri Gəncə tərəfə və biri İrəvan tərəfə tamam dairə şəhərə hasar çəkdirmək və yasaq yerləri bina etdirməyi hər şeydən əfzəl qərar verir. Hər yerdən memarlar və əhli-kar cəm etdirib şəhər qapılarını hər iki tərəfdən qüvvətli hasara tutdurur. Memarlara hasar nəxşəsini göstərir ki, ali və möhkəm bürclərə, pusqu yerləri təmir etsinlər və müstənaməti-lazimələri tədarük olunsun. Xülasə, İran xəbəri çatandan sonra Pənah xan bir dəqiqə asudə olmaz. Gahi şəhərdə oturarkən daxili nizam və intizam naminə və gahi əyalətin bir tərəfinə səfər edib xalqın halatından istixbar edərdi. Qonşu əyalətlərin xəyalından əxbar cəm edərdi. Çünki az vaxtın zərfində Pənah xan üç yerdə mərkəz, hökumət qurub, axırda Pənahabad kimi bir hasari-zərfin ehdas etməyi, Gəncə şəhərinə təhağüm edib, müzəffər müavidət etməyi həmsayələr üçün əsbabi-hədər güftəgu olmuşdu. Müntəzir idilər ki, kənardan bu tərəqqiyə bir zaval çatılacaqdır. Amma Pənah xan öz tədbirində huşyar ikən fəqət İran vaqeyindən qorxulu xəbərlər alınırdı.

## ƏXBAR VƏ HƏVADİSATİ-MUTƏFƏRRİQƏ

1. Biz cəm etdiyimiz əxbar və əsnadi ki, 1169-cu sənədən sonra Pənah xan barəsində heç bir xəbər yoxdur. Güzinni Kərim-xani-Zənd ehzar etməyə görə Baharlı molla Dəlini ki, fazil və layiq vizarət bir şəxs imiş, sair mötəmidləri ilə götürüb, Şiraza gedibdir. 1172-ci hicridə orada vəfat edibdir. Amma cənazəsi Şirazdan Qarabağa həml olunubdur. Ağdam məqbərəsində dəfn olunubdur.

2. Haman 1172 (1758)-ci ildə Məhəmmədhəsən xan Qacar Kərim xan ilə müxasimə və müharibə halında olan zaman Məhəmmədhəsən xan Təbrizdən Qarabağ əyalətinə hücum edib, Araz kənarında olan kəndləri qarət edib, yenə Təbrizə tərəf müraciət edir.

Qarabağ tərəfdən bu təhakümə müqabilət edən olubdur - ya nə, xəbər yoxdur.

3. 1172 (1758)-ci sənədə Fətəli xan Əfşar iki, ya üç dəfə Qarabağın üstünə gəlib, qarət edib qayıdıbdır. Xacə Əlilər çayının[1] Pənahabada baxar üzündə mötədid təpələr mövcuddur ki, bu zamanda dəxi xalq dilində Fətəli xan təpəsi məşhurdur. Bu asardan məlum olur ki, Pənahabad tərəfdən, yeni Pənah xanın böyük oğlu və canişini İbrahimxəlil xan tərəfindən qarətgərlərə ciddi surətdə müqabilə göstərilibdir.

4. 1199 (1784)-cu ildə Qubalı Fətəli xan həm Qarabağ üzərinə qəravul qəsdi ilə gəlib və qarət edibdir. Avarlı Ümmə xan ki, o vaxt İbrahim xana qız verib, onunla həqqi-qərabəti var imiş, bu xəbəri eşidib İbrahim xan Fətəli xana müqabilət edə, ya etməyə İbrahim xana havadar çıxmaq niyyəti ilə 3000 nəfər ləzgi qoşunu Qarabağa göndərər ki, əhyanən Fətəli xan bir də Qarabağa gəlsə, onunla müqabilət etsinlər. Bu qəsd ilə ləzgi qoşunu 3 ay Qarabağda oturub Fətəli xan gəlmədiyinə qayıdıblar Dağıstana. Əl-hasil Pənah xan Şiraza nə vaxt izhar olduğundan xəbər yox ikən vəfatı xüsusunda 1173 (1759)-cü sənədə xəbər hasil olar. Amma Pənah xan gedəndən sonra İbrahim xan nə növ rəyasət etdiyindən və Qarabağda üz verən hadisələr necə ki, fövqdə zikr olundu, İbrahim xan barəsində tarixi bir xəbər nəzərə gəlmir. 1178-ci sənədə İbrahim xan "xan" adı ilə

---

1 Xocalı çayı

məşhur olub. Kərim xan Zənd 1193 (1779)-cü sənədə vəfat edənədək bu müddətdə onun hökumətinə nə İran tərəfindən və nə sair qoşunlardan hücum edən olmayıbdır. Bəlkə çox ehtimal bunadır ki, Pənah xan Şirazda vəfat etdiyinə, Qarabağ əyaləti sahibsiz qalmamaq adına onun hökuməti Kərim xan əmri ilə ola. Kərim xan hali-həyatda olan zamanı ancaq Qarabağ xanlığı qonşulardan artıq məşhur və müzakirədə olmağa görə Qarabağ necə ki, Qaradağ və Təbriz əyalətlərinin hesabında İran şahlarının nəzərində işvə edibdir. Hökuməti-İran oradan qəflət etməyi həmə vaxt müxabirədə olubdur.

## KƏRİM XAN ZƏNDİN VƏFATI

İbrahim xana xəbər yetər ki, İran padşahı hicri 1193 (1759)-cü ildə Şirazda vəfat etdi. Bədihidir ki, bu xəbərdən xan müstərib olub təşvişə düşər. Zira xanın iştiharına bane Kərim xan əsrində müstəqillən Pənah xan əvəzində Qarabağda xanlıq etməyindən. Əgər İran dövləti bu işi xəlaf hesab etsəydi, hər vəchlə inkar edib dəf edərdi. Odur ki, bu qəzadan bikülli xatiri əfsurda olmayıb Kərim xan vəfatı qonşu əyalətlərdə nə təsir göstərdiyindən əxbar cəm edib müntəziri-həvadisati ayəndə olar. Bu əsnada Gürcüstan valisindən rəsul varid olub nameyi-dustanə və töhfeyi-müşfiqanə yetirər. Məzmuni-nameyi padşahi İran vəfat etməyini havi və İbrahim xan rəyini məsəllət edər ki, bu hadisə vüquunda xan ayəndə üçün nə fikir edir, ta o fikirdə vali həm onunla ittifaq etsin. Çün İbrahim xan bilirdi ki, vali İran əlaqəsindən xoşdil deyilsə, artıq meyli Rusiya dövlətinədir. Ona görə vali kağızına cəvabən məktubi-dustanə yazıb Molla Pənah səhabəti ilə Tiflisə rəvanə qılır. Bu mükatibə nəticəsində xan ilə vali arasında müahideyi-ittihad və ittifaq əmələ gəlir, İran dövlətinin əleyhinə. Çünki Pənah xan Şirazda vəfat etmək məsələsindən İbrahim xan qəlbi xali əz küdurət deyildi.

## KƏRİM XAN VƏFATINDAN SONRA İRAN MƏMLƏKƏTİNİN HALI

Padşah vəfatından sonra çeşmi-çirağı-məmaliki-aləm hesab olunan İrani-viran və əhali bədbəxt 1193-cü ildən 1206-cı ilədək[1] zülm və zülmət dəryasında bisahib əl-ayaq qalar.

Şirazda Kərim xan təhəti-nəzarətində olan Məhəmmədhəsən xan Qacar övladı Ərşəd oğlu Ağa Məhəmməd xan qardaşları ilə vəfati-Kərim xanı şəhərdənkənar işkargahda eşidən kimi oradan çox sürətlə fərar edirlər. Astrabada çatan kimi öz havaxahlarını başlarına cəm edib, hər tərəfə səs sahrlar. Qoşun cəm etməyə başlayırlar. Cuş və xuruş hər yerdə üz verir. Ağa Məhəmməd xan atasının qanını almaq üçün Türkmaniyyə və Astrabadiyyə hücum edir. Mazandaran və ətraf xırda şəhərləri misli-vari, barfruş və qeyrəni 1206-cı ilədək hər yerdə olan Zəndiyyə hakimlərini məqfur və müstasil edir. Bir nəhv ilə ki, tamam Gilanat təhəni-hökuməti Ağa Məhəmməd xanda bulunar. Özünü İran şahı adlandırar. Tamam İran dairəsini bemövcibi-əyalət islah etmək fikrində olar. O cümlədən Azərbaycan və Süleyman xan Nizamüddövlə ixtiyarına 6000 nəfər süvari qoşun təyin edib Azərbaycan ümuratına məmur edər. Zimnən müqərrər olunar ki, Qarabağ hakimi İbrahim xanı dəf etsin.

## AĞA MƏHƏMMƏD ŞAHIN TƏXTİ-SƏLTƏNƏTİ-İRANƏ CÜLUS ETMƏYİ

1210 (1795)-cu ildə əyani-ləşkər və ricali-dövlət təkid və israrına görə Ağa Məhəmməd şah Qacar libasi-cülus geyib taci-səltənət götürüb rəsmi surətdə təxti-şahanə üzrə əyləşir. Dövlət xadimləri salama gəlib mübarək deyirlər... Müğəlləl və təntənəli şəraitdə neçə gün eyşü-nuş və suri-sürur imtidad bulur. 1210-cu ildə İbrahim Xəlil xan üçüncü ilə daxil olur ki, əməniyyət ilə tənəffüs edib özünü və Qarabağı ləgədnubi-ləşkəri-İran görmədikdə hesab edir. Ağa Məhəmməd şah Tehrana müavidət edən kimi yenə Azərbaycan səfəri və yenə Qarabağ sahəsinə hücum etmək fikrinə düşür.

---

1 Miladi tarixlə 1779-1791-ci illərdə

## İBRAHİM XANIN QONŞU XANLAR İLƏ MÜNASİBƏTİ

İbrahim xan Qarabağ əyalətində öz hökumətini ədalət və ehsan təriqi ilə aparmağa görə qonşu əyalətlər içində yaxşı ad ilə məşhur olduğuna qonşu xanlar hər kəs istər İbrahim xan ilə dustanə bir müravidə yolu açsın. İbrahim xan özü də lazım bilib qonşulardan böyük qüvvə sahibi olanlar ilə aşnalıq və get-gəl etməyə nail olur.

## AVAR XANI TƏRƏFİNDƏN DOSTLUQ MÜNASİBƏTİ

Məlum deyil nə vasitə ilə vaqe olursa, İbrahim xan avarlı Ümmay xan (Ümmə xan - N.A.) ailəsi ilə şərəfi-qərabət bular. Avar xan kəriməsi Bikə ağanı İbrahim xan üçün daimi nikah ilə əqd edib, böyük təntənə və cəlal ilə hicri 1193 (1779)-cü ildə Qarabağa gəlin gətirirlər.

## ŞƏKİ XANI TƏRƏFİNDƏN

İbrahim xan Şəki ailəsi ilə sabiqə və rabitə olduğu səbəbə öz kərimələrindən birini zövciyyəti-daimi ilə şəkili Səlim xana əqd etdirir.

## ŞİRVAN XANI İLƏ OLAN MÜNASİBƏT

Şirvanlı Mustafa xan həmə vaxt İbrahim xan zamanın onunla dustanə rabitədə olub bir-birinə töhfə və hədiyyə göndərir. Bəlkə dostluq və xeyirxahlıq səriştəsin əldə saxlayırdılar. Miladi 1796-cı ildə Rusiya sipəhsaları qraf Zubov bir tərəfdən və İran padşahı Ağa Məhəmməd şah bir tərəfdən Şirvanat qəsdi ilə gələn zaman Mustafa xan Fit qalasında davam gətirməyib öz xəzinə və dəfinəsini Fit dağında bir möhkəm yerdə gizlədib Qarabağ tərəfinə hərəkət edir ki, İbrahim xan rəiyyətində özünü və əyalını Pənahabadda mühafizət etsin. Amma imperator II Yekaterina vəfat etdiyinə dava moquf olub Zubov Rusiyaya qayıdar. Mustafa xan Qarabağdan öz vətəninə müraciət edər.

## İBRAHİM XAN ƏBDUSSƏMƏD BƏY CAVANŞİRİ AĞA MƏHƏMMƏD ŞAH HÜZURUNA ZAVAL GÖNDƏRMƏYİ

Ağa Məhəmməd şah Qacarın xüruc etməyini və məmaliki-İran, həmçinin Azərbaycan barəsində olan tədbirləri eşidib, İbrahim xan hərçi övzanı münqəlib görsə də tədbir yolunu itirməyib dərhal öz əmisi oğlu Əbdüssəməd bəyi, ləyaqətli və adlı-sanlı bir şəxs kimi ərizeyi-məzirət və şayəstə töhfə və tədarük ilə şah hüzuruna rəsul göndərir. Üzr istəyir ki, naxoş olmaq səbəbinə hüzuruna gələ bilməyib. Əmizadəsi Əbdüssəməd bəyi hüzura göndəribən təəhhüd edir ki, bir qeyri vaxt şərəfyabi hüzur olsun. O vaxt yetincə Əbdüssəməd bəy həmə vaxt mültəzimi-rikab olub, səadəti-qürub hüzuru ilə sərbülənd olsun.

## ƏBDÜSSƏMƏD BƏYİN MƏQTUL OLMAĞI

Şiraz və Kirman səfərində 3 il şah rikabində müdavimət edib müraciət edəndən sonra Əbdüssəməd bəy Azərbaycana gəlmək iradəsindən fərar etmək istər. Sərhəddatin bir mövqeyində süvari çapıb istər ki, fərar etsin. O anda o yerdə hazır olan neçə nəfər şah-sevənlilər onu tanıyıb istəyirlər rutsunlar. Əbdüssəməd bəy tünd at çapan halda şahsevən adamları tüfəng atarlar. Güllə Əbdüssəməd bəyə dəyib atdan yıxılır. Şahsevənlər yetişib başım kəsib, şah hüzuruna aparırlar. Bu qəziyyədən İbrahim xan qəlbinə nəhayətdə ağır küdurət və məlal oturar. Müntəzir olar ki, İran tərəfdən dəxi nə hadisə üz verəcəkdir.

Bu əsnada İran dövlətinə xəbər yetişər ki, İbrahim xan Gürcüstan valisi ilə İran əleyhinə həməhd olmuşlar (1208-1209-cu illər).[1]

1 Miladi 1793-1794-cü illərdə

## İRAN LƏŞKƏRİNİN AZƏRBAYCANA GETMƏYİ

Yuxarıda mərqum halat əsnasında beynəl-tərəfeyn arasında nə tülu edəcəyinə cəmi xəlayiq müntəzir ikən Ağa Məhəmməd şah sərdari-sünahə əmr edir ki, şahzadəgani-Qacar, Əkabir, əyani-ləşkər və cavan İran əhli hazır olsunlar ki, şah Azərbaycana gedəndə ittifaq etsinlər. Yola düşməzdən qabaq Məhəmmədhüseyn xana əmr sadir olar ki, bir dəstə qoşun ilə qabaqca Araz çayının üstünə gedib, onun üzərində olan Xudafərin körpüsündə ləşkərgah etsin. Ta İbrahim xan tərəfdən körpüyə bir sədəmə vurulmasın. Məhəmmədhüseyn xan nə qədər tezraq gələrsə də, körpünü İbrahim xan adamlarının əli ilə şikəst tapar. Dərhal əhvalatı şah hüzuruna xəbər verirlər. Ağa Məhəmməd şah dərhal Süleyman xan Nizamüddövləyə əmr edir ki, 10000 nəfər qoşun əhli götürüb getsin Araz çayına və şikəst olmuş körpünü təmir etdirsin. Oradan gedib Pənahabadı əhatə etsin. Körpü təmirindən sonra Süleyman xan Pənahabada tərəf hərəkət edən zaman yolda İbrahim xan qarovulları ilə rast gəlib, bəzisini məqtul və bəzisini dəstgir edib Pənahabad tərəfə rəvanə olar.

Şuşa kəndinin başında Pənahabada müqabil səngər bina etdirər, tain ki, Ağa Məhəmməd şah hesabsız qoşun ilə varid olar.

## PƏNAHABAD QALASININ MÜHASİRƏSİ

Ağa Məhəmməd şahın əmri ilə Pənahabad qalasına od yağdıran topların ağzı açılır. Qalada çox evlərə sədəmə dəyər, insan həlak olar, İbrahim xan dava tədarükündə olub, 10000 nəfər silahlı qoşun ilə şəhərdən çıxıb, İran qoşunu ilə müqabilət edir. Bütün gün hər iki tərəf bir-biri ilə vuruşub, çoxlu canlar tələf olur. Gün batana yaxın dava dayandırılıb İbrahim xan qoşunu ilə qalaya qayıdar. Neçə gün tərəfeyn arasında iş sükut ilə keçdiyinə mühasirə uzanar. Ağa Məhəmməd şahın fikri isə mühasirə xiyyəti ilə tul qalmaq faydasızdır. İbrahim xana bir məktub göndərib, bu beytin məzmunu ilə təhdid edər:

Zi məncəniqi-fələk səngi-fitnə mibarəd,
To əblehanə girifti miyani-şişə qərar.[1]

Ürfi

1 Fələkin məncəqindən fitnə daşı yağır,
Sən axmaqcasına şişə içərisinə sığınmısan.

Xan tərəfdən Molla Pənah bu beyti yazıb, cavab göndərər:

Gər nigəhdari-mən anəst ki, mən midanəm,
Şişera dər bəğəli-səng nigəh midarəd.[1]

Bu cavabdan şahın ovqatı ziyadə təlx olar... Şuşanı almaqdan əl çəkər.

## AĞA MƏHƏMMƏD ŞAHIN AZƏRBAYCANA VƏ PƏNAHABADA GƏLMƏYİ

1212 (1797)-ci il tarixi-hicridə zilqədə ayında Ağa Məhəmməd şah Tehrandan Ərdəbilə hərəkət edir. Buradan 100000 nəfər təcrübə olunmuş adamlardan götürüb, gəlir Araz kənarında ləşkərgah edir. Məlum olur ki, İran qoşunu gəlincə İbrahim Xəlil xanın əmri ilə Xudafərin körpüsünü şikəst ediblər. Ağa Məhəmməd şah körpü təmirinə hövsələ etməyib atlıları sudan keçirər. Qoşun əhlindən tələfat olur. Amma şah Pənahabad müqabilinə yetənədək İbrahim xan özünü və övladını mühafizə etmək qəsdilə Pənahabaddan çıxıb, üz qoyur Şəki və Ləzgistana getməyə. Tain ki, Balakən deyilən ləzgi əqvamlarının içində mənzil edir.

Ağa Məhəmməd xan İbrahim xanın fərar etməyini eşidib, maneəsiz şəhərə daxil olur. Məhəmmədhəsən ağa oturduğu imarətdə mənzil edir. Şəhərdə güman olunan əmval və əsqal, xəzinə və dəfinə hər kəsdə zənn olunarsa, əxz olunur. Şahin təvəscü-fündən doqquz gün keçir. Əz-qəza doqquzuncu gün hüzura yavuq qulluqçulardan iki nəfər ki, biri Səfərəli namdır, qüsuri-xidmət əvəzində bazxasti-şədid olmağa sizavar olurlar. Şah o gecənin sübhünə bazxəst vədə verir. Şahın bu vədəsi canilər üçün o qədər əsbabi-xof və vəhşət olur ki, guya əcəli-həqiqi gəlib bunların yaxasını tutmuş. Şiddəti-vahimədən bir dəqiqə aram olmağa bunların canında qüvvət qalmır. Canilər istəyirlər salim qalmağa. Bir tədbir etsinlər mümkün olmur. Məgərinki şahın öz vücuduna xətər yetirmək.

---

1 Əgər məni qoruyan mənim bildiyimdirsə,
O, şişəni daşın qoltuğunda mühafizə edər.

# PƏNAHABADDA AGA MƏHƏMMƏD ŞAH QACARIN MƏQTUL OLMAĞI

Şənbə gecəsi 21 zilhiccətül-həram ayı 1212 (1797)-ci il qəzayi-hətmi və mərgi-müqəddər saat yetib Abbas bəy Səfərəli adlı yoldaşı ilə əli xəncərli şah sərapərdəsinə girib öz yataq otağında şahı qətl edirlər. Cavahirat sandıqçasını və şəmşiri-mürəssə və zinəti-İran deyilən iki böyük almazı, biri Dəryayi-Nur və biri Taci-Mahi götürüb yataq otağından çıxıb gedirlər, Sadıq xan Şəqaqi mənzilinə və macarati nəql edirlər. Sadıq xan hövl edib qatillər ilə gecə ikən Pənahabaddan fərar edirlər. Gecə vaxtı, ya səhərə yaxın orduyi-ləşkərdən hər kəs şahın məqtul olunduğunu bilirsə, dərhal fərar edirdilər. İrana tərəf çox pərişan və pərakəndə surətdə qaçırlar.

Pənahabad şəhərinin əhalisi kimi gecə, kimi səhər bir-birinə dəyib qaçırlar Məhəmmədhəsən ağa evinə tərəf. Xəncər ilə parçalanmış şahın cəsədini və şahın evini, ev əşyalarını qarət olunmuş bulurlar.

İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy ki, Qarabağda qalmışdı, məlum deyil ki, o gecə şəhərdə, ya xarici şəhərdə olub... Çünki şah qətlə yetişəndən sonra ona mənsub qiymətli əşyalardan Məhəmməd bəy xidmətinə çox cəm olunmuş ta bir dərəcəyədək ki, oturmağa meyli olmayıb həvayi mali dünya ki, qəflətən əlinə düşüb, onu şura gətiribdir. İzdihami-kəsir süvarələr ilə mahalatda vaxt keçirirmiş. Guya Molla Pənah Vaqifin əyalini Molla sağ ikən, ya o şəhid olandan sonra kəsrəti-mal ilə tamah edirmiş. Hər halda hadiseyi-qətli-şahdan sonra şəhərə və xaricə fəqət Məhəmməd bəy hökmran olmuşdur.

Şahın başını Məhəmməd bəy Balakənə İbrahim xanın qulluğuna göndərib hadisəni və İran qoşununun qayıtmağını ona xəbər verir. Şahın cəsədinin hansı qəbiristanda dəfn olunduğundan xəbər yoxdur. İbrahim xan şahın başını görəndə məhzun olub başa qüsl verib, qutu içində bir mötəbər qəbiristanda dəfn etdirir. Bu əhvalatı Dağıstan xanları və əyanları eşidib xanın hüzuruna təsliyət və suguvarlıq ilə gəlirlər. Neçə gün Quranxanlıq və ehsan sərf olunur.

## ƏHVALATI-MOLLA PƏNAH VAQİF

İbrahim xan Dağıstana çatanda tamam əhli-əyalı ilə, oğlanlarını əyali ilə, damadlarını və sair lazım bildiyi yaxın adamlarını özü ilə götürüb, cəmiyyəti-əzim ilə köç edir. Molla Pənahdan başqa ki, məqami-vəzarətdə ən yavuq adamdır, bu camaatın içində olmaz. Səbəb məlum deyil. Necə ki, sonra danışıldı, qaçaqaç zamanı guya Molla Pənah Kolanı camaatının içinə düşübdür. Şah Pənahabadda olarkən məhbusən onu şah hüzuruna gətirməyi xidmət hesab edirlər. Şah mollanı röviyyət etməmiş əyani-dərvardan bir xana əmr edir ki, saxlatsın. Sonra izhar eyləyəcəkdir. Əlqissə elə ittifaq düşür ki, izhar olmamış şah məqtul olar. İranlılar hamısı qaçıb gedər. Molla Pənah azad qalıb hadiseyi-şah barəsində məşhur qəzəli şair yoldaşı Molla Vidadiyə yazar:

Ey Vidadi gərdişi-dövrani gəcrəftarə bax...

Ölkənin sahibsiz zamanı o halda işlərə müdaxilə edən, ancaq Məhəmməd bəy əhli-həsəd və şərafəti-əfsad üçün yaxşı macal tapar. Məhəmməd bəyin xatirini Molla Pənahdan dolandırarlar. Tarixi xəbər yoxdur. Amma aralıqda danışılıb ki, Məhəmməd bəy özünə yavuq müfsidlərə tapşırıb ki, bir nəhv ilə mollaya xəbər yetirsinlər. Onlar gecə vaxtı Məhəmməd bəyin adı ilə onu çağırıb Cıdır düzü adlı yerə aparıb başını kəsiblər.

## İBRAHİM XANIN QARABAĞA QAYITMAĞI

İran padşahı məqtul olduğuna İbrahim xan Dağıstandan qayıtmaq fikrinə, əvvəl qabaqca oğlu Mehdiqulu xanı bir neçə nəfər xeyrən-diş, məqul adamlar ilə göndərər Pənahabada ki, xalqa dilculuq və izhari-məhəbbət etsin. Maaşlarına qeydkeş olsun. Mehdiqulu xan qalaya varid olandan sonra atası verdiyi dəsturüləmələ sərəncam edir. Şəhər əhlinə dilculuq edib, müvazib olur. Neçə gündən sonra İbrahim xan bəzi sifarişat ilə Məhəmmədhəsən ağanı dəxi Qarabağa göndərər. O da gələndən sonra Mehdiqulu ağa ilə bir yerdə şəhər

və çöl işlərinə sərkeş və məşğul olarlar. Tain ki, İbrahim xan şah vəfatından iki ay sonra Qarabağa müraciət edər. İcrayi-siyasət və idareyi-əyalətə məşğul olar. Molla Pənahdan bir əsər bulmaz. Mehdiqulu ağa gələnədək sabiq molla məqtul olmuş. Vazehdir bu cinayətdə Məhəmməd bəy iştirak etmiş, özü də Mustafa xan fitvası ilə Şəkidə məqtul və molla gedən yerə getmiş.

## FƏTƏLİ ŞAHIN CÜLUS ETMƏYİ

1213-cü ildə Fətəli şah təxti-səltənəti-İranə cülus edən kimi İbrahim xan adına mənşu yazıb, xahiş edir ki, Ağa Məhəmməd şah nəşini Hüseynqulu xan İzzəddinli səhabəti ilə İrana göndərsin. İbrahim xan dəxi şayəstə vəch ilə cənazə hazır etdirib Hüseynqulu xana lazımi ehtiram və adamlarına nəvaziş edib böyük ehtiram ilə rəbiül-əvvəl ayının axırlarında 1213 (1798)-cü ildə yola salar, 1214 (1799)-cü ildə Fətəli şahın izhar etməyinə görə İbrahim xan öz oğlu Əbülfət xanı İrana göndərər. O vaxt şah xarici-Tehranda olduğuna Miyanə və Gərmrud adlı yerdə şah hüzuruna yetişər. Və mövridi-iltaf və şifaqi-şahanə olar.

1215 (1800)-ci ildə Həsən xan Qaragözlü Tehrandan Qarabağa İbrahim xanın yanına gələr. Danışılmış məsləhətə görə xanın səviyyəsi Ağabəyim ağanı şah üçün ərus aparar. Tehrana varid olan kimi böyük bir təntənə şadmanlıq ilə Ağabəyim ağanı hərəmxanəyə aparıb şah hərəmlərinə sərhərəm qərar verərlər. Bir mərtəbə ki, səlatini-bozorg hərəmləri şah hərəmxanəsinə dustanə kağız yazanda xüsusilə Ağabəyim ağanın adına yazarlarmış. Məsələn, ingilis kralının hərəmi və Rusiya imperatorunun hərəmi və s.

## RUSİYA QOŞUNUNUN GÜRCÜSTANA KÖMƏYİ

1797-ci il tarixi miladidə Gürcüstan payi-mali-ləşkəri-İran olduğunu və mütləqi-bisahib qaldığını bilibən bu dəfə zahirən Gürcüstan əhlinin əcz və labəsinə tərəhhüm edib onlara müavinət qəsdilə batinən illər boyu arzusunda olduğu Qafqaza malik olmağa yaxşı macal görüb Rusiya dövləti Gürcüstana böyük qoşun ordusu, lazımi

tədarükat və silah ilə göndərər. Qoşunun sərdarlığı sabiqən Rusiyada tərbiyə almış, gürcünəsəb general knyaz Sisianov məmur olar. Hər bir işdə, xüsusilə Qafqaz barəsində cəmi mətalib, xüsusilə Qafqaz barəsində cəmi mətalib, xüsusilə onun rəy və ixtiyarına tapşırılar. Rusiya qoşunu Gürcüstana gəlməyi təqribən 1797-ci səneyi-miladidə vaqe olur.[1]

## GÜRCÜSTAN RUSİYA HÖKUMƏTİNİN İXTİYARINA MÜNTƏQİL OLMAĞI

Gürcüstanda Rusiya qoşunu bir-bir lazım məhəldə cabəca olub və ibtidai-siyasi qanunlar qoyulandan sonra general Sisianov xəriteyi-şəmalini-Qafqaza nəzər edib 3 xətdə fəaliyyəti lazım bilir: İrəvan, Gəncə, Bakı. İbtida Gəncə qitəsində iş görmək məsləhət olar. Çünki Gəncə dairəsindən sonra Qarabağ xanlığı olduğuna hər yerdə müharibə üçün müsəttəh meydanlar və asan səhra yolları mövcuddur. Bu şərait sühuləti-əməl üçün lazım bir mətləbdir.

## SİSİANOV GƏNCƏNİ TƏSXİR ETMƏYİ VƏ CAVAD XANIN MƏQTUL OLMAĞI

General Sisianov 1218 (1803)-ci ildə tarixdə çox böyük rus qoşunu, top və topxana ilə Tiflisdən Gəncəyə hərəkət edir. Varid olan kimi müharibəyə hazır olmaq tədarükünə məşğul olar. Cavad xan ki, qabaqcadan Sisianovun fikrini bilib şah hüzuruna xəbər vermişdi. Gəncədə və xaricdən mümkün olan qədər davaya bacarıqlı qoşun hazır edilmişdi ta düşmənə müqabilə etsin. Rus qoşunu Gəncə qoşunu ilə müqabil gələr. Sisianov və Cavad xan qoşununun qabağında hər kəs öz ləşkərinə əmr verib üzbəüz şiddətlə vuruşmağa məşğul ikən Nəsib bəy Şəmsəddinli öz camaatı ilə və Gəncə erməni qoşunu Cavad xan tərəfindən qaçıb Rusiya qoşununa mülhəq olarlar. Cavad xan əhvalı belə görəndə naçar qalıb qalan qoşun ilə Gəncə qalasına girib qaladarlığa məşğul olarlar. Rusiya qoşunu hər tərəfdən tökülüb hasara qələbə edib Cavad xanı və oğlunu öldürüb və sair müsəlman qoşu-nunu dəxi qırarlar. Qalada ağır-yüngül nə varsa qarət edərlər.

---

1 Sisianov Gürcüstana 1803-cü ildə gəlmişdir.

## SİSİANOV İBRAHİMXƏLİL XANI VƏ İRƏVAN XANINI RUSİYA TƏBƏƏTİNƏ DƏVƏT ETMƏYİ

Gəncə davası Sisianovu bilmərrə xatircəm və ümidvar edər ki, Qafqazda olan hamı müsəlman əyalətləri asan vəch ilə ələ gələcəkdir. Hər xanlıqda aciz və namus satan var ki, düşmən qabağında millət naminə atıb, əl qılınca aparmayıb düşmənə nökər olmağa hazırdırlar. Hər xanlıqda erməni tayfası vardır ki, millət təəssübündə paydar və millətə xidmət etməkdə cannikardırlar. Pəs xanlar doğru və hünərmənd qoşunu haradan tapıb Rusiya ləşkərinə müqabil gələcəklər.

## QARABAĞ VƏ İRƏVAN XANLARINA MÜRACİƏT

Gəncə əməlindən asudə olan kimi Sisianov bir qasid İbrahim xanın və birini İrəvan xanının yanına göndərib, onlara təklif edir ki, davasız Rusiya dövlətinə itaət edib, hövzeyi-Rusiyaya daxil olsunlar.

Xanlar Gəncə əhvalatını eşidib Sisianovun dəvətindən təşviş edib İrəvan xanı əhvalı İran vəliəhdinə xəbər verib, müntəziri-əmr olar. Amma İbrahim xan İrana nisbət həmişə xəyalı süst olduğuna görə İran dövlətinə xəbər verməmiş günagün fikirlər səhrasında heyrətdə qalar.

Tain ki, 1219, ya 1220-ci ilədək ki, gəlib Kürək çayda Sisianov ilə mülağat edər. Xan ilə Sisianov arasında çox danışıq olub tərəflər üçün səlahiyyət yolu bulunandan sonra İbrahim xan Sisianovla görüşməyi mümkün bilibdir.

## RUSİYA İLƏ İBRAHİM XAN ARASINDA ƏHDNAMƏ

General Sisianovun Rusiya imperatorundan təvəkkülən Qarabağ və Şuşa xanı ilə bu əhdnaməni öz aralarında bağladılar: Fəqərati-zeyl xüsusda 14 səfər 1220-ci il (14 may 1805) Gəncə lağırında Kürək çayda.

Əhdnamə mündəricatı on bir maddədir:

1. İbrahim xan özgə dövlətlərdən əlaqəsini qət edib, tamam dünya nəzərində yalqız Rusiya dövlətinə təbəiyyət edər ki, bəndə;

2. Rusiya təəhhüd edir ki, xanın mülkünü bilazərər mühafizat etsin.

3. Xanın xanlığı daimidir. Ozündən sonra böyük oğlu və ondan sonra onun fərzəndi-ərşədi bağі qalacaqdır. Bu xüsusda imperator təsdiq etmiş. Hər dəfə qramota (fərmani-imza və möhri-səltənət ilə) verilsin və xan öz sədaqətinə yəmin etsin.

4. Qonşu hökumətlər ilə xan mülaqat etməyi və ya məktublarına cavab vermək sərdar iznilə olsun.

5. Rusiya təəhhüd edir ki, tamam Qarabağ camaatını mühafizə etsin. Xanın xanlığı daimi olmağın hifz etsin. Xalqı idarə etmək və divan mürafiəsi xanın özünə məxsusdur. Xanı və övladını və xəlayiqi mühafizə qəsdi ilə qalaya 500 nəfər rus qoşunu qoyulsun. Topxana ilə və lazım olsa artıq da qoysun.

6. Qoşundan ötrü ucuz qiymətə xan buğda aldırsın. Qoşuna mənzil versin. Gəncə tərəfdən qalaya yol açdırsın. Cavad tərəfə yol lazım olsa, işləməyə münasib ücrət ilə fəhlə verdirsin.

7. Rusiya imperatorunun xana mərhəməti olmaq nişanəsi dövlət bayrağı verilir. Əlaməti-səltənət ilə görüb ki, həmişə xan özü hərəkət edən zaman götürüləcəkdir.

8. İldə 8000 əşrəfi Rusiya dövlətinə xan xərac verməlidir. Hər altı ayda 4000 əşrəfi.

9. Bu əhdnaməyə xan tərəfindən doğru əməl olmağa zəmanət mənasında xanın böyük oğlu Məhəmmədhəsən ağanın ikinci oğlu Şükür ağa zaval verilir ki, həmişə Tiflisdə iqamət etsin. Gündə 10 manat Rusiya xəzinəsindən ona xərc verilsin.

10. Bu əhdnamə daima gərək öz halında baqi qalsın.

11. 6 ay müddətində və bəlkə tez əlahəzrət imperator imzasına yetib, dövlət möhrü ilə möhürlənib, bu əhdnamə təsdiq surətdə İbrahim xana verilsin. Sisianov və İbrahim xan dəst-xət yazıb, möhürlərini səbt etdilər.

## İBRAHİM XANIN KÜRƏK ÇAYINDAN QALAYA GƏLMƏYİ

Əhdnamə tərtib tapandan sonra İbrahim xan Pənahabada müraciət edir. Orada fəraqəti-xatir ilə Rusiya ilə münəqi olan əlaqənin nəticəsini fikir etdikcə məlum olar ki, bu hadisədə xeyir üzü yoxdur. Özünü bir əmri-xatirin toruna salıbdır ki, bədbəxtanə nəticələri göz qabağında cilvə etməkdədir. Amma nə fayda. Bu tezliklə izhari-nədamət

etmək və müxalifət sözü danışmağa yol yoxdur. Əgər bir tərəfdən istimdad etmək, kimə müraciət etmək, İran dövlətinin yanında əbədi etibarsızlıq vaqe oldu. Nə etmək, nə çarə? Xülasə bu kimi xəyalə pişdə olduqca təşviş və iztirab xatiri artar. Haləti-fəraqət və istirahəti pozar. Müntəzir olar ki, bu hadisə nə tövlid edəcəkdir.

## AZƏRBAYCAN QOŞUNUNUN[1] QARABAĞA - TƏRƏF HƏRƏKƏT ETMƏYİ

1220-ci ilin səfər ayında (1805-ci il may) İbrahim xan Sisianov ilə əhdnamə tərqin etmək tarixi ilə mütabiqdir, İran dövlətinin vəliəhdi Abbas Mirzə Fətəli şah əmri ilə Təbrizdən Qarabağa hərəkət etdi.

Qabaqca İsmayıl xan Damğanana qüvvətli ləşkər ilə yola salar ki, gedib Araz çayının üstündəki Xudafərin körpüsündə ləşkərgah etsin. Ta İbrahim xan tərəfindən körpüyə sədəmə yetirilməsin. Müntəzir olsun vəliəhdin gəlməyini.

İbrahim xan bu mətləbdən xəbərsiz qalmayıb öz nəvəsi Cəfərqulu ağanı, Feyzi bəy Cavanşirin oğlu ilə Gəncəyə Sisianovun yanına göndərib istimdad edər. O da dərhal bir qədər soldat Cəfərqulu ağa əsabəti ilə Pənahabada göndərər. Ruslar varid olan kimi İbrahim xan Qarabağ qoşunu ilə öz oğlu Məhəmmədhəsən ağanı Araz çayındakı körpünü mühafizət etməyə göndərər. Təqribən hər iki tərəfin qoşunu bir vaxtda körpüyə yetişib bir-biri ilə dava başlarlar. Bu vuruşma axırında İran tərəfə bir qədər süstlük üz verməyə yaxın Abbas Mirzə zahir olar. İran qoşunu ürəklənib dəliranə çalışarlar. Ta ruslar və Qarabağ qoşunu sınıb Qarabağ tərəfə əzimət edərlər. Elə bir vəhşət və vahimə ilə ki, o günü şam olduqca ruslar heç bir yerdə dayana bilməyib İran qoşununun qabağında qoyun sürüsü kimi mütəfərriq surətdə qalarlar.

Gecə Abbas Mirzə Nəcəfqulu xan Gorusi Ağoğlanda ləşkər tədarükünü mühafizə qəsdi ilə ehtiyat qoşunla orada qoyub, tamam qoşunu ilə Çanaqçı yolu ilə gedər Pənahabada tərəf. Sübh açılanda İran qoşununun ləşkərgahı Pənahabada müqabil durar...

1 "Azərbaycan" dedikdə burada Cənubi Azərbaycan nəzərdə tutulmuşdur.

**BAHARLI**

ƏHVALATİ-QARABAĞ

## BAHARLI

Baharlının həyatı və fəaliyyəti yaxşı öyrənilməmişdir. "Əhvalati-Qarabağ" əsərinin müəllifi Baharlı "Qarabağnamə"lərdə məlum olan və İbrahim xanın yaxın xidmətçilərindən olan Mirzə Vəli Baharlının nəvəsidir. Məlumdur ki, Ağa Məhəmməd şah Qacar Şuşaya hücum etməzdən əvvəl İbrahim xanla "dostluq" əlaqəsi yaratmaq məqsədilə ondan girov istəmişdi. İbrahim xan əmisi oğlu Əbdüssəməd bəyi və Mirzə Vəli Baharlını İrana şah sarayına göndərmişdi. Qacar zülmünə dözməyən Əbdüssəməd bəy saraydan qaçarkən yolda güllə ilə vurulmuş, Mirzə Vəli isə top ağzına bağlanıb facianə surətdə öldürülmüşdür. "Əhvalati-Qarabağ"da oxuyuruq: "...Bir də bu cürə zülmlərə bizim familiyamız - binəva Mirzə Vəli giriftar olub. Sinninin çox vaxtında bigünah və bitəqsir... Elə ki sabah olub, biçarə Mirzə Vəli babamı top ağzına qoyublar..." "Əhvalati-Qarabağ" əsərinin əvvəlində onun yazılma səbəbi və mündəricəsi qeyd olunur. Burada göstərilir ki, əsər 12 fəsildən ibarət olacaqdır. Lakin yeganə əlyazması Matenadaranda olan "Əhvalati-Qarabağ"ın üç fəsli yazılmışdır. Əsərdə Qarabağ tarixindən daha çox onun memarlıq abidələri, tarixi şəxsiyyətləri, adət-ənənələri, etnoqrafik xüsusiyyətlərindən nümunələr araşdırılır. "Əhvalati-Qarabağ" 1888-ci ildə yazılmışdır.

Xatırladaq ki, Baharhının əmisi Məhəmmədhəsən Vəliyev (Baharlı) Azərbaycan tarixi və coğrafiyası ilə məşğul olmuşdur. 1921-ci ildə rus dilində çıxmış "Azərbaycan" (tarixi-coğrafi oçerk) adlı samballı əsər Azərbaycanı öyrənmək sahəsində 20-ci illərdə atılmış ilk addımlardan biridir. "Əhvalati-Qarabağ" əsərində onun haqqında da məlumat verilir.

# ƏHVALATİ-QARABAĞ

Şükr böyük və bimisl olan Allah-təala üçündür. Belə Allaha ki, cəmi aləmləri xəlq edib və nemət verəndi. Allah-təalanın hədsiz olan salamı və yenə salamı cəmi peyğəmbərlər üzərinə və pak olan övladları üzərinə olsun. Kömək istərəm uca və bimisl olan Allah-təalanın dərgahi-cəlalından ki, cəmi məxluqata tərbiyyət verəndir və özümə şəfi götürürəm o kimsələri ki, Allah-təalanın dərgahi əzəmətinin bəyənilmiş olan bəndəsidirlər və məxluqatın seçilmişləridirlər. Belə ki, ibarət olsun on dörd nəfər vücudi-mübarəklərdən, Allah-təalanın salamı və yenə salamı bu pak olan kimsələr üzərinə olsun.

Bu aciz və günahkar olan bəndəyə bir fikir və bir huş əta buyursun, bəlkə bir neçə kəlmə bu vilayətin keçən əhvalatından yazıb bundan sonra yada gətirmək üçün saxlayaq. Amin ya müin.

Belə ki, bu kitabça yazılır bu tarixdə və bu padşahi-adilin əsrində. Tarixi-islamiyyə 1306 və tarixi məsihiyyə 1888. Və biz rəiyyət camaatının padşahi-aləm-pənahı, Şahənşahı adil imperatoru - əzəm və əkrəm Aleksandr Aleksandroviç Allah-təala bizlərin, bu rəiyyət bəsləyən padşahını özü hifzi-himayətində saxlasın və bizlərin ixlas və iradətinin o, büzürgüvarə kamil edib və padşahi-əzəm və əkrəmin bizlərə günbəgün mehriban eyləsin. Amin.

Belə ki, bu əsr haman əsrdir ki, keçən zəmanələrdə var imiş, Nüşirəvani-Adil əsrində və Şah Abbasi-cənnətməkan vaxtında, ondakı xalq rahatlıq ilə ömürlərin keçirib acizlər zalımların zülm və cəfasından ictinab etməyib xatircəmlik ilə güzəran edərmişlər. Belə ki, məşhurdur ki, o vaxtlarda qarı övrətlər qənbəri başlarına alıb gəzərmişlər və belə deyərmişlər ki, "Nuşirəvani-Adil əsridir". Belə işlərə səbəb padşahın ədalət edib, yenə şükr olsun. Şükr olsun Allah-təalanın dərgahi-cəlalına ki, bizləri xoşbəxt yaradıb ikinci Nuşirəvani-Adil əsrində olub məzalimlərin zülmündən xatircəm olub bu büzür-gvarın əmn və amanında güzəran edib dua edən varıq.

Xudavəndi-aləm bizim padşahımızın kölgəsin, biz rəiyyət camaatların üstündən əskik etməsin və düşmənlərin yox etsin və həmişə düşmənlərinə qalib etsin. Yenə Allah-təala bizim padşahımız imperatori-əzəmin canişini - əkrəmin və zövceyi-mükərrəməsin və

cəmiyi mənsubatın və sayir ümərayi-dövlətin tamamən və küllən öz hirsi-himayəsində saxlasın. Amin.

Bəli, vacib olan şükr və duaları zikr edəndən sonra məlum olsun ki, bu vaxta bəndənin din ayrı qardaşı baron Mahan Dadiyans basmaçı bəndədən təvəqqe etdi ki, bir para Qarabağın keçən əhvalatlarından və bu vaxtkı əhvalatlardan və sair işlərdən ki, fəsillərdə məlum olacaqdır, yazıb bir cild kitabça cəm edim. Əyər ki, bəndədə o qədər qabiliyyət yoxdur ki bu əmrdə bir elə əhval cəm edə biləm, bəlkə baxıb oxuyanlar 5-3 kəlməsin xoşlayalar. Amma o tövr sözlər ki, yazmağa məlum edibdir və uşaqlar üçündür. Olsun ki, Allah-təalanın köməkliyi ilə bir neçə fəsil eşitdiyimiz və gördüyümüz əhvallardan yaza bilək və təvəqqe edənin sözün yerə salmayıb razı edə biləm. Qərəz, bu əmri qəbul edib yazmaqda özüm üçün məşğuliyyət edib və xahiş edəni razı etmək üçün bir neçə fəsil Qarabağ vilayətinin keçən əhvallarından və bu vaxtkı əhvallardan ki, görüb və mötəbər adamlardan eşitmişəm, yazıb məlum edirəm ki, bundan sonra gələnlər bilsin ki, Qarabağın keçən işləri nə tövr keçib və adamları nə tövr imiş və indiki adamlar nə qədər tərəqqi ediblər. Bu az müddətdə bu surətdə lazım gəlir mətləbi əvvəl bu şəhərin (Şuşanın) bina olmağından başlayaq. Əgər ki, keçənlər "Tarixi-Qarabağ"da yazıblar, eybi yoxdur. Bən də yenə beş kəlmə yazaram. Ta söz əsil mətləbdən başlansın, ta oxuyan dürüst başa düşsün və bundan əlavə belə xahiş ediblər ki, hər bir mətləbi yerbəyer yazaq və sözü elə kəlmə ilə yazaq ki, tərziminə asan vəchlə gəlsin. Həmin öz danışığımız ilə ta bir para ibarət lazım deyil. Və bir də o ləfz ciğatayi ki, bizim türki yazımızda yazırlar, o da lazım deyil. Gərək o kəlmə ilə yazılsın ki, ortalıqda danışılır. Belə ki, məlumdur ki, Şuşa qalası qədim deyil. Həmən 150 və ya 160 ildir ki, bina olub. Və əsil adı Pənahabaddır. Qala o cəhətə görə deyiblər ki, bir şəhərin ətrafı ya bürc və ya xəndək ola. O şəhərə qala deyərlər. Və yenə Qarabağ qədimdir. Belə ki, Kürün bu tərəfləri Qarabağdır, nəinki bu şəhərə Qarabağ ad qoyublar. Belə ki, bəndə 80 təliqə üzü ki, böyük Xəlifənin dəftərxanasında var və keçən padşahlardan verilib və təliqələrin tarixi 600 il, 500 il, 400 il, 300 il olur. Kopiyaların yazmışam. Çünki çox köhnə olmuşdur. O təliqələrdə Qarabağ və Şirvan və Gəncə və Bərdə yazılıbdır. Məlum olur ki, Qarabağ qədimdir və bu şəhərin adı deyil və təliqələrin məzmunundan belə məlum olur ki, Qarabağ var imiş. Amma

məlum deyil ki, şəhər imiş və yainki, mahalın adıdır. Və bir də ki, mahala Aran deyirlər. Aran Mil düzündə olan peyğəmbərin adıdır ki, asan var. Həmən o peyğəmbər dəfn olan yerdə şəhər imiş. Bərdə kimi, ta Aran o cəhətə görə deyilir. Yoxsa isti olan yerə qışlaq deyirlər və soyuq olan yerə yaylaq deyirlər. Və neçə şəhər adı o təliqələrdə var ki, bu yerlərdə var imiş və o təliqələri verənlər həmən padşahlardır ki, zikr olunur: Şah Səfi, Şah Hüseyn, Şah Təhmasib, Şah Abbas Cənnətməkan, Şah Abbas Sani, Nadir şah ta Pənah xan. Ondan ötrü veriblər keçən mehrasələr üçün. Qərəz, bu kitabça gərək bir neçə fəsil ilə yazılsın. Ona görə 12 fəsil yazılsın.

Əvvəlinci fəsil yazılır, Şuşa qalasının bina olunmağından. Köhnə kişilərin deməklərinə görə ki, bunlar da öz ata və babalarından eşidiblər.

İkinci fəsil yazılır o xanlardan ki, bu vilayətdə hökmranlıq ediblər və o adamlardan ki, bu xanların qulluğunda olublar.

Üçüncü fəsil yazılır neçə nəfər pəhləvanlardan ki, bu qalada əmələ gəliblər və o qoçaqlardan ki, Qarabağ mahallarından və bir para hünərli övrətlərdən ki, bu qalada və mahalda olublar.

Dördüncü fəsil yazılacaq o para lotulardan və o adamlardan ki, çox məzəli və avam imişlər.

Beşinci fəsil yazılır o adamlardan ki, yırtıcı olan heyvanlar ilə düşüblər və bir para cürətli işlər onlardan əmələ gəlibdir.

Altıncı fəsil yazılır bir para surətli və əcaib olan adamlardan ki, qalada və mahalda olublar.

Yeddinci fəsil yazılır o aclıqdan ki, yeddi il bundan əvvəl olub və yenə 62 il bundan əqdəm qalada naibüssəltənə gələn vaxtda qəhətlik olub.

Səkkizinci fəsil yazılır o xeyir-bərəkətdən ki, bundan əqdəm var imiş.

Doqquzuncu fəsil yazılır bir para adətlərdən ki, keçən vaxtda və bu zaman olub.

Onuncu fəsil yazılır o övrətlərdən ki, həkimlik edərmişlər və bir para elmlər özlərindən çıxarıblar.

On birinci fəsil yazılır o ocaqlardan ki, qalada və mahallarda zahir olubdur.

On ikinci fəsil yazılacaq o məsələlərdən və yəminlərdən, ağılardan, laylalardan, bayatılardan və bir para eşqbazlıq ki, oğlan ilə qız

arasında olar, o sözlərdən. Belə ki, əsil mətləbi budur. Təvəqqe edən bu sözləri xahiş edibdir. Ona görə hər birindən gərək bir neçə kəlmə yazılsın, bəlkə razı ola.

Bəli, başlayaq əvvəlinci fəsli yazmağa.

Belə ki, məlumdur ki, bu qalanı Pənah xan bina edib. Pənah xan Nadir şahın vaxtında imiş və həmişə Nadir şahın qulluğunda hər bir məmləkətə gedərmiş. Pənah xanın qulluğu bu imiş ki, hər bir əmr Nadir şahdan qəsb olmuş o əmri və əqsədi Pənah xan camaata və qoşuna məlum edərmiş. Uca səslə ki, camaat hazır olun. Və xəbərdar olun ki, padşahın qəsdi budur ki, filan şəhərin üstünə gedəcək. Və belə hökm edir ki, filan yerə köçəsiniz. Ona görə belə şöhrət olur ki, Pənah xanın əvvəli carçı imiş[1]. Qərəz, Nadir şah nə tövr olub və axın necə olub, bunlar ilə danışığımız yoxdur. Həmin Nadir şahdan sonra bir para şəhərlər başına qalıb, hər bir şəhərdə bir xan olub və hökmranlıq ediblər. Pənah xan da gəlib Xaçın tərəfdə və Şahbulağında özü üçün bir mənzil[2] bina edib və bir qədər camaat başına cəm edib və xanlıq fikrinə düşüb, bir müddət bu yerlərdə əyləşib və günbəgün mahallardan və kəndlərdən camaat köçürüb öz yanına cəm edib və Gəncə tərəfdən və Şirvandan və o taydan çox camaat yığıbdır və bir para kəndlər Şuşa kəndi kimi və sair yerlər kimi var imiş və Qarabağın camaatı artıq imiş, təmamən təsərrüf olub, bir obadan neçə ev köçürüb cəm edib. Qərəz, Pənah xan bir müddət bu yerlərdə əyləşib, sonra bir tərəf İran dövləti və bir tərəf Rusiya dövləti və sair xanlar ki, xüruc etmişdilər ehtiyat edib bu fikrə düşüb ki, bir qala bina etsin. Bir para yerlərə gedib ki, görsün möhkəm yer ha tərəfdə var, tapa bilməyibdir. O camaatlardan birisi ərz edib ki, xan sağ olsun, mən Şuşa kəndində bir nəfər qoca harsın görmüşəm ki, çox köhnə adamdır və onun ləqəbi Atqiblədir. Olsun ki, o harsın bu yerlərdə bir möhkəm olan yer bilər. Pənah xan bir neçə nəfər atlı göndərib, həmən harsını at qucağında götürdüb və ondan soruşubdur ki, bu yerlərdə bir möhkəm olan yer bilirsən? Harsın ərz edib ki, Şuşa kəndinin qabağında bir möhkəm yer var. Amma çox bərk meşədir və yırtıcı heyvanları artıqdır. Bizlər gedib o yerin aşağı tərəflərində bina edərik. Və çox zərər o heyvanlardan bizə olur. Oradan savay bir yer bilmi-

---

1 Müəllif səhv edir. Pənahəli bəy Nadir şah sarayında eşikağası vəzifəsində işləmişdir.

2 Pənah xan əvvəlcə Şahbulaq qalasını deyil, Bayat qalasını bina etmişdir.

rəm. Pənah xan bir qədri camaat ilə atlanıb, gəlib çox çətinlik ilə dolanıb, görüb ki, çox möhkəm olan yerdir. Və Allah-təalanın qüdrətidir, ta bu fikrə düşüb ki, gəlsin burada məskən edib əyləşsin. Bu əhvaldan Şuşa kəndinin camaatları xəbərdar olub bu fikrə düşüblər ki, bir iş eləsinlər. Bəlkə xan gəlib bu yerdə əyləşməyə. Qorxublar ki, Pənah xandan onlara artıq zərər dəyə. Heç birilə barışmayıblar, bir iş tutalar məgər bu iş ilə.

Belə ki, qədim adamlar öz ata-babalarından nəql edirlər ki, bu qalanın içində üç çay var imiş. Hansı ki, bu üç dərə ola: Cəfər dərəsi və Şahbaz dərəsi və Kəngərli dərəsi və bu adları bu dərələrə qala bina olandan sonra qoyublar. Qərəz, Şuşa kəndinin adamları ki, erməni tayfasıdırlar, özlərinin canının və malının qorxusundan gəlib bu axar suların başlarında olan bulaqların təmamən gözlərin gecə ikən tutub və möhkəm basdırıblar ki, susuz olmaq cəhətinə bəlkə Pənah xan bu yerdə oturmaya, bir qeyri yerə gedə. Bu fikri-bifayda ilə həmən suları basdırıb, qurudublar. Qərəz, Pənah xan gəlib burada məskən salıb və hökm edib ki, dam-daş təmir edələr. Gündoğan tərəf və qiblə tərəf daşlıq olmağa görə o qədəri bərk meşə və gəlmiş camaat Çuxur məhlə adlanan yerdə - erməni və müsəlman, hər kəs özü üçün bir dam təmir ediblər, kənd evləritək. Bir-birinə yavuq damlar tikiblər və hər kəs ki dam tikirmiş, o damın cəmi tirin və ağacın o damın yerindən söküb tikərmişlər ta camaat çox olan vaxtda Pənah xan bir məscid qarqudan təmir elədib həmən yuxarı məscidi-camenin yerində və yenə bir kilsə təmir elədib aşağa Bazarda ki, asarı məlumdur. Elə ki bir müddət keçib və camaat bir qədri artıb, erməni tayfası yavaş-yavaş qalanın yuxarı tərəfinə köçüblər. O vaxt həmən kilsə zaye olubdur. İndi qalaçası məlumdur. Əvvəl erməni və müsəlman cəmən Çuxur məhlə adlanan yerdə cəm imişlər. Və bir də qədim adamlar yenə öz ata və babalarından belə nəql edirlər ki, Pənah xan o vaxtda buraya cəm etdiyi müsəlman tayfası belə avam imişlər ki, Pənah xan əmr edərmiş ki, camaat gedib məsciddə namaz qılsınlar. O camaat getməz imişlər. Axırda hökm edərmiş yasavul ilə xalqı məscidə aparıb Allah əmrin və namaz təlim etsinlər. Xalq bu işi sair hökmlər kimi hesab edib qaçarmışlar. Belə nəql edirlər ki, həmən məscid ki, qarqudan təmir etmişdilər. O məscidin iki qapısı var imiş. Bu qapıdan yasavul xalqı məscidə doldururmuş, o biri qapıdan çıxıb qaçarmışlar və gəlib evlərində bikef oturarmışlar və onların övrətləri

xəbər alarmışlar ki, niyə bikefsən? O adamlar əhvalatı nəql edərmişlər ki, Pənah xan hökm edib gərək gündə üç dəfə gedib məscidə namaz qılasınız və oruc tutasız. Bu əmri-ilahini özlərinə biar hesab edib, bikef olarmışlar. Bu sözdən təəccüb gəlməsin eşidənlərə bəlkə məşhurdur ki, qədim vaxtı bir neçə kürd gəlib başmaqçıxanaya və o küp ki, başmaqçılar su töküb içinə gön salarlar və rəngi qırmızı olar. O kürdlər elə biliblər ki, o küpdəki bəhməzdi. Çıxardıb, pul veriblər ki, a kişi, bir az o bəhməzdən mənə ver, çörəyim ilə yeyim. Başmaqçı bir çanağa töküb, verib kürdə. Kürd bir neçə çörəyi doğrayıb o suyun içinə və tamam yeyibdir və qurtarandan sonra deyib:

- Demə ki, kürd idi, anlamadı, bəhməzin dadı yoxdu.

Və yenə o adamlar həmən adamlardan idi ki, çanağı götürüb qalayçıya verərdilər ki, bunu qalayla. Hərgah insan tərbiyət tapmaya, heyvandan bədtər olar.

Belə ki, Pənah xan bu növ tədbirlər ilə çox camaat cəm edib, kənd evlərində oxşar dam-daş təmir ediblər və bir-birinin damının üstündən bir-birinin yolu imiş və hər birisi bir dam təmir etmişdi ki, hər bir işi o damda keçərmiş. Belə ki, bir tərəfində atlarını bağlarmışlar və bir tərəfində yerdə çəkib gəlinləri yatızdırarmış. Qərəz, Pənah xan bu fikrə düşübdür bir qala bina etsin. Qalanın öz içindən ağac və daş qırdırıb, əhəng yandırdıb və mahallardan fəhlə gətirdib, bürcün binasın qoyub və Pənah xan çəkən bürcün əsli bu asarlardır ki, əlan məlumdur. Belə ki, bir tərəf şəhneşin adlanan Xan xanım ağanın evi idi. Mehrəli bəy bulağının üstə. Və bir tərəf rus kilsəsinin qabağında Əhməd xanın evinə yapışıqdır. Və bir tərəfi yel dəyirmanının yanıdır. Bu məlum bürc ki, dörd tərəfi var, İbrahim xan təmir edib. O1 Pənah xan çəkən bürc çox balaca imiş.

Qərəz, Pənah xan qalanı tamam edib və Pənahabad ad qoyub, sonra yenə bu fikrə düşüb ki, qaladan bir neçə ağac aşağı bir qalaça qoşundan ötrü təmir etsin. Belə ki, həmən Əsgəran adlanan qalaçaları ki, biri Qarqar çayının o tərəfində və birisi bu tərəfdə təmir olub, həmən qalaçaları təmir elədib və bir cəm qoşun həmişə o qalalarda durarmışlar.

Bir müddət Pənah xan hökmranlıqda əyləşib, elə ki işlərini möhkəm edib, böyük oğlu İbrahim xanı özünə canişin edib.

Elə ki Pənah xan mərhum olub, İbrahim xan xanlıq məsnədində əyləşib. Belə nəql edirlər ki, İbrahim xan çox səffak imiş və çox qəzəbli imiş. Belə ki, hər yerdə ilat köçürüb, öz başına cəm edib və

birə-beş artıq Pənah xandan hökmranlıq edib və təzədən qalanı böyüdüb, bu bürcü çəkdirib və üç yerdən qapı qoydurubdu. Qalanın baş tərəfində Xəlfə Əlili (Xəlifəli - N.A.) qapısı və biri ortalıqda adı Mərdan qapısı və biri aşağa tərəfdə Topxana qapısı ki, indi o qapının yerində dustaqxana tikiblər. Öz tədarükündə olub, topxana təmir edib və şəhərin bir tərəfində oğlu üçün və bir tərəfində sair övladı üçün imarətlər təmir edib və yenə xəzinə qayası adlanan yerdə iki qayanın arasında ki, çox möhkəm və heybətli yerdir, orada özü üçün yeddi və səkkiz otaqlar sığınaq üçün təmir edib ki, hərgah üstünə qoşun gələ, gedib o evlərdə əyləşə. Çünki o qayanın təhəri bu tövr düşüb: hərgah qalanın içindən top bağlıyalar, o imarətlərdən otuz arşın yuxarı gedər və hərgah üsrü tərəfdən top bağlıyalar, yenə mümkün deyil. Ona görə o imarətləri təmir edibdir və çox vaxt orada əyləşərmiş və belə deyirlər ki, İbrahim xanın xəzinəsi orada dəfn olubdur.

Elə ki İbrahim xan özünün bir para lazım olan işlərindən xatircəm olub, çox el hər tərəfdən köçürüb qalada cəm edibdir. Və hər il öz tayfası ilə şəhərin bir tərəfində ev tikib qahblar. O vaxtdan bu məhəllələr hər kəs öz adları ilə adlanırlar. Belə ki, qalanın müsəlman tayfası on yeddi məhəllədir. Doqquzu aşağa məhəllə adlanır və səkkizi yuxarı məhəllədir.

Qərəz, məscid və hamam və karvansara və bazar-dükan təmir edib və öz hökmranlığında əyləşib. Belə ki, qəzəbi tutana tənbeh və iltifatı olana mülk-əmlak və ənam verib, öz eyş-işrətində olub və sair əhvalatları ikinci fəsildə məlum olar.

Neçə kəlmə həmin bu qalanın bina olmağının və abad olmağının cüzi məlum etdik. Kifayət edər. Köhnə adamların deməklərinə görə əhvalat bu tövr olub. Və bir də belə xahiş ediblər ki, məhəllələrin adların yazaq və neçə hamam və karvansara ki, qalada var və kim təmir edib oları yazaq. Belə ki, əvvəlinci məhəllə yuxarı və məhəllədən Xanlıq aradır. Bu məhəllənin əsil adına Mir deyilirdi. O cəhətə görə xanlıq ara deyilir ki, İbrahim xanın imarətinin yanıdır.

İkinci məhəllə Saatlı məhəlləsidir.
Üçüncü məhəllə Köçərli məhəlləsidir.
Dördüncü məhəllə Mamayı məhəlləsidir.
Beşinci məhəllə Xoca Mərcanlı məhəlləsidir.
Altıncı məhəllə Dəmirçi məhəlləsidir.
Yeddinci məhəllə Hamam qabağıdır.
Səkkizinci məhəllə Təzə məhəllədir.

Və aşağa məhəllələrin adları bunlardır:

Birinci məhəllə Qurdlar
İkinci məhəllə Seyidli
Üçüncü məhəllə Culfalar
Dördüncü məhəllə Toyluq (Quyuluq)
Beşinci məhəllə Çuxur
Altıncı məhəllə Dördlər qurdu
Yeddinci məhəllə Hacı Yusifii
Səkkizinci məhəllə Dörd çinar
Doqquzuncu məhəllə Çöl-qala

Və bu məhəllənin bir adı da Cuhudlardır. O cəhətə görə bu adı sair məhəllələrin adamları bulara qoyublar ki, bu məhəllədə bir kişi var imiş. Öz qızın qurumsağlığın edərmiş. O kişinin adını Cuhud Rəhim qoyublar və məhəllə o gorbagorun adı ilə adlanıbdır.

Bir də xahiş edib ki, qalada neçə hamam və neçə karvansara tikilib oları yazaq və onları təmir edənlərin adlarını yenə yazaq. Ona görə gərək yazaq ya abad, ya xarab. Qərəz. Əvvəl bu qalada hamam təmir edən Əbdüssəmədbəy olub və haman hamam indi abaddır.

Və bundan sonra bir bab hamam Uğurlu bəy təmir edib, aşağı bazarda. Xarab olub, yeri məlum olub. Və bir bab aşağı meydanda Qazi Mirzəli təmir edib. Abaddır. Və bir hamam Əli bəy Fuladov təmir edib, xarab olub, yenə təzə təmir edib, abaddır. Bir bab hamam Rüstəm bəy təmir edibdir, xarab olub. Bir bab hamam Rəhim bəy təmir edib, 30 il abad oldu. İndi 10 ildir xarab olub. Bir bab hamam öz əhli-əyalı üçün şahzadə Bəhmən Mirzə təmir etmişdir. Özündən bir ay sonra xarab oldu.

İki bab hamam biri övrət üçün və birisi kişi üçün. Məşədi Qulu xanın qızı iki nəfər adam ilə şərakətli təmir edib, hər ikisi abaddırlar. İki bab Hacı Rza yenə Xanqızı ilə şərakətli təmir edib: biri mərdanə, biri zənənə, hər iki abaddır. Yenə iki bab hamam Ağakişi adlı bir kişi təmir edib: biri mərdanə, biri zənənə, hər ikisi abaddır. Yenə iki bab hamam Ağakişi adlı bir kişi təmir edib: biri mərdanə, biri zənənə, hər ikisi abaddır. Bir bab hamam Hacı Əbdürrəhim təmir edib. Abaddır. Bir bab hamam Xeyrənsə adlı bir övrət təmir edib və əl suyu ilə işləyib. Qədim hamamdır. Hələ abaddır. Bir bab hamam Hacı Saleh - bizim ata-babamız təmir etmişdir, xarab olub. Bir bab hamam Şahbaz adlı bir kişi təmir edib, xarab olub. Və haman dərə o kişi ilə

adlanır. Bir bab hamam qaladan xaricdə bir nəfər erməni təmir edib, erməni tayfası üçün. Abaddır. Qərəz, bu vaxtacan abad və xarab yoxdur, təmir olub.

Bir də xahiş edənin xahişinə görə gərək karvansaraları sayaq. Belə ki, qədim vaxtkı şəhərin aşağı tərəfi abad imiş. Əvvəl bir qitə karvansara aşağı bazarda Uğurlu bəy təmir edib. Elə ki yavaş-yavaş yuxarılar abad olub aşağı tərəf zaye olub o yerlərdə olan dükan və karvansara xarab olublar. Sonra bir karvansara Hacı Əmiraslan bəy təmir edib. Və bunun oğlu yox idi, iki nəfər qızları qalmışdır. Qızlarının biri mərhum Hacı Seyid Əhmədağada imiş. Və birisi Mirzə Qasımda idi. Yetişdi bunlara və bunlar bir müddətdən sonra satdılar Məşhədi Hüseyn Mirsəyaf oğluna. Buranı söküb təzə təmir edib. Yenə bir karvansara Hacı Hüseyn təmir edib. Bu karvansara əvvəl-dənabad olmadı. Həmişə boş qalar. Buna səbəb bu olub ki, o karvansara Xoca Mircanlı məhəlləsinin miyanından qarışıbdır, vəqf yerindən qəsb olub. Ona görə abad olmur. Bir qitə karvansara - Timçəli Hacı Məhərrəm təmir edib. Əvvəlinci karvansara budur və günbəgün abaddır. Bunun timcəsinin xərci vəqfdir ki, hər il on gün məhərrəm həmən timcədə təziyeyi imam Hüseyn saxlarlar. Onun mədaxilini imam ehsanı edərlər. Bir karvansara Hacı Böyük və Hacı İskəndərbəy təmir ediblər. İki qardaş, abaddır. Və bir karvansara Ağa Qəhrəman Mirsəyaf oğlu təmir edib, hələ tamam deyil. Bir karvansara Abbas bəy təmir edib, o da tamam deyil. Bir karvansara Cavad ağa təmir elədir, hələ tamam deyil. Yenə bir karvansara Gövhər ağa təmir elət-mişdi, məscidi camelərə vəqf etmişdir. İndi Həsən ağanın təsərrüfündədir. Belə ki, karvansaranı təmir edən vaxt o işə baş çəkib fəhlə, bənnasının muzdun verən Süleyman xan imiş. O cəhətə görə Süleyman xan oğlu Həsənağa iddia edib alıbdır. Əvvəl bir dəfə od düşüb yandı. Həsənağa peşman olub, yenə məscidlərin ixtiyarına verdi. Və sonra dübarə yenə geri alıb, indi xarabadır və zibil tökərlər. Belə ki, məsəldir: "Mərd mərddən kəsər, Murtuzaəli hər ikisindən".

İkinci fəsil yazılır o xanlardan ki, bu qalada hökmranlıq ediblər. Onların övladlarından bir neçəsinin əhvalatı.

Məlum olacaq belə ki, Pənah xan mərhum olandan sonra böyük oğlu İbrahim Xəlil xan canişin olub, əyləşib və qalanın möhkəm və abad olmağına əncam verib. Əvvəlinci fəsildə cüzi məlum oldu. Qərəz, bu zəhmətlər ilə bir bərk meşənin içində bu qalanı bina edəndən sonra bir müddət öz eyş-işrətində olub. Elə ki bir az müddətdə

bu günə şöhrət edib cəmi Qarabağ mülkünü təsərrüf edib İran padşahı Ağa Məhəmməd şah qoşun çəkib gəlib ki, İbrahim xanı öldürüb və qalaya təsərrüf edə. Belə ki top və topxana qoşun ilə gəlib Topxana adlanan yerdə ordu salıb, oturub və həman Topxana adlanan yerdə ordu salıb, oturub və həmin Topxanadan, Davtələb adlanan yerlərdən qalaya top atdırıb dağıtmağa məşğul olub, bir neçə gün bu növ ilə qalıb. Sonra İbrahim xan yəqin edib ki, Ağa Məhəmməd şah ilə bacarmayacaq. Bir gecə qaçıb Balakən adlanan yerə. Xalq xəbərdar olub, tamamən qala qapısından çölə çıxıblar. Elə ki Ağa Məhəmməd şah əhvalatdan xəbərdar olub öz qoşunu ilə Qalaya varid olur. Topxana və qoşun, qalada sakit olurlar.

Qərəz, o günün nə tövr iş Ağa Məhəmməd şahın nökəri Səfərəli namdan əmələ gəlibsə, Ağa Məhəmməd şah Səfərəli nama deyib ki, köpək oğlu sabah qarabağlıların başından bir minarə vurduracağanı və sənin başını o minarənin qübbəsi edəcəyəm. Səfərəli nam müvərrix nökər imiş. Və bilirmiş ki, şahın dediyi dedikdir. Səfərəli öz canının qorxusundan gecədən bir vaxt keçmiş durub Ağa Məhəmməd şahın başın kəsib və hər nə cavahir var imiş tamamən götürüb qaçıbdır [1].

O vaxt Ağa Məhəmməd şah Məhəmmədhəsən ağanın evində mənzil etmişdi. Elə ki bu əhval səhər olanda İran qoşununa məlum olur, qarabağlıların qorxusundan kimi atlı və kimi piyada dəstəbədəstə üz qoyurlar Qaladan çölə çıxıb qaçmağa. Bu əhvalatdan Qarabağ camaatı xəbərdar olub şadyanəlik edib cəm olurlar. Məhəmmədhəsən ağanın qapısına və muştuluqçu İbrahim xanın dalınca gedir...

Bu cəhətə görə Ağa Məhəmməd şahı bihörmət ediblər ki, Qala camaatına çox zərər vurubdur. Hər top atılanda neçə evlər dağılıb. Belə nəql edirlər ki, bir nəfər övrət uşağın qucağında tutub işləyirmiş. Topun gülləsi gəlib o övrəti uşağı ilə bir-birinə qatıbdır. Yenə bir dəfə İbrahim xanın vaxtında şah qoşun çəkib Qalanın üstünə gəlib. Yenə haman Topxana adlanan yerdə ordu salıb, bir neçə vaxt qalıb Qalanı qərəbətlik edib[2] tamamən kəndliləri çapavül elədib və çox zəhmət o vaxt xəlqullah olub. Qərəz, neçə ay ki, əlləşib gecə-gündüz

1 Müəllif xalq arasında yayılan folklorsayağı əfsanələri qələmə alır. Burada heç bir tarixi dəqiqlik yoxdur.

2 Mühasirəyə alıb mənasında işlədir. Söhbət Şuşa şəhərinin 1795-ci ilin yayında 33 günlük mühasirəsindən gedir.

şəhəri top ilə dağıtmaq istərmiş, mümkün olmurmuş. Bir gün bir kağız yazıb bu misra ilə göndərib İbrahim xana ki, bu misra budur:

Ze məncənəqi-fələk səngi-fitnə mibarəd,
To əbləhanə girifti miyani-şişə qərar.

Bu münasib olan fərdi yazıb göndəribdir. Bunun cavabında İbrahim xan Molla Pənaha buyurub ki, bir fərd bu sözə münasib yaz, cavab edim. Molla Pənah bu fərdi düzəldib göndəriblər şahın qulluğuna:

Gər nigəhdari-mən anəst ki, mən midanəm,
Şişəra dər bəğəli-səng nigəh midarəd.

Qərəz, bir şey bacarmayıb, gedib Gəncənin üstünə. Orada çox qoşun tələf olub, basılıb qayıdıb İrana.

Belə ki, yenə bir dəfə İbrahim xanın vaxtında Rusiya dövləti bu Qalanın üstə gəlib İbrahim xan Qaladan qaçan vaxtda "Xan ölən səngər" adlanan yerdə İbrahim xanı öldürüblər[1]. O səngər Qaladan iki verst aşağıda Qara qaya bulağının yanındadır. Elə ki İbrahim xan mərhum olub, Mehdiqulu xanı xanlıqda əyləşdiriblər. İbrahim xanın qaydası ilə hökmranlıqda və cəmi ixtiyar əlində əyləşibdir. Bir müddət bu növ ilə qalıb ki, hər kəsə mülk verib tənbeh edərmiş, sonra Rusiya dövləti öz ixtiyarına alıb. Allah rəhmət etsin Mehdiqulu xana. Qarabağ bəylərinin çörək sahibi olmaqlarına o səbəb olub. Çox səxavətli və nökərə mehriban və xalqa güzəran sahibi olmaq, istəyən xan imiş. Rəhmdil və füqərayə rəhm edərmiş və bir para cəbrlər rəiyyətin haqqında rəva görməz imiş.

Belə nəql edirlər ki, bir gün yaz vaxtı ilat yaylağa köçəndə öz mənzilində pəncərənin içində əyləşmiş imiş və köç gəlib, gedərmiş. Hər il bir tövr ilə. Kimi qoyunlu və kimi sair dövlət ilə. Və o obaların çoxunun özü atlı və övrəti atlı, artıq dövlət ilə köçür. Qərəz, bir neçə dəstə keçəndən sonra görür ki, bir kişi dalında şələ və bir nəfər övrət yenə şələli və iki-üç uşaqlar ayaqyalın və köhnə libas gəlirlər. Mərhum Mehdiqulu xanın bulara rəhmi gəlib nökərlərdən birisin göndərib ki, get o kişini, övrət və uşaqları ilə gətir bu çöl həyətə. Nökər

1 Müəllif səhv edir. İbrahim xan 1806-cı ildə Şuşanın yaxınlığında Şuşa komendantı mayor Lisaneviç tərəfindən öldürülmüşdür.

gedib o kişini həmən tövr ilə gətirib. Xan çağırıb bir para müqərrib nökərlərindən ki, çöl əhlinə nə lazımdır. Hər biri bir tövr tədbir ediblər. Xan heç birinin sözün bəyənməyib, buyurub bir siyahı yazıblar. Neçə yüz qoyun sağmal və erkək və neçə sağmal inək və neçə cüt öküz və neçə camış və iki rəs erkək at və iki-üç rəs madyan at və iki alaçıq biri özləri üçün və birisi qonaqları üçün və məfrəş və qab-qacaq, cəmi-çöl mayəhtacının hazır edib, əmr edib qayda ilə yükləyiblər, aparıb təzədən kəhər atdan bunu götürüblər və xan tamaşa edib, xoşuna gəlib. Yanında olan adamlara deyib ki, indicə köçə oxşuyur.

Və bir də İbrahim xanın övladlarından bir neçəsin yazmağa xahiş ediblər. Belə nəql edirlər ki, İbrahim xanın on dörd nəfər oğlu var imiş və səkkiz nəfər qızı var imiş və dörd nəfər kəbinli övrəti var imiş və neçə nəfər siğə övrəti var imiş. Kəbinli övrətinin biri Bikə ağadı. Ləzgi Nusəl xanın qızı və Əhməd xanın atası. Və birisi Xurşidbanu bəyimdir. Gəncə xanı Şahverdi xanın qızı Mehdiqulu xanın anası və birisi Cavahir xanımdır. Gürcü qızı Gövhər ağanın anası və birisi Xanım Nənədir demişlər. Cəbrayıllı Vəli bəyin qızı, Məhəmmədhəsən ağanın anası və sairləri erməni qızı imiş və gürcü imişlər. Nəcəfqulu bəy belə nəql edir, sair kəbinli övrətin bilmirəm.

Belə nəql edirlər ki, İbrahim xanın böyük oğlu Cavad ağa imiş və İbrahim xandan çox tez ölübdür və yel naxoşluğundan ölüb. Yenə həmən Nəcəfqulu bəy nəql edər ki, o vaxtda bəylərin birisinin bir nəfər göyçək qızı var imiş və bu qızın sədasın İbrahim xan eşidərmiş və belə fikri var imiş ki, o qızı özü üçün alsın. Amma məlum deyilmiş, qəzadan nökərlərdən biri gəlib Cavad ağaya həmən qızı tərif edibdir. Cavad ağa da bu fikrə düşüb ki, o qızı ala. Amma istərmiş ki, rubəru görüb, ondan sonra sözü xana yetirə və görmək mümkün olmurmuş. Bir gün yenə həmən nökər gəlib Cavad ağaya deyib ki, o qız evləri ilə çaya gəzməyə gediblər. Yaxşı fürsət vaxtıdır. Bir tövr ilə bəlkə gedib dürüst görə biləsən. Cavad ağa durub nökəri ilə o qız tərəfə gediblər. Görüb hərgah bunu görsələr mümkün olmayacaqdır və uzaq yerdən yenə dürüst görməyəcək. Gəlib dəyirmana, dəyirmançı Quqonun paltarların alıb, öz paltarlarının üstündən geyib və papağın gözünün üstə basıb, olar olan yerə gedibdir. Qıza dürüst tamaşa edib, qayıdıb qalaya.

Bu əhval məzəlik üçün İbrahim xana yetiriblər və xanın bu işdən qəzəbi tutub, bir nökər göndərib, həmən dəyirmançı Quqonu gətirib-

lər və adam göndərib Cavad ağanı da gətiriblər. Dəyirmançı Quqonun paltarın Cavad ağaya və Cavad ağanın paltarların dəyirmançıya geydirib, hər birindən bir ayaq saldırıb falaqqaya və çox döydürəndən sonra buraxıb. Cavad ağa öz xəcalətindən qaçıb gedib şahsevən Nəzərəli bəyin yanına və iki il orada qalıbdır. Sonra Nəzərəli bəy yenə gətirib İbrahim xanın yanına. Xan görüb ki, Cavad ağa çox zəif olubdur və bərk naxoşdur. Belə nəql eylərlər ki, İbrahim xan altı ay Cavad ağaya toy edib ki, bəlkə o naxoşluq ondan rəf ola və altı ay tamam olandan sonra xan Xanım ağanı ona gəlin gətiriblər. Hər ikisi yeddi ay ömür ediblər. Xan Xanım ağa uşaq üstə tələf olubdur. Cavad ağa həmən yel naxoşluğundan mərhum olub. Bir də belə nəql edirlər ki, əvvəl İbrahim xanın canişini Məhəmmədhəsən ağa imiş. Səkkiz ay İbrahim xandan qabaq mərhum olub. Amma həmişə İbrahim xan Məhəmmədhəsən ağa ilə yaxşı deyilmiş və həmə vaxt aralarında ədavət olarmış. Çünki şərarət edərmişlər ki, Məhəmmədhəsən ağa bu fikirdədir və bu işi edəcəkdir. Hər dəm bir dəfə qoşun çəkib gələrmiş ki, gərək mənim vilayətimdən çıxıb gedəsən. Belə ki bizim öz ata və babamız belə nəql edirdilər ki, yenə bir gün Məhəmmədhəsən ağaya əhval çatdı ki, İbrahim xan qoşun çəkib gəlir. Belə ki, o vaxt İbrahim bəy mərhum İbrahim xanın qulluğunda olurmuş və Mirzə Haşım mərhum Məhəmmədhəsən ağanın qulluğunda imiş. Həmin bu iki qardaş bizim atamızın əmiləridi və olardan nəql olubdur.

Qərəz, mərhum İbrahim xan neçə yüz atlı ilə Məhəmmədhəsən ağanın evinin üstə və Mirzə Haşım ümum qapıda əli bağlı durur. İbrahim xan yetirən kimi buyurub ki:

- Ay gədə, Mirzə Haşım, get o filan-filan olmuşa deginən mənim vilayətimdən çıxıb getsin.

Mirzə Haşım ərz edib ki, xan, qurbanın olum, bura sənin hərəm-xanandır. Kimin nə cürəti var buraya girə?

Belə bu sözdə Məhəmmədhəsən ağa özü evdən çıxır çölə və İbrahim xana ərz eləyib ki, xan, niyə insaf eləmirsən? Mən sənə nə bihörmətlik eləmişəm? Məndən savay sənin ki, övladın yoxdur. Bu qədər biinsaflıq mənim haqqımda yaxşı deyil. Bu sözdə İbrahim xan atın irəli sürüb dörd-beş dəfə Məhəmmədhəsən ağanı vurur. Yenə Mirzə Haşım qolun qabağa verib ərz eləyir ki, xan, qurbanın olum. Məhəmmədhəsən ağa müəllim, çubuq da görməyibdir heç. Qərəz,

İbrahim xan dəstəsi ilə qayıdan vaxt Cəfərqulu xan cavan oğlan imiş. Daldan bir xəncər tullamazladısa, atıb xəncər gedib Naib oğlu Məhəmmədin topuğundan dəyib, yaralayıbdır. İbrahim xan gəlib aşağı bazarın yerində atdan düşüb və hava isti imiş. Adam göndərib, gedin Mirzə Haşıma deyin qəlyan və şərbət gətirsin. Mirzə Haşım bir əlində şərbət tez gətirir və xan bir saat orada kürsü üstə əyləşib və Naib oğlu Məhəmmədin yarasın bağladıb, gəlib öz evinə.

Və bir də mərhum İbrahim xanın yanında hörmətli olan oğlanlarının birisi də Əhməd xan imiş. Belə nəql edirlər artıq ümur və ixtiyar Məhəmmədhəsən ağada və Mehdiqulu xanda və Əhməd xanda imiş. Sair oğlanlarında bunlar kimi hökumət və ixtiyar yoxumuş. Qərəz, Əhməd xan çox səffak imiş. Əlavə hökmranlıqda və zirəklikdə pürkar adam imiş və bir də bir para quduz it təkin adama və bağlı olan adama və dili gec açılan uşağa dua yazarmış və uşağın ağzına tüpürərmiş, bu günə naxoşluqlar rəf olurmuş. Belə ki, bir cild dua kitabı Əhməd xanda var imiş. O duaların təsirindən bu günə dərdlərə əlac olurmuş.

Və bir də mərhum İbrahim xanın övladı həddən artıqdır. Təmamən yazmaq mümkün deyil. Həmin say məlum oldu. Amma bir neçə nəfər qızlarından yenə yazmaq lazımdır. Belə ki, İbrahim xanın bir qızı Ağa Bəyim ağa idi və onu İran padşahı Fətəli şaha köçürmüşdülər. Çox göyçək imiş. İranda mərhum olubdur. Belə nəql edirlər ki, bir gün Ağa Bəyim ağa bu bayatını oxuduğu vaxtda, Fətəli şah gəlib eşidib, görüb oxuyur:

Mən aşiqəm Qarabağ,
Qara salxım, Qara bağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Bunun bu sözü padşaha xoş gəlib, sual edib ki, o bayatını nə tövr oxudun? Bir dəfə də oxu! Ağa Bəyim ağa bu dəfə mətləbi dolandırıb ki, padşaha xoş gəlsin. Qərəz, həmən bayatının axır fərdin belə deyib ki:

Tehran cənnətə döndü,
Yaddan çıxdı Qarabağ.

Bu şaha çox xoş gəlib.

Və bir də mərhum İbrahim xanın bir qızı da mərhum Gövhər ağa idi. O da əvvəl qız vaxtı Şəki xanına gedibdir. Elə ki o ölüb, gəlib yenə öz əmisi oğlu Xankişi bəyə getmişdi.

O da öləndən sonra ta ərə getmədi və övladı yox idi. Amma öz axirəti üçün yaxşı binagüzarlıq etdi. Əlavə öz səyilə hamı üçün yaxşı fikir çəkdi. Belə ki, həmən bu iki qitə məscidi-camelərinin hər birini iki dəfə təmir edib və neçə kəndlər və dükanlar və karvansaralar bu məscidlərin barəsində vəqf edib ki, kəndlilərin mədaxili bu iki məscidi-camelər üçün məsrəf olsun. Məscidin həyətində azarlıxana təmir elədib ki, qərib adamlar naxoş olan vaxtda orada yatsın və müalicə olunsun. Hərgah ölsə, o adamın tədarükün görüb dəfn eləsinlər. Yenə hərgah qala əhlindən fağır və kasıb olsa, onları da xərc çəkib, dəfn edələr. Bir də o tüllablar ki, elm oxuyurlar, onlar üçün çırağ və həftədə iki dəfə çörək versinlər. Mücavirlərə və müəzzibinlərə məvacib qərar edibdir. Yenə özü və ata və ana və sair övladları üçün hər il ramazan və şaban ayında Quran oxunsun. Və əlli-altmış xətmi-Quran oxutsunlar və hər ildə həmən ehsan aylarında üç gün ehsan versinlər. Bu günə vəsiyyətlər iki böyük daşlara həkk olub və məscid divarına nəsb elədib. Sair mətrukatın və müxəllifatın Həsən ağa Süleyman xan oğluna hiybə edibdir. Allah rəhmət eləsin o kimsələrə ki, Allah yolunda və füqəranın barəsində vəsileyi-irhamın haqqında bu günə binagüzarlıq ediblər. Xüsusən bu mərhumə.

Yenə Gövhər ağa bu qədəri mətrukat vəqf edəndən sonra və iki qitə məscidi-camelərinin hər birisini iki dəfə təmir edəndən sonra ki, hər birinin xərci dünya pul aparıb. Bunlardan əlavə yüz min manat pul cəm etmişdi ki, özü ilə aparıb Kərbəlayi-müəllada məsrəf edəydi. Əcəl aman vermədi. Burada mərhum oldu.

Bir neçə ay məsciddə dəfh etdilər qaldı. Sonra neçə nəfər mötəbər adam ki, özü vəsiyyət etmişdi apardılar Kərbəlayi-müəllayə və orada dəfn olub və üstə bir bab məqbərə bina ediblər. Neçə nəfər tullab təyin ediblər ki, nə qədər dünya var, onun üstə gecə və gündüz Quran oxusunlar. Onlar üçün məvacib qərar ediblər. O pul ki, buradan aparmışdılar, o pak olan məqamda karvansara və hamam təmir ediblər ki, onların mədaxili imam əleyhissəlamə və bu mərhumənin özünə məsrəf olsun. Bu günə binagüzarlıq öz axirətin barəsində edib. Allah qəbul eləsin.

Bir də bu mərhumənin neçə qaydası var imiş. Belə ki, ona əvvəla həmişə füqəranı müraat edirmiş və həmişə yük-yük baratı üləmalara və sair kasıb olan adamlara ki, abırlı kişilər imiş gələrmiş. Əlavə hər gecə neçə nəfər nökər götürüb yanınca bir para füqəraların evlərini gəzərmiş və onlara pul paylarmış. Onların əhvalatlarından xəbərdar olub, həmişə barat göndərərmiş və hər evə ki, güzarı düşərmiş, o ev sahibinə bərk tapşırarmış ki, məbada mənim buraya gəlməyimi bir adama deyəsən. Gərək pünhan qalsın. Heç kimsənə bilməsin. Qərəz, həmişə fağır və füqəranın fikrində olan adam imiş. Allah rəhmət eləsin.

Bir də İbrahim xanın neçə nəfər qardaşları var imiş. Elə əhvalatları yoxdur ki, yazıla. Amma Tahbxan bəydən bir neçə nəql yazmaq lazımdır.

Çünki çox məzəli adam imiş. Belə nəql edirlər ki, Talıbxan bəy çox avam imiş. Belə ki, bir gün Tahbxan bəyin ixtiyarında olan rəiyyətlərdən ikisinin bir-birilə davaları var imiş. Gəlib Talıbxan bəyə şikayət ediblər. Bu adamlar hər biri öz sözlərini deyiblər. İkisinin də sözünə Talıbxan bəy deyib ki, yaxşı deyirsən. Öz övrəti yanında imiş. Deyib ki, a xan, bunların hər ikisinin sözlərinə "yaxşı deyirsən" dedin. Pəs günah hansı birindədir. Axır birinə "yaxşı deyirsən" deginən və birinə "günah səndədir" deginən. Talıbxan bəy fikir edib övrətinə deyib:

- A arvad, sən də yaxşı deyirsən. Gərək belə ola. Mən dürüst bilmədim. Bunların davasın sən kəsginən.

Yenə belə nəql edirlər ki, bir gün Talıbxan bəy quş ovuna getmiş imiş. Bir nəfər nökər qızılquş götürüb bunun ilən gedirmiş. Qəzadan o günü bərk yağış yağır. Talıbxan bəy islanıb və çox üşüyübdür. Dönüb dala baxıb, görüb nökər də bərk üşüyür. Talıbxan bəy öz çuxasın çıxardıb verib nökərə ki, ala sən mənim çuxanıı geyginən. Bəlkə qızışasan. Mən yolla gedirəm. Nökər deyib: A ağa, özün geyginən. Mən üşümürəm.

Qəbul etməyib verib nökərə. Qərəz, bərk islanandan sonra və çox üşüyəndən sonra gəliblər evə. Talıbxan bəy titrəyə-titrəyə paltarların soyunub, uzun ocaqda olurmuş. Övrəti deyib ki, axır niyə çuxanı nökərə verib, özünü belə islatmısan. Durub övrətin döyüb ki, a köpək qızı, pəs nökər saxlamaq asandır? Axırda adamın sözünə baxmaz.

Yenə nəql edirlər ki, bir gün yenə ova getmiş imiş. Bir neçə quş tutublar, qayıdıb evinə gəlib və nökərlər quşları kabab bişirib, hazır ediblər. Bir neçə saat keçib, nökərlər görüblər ki, Talıbxan bəy heç kababın istəmir. Nökərlər yəqin ediblər ki, xanın yadından çıxıbdır. Götürüb özləri tamam yeyiblər. O günü övrəti evdə yox imiş. Bir neçə saatdan sonra yadına düşüb, çağırıb ki, mənim kababımı gətirin, yeyim. Nökərlər deyiblər ki, xan, bayaq yemədinmi? Bir az fikirə gedir, deyir:

- Axı deyirəm niyə susamışam. Bir az su gətirin mənə içim. Talıbxan bəyin bu cürə işləri çoxdur. Həmən bu neçə nəql kifayət edər.

Bir də bundan əqdəm olan Qarabağ bəylərinin hər birinin bir dəstgahı var imiş və həmişə at bağışlamaq və barat göndərmək öz iltifatları olan adama artıq imiş və onların bərdaştəsi və xərc məsarifləri artıq imiş və hər birinin qapısında neçə nəfər xəz etmək və mahud çuxa nökərlər var imiş və hər birinin qapısında neçə nəfər xəz etmək və mahud çuxa nökərlər var imiş və hər birinin hər gündə aşpazxanasının iyirmi manat xərci olurmuş. Xeyir-şərləri olan vaxtda dünya pul xərc və məsrəf olurmuş. Bunun ilə nə borcları olurmuş və nə kənd satarmışlar. Amma bu vaxtda olan bəylərin borcu həmişə olur və o qədər xərc və bəxşayiş heç birindən görünmür, yenə borclu olub və mülk satırlar. Bu günə işlərə səbəb budur ki, qumara və şəraba adət ediblər. Amma keçən bəylərdə bu tövr işlər yox imiş. O səbəblərə bərəkətləri artıq imiş. Əyər ki, xalq evlərinin qəlbi olmağına və mahud geyməklərinə və bir para bərdaşşələrinə baxıb belə mülahizə edirlər ki, bu vaxtda olan adamlar ağıllı və mərifətli idilər, belə deyil? Bəlkə keçən adamlar cəmin-silkdən ya bəy və ya əsnaf bu vaxta olan adamlardan sahibi-mərifət və dindar imişlər. Doğrudur, əvvəl bu qala bina olan vaxtlarda Pənah xan və İbrahim xan vaxtından adamlar avam imiş. Amma Mehdiqulu xanın əsrində olan kişilər ya bəy və ya hacı bu əsrdə yoxdur. Adam onlar imiş ki, keçib gediblər. Allah o kişilərin tamamına rəhmət etsin.

Bir də bizim bu vilayətdə olan bəyzadə və xanzadə heç bir vilayətdə yoxdur. Bunların hər birisinin nəqlin yazmaq mümkün deyil. Həmi çəmən doğru olan sifətlərin məlum etdik ki, nəcib və səxavətli və pakdamən bəylər varmışlar ki, çox sahibi-mərifət və sahibi elm və xoş xətt və cəmi rəftarları bieyb olan kişilər var imişlər. Ya bəylər və ya sövdagər və ya üləmalar belə ki, mülahizə edərlər təsdiq edirlər

ki, bu vaxtkı adamlar hara, o keçən adamlar hara. Qərəz, fəsillərə biri para acılar ki, bundan əqdəm var imişlər bir neçəsini dövlətindən və kasıbları dolandırmaqlarından məlum olacaqdır. Buralar yeri deyil. Bir də mərhum Cəfərqulu xan çox hünərli və dilavər hökmran və zorlu adam imiş. Yenə çox əhli dimaq və eyş-işrət ilə dünyanı keçirən, həmişə öz ləzzətində olan adam idi. Çox artıq şövqi var imiş pəhləvan güləşdirməyə. Dəvə və qoç güləşdirməyə, kəndirbaz və ağacayaq və bir para tamaşalı işlərə çox meyli var imiş, çox ömür eləyibdir. Artıq calal sahibi imiş. Belə ki, onun bir para bazar işlərinə Hacı Qulu baş çəkmək ilə bir milyon dövlət cəm etdi və hər cümə axşamı füqəralara çox pul paylardı. Mərhum olan vaxt Rus dövləti çox ehtiram ilə götürdülər. Çox hörmətli nişanlar o vaxt çıxartmışdılar ki, haman Rus dövlətindən verilmişdir. Əhli-vilayətin ixlası və rus dövlətinin hörməti həmişə İbrahim xanın bu iki ocağında olub: biri Cəfərqulu xan və birisi Xan qızı.

Bir də Qarabağın xanlarından yadigar qalan həmin bir xan qızıdır ki, bu vaxta böyük adamlardan qalan bir budur. Allah səlamət etsin. Çox püxtə və xalqa mehriban adamdır. Və çox sahibi-səliqədir və həmişə füqəranı müraət edib cəmi xalqın dövlətli olub xoşhal istəyəndi. Həmişə bu fikirdə olar ki, tamam xalqa xeyir versin və kömək etsin. Belə ki, bu şəhər abad olmağa o səbəb olubdur. Hərgah bu su qalaya gəlməsəydi, yenə gərək olacaqdı. Həmin qalanın abad olmağı ibarətdir bu sudan. Belə ki, o vaxt ki, bu su qalaya gəlməmişdi, xalq çox zəhmət ilə keçinirdilər və gedib Xəlfə Əlili çayından at və ulağ ilə su gətirirdilər. Bu barədə cəmi əhli-vilayətin boynunda Xan qızının haqqı var. Cəmi cəhətdən nəinki bir tək su, Allah-təala Xurşidbanu bəyimə ömri-tulanı kəramət etsin və onu Qarabağ camaatma çox görməsin.

Belə ki, bir neçə kəlmə İbrahim xanın övladlarından yazıldı. Lazımdır bir neçə kəlmə də tənbeh və divan etməyindən yazıla.

Belə nəql edirlər ki, İbrahim xan hər kəsin artıq günahı olan adamı Xəznə qayasından atdırarmış. Belə ki, o qayanın dərinliyi iki yüz arşından artıqdır. Adam qaya üstə durub, aşağısına baxa bilməz. Adamı vəhşət tutar. Yenə baş kəsdirmək və göz çıxartmaq və əl kəsmək, bu gunə tənbehlər eylədərmiş...

Belə ki, qədim vaxtlar İran padşahlarının tənbehi bu gunə olarmış. Bu vaxtda belə deyirlər ki, ta o tövr deyil. Az iltifaq düşür.

Amma qədim vaxtı bilinmiş ki, hər hakim öz ixtiyarında olan adamları bu zülmlər ilə öldürürmüşlər, nəinki bir tək padşah, vəliəhd və sərdarın belə tənbeh etməyə ixtiyarları var imiş. İbrahim xan da İran zabitəsilə hökumət edərmiş.

Bir də bu gunə zülmlərə bizim familyamız binəva Mirzə Vəli giriftar olub. Sinninin çox vaxtında bigünah və bitəqsir. Belə ki, İbrahim xan nə məsləhətdən ötrü Mirzə Vəli Baharlını və öz əmisi oğlu Əbdüssəməd bəyi İran padşahının yanına göndərmişdi. Bir neçə ay Şiraz şəhərində padşahın yanında qalıblar. O vaxt paytaxt İran Şiraz şəhəri imiş. Qərəz, İbrahim xan ilə İran dövlətinin arasında nə güftəgu var imiş, bilmirəm. Amma bu "Əhvalati-tarixi-Qarabağda" yazıblar: həmin İran dövləti bu fikrə düşübdür ki, İbrahim xanın göndərdiyi elçilərin hər ikisin top ağzına qoydursun. Əbdüssəməd bəy belə tədbir edib ki, qaçalar. Mirzə Vəli razı olmayıb ki, qaçmaq nahaqdır. Səbir edək görək işin axırı nə tövr olacaqdır. Əbdüssəməd bəy qəbul etməyib, iki nəfər nökərlər ilə qaçıblar. Elə ki, sabah olub biçarə Mirzə Vəli babamı top ağzına qoyublar və Əbdüssəməd bəy ələ düşməyib, qaçıbdır. Bu işi edəndən sonra peşman olub.

Əbdüssəməd bəy gəlib Araz çayının o tərəfində görüb bir ovçu bir dağ keçisi çiynində gedir. İstəyib o keçini ovçudan alıb kabab edələr. Ovçu çəkilib meşəyə. Güllə atıb Əbdüssəməd bəyi öldürüb və nökərlər meyitin o taydan götürüblər qalaya. İbrahim xan bu əhvaldan çox təəssüf edib. Çünki o vaxt o qədər kamil adam yox imiş. Xana müqərrib olan adamlar və İbrahim xanın iltifatı olanlar bunlar imiş:

Molla Pənah, Mirzə Vəli və Əbdüssəməd bəy və Batmanqılınc Məhəmməd bəy.

Qərəz, İbrahim xan Əbdüssəməd bəyin övladının barəsində pənahlıq edibdir ki, məlumdur. Mirzə Vəlinin də iki nəfər oğlanların götürüb atalarının yerində təyin edibdir. Biri Mirzə Haşım və birisi İbrahim bəy. Mirzə Haşım atasından artıq sahibi-kamal olmağa görə həmişə iltifatı olurmuş və bu ləqəb ilə adlandırıb Mirzə Haşım Zərrinqələm demişlər. Bunlara güzəran etməkdən ötrü Zəngəzur uyezdində Mehri mahalında neçə para kəndlər vagüzar edib, hansı ki, Baharlı, Qaragözlü və Şapıklı və Çöpədərə neçə ildir, bədbəxtlik olub, dolaşır. Allah haqqa kömək etsin.

Bir də mərhum İbrahim xanın xəzinəsi Xəznə qayası adlanan yerdə qalıbdır. Ələ düşməyibdir. Belə nəql edirlər: elə ki İbrahim

xan o vaxt ki, o imarətlərdə əyləşərmiş, hər nə xəzinəsi varmış, o yerlərdə dəfn elədibdir. Çünki oralar çox möhkəm yerdir və o xəzinəni dəfn elədən Batmanqılınc Məhəmməd bəy imiş. Neçə nəfər adamla basdırandan sonra o adamları tamam öldürüb ki, məlum olmasın. Sonra İbrahim xan və Məhəmməd bəy - hər ikisi qəflətən ölüblər və o xəzinə məlum olmayıb və ələ düşməyibdir ta bu vaxtacan. Çox adamlar gedib orada olan evləri və kahaları axtanblar, bir şey ələ düşməyibdir. Həmin belə söhbət etdi ki, bir nəfər erməni cüt əkdiyi vaxtdabir göyüm pul tapıbdır. Həmən o Daşaltıh erməni gəlib qalada yaxşı ev aldı və bir para işlər gördü. Onda məlum oldu. Qərəz, tamam xəzinə meşələrdə və qayalarda qaldı.

Belə ki, o kahalar ki, Xəznə qayasında var, çox qəribə yerdir. Allah-təalanın qüdrətidir ki, zahir olub. Əvvəl o kahalar elə yerdədir ki, əslində bəni-adəm ayağı olara düşməyibdir, ta İbrahim xan o imarətləri ki, çətinlik ilə təmir edib və o kahalara çox çətinlik ilə bir balaca çuxur açdırıb. Ondan sonra o kahalara bəni-adəm ayağı düşübdür ta güman olmur ki, ondan əqdəm onlara insan getmiş ola.

Qərəz, o kahanın biri ki, sulu kaha deyirlər, onun dərinliyi on beş arşından artıqdır. Və eni altı arşın olar və içinin qəlbliyi səkkiz arşından artıqdır və ortasından bir böyük bulaq axır, çox soyuq və şirin. Elə ki onun ağzında durub yuxarı tərəfinə baxarsan, altı arşın olur ki, ta üstəki meşəyəcən və elə ki aşağa tərəfinə baxarsan, adamı vəhşət tutar və göz qaralar. Həmin çayın qıraqlarında olan adamları görürsən və belə güman olur ki, üç yüz arşından artıqdır.

Və yenə birisi bu kaha ilə yan-yana var ki, həmin arası beş və altı arşın ola. O da belə düşüb ki, gərək dörd arşın qədəri aşağı pilləkən ilə yenəsən. O vaxt İbrahim xan daş pilləkən bağladıbdır. Elə ki içəri yetirsən adamı vəhşət tutar. Belə ki, çox qəlbi və enni kahadır. Üç küncündə əlavə bir kaha var çox dərin və qaranlıq ki, dibin dərk etmək olmur və çox soyuq gəlir. O da həmən tövr ilə düşüb. Ya üst tərəfi və ya aşağı tərəfi. Bu iki kahalar İbrahim xanın imarətlərinin yanındadır. Amma birisi bunlardan əlavə qala tərəfindədir ki, bunlar ilə qabaq-qabağa düşübdür və qalanın altı tərəfidir.

Belə ki, bu kahanın təhəri bu tövridir. Neçə dəfə qala əhlindən gediblər məşəl və fanus yandırıblar ki, bir qədəri o kahanın içinə gedə biləl追, mümkün olmayıbdır. Çünki o kaha o qədər dərindir və qaranlıqdır ki, içinə girmək olmur və onun dibindən bir elə bərk külək

gəlir ki, nə məşəl davam eləyir və nə fanus. Və böyüklüyündən əlavə elə soyuqdur ki, yayda adam onun içinə girə bilməz. Qərəz, Xəznə qayası və bu kahalar və İbrahim xanın o yerlərdə o tövr evlər bina etməyi çox qəribə və tamaşah yerlərdirlər. Ta adam görməsə, bilməz.

Və bir də belə nəql edirlər ki, İbrahim xanın cəmi ixtiyarı Batmanqılınc Məhəmməd bəy imiş. Məhəmməd bəyin arxasını hökumət edərmiş. Sonra Məhəmməd bəyi İbrahim xanın yanında müttəhim ediblər və mərhum xanı müştəbeh eləyiblər ki, Məhəmməd bəy özgə fikirdədir. Bu sözə İbrahim xan inanıb, bu fikrə düşübdür ki, Məhəmməd bəyi öldürə. Məhəmməd bəy qardaşı ilə qaçıblar və övrətin də aparıb, qaçaq olub. Məhəmməd bəy İbrahim xanın qardaşı oğlu imiş. Qərəz, məlumdur ki, o vaxtda hər bir şəhərə bir xan təsərrüf edib, əyləşmişdi. Belə ki, Şirvanda Mustafa xan, Şəkidə Səlim xan, Gəncədə Şahverdi xan. Bu xanların heç birisi bir-birilə dost deyilmişlər. Məhəmməd bəydən həmişə bu xanlara zərər olurmuş. Təmamən bu xanlar Batmanqılınc Məhəmməd bəyin əlinin zərbini görmüşdülər. O cəhətə Məhəmməd bəy cəmi xanlardan qaçaq olub və hər yerin ixtiyarında olan camaatları çəpavül edərmiş və üstə neçə nəfər adam varmış. Bu əhval Şirvan xanı Mustafa xana məlum olubdur. Mustafa xan neçə nəfər atlı göndərib ki, gərək ya Məhəmməd bəyi diri tutasız və ya öldürəsiz. Bu yüz nəfər atlı düşürlər Məhəmməd bəyin dalma. Bir yerdə düçar olurlar. Bir neçə nəfər adam Məhəmməd bəy onlardan öldürür. Onlar da Məhəmməd bəyin qardaşın öldürürlər. Sonra bir şey bacarmayıb qayıdırlar. Bu işdən Məhəmməd bəy çox pərişan olur. Mustafa xan ilə artıq ədavətli olur.

Elə ki bir müddət keçir, bir gecə Məhəmməd bəy neçə nəfər atlı ilə gəlir Şirvana ki, Mustafa xanı öldürsün. Şirvanın iki verstliyində atlıları öz atı ilə qoyur və özü piyada belində bir xəncər gəlib Mustafa xanın barısından aşır və qapısın bir tövr ilə açır, girir evlərə. O gecə qəzadan Mustafa xanın ömrü tamam olmamağa görə evində yox imiş. Məhəmməd bəy tamam əhli-əyalın öldürür. Belə nəql edirlər ki, o gecə Mustafa xanın iki nəfər oğlun və üç nəfər qızın və bir neçə nəfər övrətin və dörd nəfər müqənib nökərlərin və dörd nəfər qulluqçularının tamamən başların kəsib və bir kağız yazıb qoyub bir məlum yerə ki, filan-filan olmuş, bu fikir ilə gəlmişdim ki, səni öldürəm. Nə fayda, ələ düşmədin. Hərgah ölmərəm, səni də bir tövr edərəm. Bu kağızı qoyub, yenə barıdan aşıb, qayıdır.

Elə ki sabah olub bu əhvaldan tamam Şirvan əhli xəbərdar olur. Mustafa xan gəlib əhl-əyalın bu növ ilə görüb və dünya malın yerbəyer görəndə yəqin edir ki, bu iş Batmanqılınc Məhəmməd bəyin işidir. Həmən saat deyir ki, bu iş heç kəsin işi deyil, məgər Məhəmməd bəyin işidir. Bu sözdə həmən kağızı tapırlar, oxuyub məzmunundan xəbərdar olurlar. Mustafa xan üç yüz atlını cəm edib yollayır mahallara ki, gərək hər tövr olsa, ya bu üç yüz nəfər tamam öləsiz və ya Məhəmməd bəyi öldürüb və ya sağ tutub mənim yanıma gətirəsiniz. Bu atlılar üz qoyurlar mahallara. Bu əhval Batmanqılınc Məhəmməd bəyə yetişir. Məhəmməd bəy öz övrətin və nökərlərin götürüb Şəki xanı Səlim xana pənah aparır[1]. Səlim xan mühafizət edib öz yanında saxlayır. Bir müddətdən sonra bu əhval Mustafa xana məlum olur ki, Məhəmməd bəy Şəki xanı Səlim xanın yanındadır. Mustafa xan götürüb Səlim xana bir tuğra kağız yazır. Bu məzmun ilə ki, Səlim xan hərgah Məhəmməd bəyi qolubağlı Şirvana göndərəsən; və hərgah ya qaçırdıb və ya göndərmiyəsən, o vaxt hazır ol ki, qoşun çəkib gəlirəm Şəkini tamam at torbasında daşıyam. Xəbərdar olub öz işin tədarükündə hazır ölginən!

Elə ki bu kağız Səlim xana yetişir, məzmunundan xəbərdar olur. Belə fikir edir ki, bir nəfər cəmi xanlardan qaçaq olan adamı mən saxlaya bilməyəcəyəm. Yaxşı budur ki, bəlasız başımı bəlaya salmayıb, Məhəmməd bəyi tutub, göndərim. Həmən gün Məhəmməd bəyi tutdurub qolu bağlı iki yüz nəfər atlı ilə və Məhəmməd bəyin övrətilə gətirib Şirvana, Mustafa xanın qulluğuna. Elə ki Şirvana yavuq olublar tamam Şirvan əhli tamaşaya çıxıblar. Məhəmməd bəyi övrəti ilə at üstə gətirirlər Mustafa xanın həyətinə. Mustafa xan evdən çıxıb Məhəmməd bəyə söyür ki, a filan-filan olmuş! Sən gəlib mənim əhli-əyahını qırmısan. Məhəmməd bəy deyir ki: filan-filan olmuş, gəlmişdim səni öldürəm. Nə fayda, əlimə düşmədin. İndi məni qolu bağlı görübsən. Bir qolum açıq olaydı tamam Şirvanı qılınca çəkəydim. Ta görəydin dünyada necə oğullar var. Nə edim ki, Səlim xan namərdlik etdi. Məni sənin qabağına qolubağlı göndərdi. Bu sözdə Mustafa xan içəri girib, bir tüfəng əlində çıxıb çölə və Məhəmməd bəyi at üstə vurub öldürür və Səlim xana çox razılıq yazır.

1 Məhəmməd bəy Səlim xana yox, kor Məhəmmədhəsən xana pənah aparmışdı. Məhəmmədhəsən xan xəyanət edib onu Mustafa xana verdi.

Mustafa xan Məhəmməd bəyi öz əli ilə öldürüb, Məhəmməd bəyin övrətin intiqam üçün alıb və bir neçə ay saxlayır.[1] Sonra bir atlıya qoşub göndərib Qarabağa. Sonra o övrəti mayor İmamqulu ağa alıbdır. Bəli, məsəldir deyiblər:

Nə namərdə bel bağla, nə cəfa çək o candan.

Və bir də İbrahim xana vəzir hesab olan Molla Pənah imiş. Belə ki, hər bir məsləhəti Molla Pənah ilə olurmuş və Molla Pənahın əsli Qazax Şəmşəddindən gəlibdir. Çox sahibi-kamal və qabil adam imiş və yaxşı təbi-şeri var imiş. Bu ağ könüllər oxuduğu zikrlər təmamən Molla Pənahın kəlamıdır... Qərəz, artıqxoşbəxt adam imiş. Mərhum İbrahim xanın həddən artıq iltifatı var imiş.

Hər məsləhəti ki, Molla Pənah görərmiş, gərək həmən tövr olaymış. Ona görə bir məsəl xalqın arasında məşhurdur. Belə deyir ki, "Hər oxuyan Molla Pənah, hər qatırçı Murad olmaz". Bu ikisinin vəxti Əsəd bürcündə imiş.

Və bir də neçə kəlmə mərhum Bəhmən Mirzə əhvalatından yazıb məlum eləmək gərək. Belə ki, Bəhmən Mirzə Fətəli şahın nəvəsidir və naibüssəltənənin oğludur ki, iki dəfə bu qalanın üstə qoşun çəkibdir. Bir dəfə İbrahim xanın vaxtında və bir dəfə rus dövləti Qalaya təsərrüf olanda gəlib. Qabaqda yazılıb. Qərəz, Fətəli şah münəccim götürüb naibüssəltənənin taleyinə baxdırıb ki, görsün naibüssəltənənin taleyində padşahlıq görünürmü. Elə ki, münəccim baxıb, belə görünüb ki, naibüssəltənənin taleyində padşahlıq görünmür və yavuq vaxtda əcəlinin yetişməyi görünür. İş bu tövr olan vaxtda Fətəli şah o qədəri ki, oğlanları var imiş heç birisin vəliəhd etməyib naibüssəltənənin böyük oğlu Məhəmməd şahı öz atasının yerində əvəz vəliəhd eləyibdir. Bir müddətdən sonra münəccim dediyi söz rast olub. Naibüssəltənə Fətəli şahın qabağında mərhum olub və bir müddətdən sonra Fətəli şah mərhum olub və mərhum Məhəmməd şah padşahlıqda əyləşib və neçə nəfər qardaşları ki var imişlər hər birin bir məmləkətdə sərdar təyin edib və Bəhmən Mirzə külli-Azərbaycana hakim olub. Hər bir hökmdə və adam öldürtməkdə

---

1 Məhəmməd bəy M.P.Vaqifin arvadı Qızxanımla evlənib Şəki xanının yanına qaçmışdı.

cəmi ixtiyan var imiş. Sonra Məhəmməd şahın yanında bədbəxt olub. Öz qardaşı Məhəmməd şah bu fikrə düşüb ki, Bəhmən Mirzəni öldürtsün. Bu işdən Bəhmən Mirzə xəbərdar olub, cəmi mal və dövlətin və əhli-əyalın qoyub qaçıb Rusiya dövlətinə pənah gətiribdir və Rusiya dövləti mühafizət edib bunu ehtiram ilə saxlayıb.

Elə ki Bəhmən Mirzə əvvəl Rusiya məmləkətinə varid olub, bir müddət əyləşib Tiflis şəhərində oturub, sonra bir müddət Tiflisdə qalıb və oranın abu havasın xoşlamayıb gəlib Qarabağa və burada bir müddət kirayə ilə əyləşib və bir-bir əhl-əyalını və mirzələri və müqərrib nökərləri və xacələri təmamən gəlib cəm olublar. Rusiya dövlətindən otuz altı min manat pul məvacib qərardad olub. Ta bir müddət keçəndən sonra bu imarətləri təmir edib. Qərəz, Bəhmən Mirzənin qaydası və bərdaştəsi padşah qaydası kimidi. Belə məlum olurdu ki, o qədəri ki, ona yetişirdi il başına onu görmürdü. Çünki o qədəri əhl-əyal və əmələlər ki, Bəhmən Mirzə saxlayırdı, ildə yüz min manat ona kifayət etməzdi, nəinki otuz altı min manat. Çünki Bəhmən Mirzənin özü iki yüz nəfər adama məvacib verirdi.

Belə ki, Bəhmən Mirzənin həmişə övrətləri on nəfərdən əskik olmurdular. Ya on nəfər və ya səkkiz nəfər bu yerlərdə əyalı olurdu. Hər birinin bir dəst imarəti və nökəri və qulluqçuları və qarabaşları olurdu ki, hər birinin xərci ildə nə qədər pul olurdu. Və əlavə bir müdərrisxan qızları üçün bina etmişdi və neçə nəfər müdərris ilə. Və bir müdərrisxana oğlanları üçün bina etmişdi neçə nəfər müdərrisləri ilə. Və hər oğlu üçün bir nəfər lələ və hər qızı üçün bir nəfər ağbaşlı təyin etmişdi. Və neçə nəfər xacələr və qulamlar və qara kənizlər, sair əməllər ilə öz qulluğunda olurdular. Onun aşpazxanasının hər gündə əlli manatdan artıq xərci olurdu. Və neçə rəs atlar və faytonlar saxlardı. Belə ki, onun tamam əmrlərini yazmaq mümkün deyil. Və məlumdur ki, o tövr olacaq. Amma cüzi yazmaqda mənzur budur ki, dünyanın işi bu tövrə olur. Belə əmirin övladı özündən sonra çox zillət çəkdilər və tez vaxtda tənəzzül etdilər. Əgərçi öz küfri nemətlikləri səbəb oldu, amma yenə adam rəva görmür.

Belə ki, mərhum Bəhmən Mirzə çox həmli və nökərə və kənizə mehriban adam idi. Bir xasiyyəti var idi ki, hər şeydən ki, əhli-əyali geyərdi, həmən şeydən nökər və kəniz üçün verərdi və o nemətdən ki, özü yeyərdi, gərək tamam əmələlər ondan yeyəydi. Razı olmazdı ki, bir kimsənə o nökərlərə və qarabaşlara bir kəlmə söz

desinlər. Çox artıq əzizlik ilə əmələ saxlardı. Artıq insaflı və rəhmdil adam idi. Belə ki, hər yerdə ki, bir nəfər qoca övrət və ya kişi biləydi ki, var, onun üçün məvacib qərar edəcəydi. Və hərdəm bir dəfə o qoca kişiləri və qarıları götürüb öz qulluğunda oturdub söhbət edərdi və onlardan qədim sözlərdən xəbər olardı. Çünki qədim sözü artıq dost tutardı. Və əlavə bu qocaların danışmağı və söhbətləri xoşuna gəlirdi və onlar üçün öz qulluğunda nahar və çay gətirdərdi. O qocaların yeyib-içməyindən xoşu gəlirdi. Həmişə özünə məşğuliyyət onların və qara kənizlərin və qara qulamların oynamağj idi. Çox dost tutardı qoca və avam adamları. Bir gün iki nəfər qoca övrət var idi. Köçərli məhəlləsində. Birinin adı Əkdimqızı və birisinin adı Kəlin-pəri. Bunların hər ikisi çox qəribə surətli qarılar idi. Bir gün şahzadə bunların hər ikisini götürdüb qulluğunda bunlara söhbət elədərmiş. Bu qocalar nahar edəndən sonra şahzadə buyurub bu övrətlər üçün çay gətiriblər və buyurub iki kürsü qoyublar ki, o qocalar üstə oturub çayların içsinlər. Onların kürsü üstə oturmaqlarından xoşu gəlirmiş. Qocalar deyiblər ki, qurbanın olum, qoy yerdə içək. Şahzadə buyurub gərək kürsü üstə içəsiniz. Qərəz, bunların hər birinin əlində bir stəkan çay kürsü üstə oturublar və şahzadə bunların tərkibinə və kürsü üstə o halət ilə oturmaqlarına tamaşa edirmiş və gözləyirmiş ki, görsün o qocalar nə tövr çay içirlər. Bir vaxt görüb qarının biri dilin çayın içinə batırdı və birisi barmağın çaya batırıb, sonra yaladı. Şahzadənin bunların bu işi xoşuna gəlib, o qədər gülübdür ki, bir gün qarnı ağrıyıb və sonra onlardan xəbər alıb ki, niyə elə elədiniz? Biri deyib mən dilimi batırdım görüm soyuyub ya yox. Dilimi yandırdı. O biri də deyib: Mən də barmağımı batırıb dadırdım ki, görəm şirindirmi. Baməzəlik üçün edirmişlər, ya özləri o tövr imişlər. Qərəz, şahzadə onlar üçün pul və libas verib yola salıbdır. Və hər dəm bir dəfə onları gətürdərmiş, onları növ-növi işlər ilə danışdırıb, gülərmiş. Və neçə nəfər övrət və kişi var idilər ki, həmişə şahzadənin qulluğunda bir para məzəli işlər edərdilər ki, şahzadənin könlü açılsın. Və bu adamlar şahzadənin qulluğunda çox güstax imişlər. Hər bir tövr işlər edirmişlər.

Belə ki, bir gün əmrə qayib imiş. Və o günü şahzadə öz övrətlərinin birisinin mənzilində imiş və bir nəfər biganə övrət o xanım üçün halva payı göndərmiş. Bu halva payı gətirən övrət həmişə şahzadənin qulluğuna gəlib-gedən adam imiş. Qərəz, bir məcməyi

çini qab tamam halva ilə dolu ki, hər birinin xammların biri üçün qoymuş imişlər, bu övrət əlində içəri girib, görüb şahzadə oturubdur. Övrət əlində dolu məcməyi şahzadəyə baş endirib. Baş əyən vaxt məcməyidə hər nə qab var imiş tamamən tökülüb sınıbdır. Şahzadə çox gülüb və buyurub neçə boşqab bazardan alıb, gətiriblər. İki manat övrətə əlavə pul verib yola salıb ki, bu pul da sənin peşman olmağın əvəzi olsun.

Və bir də şahzadənin bir qaydası var idi ki, məhərrəm ayında tamam əhli-əyalı ta qafa kənizlərə kimi və qara qullara kimi, hətta südəmər uşaqlar gərək tamam başdan-ayağa qara libas geyəydilər. İki ay tamam olunca məşğuli-təziyə olaydılar. Hərəmlər hər birisi on gün təkyə saxlayaydılar növbə ilə ki, ta iki ay tamam olaydı. Hər gündə üç yerdə mərsiyə oxunaydı. Sabah və axşam və günorta bu növ ilə təziyədarlıq edərdi. Və bu təziyədarlıq qaydasın qarabağlı şahzadəlikdən götürüblər. Ta bundan əqdəm bu tövr ki, bu vaxtlarda adət düşübdür, belə deyilmiş. Əvvəl Qarabağ camaatları çox avam və naqis imişlər. Elə ki hər tərəfdən hər bir sənətkar və molla və sair adamlar ki, hər birisi ki, bir elm sahibi və sənət sahibi imişlər, buraya gəliblər, ona görə tez tərəqqi edib və cəmi işlərin lizama (nizama) salıb, tərbiyət tapıblar. İranın dövlətindəndir və əlavə şahzadəliyin bir para səliqəsin və mərifətin götürdülər, ta o azğın işlər ki, bizlərin arasında var imiş yavaş-yavaş tərk olur. Həmin neçə nəfər nanəcib və gəda oğlanları var, onlardan bir para azğın işlər baş verir. Amma o adamlar ki, ata və babalarından həmişə özlərin sahibi-güzəran və sahibi-hörmət görüblər və adamlıq onlardan zahir olur. Bəli, yaxşı deyiblər:

Ya rəbb, məbad an gəda mötəbər şəvəd.

Belə ki şahzadənin cəmi işləri məlumdur ki, İranda nə hökumətin sahibi imiş və Rusiya dövlətinin yanında nə hörmətin və ehtiramın sahibi imiş. Otuz altı min manat məvacib və həmişə qapısında iki nəfər soldat qarovul təyin olmuşdu və özü bir qayda ilə əyləşmişdi ki, padşah qaydası kimi. Nə qədər ki, öz ixtiyarı əlində idi, cəmi işlərinə rövnəq verirdi. Hətta öz sağlığında özü üçün Bərdə imamzadəsində qəbir və məqbərə bina elədi. Neçə il bina edəndən sonra mərhum oldu. Qərəz, elə ki, naxoşluğu şiddət etdi və huşu olmadı, bir para ixtiyarları oğlanlarının məsləhətilə oldu və günbəgün bunun

calalın pozulmağına və nökərlərin pərakəndə etməyə və bir para xərc götürən işlərin bərhəm etməyə səy etdilər: Elə ki mərhum oldu tamam ev müxəllifatın torqa qoyub satdılar. Atların və qatırların təmamən satıb pul etdilər. Və o əzizlik ilə saxladığı xacələri və nökərləri və qarabaşları və dayələri çöllərə saldılar. Və o kənizlər ki, hər bir zada rəğbət edib yeməzdilər, üç günlər ilə ac qaldılar. Və o nökərlər ki, həmişə istirahət ilə keçirirdilər, fəhləlik və suçuluq etməyə məşğul oldular. Və o atlar ki, qızıl rəxt və güləbətin düzayır və əsbab və zinpuş ilə gərdən çəkərdilər, hər biri bir gədanın altında zəhmətli səfər etməkdən arıq düşdülər. Və o qatırlar ki, hər dəm bir dəfə təxti-rəvan ilə şahzadə xanımları və möhtərəm hərəmləri yaylaq seyrinə və Nabatxan səyahətinə aparırdılar, bellərinə daş xərəyi və quş səbəti qoyulub bu günə işlər ilə belləri yağır oldu. Və o hamam ki, məxsus öz əhl və əyah üçün idi, küçə hamballarının ayaqyolusu yeri oldu. Və o aşpazxana ki, hər gündə əlli manat xərc olurdu və on nəfər qara kənizlər oraya mübaşir olurdular. Özünün naşükür və küfri-nemət olan övladının abdəsti oldu. Və o övrətlər ki, öz evlərin və uşaqların və sahiblərin tərkin edib, kəndlərdən gəlib əmirzadələrə və şahzadə xanımlara dayəlik edib xanım kimi istirahət edirdilər, hər kəs gedib öz evlərində xırman döyməyə və saman daşımağa məşğul oldular. Bu dəstgahın bərhəm olmağına öz naşükürlükləri bais oldu.

Belə ki, şahzadənin bir qadağanı var idi ki, heç bir nəfərdə cürət yox idi ki, xaric adam ilə bir kəlmə danışa və bir kimsədə də o cürət yox idi ki, onun əhli-əyalın mənzilinə tərəddüd edə. Gündüzlər gözətçilər və gecələr darvaza qıfıllı həmişə tənbeh ilə qadağan edərdi ki, hər kəs öz oxumağında və öz şənini bilməkdə olsun. Və şahzadənin bu əmrindən və bu nizam və zabitəsindən tamam övladı və əyalı incik idilər. Elə ki mərhum oldu bir müddət bisərü palıq ilə keçirdilər. Sonra keçən günlərini bir-bir yada salmaq ilə peşman olub, öz naşükürlüklərinə iqrar etdilər və fayda olmadı. Belə ki, atalardan məsəl qalıbdır:

Keçən gün ələ düşməz, calasan günü günə.

Və yenə belə deyiblər ki, insanın yaxşı günə davamı olmaz, amma pis günə davamı olar. Belə ki, zahir olur. Qərəz, o hərəmlər ki, həmişə vüqar və təmkin ilə əyləşib, qulluqlarında qul və qarabaş durardı, indi hər birisi bir kürəkən qoltuğunda qalıblar. Və o qızlar ki, hər birinin bir böyük adam beş min manat pul xərc edib alırdılar,

indi öz ayaqları ilə bir rəiyyət oğlunun evinə gedirlər və o əmirzadələr ki, bir böyük yerdə xeyir və şər olan vaxtda lazım olurdu, oraya getmək və neçə nəfər xacə ilə və nökər və qulam və sair əmələ ilə ki, gedirdilər, indi küçələrdə bisərü pa olub, bir para gəda və filanları ilə aşnabazlıq edirdilər. Və o ev ki, oraya sərdarlar və qubernatorlar görüşə gəlirdilər indi bir para gədaların fincan oynamaq yeri olubdur. Və o darvaza ki, gecə və gündüz qarovul durar idi, indi şəblim karvansarası tək ildə bir dəfə örtülməz. Və o bağça ki, behişt ilə bərabərlik edərdi, indi paymal olub və hər bir gül ağacı bir adamın həyətində gül açıbdır. Təmamən bu tənəzzülə və bu ad itirməyə özləri səbəb oldular və bir-birilə zidd olmaq və ədalət etmək ilə paymal olub, bu tövr tənəzzül etdilər. Həmişə qardaş-qardaş ilə və bacı-bacı ilə ədavətli və bir-birinə həqq-nahəqq iftiralar və qəsd etmək fikrində olub, bir-birin biəzm və bihörmət olmağın istərlər. Gecə və gündüz bu fikirlərdə olarlar ki, bir-birin rüsvay etsinlər.

Və bir də altı il və qırx il bundan əqdəm bu vilayətdə olan hacılar və dövlətli adamların yaxşı insafı və müsəlmanlığı var imiş. Belə ki, o vaxtda olan adamlar bu əsərdəki kimi deyilmişlər. Onların qaydası və rəftarı bu günə imiş: əvvəl elə qayda ilə dolanarmışlar ki, kasıb və fağır onlara baxıb həsəd aparmazmışlar. Elə libas və sair şöhrətli işlər nə özlərindən, nə əyallarından zahir olmayıb. Çox ifadəlik və güzəran edərmişlər. Həmin fikirləri bu imiş ki, kasıba və fəqirə kömək etsinlər. Belə ki, üç il və 20 ay vədiyyəya pul və ya mal vermişlər ki, kasıblar özü üçün güzəran etsinlər. O kasıb adamlar o pulu vədə tamamınca murur ilə verib rədd edərmiş. Müamilə ki, haramdır o zamanın adamları almamış. Həmi bu fikirdə imişlər ki, kasıb da bir növ dolanıb güzəran keçirsin və sair işlər ki, kasıbda ittifaq düşərmiş ya xeyir, ya şər yenə səbəbkarlıqla kömək ilə onların işlərinə əncam verib həmişə gözləri kasıbın və füqəranın və yavuq qonşularının üstə olarmış. Və bir də kasıbın qızın almağı və kasıba qız verməyi özlərinə ar bilməyib çox dövlətli və adlı kişilər kasıbdan qız alarmış və qız verərmiş. Yenə özlərinin çox olan dövlətlərindən qızlarına o qədər cehiz verməzlərmiş ki, kasıbın qızları biqiymət olar və alan olmaz. Yenə özlərinin halal olan mallarından ilə yemək və geymək nə özləri üçün və nə əyal və övladları üçün rəva görməzlərmiş ki, kasıb onların o gunə işlərinə baxanda qəmgin olalar. Və hər şeyi ki, özlərinə rəva görmüşlər onu qonşu və ya sair din qardaşlarına

rəva görmüşlər. Hərgah bir bişmiş olsaymış əvvəl gərək qonşuya qismət olunaymış, sonra özləri yemişlər. Ta mümkün deyilmiş, gərək bu tövr olaymış. Yenə belə nəql edirlər ki, qədim vaxtı bir para hacılar var imişlər ki, gecə olanda bir sətilə yağ qoyarmış və bir dağara düyü doldurub dalma alarmış, hər yerdə fağır və füqəra var imiş, aparıb hər birisinə bir qədəri ehsan edərmiş. Qədim vaxtlarda bu tövr işlər və adamlar çox imiş. Bir də bu qayda var imiş ki, hər vaxt kasıb qonşu qız köçürərmiş, o qızın lazım olan tədarükün elliklə görüb yola salarmışlar. Oğlan evləndirən vaxt tamam qohum və qonşu pul yığıb o toy sahibinə verərmişlər ki, toyun xərci olsun. Borclu və kasıb olmasın, ta bəlkə güzərandan düşməyə. Qərəz, o vaxtda olan adamlar bir-birilə mehriban və haqqa yavuq və Allahdan qorxulu və məsələlərinə arif və əmin və dindar və xoşxilqət və sahibi-elmi-ədəb və xoşrəftar və cəmi işləri Allah əmri ilə və peyğəmbər şəriətilə rast olan adamlar imişlər.

Həmişə şəriət "hökmü ilə dolanıb öz müsəlmanlıqlarının qədrin bilən və din qardaşlarının dünya əmrin dolandıran və özlərin bir para əlsiz və ayaqsız adamlara tərəfdar edən kişilər" imişlər.

Belə ki, bundan əqdəm hər bir dövlətli adamın bir bab karxanası var imiş ki, o karxanada darayi, çarqət və bir para o əsrdə dəb olan parçalar toxunarmış, hər bir karxananın 20 nəfər kişi və övrət əmələsi olunurdu. O əmrlərdən onların mərthal güzəranları keçirdi. O vaxtda olan hacılar bu tövr dadü büstan edirdilər ki, onların dadübüstanından 20 və 30 nəfər kasıb adamlar mübaşir olmaq etibarilə güzəranların keçirirdilər. Amma bu vaxtda hərgah bir nəfər adamın 100 min manat pulu ola tək özü üçün kifayət edər və bir nəfər kasıb adama xeyir vermək və dolandırmaq bunlardan mümkün deyil. Və nainsaf olmaqları bu mərtəbədədir ki, hərgah bir nəfər kasıb və külfətdar adam bir xalça götürə ki, bir qədər parça ilə sevda edə, bəlkə öz əhli-əyah üçün ya xərclik ola, bu biinsaf Hacı səy edir ki, bu xalçanı görsün beş-altı manatlıq parçanı ala bilərmi? Və əlavə bundan hər yerdə ki, çitin və sair şeyin, çörəyi və soğanı var, o şeylərdən götürüb yüz and içməklə o biçarə fağırın boğazına bağlayacaqdır. Və hərgah bir nəfər kasıb bir ədəd xalı götürüb bunların yanında gözü qoya və bir qədəri parça götürüb bir neçə ayın vədəsinə aparıb ya mahalda, ya qalada satıb bir növ güzəran edə. Əvvəl o parçanı belə qiymət ilə verəcək ki, həmin o xalının yarı qiyməti olacaq. İkinci hərgah o vədədən bir

neçə ay keçə, biçarə kasıb satıb pulun vədə tamamında verib rədd edə bilməyə o vaxt həmən xalını müamilə hesab edəcək və şikayət edib təməssükdə olan pulun əvəzində binəva kasıbın ya evin və ya müxəlləfatın torq ilə satdırıb alacaqdır. Və bu işi özünə hünər hesab edib, fəxr edəcəkdir.

Və bir də qədim vaxtda bir il tamamən Məkkə ziyarətinə gedib-gəlirmişlər. Quru yol gedirmişlər, Şamşumdan və dörd ay tamama Məşhədi müqəddəs ziyarətinə gedirmişlər. Kərbəlayi-müəlla ziyarətinə çox qorxuluq ilə gedib-gəlirmişlər. Çünki o vaxt türkmandan çox zərər zəvvara olurmuş. Xiridə gedən adam Misirə, Şiraza, Tehrana, Şamşuma, bu yerlərə gedirmişlər. O idi ki, tamamən sahibi-mərifət və kamil adamlar imişlər. İran vilayətlərindən elm və ədəb dərk edib şəriət hökmü ilə rəftar edirdilər. Və o hacıların çoxusu əmmamə qoyarmışlar. Tamamən libasları üləma libası kimi don və çuxa. Bu növi libas geyirmişlər və özlərin həmişə qeybət etməkdən və xatalı sözləri danışmaqdan gözləyib imani-kamil ilə və mömünlük ilə dolanarmışlar. O vaxtda olan adamlar, ya qala əhli və ya mahal əhli hər kəs ki, övrət alarmış, həmən gecə o övrətin kəbinin özünə rədd edərmişlər. Ya imarət və ya sair şeylərdən və mahal əhli bir neçə rəs qaramal tanıdarmış ki, bu mallar sənin kəbinin ilən əvəz olunsun. Qərəz, hər bir barədə özlərin məşğul-zəmməlikdən xilas edib hökm şəriət ilə rəftar edirmişlər.

Və bir də bu vaxtda olan hacılar və sair xalq ki, varlar, hərgah zahiri əməllərin yazaq, qeybət olacaqdır və batini əməlləri ki, öz rəftarlarından və sözlərindən məlum olur yazılsa, iftira hesab olacaqdır. Həmin bir neçə kəlmə bu əsrin əhlindən ki, qayda və adətləridir, yazmaq mümkündür. Qərəz, bu vaxta adət belə düşübdür ki, hacıların çoxu palton geyirlər və çəkmə geyirlər və hər kəs öz eyş və işrətində olub, həmişə bu fikirdədirlər ki, calalları və şöhrətləri artıq olsun və günbəgün tamahların artırıb, dövlətlərin artıqlığına təlaş edib, bilmərrə füqəranı yada salmazlar. Hər birisi bir firon calalı götürüb, axırəti yaddan çıxartmış və dünyaya həris olub, ömürlərini qəflət ilə keçirirlər. Və o ehsanat ki, olur və ehsan hesab edirlər. Həmin bir şeyi bir şöhrət bilib o ehsanı yerinə yetirməyin şəhərin və Allah-təalanın razılığın bilməzlər. Həmin ki, yüz nəfər adam ki, həmişə sahibi-nahar və şamdır və heç kəsin çörəyinə ehtiyacı yoxdur. Gərək hər yerdə, ya ehsan və ya sair xeyir və şər olsa, o adamlar üçün olsun.

Belə ki, həmin adamlar şikayət edirlər ki, mənim təbiətim düyü yeməkdən soyubdur və birəğbət olmuşam xörəkdən. Çünki iki aydır ki, müttəsil xörək yeyirəm. Amma fağır və kasıb və qərib bu məclislərdən binəsibdirlər. Hərgah bir nəfər, ya qərib və ya fağır təklif olmamış bu məclisə öz başına gələlər, ya qapıdan qovulacaq və ya başmaqxanada otura ki, o adam dövlətli və libası təzə ola, o vaxt o adam bu kasıb ilə çörək yeməyi özünə ar bilib, çörək yeməyəcəkdir. Özünün zahiri vəzi övzasına baxıb, qürrə olub, o qədəri mərifəti olmayacaq ki, əvvəla Allah-təalanın razılığın fikir edə və saniyən güman edə ki, bəlkə bu fağırın batini yaxşıdır. Pəs bu günə qonaqlığa türk arasında siyirən qonaqlığı deyirlər. Çünki yüz nəfər adamdır və təmamən bu ehsanı edirlər və hər məclisdə həmin adamlar olur və bu əməllərdən əlavə kəmali-xiridə verib, bir para sözlərə qarışırlar ki, əsla o günə sözlərin bir kəlməsin anlamağa ağlı və mərifəti yox-dur. Allah-təalanın qəzəbindən və qəflətin bəlasından ictinab etmə-yib istəyirlər alimə fasiqlik və kafirlik sübut etsin ki, islam tayfasının bir hoqqası o alimə etimad edib, təqlid ediblər. Və halinki o qədəri mərifəti yoxdur ki, məclisdə oturmağın və çörək yeməyin qaydasın bilə. Həmin gücü öz ağzına çatıb.

Bir para hədyanat sözləri danışmağı özünə kamal hesab edib, müttəsəl danışıb və cavabına höccət edəcəkdir. Belə işlərə bais oldur ki, özünün hökmündən və elmindən bir kəlmə anlayıb, mərifət tapa bilməyibdir.

Və bir də bundan əqdəm bu vilayətdə yaxşı, kamil və xoş xətt müdərrislər var imişlər ki, onların tərbiyətlərindən çıxan adamlar təmamən kamil və xoş xətt olmuşlar. Və o müdərrislər bir az vaxtda uşağı elə oxudub və səy edib, kamil edirmişlər ki, uşaqlar fars və ərəb elmin tamam edəndən sonra bir parası gedib rusca oxuyub, yenə artıq kamil mirzə olublar. O vaxtda olan uşaqlar da sahibi-kamal uşaqlar imişlər. Ta bu vaxtda olanlar kimi on iki yaşında şərab içmək və qumar oynamaq və papiros çəkmək və bir para namərbut işlərə mübaşir olmaq heç bir yerdə yox imiş. Oldur ki, təmamən o vaxtda olanlar sahibi-elm və ədəb və xoş xətt olmuşlar. Və belə nəql edirlər ki, o zəmanənin uşaqları öz ata və anaların yanında danışmaq və gülmək yox imiş. Çox abırlı və həyalı və itaətdə olarmışlar. Və sair adam ki, ağsaqqal olalar, onlara da hörmət və ehtiram edirmişlər və o uşaqlar üçün küçədə dolanmaq və səhrada gəzmək məqdur deyilmiş.

Həmin gecə və gündüz öz oxuyub və yazmaqlarına məşğul olub, elmlərin və mərifətlərin artıqlığına səy edirmişlər və onların ataları və müdərrisləri onların haqqında artıq səy edirmişlər ki, dürüst, kamil olsun. Ondan sonra hər kəs özünə görə uşağın ya sənətə qoyarmış və ya sövdəkarlığa və ya dübarə rus elmi oxutmağa qoyarmışlar və o səy və diqqəti ilə ki, müddərislər o uşaqlara elmi-dini tərbiyət edirmişlər, onların ücrəti ildə dörd manat pul və ya bir top boz və qədəki və ya bir top qələmkar olurmuş və az şeyə qane olub, uşağa artıq səy edirmişlər vənşağı cəmi-elindən oxudub, kamal sahibi və mərifət sahibi və öz dinlərin hökmdən xəbərdar və məsələlərinə arif və xoş xətt və bir para ibarətpərdazlığa bələd edib, ondan sonra hər kəs öz işlərinə gedirmişlər və tamam xoş xasiyyətlik ilə və həlallıq ilə rəftar edirmişlər.

Belə ki, o vaxtda olan hacıların birinin oğlu ki, məktəbxanadan çıxıb öz atasının yanında sövdəgərliklə məşğul olub və bir müddətdən sonra tənxahi əlindən çıxıb və kasıb olub, gəlib müdərrislik edir və hər bir elindən xəbərdar və kamil adamdır. Hər bir tövr ilə mollalıq etməyə və heç bir yerdə aciz qalmayıb, hər bir cəhətə görə mollalıq edir və öz güzəranını keçirir. Kəbin oxumaq və ölü namazı qümaq hər gunə iş olan vaxtda aciz qalmaz. Və təsdiq mollalar kimi özün ruhani cümləsinə daxil edib, mollalıq edir və bu əmr ilə mərəzi-hal güzəran edir. Amma bu vaxtda olan hacılar, uşaqların elə vaxt məktəbdən çıxardıb dükana aparırlar ki, əbədi siyahi yazmağın zabitəsin bilməzlər. Və əsla şəriət hökmdən bir məsələ anlamayıblar və vacib olan hökmlərdən xəbərdar olmayıblar və belə bilməzlər islam olmağın hökmü və rəftarı nə hökm ilədir, gərək sövdanı nə tövr və nə insaf ilə edə. Həmin yüz min hiylə ilə və yüz dəfə and içməklik ilə bir nəfər kəm səriştə fağın aldadıb kəm ərizi əriz əvəzinə və çürüyü sağ əvəzinə satıb öz-özünə fəxr edir ki, bunu aldatdım ta bilməz ki, onun əvəzində nə qədər zərər bu dünyada, nə qədər əzabi-axirətdə onun üçün olacaqdır. Oldur ki, bu vaxtda olan dövlətlilərin dövləti tez vaxtda zayil olur və bərəkətləri olmur. Özləri də kasıblığa düşürlər.

Və yenə bir neçə nəfər kasıb oğlu məktəbdən çıxandan sonra sənətkarlığa getmişdilər. Elə ki onlar da müsilən oldular və kəmmaya oldular, o adamlar da gəlib kimi qalada və kimi mahalda uşaq oxutmağa və mollalığa məşğul olub, güzəran edirlər. Və hər şəriət hökmündə mahir və kamil və xoş xətt adamlardır. Hətta onlardan

birisi ki, oruz ildir ki, sərraclıq edirdi, axırda ki, gəlib ruhani silkinə daxil oldu. Həmin adam Gəncə məclisində çilen təyin oldu. O vaxtda olan adamlar belə kamil olub. Ondan sonra oxumaqdan fariq olub, ya sənətə və ya sövdəgərliyə getmişdilər ki, axırda sinnə çatan vaxtda və kasıb olan vaxtda yenə öz kamalların səbəbinə güzəran sahibi və hörmət sahibi olurlar. Amma bu vaxtda Allah-təala kasıba ağıl versin. Elə ki, uşağı yeddi yaşma yetişir təlim edəcəkdir, get bazarda kömür yükü və saman və odun yükü apar, düşür. Hər birindən bir qəpik alarsan. Və get toyuq sat!

Qərəz, bu növi işlər ilə öz uşaqların avara və sərgərdan edirlər. Və uşağın əli hər tərəfdən üzülür. Nə oxuyub tərbiyət tapa bilir ki, halallıq ilə güzəran edə və nə sənət bilirlər ki, o sənətin bərəkətindən dolana bilələr. Böyüyüb qahrlar avara. Məşğul olurlar bir para bədzad işlərə, oğurluğa və qumar oynamağa və bir para həyasız işlər onlardan əmələ gəlir və çox bişərın olurlar. Çünki nə müəllim tərbiyəti görürlər və nə ustad cəfası çəkirlər. Xudsər dolanmaq ilə bu gunə bitərbiyət və kasıb olub, axırları heç olur.

Və yenə bir para bəyzadə uşaqları ki, qədim vaxtda olan müdərrislərdən tərbiyət taparmışdılar və islam elmin oxuyub kamil olandan sonra gedib rus elmi də oxuyub, kamil olub, Rusiya dövlətinə qulluq edirdilər. O mirzələr çox kamil adamlar idi və onlara tez vaxtda qulluq verilirdi və onların qulluğu otuz il, bəlkə artıq çəkirdi. Və onlardan bir para islam şəriətinə layiq olmayan işlər görünməzdi. Həmin şəriət hökmündə dolanıb öz qulluğuna mübaşir olurdular. Yenə onların bu günə təmiz rəftar etməklərinə səbəb bu idi ki, əvvəl öz dinlərin hökmündən dürüst xəbərdar olurdular, sonra sair alimləri oxuyub təlim tapırdılar. Və bir para kitablar və Qurani-müzil ki, rusca tərcümə olunubdur. Həmin o mirzələr onları tərcümə ediblər. Çünki qədim mirzələr təmamən ərəbdə və farsda çox kamil adamlar imiş. O cümlədən birisi bizim əmimiz Mirzə Məhəmmədhəsən bəy Vəliyev. Belə ki, neçə il bundan əqdəm Şirvanda Rus dövləti seyidlərin şəcərələrin yığıb yetişdirdi. O vaxt heç bir dəftərxana mirzələri bacarmayıbdır ki, o şəcərələri rusca tərcümə edələr. Çünki o şəcərələr təmamən ərəb kəlməsi ilə olur. Mirzə Məhəmmədhəsən iki gün iki gecədə təmamın ərəbdən rusca tərcümə edib və bu əhvalı içəri dövlətə məlum ediblər. Bu barədə mərhum əmim üçün artıq hörmət olmuşdu. Və bir hörmətli medal dövlətdən iltifat olunmuşdu.

Əgərçi hər əsrdə kamil adam olur. Amma bu vaxtda tapılanlar yenə həmin vaxtın adamlarındandır ki, əlli il və qırx il bundan əqdəm tərbiyət tapıblar. Yoxsa bu vaxtda olan mirzələr ki, on beş il və iyirmi il olur ki, qulluqda və sair əmrlərə mübaşir varlar, bunların müsəlmanca yazdıqları hürufatın bir kəlməsin dürüst görməzsən və əbədi müsəlman elmindən xəbərləri yoxdur və bilməzlər ki, müsəlmanlığın şərti nə növlədir. Odur ki, hər iki tərəfin vacib olan əmrlərinə itaət etməyib, həmişə aləmi-cahillikdə qalırlar. Nə islam şəriətin hökmü ilə rəftar edirlər və nə məsihiyyə şəriətilə.

Və bir də o vaxtda təlim tapan adamların çoxunun təbi-şeri olurdu. Və onlardan neçəsi hər biri bir cild kitab nəzm ilə deyiblər. Və onlar kimi şirintəb və xoşxətt bu əsrdə, bu vilayətdə görünmür. Onlar yazdığı xətləri indiki adamlar yaza bilməzlər. Və onların yazdığı ibarətləri bu vaxtın adamları oxuyub mənasın anlamazlar, məgər mollalar. Yoxsa o adam ki, özünə güman edir ki, mənim savadım var, bunlar keçən adam kimi olmaq cəmi cəhətdən mümkün deyil. Hər bir sənətkar da bunun kimidir. Məgər bir memar bu vaxtda tərəqqi edibdir? Sair ustakarlar və elm sahibləri təmamən qədim vaxtda olanlardan əskikdirlər? Həmçinin övrətlər arasında ki, qədim vaxtı bir para zərif işlər var idi, güləbətin, düzlik və rəhik və bələkdüzlük bunlar kimi işlər ki, təmamən ipək və güləbətin iş işlərdilər, indi bilmərrə sağit olub. Həmin bir fərş toxumaq adət olubdur. Əgərçi bizlər belə hesab edirik ki, bu vaxtda olanlar tərəqqi ediblər, nahaqdır. Tərəqqi etməz. Həmin budur ki, evləri qəlbi etmişik və libaslarımızı faxir və bir para adət qoyulur ki, bundan sonra gələnlər lənət edəcəkdirlər. Çünki bir para adətlər ki, qoyulurlar şəriət əmrilə dürüst və bərabər deyil. Bunun kimi ki, kişilər övrət kimi özlərinə zinət verirlər və övrətlər kişi kimi toqqa bağlamaq və saat qoymaq və çəkmə geymək və bu gunə işlərə iqdam etməyi özlərinə zinət hesab edirlər. Həranki şəriətdə bu gunə əmrlər haramdır. Həmin bu vaxtın əhlin kamalı və tərəqqisi bu tövr işlərdir.

## ÜÇÜNCÜ FƏSIL YAZILIR O PƏHLƏVANLARDAN Kİ, BU VİLAYƏTDƏN ƏMƏLƏ GƏLİBLƏR

Belə ki, bundan əqdəm Dördlər qurdu məhəlləsində bir pəhləvan var idi. Onun adı pəhləvan Nabat və sənəti dabbağlıq idi. Çox zorlu və güləşkən adam idi.

Və heç kəs onun arxasın yerə qoymayıbdır. Öz vaxtında olan pəhləvanlar ki, Şəkidən və Təbrizdən və Badkubədən gəliblər, təmamın mərhum Cəfərqulu xanın qulluğunda basıbdır. Bir pəhləvan Sarabdan gəlib, adı pəhləvan Rüstəm idi. Özünə dovtələb olub, gəlib Qarabağa ki, pəhləvan Nabat ilə küşti tutalar. O vaxt qəzadan pəhləvan Nabat bərk naxoş imiş. Özüylə güləşmək mümkün olmayıbdır. Amma yanında bir növcəsi var imiş. Adı pəhləvan Seyid Həsən. Həman pəhləvan Rüstəmi bu növə basıbdır. Amma sair vaxtlarda bir pəhləvan ki, hər yerdən gələrmişlər, təmamın pəhləvan Nabat basarmış. Və bir nəfər pəhləvan Şəkidən gəlib adı pəhləvan Bağır. Çox adlı və tənuměnd adam imiş. Onu basıb və neçə pəhləvan Badkubədən gəliblər, onları təmamən basıbdır. Və yenə Təbrizdən vəliəhd qulluğunda mərhum Məhəmməd şahın pəhləvanı var imiş. Onu basıbdır. Elə ki bu tövr olub: Təbrizin lotuları bu fikrə düşüblər ki, pəhləvan Nabatı öldürələr. Bu əhvaldan qarabağlı camaatları xəbərdar olublar. Gəlib Xanıkov konsula şikayət ediblər. Xamkov konsul pəhləvan Nabatı gətirdib öz qulluğunda saxlayıb və qarovul ilə Təbrizdən yola salıb və pəhləvan Nabat küşti tutan vaxtda dizlərinin gözünə aya bağlarmış və yaxşı mil oynadarmış. Çox qüvvətli adam imiş. Belə ki, bir gün bir rəs kəl qızıb Xəlfəli qapısından çövdar malından ayrılıb qaçıb bazara, ta gəlib aşağı bazarda pəhləvan Nabata düçar olub və pəhləvan Nabat çiynində bir güni mal gəlirmiş. Bazarda görüb xalq hər biri bir yana qaçırlar. Soruşub bu nədi? Deyiblər: Pəhləvan Nabat, qaç ki, bir qızmış kəl bazar adamın qırdı. Bu halda kəl gəlib yetişir, pəhləvan Nabat olan yerə. Elə ki kəl pəhləvan Nabata soxulur. Pəhləvan mal günin çiynindən atıb bu kəlin buynuzlarından tutub boynun qanurub yıxır yerə və oturur boynun üstə. Xalq gəlib kəlin əl və ayağın bağlayıb, saxlayırlar ta sahibi gəlib bir növ ilə aparır.

Və yenə həmin Dördlər qurdu məhəlləsində Seyid Həsən adlı bir nəfər pəhləvan var idi. Pəhləvan Nabata bərabər olmazdı. Bir-birilə həftədə bir dəfə Cəfərqulu xanın qulluğunda küşti tutardılar və oynaşardılar. Amma heç birisi bir-birin basmamışdı. Və bu Seyid Həsən yenə neçə nəfər pəhləvan ki, Badkubədən və Salyandan və Təbrizdən və sair yerlərdən ki, gəliblər, təmamın arxasın qatlıyıbdır və ölüncə bir pəhləvan onun arxasın yerə qoymayıbdır. Və bir də həmin pəhləvan Seyid Həsən bir para işlər tutarmış ki, adam təəccüb edərmiş. Belə ki, bir fnanqal odu təmamən bir-bir əlində sürrüb keçirərmiş və odlu kösövü dilinə çəkib dili ilə keçirərmiş, nə əli və nə dili yanmaz imiş və dəmiri qızdrrıb elə keçirərmiş. Oldur ki, o vaxtdan o tayfalara kösöy yayılan sufilər deyirlər. Onun odun hərarətindən ehtiyatı yox imiş. Əli və ayağı ilə və dili ilə nə qədər istəsəmiş odu keçirib və bir zəhmət görməz imiş.

Və yenə bir nəfər pəhləvan Çuxur məhəlləsində olubdur və onun adı pəhləvan Məhəmməd idi. Bu da çox görkəmli və şücaətli və tənumənd adam imiş. Neçə nəfər pəhləvan basıbdır. Amma bir az kəmcürət adam imiş. Öz şücaətinə layiq o qədəri zoru və cürəti yox imiş. Həmin çox görkəmli və nəzərə gələn və meydan dolanan və yaxşı milbazlıq və rübai oxuyan pəhləvan imiş ki, həmişə mərhum Cəfərqulu xanın qulluğunda mərikə qurub, növçələr ilə küşti tutarmış. Amma pəhləvan Nabata və pəhləvan Seyid Həsənə bərabər deyilmiş.

Və bir də neçə dəstə qaçaqlar ki, hər əsrdə çıxıblar, onlardan bir neçə kəlmə yazıb məlum edək ta məlum olsun ki, onlar nə tövr bəd bihesablıq ediblər və axırları nə tövr olubdur. Belə ki, qədim vaxtı Rusiya dövləti qalaya təsərrüf olandan sonra o vaxtlarda ki, mərhum İbrahim xanın dəftərxanası dustaqxana idi, şil qurdlarından bir nəfər qaçaq çıxıb, onun adı Zaman idi. Xalqa ondan çox zərər olurmuş. Bir müddət öz hünərinə dolanıb və hər yerdə çəpavül edib, bəd bihe-sablığla məşğul imiş. Əvvəl onu rurublar və dustaqxanada irniş. Bir tövr olub qaçıbdır və bu Zamanın bir anası var imiş çox tamaşalı, adı Həbətə imiş. Belə ki, o, övrətin boyu bir arşın və eni üç çərək imiş. Uşaqlar dalma düşüb, sataşarmışlar və deyirmişlər:

- Bu gün-sabahdı görərsən, Zaman bir dəstə yasavul ilə yenə dustaqxanaya gəldi.

Həbətə qarnına döyüb belə deyərmiş:

- Hərgah Zaman bu qarından çıxıbdır, bir də rusun əlinə düşməz. Qərəz, bir müddət yenə Zaman gəzib və hər yerdə çəpavül edərmiş. Bir gün Xojalı (Xocalı) çaparxanasında poçt üstə düşüb, istəyib poçtu dağıda. Bir neçə nəfər adam durub yalvarıbdır. Sonra qazaq bir güllə atıb Zaman ölübdür və həmin poçtxananın qabağında Zamanı başı üstə basdırıblar. Bir neçə gündən sonra gecə gəlib, çıxardıb aparmışdılar. Bunun dövranı bu tövr olub və axırı belə olubdur.

Və yenə bir qaçaq ki, İsmayıl bəy imiş. Cavanşir mahalından Amaniyan qurdlarının obasından çıxıb, qraf naçalnikin vaxtında bu da çox işlər edib ki, onun tutduğu işləri yazmaq mümkün deyil. Çox poçt dağıdıb və çox bəlalər xalqın başına gətiribdir. Ələ düşməyib, gedib Sultanbud təpəsində oturub və o ətrafdan bir nəfər qoca övrət gətirib, o qocaya bir dəst libas verib, təmamən qırmızı. O qarıya deyib:

- Hərgah bunları çıxardasan, gəlib evini dağıdacağam. Hər kəs səndən soruşa ki, a qarı nənə, bu nə qırmızı paltardı geymisən. Cavab ver ki, İsmayıl dövranıdır.

Belə olar bir müddət. Bu növlə keçərdi. Sonra öz yoldaşı Gülməmmədi nam yatdığı yerdə öldürmüşdü və gəlib naçalniyə xəbər gətirmişdi ki, İsmayılı öldürdüm.

Və qraf-naçalnik hökm edib ki, İsmayılın meyitini qalaya gətiriblər. Tamam qala əhli tamaşaya gedib baxırmışlar. Naçalnik gəlib İsmayılın uzun bığları var imiş, tutub bığından silkələyib deyir:

- Necədi, a İsmayıl bəy! Yenə qoçaqlıq edəcəksənmi?

Və bunun axırı bu tövr olubdur.

Və yenə Kəbirli uyezdindən Xınzırıstan obasından Qanlı Behbud qaçaq olubdur. Bu da bir para işlər edib və çox yerlərdə çəpavül edib və adam öldürüb, bəd bihesablığı həddən artıq edib və cürətin bir məqama yetirib ki, gəlib Əsgəran qalası ki, qaladan üç ağac aşağıda məlumdu, həmin qalaçada məskən edib və neçə gün orada oturur, hər kəs qaladan gəlirmiş, tutub saxlarmış və hər kim aşağa mahallardan gəlirmiş, yenə tutub həmin Əsgəran qalaçasında saxlarmış və o vaxt naçalnik Tarxanov imiş və Murov, yarımsaqqal Ohancan bəy İsfəndiyarov imiş. Qəzadan o günlərdə ki, Behbud Əsgəranda mənzil edib və gəlib-gedənləri rutub soyandan sonra dustaq edib saxlarmış. O günü Murov Ohancan bəyin qardaşı Əmircan bəy qalalı Ağa Rəfi ilə poçta minib Gəncə şəhərinə gedirmişlər. Bunları da Behbud tutub

saxlayıbdır və bir saatdan sonra Əmircan bəyi tanıyıb ki, Murov Ohancan bəyin qardaşıdır. Bu fikrə düşüb ki, Əmircan bəyi öldürə. Ağa Rəfi deyib ki, mən mərsiyəxanam və bu erməni Təbriz əhlindəndir. Yenə bir nəfər Qanlı Behbudun yoldaşı Ağa Rəfini tamyıbdır ki, sən qalalı Ağa Rəfi deyilsən? Qərəz, Ağa Rəfi yalvarıb, bir tövr olub ki, Əmircan bəyi öldürməyiblər və bunları buraxıblar. Elə ki bunları buraxıb, sair adamlar ki, neçə gün imiş tutub saxlamışdılar, təmamən buraxıb və özü yayınıb gedibdir. Bu əhval naçalnik Tarxanova və Murov Ohancan bəyə yetişib, belə hökm olub ki, gərək hər tövr olsa, Qanlı Behbud ya tutula və ya öldürələr. O vaxt Köçərli Səlim bəy Oğrubəyi imiş. İki yüz nəfər atlı Səlim bəyə verib yollayıblar, Qanlı Behbudu ya tuta və ya öldürə. Səlim bəy öz atlıları ilə Əsgəran qalaçasından aşağı gedirmiş. Görüb bir nəfər seyid yol ilə gedir. Seyidə deyib:

- Seyid, bilirsən Behbud ha tərəfdə olar? Seyid deyib:

- Səlim bəy, qaçağın yerini bilmək olmaz. Səlim bəy seyidə deyib:

- Beş manat sənə nəzir etdim. Allah bu gün Behbudu mənə yetirsin.

Bu nəziri edib yola düşdü. Qəzadan həmin seyid Behbuda düçar olur. Behbud seyiddən soruşur:

- Seyid, nə var, nə yox?

Seyid əhvalatı nəql edir ki, Səlim bəy Oğrubəyi iki yüz nəfər atlı ilə səni axtarır və mənə beş manat nəzir edib ki, səni tapa. Behbud beş manat pul çıxardıb verir seyidə ki, bu sənin o elədiyi nəziri, on manat mən sənə nəzir etdim. Allah Səlimi bu gün mənə yetirsin. Üz qoyur Səlim bəyin dalınca, gedib Xaçının o tayında Kötəlpara kəndində Çirağ dəyirmanının yanında Səlim bəyə yetişir. Tamam atlıların dağıdır. Hər birisi bir yana qaçırlar və Səlim bəy istəyir özün kəndə sala. Qanlı Behbud yetirib Səlim bəyi öldürür. Və bu Qanlı Behbudu yatdığı yerdə bir nəfər övrət həna qılıncı ilə öldürmüşdü. Bunun da zavalı bu tövr olubdur.

Və yenə bir nəfər Ağa adlı qaçaq Zəngəzur uyezdinin Bayandur kəndindən çıxıbdır. Bayandurlu Ağa, bu Ağa çox cürətli və hünərli qaçaq imiş. Əvvəl bu Ağanı bir cüzi təqsirin üstə tutub Yerevan

(İrəvan) şəhərində dustaq ediblər. Bir nəfər yoldaş ilə neçə vaxt İrəvan dustaqxanasında qalıblar. Sonra İrəvandan yoldaşı ilə qaçıb. Və onun qaçmaq əhvalatı bu tövr olubdur: Bir gün yoldaşma Ağa deyib: "Gəl qaçaq! Ta qaçmasaq bizə qurtarmaq mümkün olmayacaqdır". Ağanın yoldaşı naxoş imiş. Qəbul etməyibdir ki, men naxoşam. Ağa deyib ki, mən səni dalımda aparıram. Yoldaşı razı olub, qaçıblar. Ağa üç günlük yolu bir gün və bir gecədə yaylaq yolu Göyçə tərəfdən yoldaşı dalında qaçıb və ondan sonra qaçaq olubdur ki, cəmi iqlimi dolanıb. Bir tərəf Xorasan və bir tərəf Kərbəla və bir müddət Tehranda qalıbdır və bir müddət Osmanlı məmləkətlərində dolanıb. İran dövlətini də gəzib, sonra yenə Qarabağ tərəfə gəlib. Qərəz, bir gün gəlir öz evinə ki, bir neçə gün qala. Çünki qılçasın at vurub sındırmış imiş. Evində yatırmış. Ağanın düşmənlərindən birisi gedib Murov İvan bəyə xəbər edibdir ki, Ağa gəlib Bayandurda yatır və qılçasın at sındırıb, qaça bilməz. Yaxşı fürsət vaxtıdır. Murov İvan bəy iki yüz nəfər atlı və yüz nəfər piyada çəlik cəm edib səhərə iki saat qalmış gəlib Bayandur kəndinə və Ağa olan evin qapısın kəsib, məşğul olublar tüfəng atmağa. Ağa xəbərdar olub yoldaşı ilə kəsir qapını. Hər kəs irəli gəlir, odlayır. İvan bəy görür ki, çox adam öləcəkdir. Hökm edir küləş götürsünlər ki, damı odlayalar. Elə ki bu işə bina qoyurlar, Baharlı sakini İsmayıl bəy Vəliyev orada imiş və xəbərdar imiş ki, Ağa olan evdə çox övrət və uşaq var. Çünki Ağa naxoş olmağa görə və səfərdən təzə gəlməyinə görə tamam övladı Ağanı görməyə gəlib cəm imişlər. Qərəz, Murov İvan bəyə məlum edir ki, a İvan bəy, hərgah fikrin budur ki, Ağanı ya tutasan və ya öldürəsən, haqqdır. Yoxsa bu qədər övrət və uşaq od içində yandırmağı və gülləbaran etməyi istəyirsən, bu iş nə Allaha rəvadır və nə padşaha xoşdur. Sən buyur bir qədəri aram olsunlar ta mən bir-bir o övrət və uşağı çıxardım. Ağa ilə özün bilərsən. Murov razı olub və Mirzə İsmayıl bəy gedib damın qapısında durub və bir-bir övrətləri və uşaqları damdan çıxardıb, ondan sonra məşğul oldular damı odlamağa və küləşi odlayıb damın bacasından içəri tökürmüşlər. Bəlkə rüstü boğa, çölə çıxalar. Qərəz, Ağa və yoldaşı içəridə damın divarın dağıdıb girirlər tövləyə və atlanıb, birdən uca səslə "Ya Əli" deyib tövlənin qapısından çıxırlar. Qabaqca Ağa, dalınca yoldaşı Mirzə İsmayıl bəy. Belə nəql edilirdi ki, Ağa qapıdan çıxan vaxtda

damın üstündən və ətrafdan iki yüz tüfəng atdılar ki, təmamən əlbəəl idi. Heç birisi Ağaya dəymədi. Amma yoldaşın öldürdülər. Elə ki Ağa bir tüfəng mənzili qaçdı (qaşdı) atın saxladı və Murova söyürdü və atışırdılar. Murovun pomoşniki paruçik Şirin bəy Əlyanlı sakini Ağaya deyib: - A köpək oğlu, rus padşahı ilə padşahlıq edəcəksən? Niyə başını götürüb bir yana getmirsən? Bu sözü deyib, bir güllə atıbdır. Güllə gedib Ağanın atının yalından dəyibdir. Və Ağa Şirin bəyə söyüb ki. A köpək oğlu, elə güllə atmazlar. Al, gəldi. Bir güllə atıb gəlib Şirin bəyin atının qarnından dəyib və at yıxılıb. Şirin bəy atın altında qalıb, həmin saat ölübdür. Həmin atın altında qalmaqlıq ilə sonra Ağa yayınıb və Murov Şirin bəyin meyitin götürüb öz yerinə qayıdıbdır. Ağa Mincivan bəyləri ilə dost imiş. Həmişə gəlib-gedirmiş. Mincivan bəyləri belə tədbir ediblər ki, gərək bu dəfə Ağanı öldürək. Əvvəl-axır Ağadan bizlərə zərər gələcəkdir. Bir gün yenə Ağa gəlib mincivanlı Əbutalıb bəyin evinə. O gecə orada qonaq olub, səhər atlanıb gedən vaxt təmamən Mincivan bəyləri Ağa ilə atlanıblar ki, bir qədər yolu səninlə söhbət edə-edə biz də gedəcəyik. Elə ki, qışlaqdan bir qədər gediblər, o yerlərdə yaxşı at çapmalı və tüfəng oynatmalı düzlər var. O düzlərə çıxanda təmamən tüfənglərin çıxardıblar ki, at çapaq və tüfəng oynadaq. Ağa etibar edib, qəflətən təmamı birdən Ağanı gülləbaran ediblər. On səkkiz güllə Ağanın bədəninə dəymişdi və Ağanın o vaxt yoldaşı yox imiş. On dəqiqə sağ qalıb, həmin bu sözü deyib ki, a kömək uşağı, məni namərdlik ilə öldürdünüz. Allah bu intiqamı sizdən alsın.

Ondan bir az sonra həmin Mincivan bəyləri ki, təmamən bir-birilə övlad idilər, mülk üstə bir-birini qırdılar. Yeddi-səkkiz nəfər öldü və yeddi-səkkiz nəfər Sibirə getdilər. Bunların axın bu tövr oldu və bayandurlu Ağanın axırı belə oldu.

Və bir də yenə Zəngəzur uyezdinin Min kəndindən bir nəfər qaçaq çıxıb. Bir neçə nəfər yoldaşları ilə ki, dəstənin adlısı Rüstəm irniş. Bunlar da bir müddət dolamblar və güzarları Aşağı Kəbirli mahalına düşüb və həmin mahalda Xınzırıstan kəndində Molla Hüseyn adlı bir kişinin evinə şəbxun aparıblar. Həmin kişinin hər nə dünya malı var imiş təmamən aparıblar və özünü öldürüblər. Və bu qaçaq Rüstəm bayandurlu Ağanın vaxtında imiş. Bir müddətdən sonra bayandurlu Ağanın güzarı Kəbirli mahalına düşüb. Həmin

Molla Hüseynin anası xəbərdar olub ki, Ağa bu yerlərdədir. O övrət gedib Ağanın yanına və çarqətin başından açıb, tullayıb Ağanın ayaqlarına ki, gərək mənim oğlumun qanını qaçaq Rüstəmdən alasan. Və çox yalvarıb. Bayandurlu Ağa bu övrətin sözün qəbul edib və xatircəmlik verib ki, bir neçə gün səbir elə, sənə məlum olar. Övrət qayıdıb öz evinə. Və Ağa həmin gün qayıdıb Zəngəzura. Gəlib qaçaq Rüstəmi öldürüb və bir qolun kəsib gətirib həmin övrətə verib ki, o övrət üçün təsəlli olsun.

Elə ki övrət bu tez vaxtda Ağanın buna təsəlli verməyin görüb, neçə dəfə Ağanın atının başına dolanıb və Rüstəmin qolun ocaq qalayıb yandırıbdır.

Və yenə bir nəfər qaçaq Zəngəzur mahalından çıxıb ona Kürdoğlu Safyu deyirmişlər. Çox birəhm və insafsız adam imiş. Hər yerdə xəta edib, hər kəs onun əlinə düşsəymiş salamat qurtarmaz imiş. Göyçədə və Dərələzidə və Ayrımda çox işlər edib və neçə dəfə yaylaqda və qışlaqda obalar dağıdıbdır. Sonra məlum olmayıb ki, axırı nə tövr olubdur.

Və bir də Kəbirli mahalında Ağ Kəhriz adlanan yerdə bir nəfər adam var idi, adına Mirzə oğlu Həsən deyərdilər. O da çox qorxusuz və cürətli adam idi. Bir para işlər tutdu. Amma aşkara düşmədi. Nə bir gün dustaq oldu və nə qaçaq oldu. Hər iş ki, etmişdi, pünhan qaldı. Bunun işləri bu idi ki, Şirxanın oğlun və övrətin Sibirə apardılar. Şirxanın on iki yaşında bir oğlu qalmışdı. Gəlib Mirzə oğlu Həsənin yanında ağlayıb ki, gərək türkmən yüzbaşısın gedib öldürəsən. Bizim bu işə düşməyimizə səbəb o, olubdur. Və iki yüz manat pul verib. Mirzə oğlu Həsən pulu qəbul edib, axşam vaxtı yola düşüb. Qaranlıq düşən vaxtda türkmən yüzbaşısının evinə gedib, qapıdan içəri girib, əlində tüfəng salam verib, həmin saat yüzbaşını vurub öldürübdür. Tamam külfəti oturduğu yerdə tez qayıdıb. Obanın adamları gəlib ki, bunu kim öldürdü? Deyiblər ki, bir nəfər uzunboylu idi. İçəri girib salam verdi. O saat da kişini vurub öldürdü.

Və yenə həmin Mirzə oğlu Həsənin yanına bir nəfər abırlı adam gəlib ağlayır ki, bəs Səhləbatlı Aslan mənim namusuma sataşıbdır və bu iş xalq arasında şöhrət edib və mənim o hünərim yoxdur ki, onu öldürəm. Gərək bu pulu qəbul edib, gedib Aslanı öldürəsən. Mirzə oğlu pulu qəbul etməyib təvəqqəsin qəbul edib. Gedib Aslanı

öldürmüşdü. Çox belə işlər etdi, girə düşmədi. Sonra həmin Mirzə oğlu Həsəni öz evində övrətilə yatdığı yerdə bir nəfər on yaşında uşaq öldürdü. Və o uşaq ələ düşmədi, qaçıb getdi o taya, İran tərəfinə. Belə ki, məsəl deyiblər:

Hər nə doğrarsan çanağına, o çıxacaq qaşığına

Və yenə Zəngəzur uyezdindən Camal bəy və oğlu İsmayıl bəy və qardaşı oğlu Cəbrayıl bəy qaçaq olublar. Və bunların əhvalatı bu tövr olubdur: Belə ki, Camal bəy ilə Cabbar bəyin davası var imiş. Cabbar bəy Camal bəyin qardaşı Məhəmmədhəsən bəyi öldürmüşdü və işləri divana düşmüşdü. O vaxt Xandəmirov Murov idi. Belə olub ki, Murov Cabbar bəyin tərəfin mülahizə edib və Camal bəygili təqsirləndirib. Belə hökm olub ki, Camal bəyi oğlu ilə və qardaşı oğlu Cəbrayıl bəy ilə tutarlar. Bunlar qaçaq olub divan tərəfdən hökm olub ki, Camal bəyin hər bir şeyi qarət olsun. Gəliblər Camal bəyin ilxı ilə atların və otuz dəst yorğan-döşəyin və sair dünya malın təmamən çəpavül ediblər və bir dəstə atlı ilə düşüblər Camal bəygilin dalma ki, tutalar. Yaylaqda Xandəmirov və pomoşniki Əli bəy çinovnik bir dəstə atlı ilə Camal bəy ilə atışıblar. İsmayıl bəy Camal bəyin oğlu atışan vaxtda Əli bəyi vurub öldürmüşdü və qaçıb qurtarmışdılar. Ondan sonra gedib Təbrizdə qalmışdılar və Təbrizdən tutub göndərmişdilər İrəvan şəhərinə və İrəvandan göndərmişdilər qalaya. Burada bir neçə vaxt dustaq oldular. Bir müddətdən sonra Şirvandan iki nəfər polkovnik gəldilər ki, bunların işin silist etsinlər. Onların günahlarını dürüst biləlilər. Və o polkovniklərin biri Smirnov idi və birisi Zinovyeviç idi. Və bunların yanınca gələn çinovnik Mirzə Məhəmmədhəsən bəy Vəliyev bizim əmimiz idi. Elə ki silist oldu Camal bəy və Cəbrayıl bəy müqəssir olmadı və İsmayıl bəy üçün Sibir kəsildi. Əli bəyi öldürməyə cəhət və Xandəmirovu badsuda saldılar və Cabbar bəyi tutub göndərdilər Tiflisə. Bir neçə vaxt Tiflisdə dustaq oldu. Sonra Cabbar bəyin qılçaları çolağ oldu...

**HƏSƏN İXFA ƏLİZADƏ**

# ŞUŞA ŞƏHƏRİNİN TARİXİ

## HƏSƏN İXFA ƏLİZADƏ

Mollanəsrəddinçi şair, dramaturq, nasir Əlizadə Həsən İxfa (1893-1972) ədəbi fəaliyyətə 1910-cu ildə "Molla Nəsrəddin" jurnalında başlamışdır. Həyatını Şuşada keçirmiş, uzun müddət müəllimlik etmişdir. 1927-ci ildə Pedaqoji İnstitutu bitirmişdir. "Namərdi ruzgar", "Ələsgər", "Məkri zənan", "Balaxanım" və başqa əsərləri yerli səhnədə göstərilmişdir. Eyni zamanda, xeyli hekayələri və şeirləri də vardır.

Həsən İxfanın maraqlı yazılarından biri də "Şuşanın tarixi"dir. Həvəskar ziyah bir neçə dəftərdə Şuşa şəhərinin binası qoyulandan Sovet dövrünə qədər baş verən hadisələrdən bəhs açır. Şübhəsiz, onun qeydləri elmi mənbələri əhatə etməkdən daha çox xalq rəvayətləri və məlum "Qarabağnamə"lərə əsaslanır. Müəllifin Şuşadakı came məscidlərində, Mirsiyab karvansarasında daşlara həkk edilmiş kitabələrin bir neçəsinin mətnini öz tarixi qeydlərində verməsi müəyyən elmi əhəmiyyətə malikdir.

Bu kitabda Həsən İxfa Əlizadənin "Şuşanın tarixi" əsəri ixtisarla verilir.

# ŞUŞA ŞƏHƏRİNİN TARİXİ

## Müqəddimə

Zahid demə: "Dünya nə sənindir, nə mənimdir",
Sən sevmədiyin cümlə bu yerlər vətənimdir,
Verməm vətənin bir qarışın yadlara əsla!
Şəfqətli anamdır bu mənim, can verənimdir!..

Şuşa! Bu ad nə qədər əziz, doğma, munis və sevimli bir ad; nə qədər dilnəvaz və mehriban bir ana - vətəndir. Şuşa o qədər gözəl bir yerdir ki, onun adı qarşısında daima diz çökərək "xaki-payini" hörmətlə öpmək mənim ən müqəddəs vəzifəm olub. Bu şəhərin uğrunda hər bir varlıqdan: candan, maldan, həyatdan və sairədən keçmək, al qanlara bulanmaq, məhv olmaq mənim üçün ən müqəddəs bir səadət və şərəfli bir haldır.

Qarabağ dağlarından birinin ən yüksək zirvəsi olan bir yamac üzərində bina olunmuş bu şəhər ən mühüm strateji bir mövqe tutmuşdur.

Şuşa şəhəri Bakı, Gəncə və başqa Azərbaycan şəhərlərinə nisbətən həm yaşca çox gəncdir, həm də həcmi etibarilə kiçik bir sahəni əhatə edir. Buna baxmayaraq, keçən əsrlərdə bu şəhər sənət, ədəbiyyat, incəsənət, xüsusilə musiqi sahəsində Zaqafqaziyada ən mühüm və demək olar ki, birinci yer tutmuşdur. Qısa tarixi bir dövrdə Şuşa şəhərində çoxlu istedadlı şairlər, alimlər, müəllim və sənətkarlar yetişmişdir.

Molla Pənah Vaqif Şuşa mühitində nəşvi-nüma tapmışdır. Qazax mahalında doğulsa da, Vaqifin dünyagörüşü, yaradıcılıq tərəqqisi Şuşada zirvəyə çatmışdır və "Hər oxuyan Molla Pənah olmaz" zərbi-məsəli, ən yüksək ad və qiymətə Şuşa mühitində yüksəlmişdir. Şuşanın Vaqifləri, Zakirləri, Asiləri, Natəvanları, Aşıq Pəriləri, Kəminələri, Nəvvabları yetişmişdir.

Şuşanın "Məhfili-üns" (məclisi-üns), "Məclisi-fəramuşan"ı bütün Azərbaycana səs salmışdır. Bu məclislərə Bakının "Məcməüş-şüəra",

Şamaxının "Beytüs-səfa", Gəncə və başqa şəhərlərin ədəbi məclisləri dərin hörmətlə yanaşmışlar.

Bu tarixi şəhərdə Hacı Hüsü, Məşədi İsi, Əbdülbaqi, Sadıqcan, Cabbar Qaryağdı oğlu, Keçəçi oğlu Məhəmməd, İslam Abdullayev, Seyid Şuşinski kimi müğənnilər, Mir Möhsün Nəvvab, Sadıqcan, Üzeyir Hacıbəyov kimi musiqişünaslar, Əhməd bəy Ağayev (Ağaoğlu Əhməd), Haşım bəy Vəzirov, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Fərhad Ağazadə (Şərqli) kimi bir çox jurnalist, ədib və dramaturqlar dünyada məşhur və mərufdurlar.

* * *

Oxuculara təqdim olunan bu kiçik əsərdə doğma Şuşamızın ilk təməl daşı qoyulduğu gündən (1750-1751-ci illər) bu günə kimi keçirdiyi xoşbəxt günlərdən, eyni zamanda məyus və faciəli zamanlarından danışılacaqdır. Mən bu tarixi qeydləri yazarkən Mirzə Camalın "Qarabağ tarixi"ndən, Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sindən, A.Bakıxanovun "Gülüstani-İrəm" əsərindən, Məhəmmədhəsən Baharlının "Qafqaz tarixi", "Azərbaycan tarixi" əsərlərindən, R.İsmayılovun "Azərbaycan tarixi" və başqa müəlliflərdən istifadə etmişəm. Bundan başqa, bir çox arxiv materiallarından, İran tarixlərindən, eləcə də 70 illik həyatım ərzində müşahidələrim, şahidi olduğum faktları da qeydə almışam. Bəzi uydurma, mübaliğə çar hökumətinə yaltaqlanmaq, Qarabağ xanlarına düşmənçilik edənləri ört-basdır edən (Əhməd bəy Cavanşir kimi) materiallardan ictinab etmişəm.

Qərəz nəqşi əst gəz ma baz mabəd,
Ke həstira nəhi benəm bəlaya.

Tərcüməsi: Qərəz ki, bu bir nəqşdir ki, bizdən sonra qalar, çünki hər bir varlıq daima baqi qalan deyil.

# PƏNAH XAN KİM İDİ?

Şuşa haqqında danışmaqdan qabaq onun bani və müəssisi olan Pənah xan haqqında bildiklərimi, yəni onun kim olduğunu əsili-nəsəbi haqqında topladığını məlumatı qısaca olaraq qeyd etməyi lazım bildim...

Qədim tayfalardan olan Cavanşirlərin əmirlərindən biri olan Pənahəli bəy bir müddət Gəncə xanlarının[1] yanında eşik ağası işlə-yirdi. Bir müddət işlədikdən sonra bu xidməti özünə "ar" hesab edərək oradan köçüb yenidən Qarabağın Cavanşir oymağına gəldi.

Pənahəli bəyin var-dövləti günü-gündən artıb çoxalır. Bu səbəbdən də hörmət, şövkət və izzəti də artıb Qarabağda ən məşhur bir adam olur. O, Qarabağda evlənir, ailə sahibi olur. Yenicə doğulmuş oğlunun adını Əli qoyurlar. Ata-anasının sevgili övladı bir az sarışın olduğu üçün onu Sarıca Əli deyə çağırırlar. Pənahəli bəyin ətrafına toplanan nökər, çoban, ilxıçı və qeyri xidmətçilərdən ibarət yeni təşkil olunmuş obanın adını bəyin sevimli oğlunun şərəfinə Sarıcallı (Sarıca Əlili) qoyurlar... Vaxt keçir Sarıca Əlidən olan oğlu İbrahim Xəlil ağa ata babasının dövlətini daha da artırır. O, Ağdamda bağ və mülk, Arazbarda və Araz qırağında mülk və yataq yerləri alır. Yaylaqda da özünə məxsus bir imarəti var idi ki, bu "İbrahim Xəlil qalası" adı ilə məşhur idi.

İbrahimxəlil ağanın iki oğlu var idi. Bunlardan birinin adı Fəzləli bəy, digərinin adı Pənahəli bəy idi. Hər ikisi cəsur, rəşid, bacanqlı və ağıllı gənclər idi.

İranda Nadir Qulu xan hakimiyyəti öz əlinə almış, Azərbaycanın bir çox yerlərini, o cümlədən, Cavanşir oymağını da işğal etmişdi. Adəti üzrə Nadir Qulu xan hər yerdə cəsur və rəşadətli gəncləri öz ordusuna cəlb edirdi. O, Cavanşir oymağından da İbrahimxəlil ağanın oğlanları Fəzləli bəyi və Pənahəli bəyi öz ordusunda xidmətə almışdı. Göstərdikləri şücaətə görə Nadir şah Fəzləli bəyi əvvəlcə naib, sonra eşik ağası təyin etmişdi. Çox keçmədi ki, xain adamların fitvası ilə Fəzləli bəy öldürüldü. Onun vəzifəsini kiçik qardaşı Pənahəli bəyə tapşırdılar. Çox keçmədi ki, xain və düşmən adamların fitnə və fəsadı ilə Nadir şah Pənahəli bəydən də şübhələndi və ona qarşı rəftarı dəyişdi. Nadir şahın ona qarşı olan qorxulu baxışlarından

1 Söhbət mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyindən gedir.

və qəzəbli rəftarından Pənahəli bəy anlayır ki, şah tez-gec onu məhv edəcəkdir. Eyni zamanda əlinə çomaq alıb yasavullarla həmsöhbət olmağı özünə ar hesab edib, fürsət tapan kimi oradan qaçmağı qərara alır. Bunun üçün də miladi 1745-ci ildə Nadir şahın hüzurundan qaçaraq Qarabağa - öz yaxın adamlarının içərisinə gəlib, orada sakin olur. Pənahəli bəy öz yaxın adamlarından bir dəstə təşkil edərək gah Qarabağ yollarında, gah da Şirvan çəmənliklərində dolanır və günü-gündən işləri tərəqqi etməkdə idi. Nadir şah dəfələrlə Şirvan və Təbriz hakimlərinə fərmanlar göndərib Pənahəli bəyin tutulmasını və şahın hüzuruna göndərilməsini təkidlə tapşırmışdı. Lakin bu fərmanı icra etmək heç də mümkün olmamışdı. Səbəbi bu idi ki, xalq Pənahəli bəyi müdafiə və mühafizə edirdi. Bu vəziyyət 1747-ci il camadiyəl axır ayının sonuna qədər davam etdi. Həmin tarixdə Nadir şah Xorasanda öldürüldü. şahın ölüm xəbərini eşidən kimi Pənahəli bəy qızmış bir şirə döndü. Hər tərəfə hücum edərək onu narahat edən düşmənlərə zərbə endirdi. Nadirin zülmü nəticəsində Xorasana və Gilana sürgün edilmiş Kəbirli, Cavanşir və başqa Qarabağ tayfalarının vətənə qayıtmağına şərait yaratdı. Pənahəli bəy onları qarşılamaq üçün Azərbaycan və İraq sərhədinə qədər gedib, onlara kömək göstərdi. Əlsiz-ayaqsız müflis olmuş qaçqın həmvətənlərinə mənzil, yer-yurd verib yaşayış üçün şərait yaratdı. Bununla o, əhali arasında son dərəcə böyük bir hörmət, nüfuz və rəğbət qazandı.

Pənahəli bəy öz nüfuzundan siyasi məqsədlə istifadə etdi. Artıq onunla Naxçıvan, Təbriz, Ərdəbil və başqa vilayətlərdə hesablaşırdılar. Bu vəziyyətdən istifadə edən Pənahəli bəy heç bir hakimdən fərman almadan özünü Xan elan edib Qarabağı, eləcə də qismən Gəncə, Təbriz, Ərdəbil və Naxçıvan vilayətlərinin bəzi torpaqlarını idarə etməyə başladı.

Pənahəli xanın bu şöhrəti Cənubi Azərbaycan hakimi Əmiraslan xana da yetişdi. Əmiraslan xan vaxt itirmədən şəxsən Qarabağa gəlir və Pənahəli xanla görüşür. Pənahəli xanın işlərini bəyənib həmin axşam ona sultan səhəri xanlıq rütbəsi verir. Nadir şahdan sonra İranda hökmdarlıq edən Adil şahdan xahiş edir ki, Pənahəli xana xanlıq rütbəsini təsdiq etsin... Adil şah öz növbəsində rəsmi surətdə Pənahəli xana xanlıq rütbəsi fərmanı, eləcə də cavahiratla bəzənmiş qılınc, çoxlu hədiyyələr göndərir. Pənahəli xanın şöhrəti gündən-günə ucalırdı.

# PƏNAH XANIN İNŞA ETDİYİ İLK QALALAR VƏ ŞƏHƏRLƏR

Biz burada ilk qala və şəhərlər sözünü şərti mənada işlədirik. Məlumdur ki, Qarabağ ərazisində Bərdə, Örənqala və Beyləqan kimi tarixi şəhərlər və qalalar vardır. Bu şəhər və qalalar Pənahəli xan dövründən əsrlərcə əvvəl yaranıb-yaşayıb, dəfələrlə dağılıb, xarab edilib, yenidən həyata qayıdıb. Bizim məqsədimiz tarixin yaddaşına sadiq qalan Pənahəli xanın inşa və təsis etdiyi ilkии qala şəhərlər haqda məlumat verməkdir. Məlumdur ki, Pənahəli xan hakimiyyətinin ilk illərində Bayat və Şahbulaq qalalarını tikmiş, orada hakimiyyət sürmüş və oranı tərk etmişdir. Bunun səbəblərini oxucuya çatdırmaq bizim məqsədimizdir. Həmin qalaları tərk etmək zərurəti isə Şuşa qalasının inşa edilməsinə şərait yaratmışdır. Yuxarıda dediyimiz kimi Pənahəli xanın dövlət, izzət və şöhrəti günü-gündən artıb yüksəlməkdə idi. Bu yüksəliş və inkişafı görən qonşu bəylər və xanların bir çoxu onun qarşısında əyilməyə və dostluq binası qoymağa başlamışlar.

Bununla belə Pənahəli bəy hakimiyyətə başlar-başlamaz, qarşısında belə bir vəzifə qoymuşdu: Qarabağı əhatə edən xanların bir çoxu zahirdə dost və müttəfiq olsalar da, fürsət məqamında qanlı bir düşmənə çevrilə bilərlər. Odur ki, xanlığın möhkəm bir istinadgahı yaradılmahdır. Bu daldalanacaqda yaşayış üçün zəruri binalar, eləcə də səngər, müdafiə hasarı tikilməli idi.

Bu məqsədlə Pənahəli xan 1747-ci ildə Bayat qalasının binasını qoydu. Qısa müddətdə qalaya hasar çəkdi, xəndək və başqa istehkamlar tikdirdi. Sonra Pənahəli xan ailəsini, qonşularını, mahalın başqa nüfuzlu şəxslərini köçürüb Bayatda sakin etdi.

Pənahəli xan bir müddət Bayatda yaşadı. Şəki xanı Hacı Çələbiyə burada qalib gəldi. Bu sınaq dövründə Bayatın coğrafi şəraitinin əlverişli olmaması meydana çıxdı. Əvvələn, yaz və yay vaxtı elat yaylağa getdiyindən qalanın ətrafında əhali azaldı. Bu səbəbdən qalanı elə yerdə tikmək qərara alındı ki, o həm dağ, həm də aranla əlaqədar olsun. Bu məqsədlə bir çox fikir, məsləhət və məşvərətdən sonra Ağdamın 5-6 kilometrliyində yerləşən və Şahbulaq adlanan yerdə qala və istehkam düzəltmək qərara alındı. Həqiqətdə də Şahbulaq Bayata nisbətən daha əlverişli müdafiə yeri idi. Miladi 1748-ci ildə

Şahbulaqda sürətlə qala və lazımi inşaat işləri aparıldı. Elə bu zaman Xaçın məliki Pənahəli xana mane olmaq istədi. Onlar ətraf ermənilərdən iki minə yaxın qüvvə toplayaraq Ballıqaya adlı yerdə səngər qurdular və Pənahəli xana qarşı üsyan qaldırdılar. Pənahəli xan əvvəlcə nəsihət və mülayimliklə erməniləri intizama çağırdı və dedi ki, Şahbulaqda qala tikmək onlara ziyanlı deyil, bəlkə həddən artıq mənfəətlidir. Lakin erməni bandaları Pənahəli xanı eşitməyib öz inadlarından əl çəkmədilər. Nəhayət, qanlı vuruşma başladı. Pənahəli xan özündən artıq silahlı ermənilərin səngərinə hücum edib üç günlük vuruşmadan sonra onları məğlub və darmadağın etdi. Bu hadisə Şahbulağın tikintisini daha da sürətləndirdi. Tezliklə Şahbulaq kiçik qala-şəhər halına salındı: Burada hamam, bazar, məscid və başqa zəruri binalar tikildi. Pənahəli xan Bayatdan və ətraf kəndlərdən öz etibarlı adamlarını Şahbulaq qalasına köçürtdü.

Əlbəttə, Şahbulaq Bayata nisbətən nə qədər əlverişli və möhkəm olsa belə, yenə də xanlığın artan tələbatına və məqsədlərinə cavab vermək səviyyəsində deyildi. Bu səbəbdən xan özünə daha qüdrətli bir müdafiə qalası yaratmaq qərarına gəldi.

O öz yaxın adamları ilə müzakirə, müşavirə edərkən Vərəndə məliki Şahnəzər onun köməyinə gəldi. Onun məsləhəti ilə Şuşa qalasının əsası qoyuldu.

Məlik Şahnəzərin Qarabağ Xəmsə məlikləri ilə münasibəti pozulmuşdu. Bu səbəbdən Pənahəli xana pənah gətirib xanın dostu və müttəfiqi olmuşdu. Məlik Şahnəzər qızı Hürzad xanımı Pənahəli xanın böyük oğlu İbrahimxəlil ağaya ərə vermişdi. Məlik Şahnəzər onu öldürmək istəyən digər erməni məliklərindən xilas olmaq yolunu Pənah xanla sıx dostluqda görürdü... Şüşə kəndinin 6 verstliyində mənzərəli bir yerdə, hər tərəfdən sıldırım qayalarla əhatə olunub, yalnız bir tərəfdən gəlib-getmək mümkün olan yer yeni qala üçün seçildi. Qalanın yeri meşə ilə örtülü idi, yalnız az hissəsi otlaq üçün istifadə olunurdu. Pənahəli xan yeni iqamətgahının yerinə baxıb çox bəyəndi. xanın əmri ilə salmacaq qala şəhərin yerini öyrənmək üçün bir heyət yaradıldı. Həmin komissiyanın qarşısında yeganə çətinlik burada suyun olmaması idi. Lakin tezliklə aydın oldu ki, burada bəzən çox dayaz yerdən su çıxır. Bir neçə yerdən quyu qazdırıb su çıxdığına şahid oldular. Pənahəli xan dərhal həmin ərazidə qala salmaq və şəhər tikmək əmrini verdi.

Miladi 1750-ci ildə Şuşa şəhərinin binası qoyulmuşdur. Pənahəli xan tezliklə şəhərin ətrafına möhkəm bir hasar çəkdirib hər növ təcavüzə qarşı müdafiə sistemi və möhkəm bir səngər düzəltdikdən sonra daxili islahat və inşaat işlərinə başladı.

Bayat və Şahbulaq qalalarında olduğu kimi Şuşa qalasında da ilk tikililər sırasında hamam və məscid var idi. Şəhər meydanında tikilən məscidi yenidən İbrahimxəlil xan təzələdi. XIX əsrdə isə İbrahim xanın qızı Gövhər ağa bu məscidi tamamilə söküb yenidən tikdi. Xalq arasında bu məscidə Yuxarı məscid də deyilir. Sonralar xalqın ehtiyacına görə daha əzəmətli Aşağı məscid tikildi. Biz memarlıq abidələrindən danışanda bu haqda ətraflı məlumat verəcəyik. Ümumşəhər hamam və məscidlərindən başqa, məhəllə məscid və hamamları da var idi.

Yuxarı məscid şəhər meydanına baxırdı, meydan və Rasta bazarla bazarbaşına doğru 300 metr uzanırdı. Bazarbaşında divanxana binası tikilmişdi. Divanxana Qarabağın Rusiya ilə birləşməsinə qədər işləyirdi. Sonra rus qoşun hissələri bu binaya zəng asıb, qüllə tikib rus hərbi kilsəsi etdilər. Həmin kilsə Sovet hakimiyyətinə qədər işləyirdi. Əsrimizin 20-ci illərindən başlayaraq 60-cı illərə qədər kilsə binasından (qədim divanxanadan) şəhər klubu kimi istifadə olundu. Pənah xan Şuşanı qədim Azərbaycan memarlıq abidələri ənənələri əsasında tikmək üçün adamlar göndərib Təbriz, Ərdəbil və başqa şəhərlərdən ustalar gətirmişdi. Sonralar həmin ustaların özləri də Şuşada sakin oldular.

Təbii olaraq xan Şuşaya öz adını verərək onu Pənahabad adlandırmışdı. Şuşa şəhəri bina olan kimi xan burada zərbxana açdırıb pul kəsdirdi. Xanlığın gümüşdən kəsdirdiyi pula da şəhərin adı "Pənahabad" verilmişdi. Xalq arasında bu ad dəyişdirilib sadəcə olaraq, "Pənavat" deyirdilər. Bu pul əski çar Rusiyasının gümüş pulu ilə 15 qəpik dəyərində idi. Eyni zamanda, bu pul "təklik" və "cütlük" olmaqla iki növ idi. Təklik 15 qəpik, cütlük 30 qəpik hesab olunurdu. Qarabağda "Xan ərşini" adı ilə bir ölçu miqyası dəxi var idi. Bu ərşin hazırkı metrdən 5-10 santimetr artıq olmuşdur... Eyni zamanda çəki daşı olaraq "İstil" deyilən ağırlıq (miqyası) ölçüsü tətbiq olunurdu. Bu da təxminən 800 qram ağırlığında idi. Həmin çəki daşı haqqında xalq arasında müxtəlif rəvayətlər vardır. Bəziləri onun ağırlığını 600 qr, bəziləri isə bir kiloqram hesab edirlər. Amma bizim zənnimizcə 800 qram daha doğrudur.

Xalq arasında yaşayan belə bir mahnı var:

Ay qurtarıb, bayrama üç gün qalıb,
Pinti arvad qovurmanı qurtarıb.
Kişi gedib istilyarım yağ alıb...

İstilyarım rusun qədim çəki daşı etibarilə üç girvənkə (funt) miqdarında, yəni 1200 qrama bərabərdir.

Pənahabad gündən-günə, ildən-ilə inkişaf edərək abadlaşır, döyüşə-döyüşə böyüyürdü. "Pənah xanın qalası" "Pənahabad qalası" da gələ-gələ xalq dilində ixtisarlaşıb yalnız "Qala" şəklini alırdı:

- Hara gedirsən?
- Qalaya!
- Hardan gəlirsən?
- Qaladan.
- Keçən həftə Qalada idim.
- Sən öləsən Qalada yaman bazar var və s.

Bununla belə, bəzən qala sözünü "Şuşa qalası" şəklində də deyirdilər. Az sonra "Şuşa qalası" "Şəhri Şişə", yaxud "Şişə" şəklində işlənməyə başlandı. Rus dilində isə şəhərə "Şuşa" deyildi.

...Arazi-ali Qarabağın güli-sirabıdır,
Şişə şəhərindən gəlibdir bu pərivar erməni...

S.Ə.Şirvani

...Şəhri-Şişə ki, əcəb abi-havayi barəd,
Xürrəm an ki, bəsəri-kuyi o, cayi-darəd...

Mehdiquluxan Vəfa

...Şişədə-Şirvanda vurur tək səbir...

M.Ə.Sabir

Şuşa şəhəri dəniz səthindən 1500 metr yüksəklikdə olan maili bir dağ yamacı üzərində salınmışdır. Şəhərin yuxarı hissəsi aşağı hissəsinə nisbətən 300-400 metr yüksəkdir.

Şəhərin şimal tərəfindən Xəlfəli çayı, sol tərəfindən Qarqar çayı axır. Şəhər hər tərəfdən sıldırım qayalarla əhatə olunub, yalnız baş tərəfdə "İrəvan qapısı", ayaq tərəfdə "Gəncə qapısı" vardır.

Şuşa cənub tərəfdən "Cıdır düzü", "Üç mıx" təpələri, Daşaltı kəndi və Kirs dağ silsiləsi ilə əhatə olunmuşdur. Şimaldan şəhəri "Dövtələb" təpəsi, Xəlfəli çayı və Xəlifəli kəndi, "Mıx tökən" yamacı əhatə edir. Qərbdə Şuşanın Zarıslı və Qala dərəsi kəndləri, məşhur Turşsu yaylası və Sağsağanlı dağı kimi mənzərəli yerləri vardır. Şərqdən Şüşə kəndi, Bağrıqan dağı, Topxana meşəsi və təpəciyi və Xəzinə qayası Şuşanı əhatə etmişdir. Şuşanın şimali qərbində təxminən şəhərdən 2-3 kilometr aralı gözəl və səfah bir meşə yerləşmişdir. Bu meşədə ayna kimi saf və şəffaf, buz kimi soyuq olan məşhur İsa bulağı, Damlı bulaq, Soyuq bulaq yerləşmişdir. Meşələrin heyvanlar aləmi son dərəcə zəngindir.

* * *

Şuşa şəhəri yenicə bina olunub, yavaş-yavaş şəhər halına düşürdü. Bu zaman İranın Mazandaran və Gilan tərəflərində Məhəmmədhəsən xan Qacar (Ağa Məhəmməd şah Qacarın atası) hökmranlıq iddiasına düşür.

Məhəmmədhəsən xan Pənah xanın Qarabağda istiqlaliyyətini və şöhrətini eşidib, bunu özü üçün bir təhlükə hesab etdi. Ona görə Mazandaran, Gilanq və Astarabaddan hədsiz qoşun toplayıb Şuşa qalası üzərinə yürüş etdi. Şuşa qalasının tikilməsindən (1750-1751-ci illər) bir il keçməmiş şəhərin təzə-təzə dirçəldiyi vaxtda Məhəmmədhəsən xan Qarabağa soxulub Şuşanın 4 ağaclığında (təxminən 28 kilometrliyində) olan "Xatun arx" adlı yerdə dayandı və burada Pənah xanın qüvvələrilə üz-üzə gəldi.

Məhəmmədhəsən xan Xatun arxda ordugah qurub tüfəngçiləri, topçuları, atlı və piyadaları nizamla yerləşdirib, hamısını döyüşə hazır bir vəziyyətə gətirdi. Digər tərəfdən Pənah xanın döyüşçüləri də onlarla üzbəüz mövqe tutub hər bir vəziyyətə hazır oldular...

Məhəmmədhəsən xan bir ay burada oturdu, gah vuruşmaqla, gah başqa üsullarla Pənah xanı özünə tabe və təslim-əsir etmək üçün min növ hiylə və planlar düşündü. Çox düşündüsə də, heç bir kələk tapa bilmədi. O, Qarabağı dağıdıb məhv etmək istərkən, qarabağlılar onu məhv etməyə başladılar.

Qarabağın cəsur və igid gəncləri hücum edərək onun sərbazlarını, at-qatır və b. heyvanlarını tutub aparırdılar. Sərbazlara yemək üçün ət-yağ gətirən karvanlarını dağıdıb, azuqələrini əllərindən alırdılar.

Məhəmmədhəsən xan Qarabağda belə çıxılmaz vəziyyətdə ikən İranda Kərim xan Zənd padşahlıq xəyalma düşüb hədsiz qüvvə ilə İsfahanı, Şirazı və başqa Fars əyalətlərini ələ keçirərək İraq, Azərbaycan[1] və Mazandaran vilayətlərini işğal etmək məqsədilə irəliləməyə başladı. Kərim xanın irəliləməsini və niyyətini Məhəmmədhəsən xana xəbər verdilər. Məhəmmədhəsən xan Şuşanı almaq xəyalından, Gəncə, Şirvan və başqa yerlərə sahib olmaq fikrindən əl çəkib öz top və topxanasını da "Xatun arx"dan aparmağa imkan tapmayıb təcili surətdə İraq və Mazandaran tərəflərə hərəkət etdi. Pənah xan "Xarun arx"da qalmış iki ağır topu Şuşa qalasına gətirdi. Bu hadisədən təxminən 75 il sonra 1826-cı ildə İran sərbazları Abbas Mirzənin başçılığı ilə Şuşa şəhərini mühasirə edərkən həmin toplardan müdafiə məqsədilə istifadə etmişdilər.

Məhəmmədhəsən xan Qarabağa uğursuz səfərdən sonra İrana qayıdıb Kərim xan Zəndin üzərinə gedərkən yolda yaxın adamlarının xəyanəti nəticəsində öldürüldü... Onun başını kəsib Kərim xana apardılar ki, əvəzində ondan mükafat və yüksək mənsəb alsınlar. Lakin Kərim xan bu caniləri təltif etmək, pul və mənsəb vermək əvəzinə, başqalarına ibrət olsun deyə onları ağır cəzalandırıb tənbeh etdi...

Təqdiri-qəza, qüvvəti-bazu ilə dönməz,
Bir şəm ki, haqdan yana heç badilə sönməz.

1 Söhbət Cənubi Azərbaycandan gedir.

# KARTLİ-KAXETİYA ÇARI II İRAKLİNİN PƏNAH XANI BAŞQA XANLARLA BİRLİKDƏ HƏBS ETMƏSİ

Şəki və Şirvan vilayətinin hakimi Hacı Çələbi xan çox məğrur, sərkeş və kimsəyə etina etməz və saymaz bir xan idi. Eyni zamanda dostluqda da möhkəm deyildi. Bu səbəbdən qarabağlı Pənah xan, qaradağlı Kazım xan, naxçıvanlı Heydərqulu xan və gəncəli Şahverdi xan bir yerə yığışıb məsləhət və məşvərətdən sonra qərara gəldilər ki, Hacı Çələbi xana bir qulaqburması versinlər. Bəlkə o, məğrurluq yuxusundan ayılıb, ətrafındakılar ilə hesablaşsın. Həmin xanlar öz fikirlərini Gürcüstan valisi II İrakliyə də bildirdilər. İrakli bu fikrə şərik olduğunu bildirib, bu məqsədi ürəkdən bəyəndi. Vali hiylə işlətmək yoluna qədəm qoydu.

Vali yuxarıda adı çəkilən xanlara təklif etdi ki, fürsət var ikən tez Gəncə xanlığı sərhədinə gəlsinlər. Xanlar valinin sözünə inanıb əvvəlcədən razılaşdırılmış yerə gəldilər. Vali isə xəyanət edib Pənah xanı, Kazım xanı, Heydərqulu xanı, Şahverdi xanı həbsə aldı və Tiflis tərəfə apardı. Belə çıxılmaz vəziyyətə xanlar, həm də onların məiyyəti heyran qaldılar. Bu zaman gəncəli Şahverdi xanın nökəri sürətlə qaçan bir ata minib Kür çayına, Şəki sərhədinə doğru qaçdı. Bu zaman xanların ona qarşı ittifaqından xəbər tutan Hacı Çələbi xan öz qoşunu ilə Mingəçevir keçidində müharibəyə hazır vəziyyətdə durmuşdu. Hacı Çələbi Kürün o biri sahilində sürətlə gedən bir atlı görüb, o atlının hüzuruna gətirilməsini əmr etdi.

Fərraşlar Kürü keçərək atlını tutub xanın hüzuruna gətirdilər. Həmin atlı (Şahverdi xanın nökəri) Hacı Çələbini görən kimi həyəcanlı bir vəziyyətdə dedi:

- Qoca baba! Vali xanları tutub həbs və əsir etdi. Hacı Çələbi cavabında:

- Qorxma! Qoca baban onları xilas edər.

Hacı Çələbi dərhal ordunun atlanıb Kürü keçməsini əmr etdi. Onlar Gürcüstan istiqamətində sürətlə hərəkət edirdilər. Hacı Çələbinin gəlməsini Gürcüstan valisi II İrakliyə xəbər verdilər. Vali bu işdən qorxuya düşüb özünü itirdi. Çünki o, Hacı Çələbinin zərbi-dəstini hələ 1751-ci ildə çar vilayətində olan vuruşmada görmüşdü.

Vali bu dəfə də əlacsız olaraq Hacı Çələbinin qarşısına çıxdı. Şeyx Nizami məqbərəsi yanında iki qoşun üz-üzə gələrək döyüşə başladılar. Bu müharibədə gürcü qoşunları biabırçılıqla məğlub olub qaçmağa üz qoydular. Hətta valinin özü qoşundan ayrı düşüb əvvəlcə qaçdı. Gürcü qoşunlarının var-yoxu və hərbi ləvazimatı, eləcə də əsir alınmış xanlar Qızıl qaya adlı yerdə Hacı Çələbinin əlinə keçdi. Hacı Çələbi bununla kifayətlənməyib gürcü qoşunlarını təqib etməkdə idi. Qaçmaqda olan gürcü qoşunundan Şəmkir (Şamxor), Şəmsəddin və Qazaxda çoxlu adam tələf oldu. Hacı Çələbi Baydar torpağında səngər qurub, öz oğlu Ağakişi bəyi Tiflis yaxınlığında olan müsəlmanlara hakim təyin etdi. Eyni zamanda əsir düşmüş xanları da azad edib öz vətənlərinə göndərdi. Yuxarıda zikr olan hadisənin tarixi mənbələrdə müxtəlif şəkildə göstərilir. Mirzə Adıgözəl bəy 1752, bəziləri isə 1756-cı il tarixlərini göstərirlər. Əslində isə bu hadisə Məhəmmədhəsən xanın Qarabağda məğlubiyyətindən bir neçə il sonra 1753-1754-cü illərdə vaqe olmuşdur.

## FƏTƏLİ XAN ƏFŞARIN ŞUŞA ÜZƏRİNƏ HÜCUMU, MƏĞLUBİYYƏTİ VƏ HİYLƏ İŞLƏTMƏSİ

Məhəmmədhəsən xan Qacarın faciəsindən sonra təxminən 1757-1758-ci illərdə Urmiyalı Fətəli xan Əfşar baş qaldırıb padşahlıq iddiasına düşdü. O, başdan-başa Cənubi Azərbaycanı tutaraq Arazın şimal sahilindəki xanlıqları ələ keçirmək eşqinə düşdü. O, yaxşı başa düşürdü ki, Zaqafqaziyanı ələ keçirmək üçün Pənah xanın qüvvələrini məğlub etməlidir. Ona görə Fətəli xan Əfşar qarabağlı Pənah xanı məğlub və əsir etmək, beləliklə də onu itaətə gətirmək xəyalına düşdü. Pənah xan Fətəli xan Əfşarın itaətə çağıran elçilərini kobud və ağır cavablarla geri qaytardı. Beləliklə, Fətəli xan Əfşarın Qarabağa yürüşü başladı. O, Cənubi Azərbaycandan, Urmiyadan və başqa vilayətlərdən çoxlu qoşun toplayaraq Qarabağa hücum etdi.

Fətəli xan Əfşar Şuşanın yaxınlığında Balhca çayı ilə Xocalı çayı arasındakı geniş ərazidə ordugah qurdu. Xəmsə məliklərindən Talış məliki Hatəm və Çiləbörd məliki Usub xeyli silahlı qüvvə toplayıb Fətəli xan Əfşarın yanına gəldilər və Pənah xana qarşı müharibədə

ona fəal kömək göstərdilər. Fətəli xan Əfşarla erməni Xəmsə məliklərinin birləşmiş qüvvələri Şuşanı məğlub edib almaq üçün 7 dəfə hücum əməliyyatı apardılar. Müharibə 7-8 ay davam etdi. Fətəli xan Əfşar ermənilərlə bərabər çoxlu səngər və istehkamlar düzəltmişdilər. Bütün bu tədbirlərə baxmayaraq, hər dəfə Fətəli xan məğlub olub biabırcasına geri qayıdırdı. Altı-yeddi aydan sonra hərbi və iqti-sadi vəziyyətinin ağırlaşdığını görən Fətəli xan bir gün erməni və iranlılardan ibarət olan bütün qüvvələrini ayağa qaldırıb Şuşa üzərinə qəti, ümumi və inadlı hücuma başladı. Onlar çox çətinliklə Qarqar çayını keçib Qara qaya və Kəhər adlı təpələrə qədər irəlilədilər. Digər tərəfdən Pənah xanın cəsur və rəşid adamları, Qarabağ atlı və piyadaları onlara müqabil duraraq şiddətli və qızğın vuruşa başladılar. Döyüşün nəticəsi olaraq Fətəli xan Əfşar və onun müttəfiqi olan iki erməni məlikinin hərbi qüvvələri nizamsız və biabırçı surətdə məğlub və məyus halda geri çəkildilər. Bu tarixi vuruşmada Fətəli xan və müttəfiqlərdən iki mindən artıq adam məhv olmuş, çoxlu atlı və piyada əsir alınmışdı. Bundan əlavə, çoxlu ərzaq və hərbi ləvazimat Pənah xanın əlinə qənimət keçmişdi. Həmin şeyləri Pənah xan Şuşa şəhərinə daşıtdırmışdı.

Bu məğlubiyyətdən sonra Fətəli xan Əfşar zorla Qarabağı özünə tabe etməyin mümkün olmadığını yəqin etdi və hiyləyə əl atdı.

Fətəli xan vasitəçilərin əli ilə Pənah xanı barışığa dəvət etdi. Bu məqsədlə diliyağlı olan elçilər göndərib qəliz andlarla Pənah xana aşağıdakı vədləri verdi: "Əgər Pənah xan qoşunumuzdan aldığı əsirləri geri qaytararsa və mənimlə müttəfiq olub dostluq etsə, qızımın kəbinini onun oğlu İbrahimxəlil ağaya kəsdirəcəyəm və beləliklə, biz dost və qohum olacağıq. Bundan sonra dövlətlərimiz arasında düşmənçilik olmayacaq. İndi sizdən xahişim budur ki, hörmətli Xanzadəni (İbrahimxəlil ağanı) neçə günlüyə bizim çadırlara qonaq göndərəsiniz; ordugahda kəbin kəsilib əqd oxunduqdan sonra İbrahim Xəlil ağa hörmət və ehtiramla geri qaytarılsın".

Hiylə və kələk nə olduğunu bilməyən Pənah xan onun yalan sözlərinə və qəliz andlarına inandı. Eyni zamanda, dini etiqada görə: "Bacardığın zaman qəzəbini saxla və müqəssiri bağışla! Çünki bu gözəl və alicənab bir işdir". (Quran ayəsidir) Fətəli xanın sülh təklifini qəbul edərək böyük oğlu İbrahimxəlil ağanı bir neçə inanılmış adamlarla onun çadırına göndərdi.

Fətəli xan Əfşar İbrahimxəlil ağanın gəlməsini eşidən kimi çox şad və məsrur olub, övlad, əqrəba və sərkərdələrindən bir neçə nəfəri onu qarşılamağa göndərərək, sonsuz hörmət və hədsiz ehtiramlarla ordugaha gətirdi.

Fətəli xan hiylə ilə "Bu gün saat xoş deyildir" bəhanəsilə saatın nəhs olmasını bəhanə edib İbrahimxəlil ağaya "hələ bir neçə gün kef eylə" - deyə ordugahda saxladı. Eyni zamanda bu müddət içərisində şirin dilli və hiyləgər elçilər göndərib "dostluq və qohumluq naminə" bütün əsir və dustaqları azad etdirdi.

İbrahimxəlil ağa baxıb gördü ki, Şuşaya qayıtmağa icazə yoxdur. Hər gün bəhanə ilə bir xan, hər gecə bir əmir, bir sərkərdə tərəfindən qonaq edilir, nə məqsədlə isə işi yubandırır. Ona görə atası Pənah xana məktub yazıb bildirdi ki, "Vəziyyətdən belə məlum olur ki, Fətəli xan məni də özü ilə aparmaq istəyir. Mənim Qalada (Şuşada) olan kəhər atımı təcili surətdə göndərin, bəlkə o atın köməyi ilə qaçım..."

At Fətəli xan Əfşarın ordugahına yetişənə kimi Fətəli xan köçüb getdi və İbrahim Xəlil ağanı da özü ilə apardı. Bu dəhşətli hadisə Pənah xana yetişdi. Pənah xanı və bütün Qarabağ əyanlarını kədərləndirdi, hamını pərişan etdi. Bunun üçün məsləhət və məşvərət məclisi qurulub, bu dərdə bir çarə aparmağa başladılar.

İstərsən ildırım ol, hər nə bilirsən qayır,
Sən saydığın qoy dursun, bax gör fələk nə sayır.

Fətəli xan Əfşar, göründüyü kimi, zorla Qarabağı fəth edə bilmədi, hiylə və kələk yolu ilə İbrahim Xəlil ağanı guya əsir apardı. Bu səbəbdən də Fətəli xan hiylə və siyasətdə qalib gəlmiş kimi şad və xürrəm Urmiyaya qayıtdı. O öz iqamətgahına qayıdan zaman İranın İsfahan və Şiraz tərəflərində Kərim xan Zənd hökmranlığa başlayıb özünü "Vəkili-şahi-İran" adlandıraraq istiqlaliyyət əldə etmişdi.

Fətəli xan Əfşar Qarabağdan qayıdan zaman Kərim xan Zənd ilə qardaşı İskəndər xanı sərkərdə təyin edərək Fətəli xan Əfşar üzərinə göndərdi. İsfahan yaxınlığında olan vuruşmada İskəndər xan öldürüldü. Kərim xan Zəndin qoşunları məğlub oldular. Bundan qəzəblənən Kərim xan Zənd Fətəli xanla qəti döyüşə hazırlaşdı.

Kərim xan eyni zamanda Pənah xana məktub yazıb ondan hərbi kömək istədi. Kərim xan Zənd Pənah xana belə yazmışdı: "...Fətəli

xan nəinki bizim düşmənimizdir, eyni zamanda o, bizim qanlımızdır. O mənim qardaşımı öldürdüyü kimi, sənin oğlunu da hiylə və kələklə aldadıb əsir və dustaq etmişdir. İndi sən də var qüvvən ilə bizə kömək etməli və bu işdə əlindən gələni müzayiqə etməməlisən. Çünki intiqam alsaq və sənin oğlunu xilas etsək, siz sevindiyiniz kimi biz də arzumuza çatarıq..."

Pənah xan bu təklifdən çox xoşhal olub, fürsətdən istifadə ilə Kərim xanın köməyinə getdi. Kərim xan da bu köməkdən çox şad olub Pənah xana hörmət və ehtiram göstərdi. Beləliklə, hər ikisi ittifaq bağlayıb Fətəli xan üzərinə hücum etdilər. Bu vuruşmada Fətəli xan Əfşarın ordusu məğlub oldu və Fətəli xanın özü əsir alındı.

Kərim xan Zənd Fətəli xan Əfşardan qisas alaraq onu İsfahan yaxınlığında qardaşı İskəndər bəyin öldürüldüyü yerdə edam etdi.

Pənah xanın oğlu İbrahimxəlil ağa Urmiyada əsirlikdən azad edildi. Kərim xan Zənd İbrahim Xəlil ağaya qiymətli bir xələt, cavahiratla bəzənmiş bir qılınc, qızıl yəhərli və yaraqlı bir at bağışlayıb Qarabağ xanlığının fərmanını da ona verərək, Qarabağı idarə etməyə göndərdi. Kərim xan İbrahim xanı Qarabağa yola saldıqdan sonra Pənah xana dedi: "...Mənə qarşı etdiyin hörmət və sədaqətə görə sizə təşəkkür edirəm. Gəl mənimlə gedək, bir az Şirazda qal və mənə qonaq ol!" Beləliklə, Pənah xanı Urmiyadan Şiraza apardı.

Kərim xan Zənd Pənah xanı zahirdə qonaq və dost, müttəfiq kimi hörmət və ehtiramla Şiraza aparmışdı. Həqiqətdə isə o, Pənah xanı Şirazda bir girov kimi saxlayırdı. Pənah xan dəfələrlə ondan icazə istəyib, öz yurduna qayıtmaq niyyətində olmuşsa da, Kərim xan bu təklifə mane olub onu vətənə buraxmamışdı. Pənah xan bir müddət Şirazda qaldıqdan sonra orada vəfat etdi. Nəşini Qarabağa gətirib Ağdamda olan "İmarət" adlı mülkündə dəfn etmişdilər.

Ümumiyyətlə, Pənahəli xan Qarabağda 12 ilə yaxın xanlıq etmişdir. Onun ölüm tarixini qəbri üstündəki kitabədə belə yazmışdılar:

"Qələm be dəftəri-rəhmet nəvişt tarixəş,
Rəfiqi-həmdəmi-vey şod Pənahi-cümlə güruh.

Tərcüməsi:

Onun tarixini rəhmət dəftərində qələm belə yazdı:
Onun dost və yoldaşı cümlə xanların pənahı oldu.

# İBRAHİMXƏLİL XANIN HAKİMİYYƏTİ DÖVRÜ

Hicri 1173 (1759)-cü ildə Pənah xan Şirazda ikən İbrahimxəlil xan Şuşa şəhərində Qarabağ xanlığını idarə etməyə başladı. O, İran və Türkiyə hökumətlərinə boyun əymədən xanlığı müstəqil idarə edirdi. Bəzi tarixçilərin verdiyi məlumata görə İbrahimxəlil xanın hakimiyyət təsiri Şəki, Şirvan, Gəncə, Təbriz, Naxçıvan, Ərdəbil, Xoy, Qaradağ, Marağa, İrəvan, hətta Qaplanguh hakimləri üzərində də hiss olunurdu.

İbrahimxəlil xan qonşu xanlarla dostluq və ittifaqda qohumluq və girov mübadiləsi üsullarından da istifadə edirdi. Məsələn, o, Car-Balakən vilayətinin hakimi Nusəl xanın oğlu Ümmə (Ömər) xanın bacısı Bikə ağa ilə evlənərək onunla son dərəcə səmimi dost oldu. Zərurət zamanı ləzgilərdən ibarət cəsur əsgərlər qarabağlıların köməyinə gəlirdilər. Bir çox hallarda İbrahimxəlil xan Car-Balakəndən ciddi hərbi yardım almışdı. O, dağıstanlıların köməyi ilə Qaradağ vilayətinə səfər etmiş və müqavimət göstərən Kürdəşti alt-üst etmişdi. Həmin döyüşdə İbrahimxəlil xan Kürdəşt hakimi Mustafa xanı əsir etmişdi. İbrahim xanın Şahsevənə, Xoya, Naxçıvana, Gəncəyə və başqa vilayətlərə səfərlərində də Car-Balakən ləzgiləri iştirak edib şücaət göstərmişdilər. Şuşada daimi olaraq ətraf xanların girovları, eləcə də əsir və dustaq edilmiş çoxlu xan və xanzadələr saxlanılırdı.

İranda özünü Vəkili-şahi-İran adlandıran və xeyli müddət hakimiyyət sürən Kərim xan Zənd 1194 (1779)-cü ildə Şirazda vəfat etdi. Bu zamana qədər Şirazda girov şərtilə saxlanılan Qacar Məhəmmədhəsən xanın oğlu Ağa Məhəmməd xan fürsətdən istifadə edərək qaçıb Cənubi Azərbaycana gəldi. O, bir neçə il müharibə edərək İraq və Fars vilayətlərini tutdu. Tehranı özünə paytaxt edib hakimiyyətə başladı.

Ağa Məhəmməd xan 1209 (1795)-cu ildə Arazı keçib Şimali Azərbaycanı, Şuşa, Tiflis, İrəvan şəhərlərini, Talış və Şirvanı ələ keçirmək istədi. O, böyük ordu ilə hərəkət edirdi. Ağa Məhəmməd xan qardaşı Əliqulu xanı bir neçə Şahsevən xanları ilə bərabər İrəvan tərəfə göndərmişdi. Özü isə böyük bir qüvvə ilə Şuşa üzərinə hücum edirdi.

Bu zaman Qarabağ xanlığı ilə Gürcüstan valisi II İrakli Naxçıvan, İrəvan, Şirvan, Talış xanları arasında Ağa Məhəmməd xana itaət etməmək və zərurət zamanı bir-birinə kömək xüsusunda saziş və müqavilə bağlanmışdı. Bu səbəbdən İbrahimxəlil xan öz ixtiyarında olan Qarabağ əsgərlərindən bir hissəsini Tiflisə, bir hissəsini şirvanlı Mustafa xana köməyə göndərmişdi; yerdə qalan atlı və piyadalarını isə Qarabağ dağlarında və Şuşa qalasında hazır vəziyyətdə saxlamışdı.

1795 (1209)-ci ilin iyul ayında Ağa Məhəmməd xan güclü ordu ilə gələrək Şuşanın 6 verstliyində olan Kövəxan düşərgəsində ordugah qurmuşdu. Tezliklə o, Şuşa şəhərini mühasirə etdi. Ağa Məhəmməd xan 33 gün Şuşa ətrafında oturub, gah hücum və yürüşlə, gah yağlı dil və gözəl vədlərlə, gah hədə və qorxu ilə İbrahimxəlil xanı itaətə gətirib Şuşa şəhərini ələ keçirmək istədi. Lakin məqsədinə müvəffəq olmadı. Nəhayət, şirazlı Seyid Məhəmməd Ürfinin qəsi-dəsindən bir beyt alaraq bir qədər təbdil edib İbrahimxəlil xana göndərdi:

Zi məncəniqi-fələk səngi-fitnə mibarəd,
To əblahanə girifti miyanişişə qərar.

(Fələkin mancəqindən fitnə daşı yağır,
Sən axmaqcasına şişə içərisinə, sıxınmısan).

Həmin təhqiranə məktub İbrahim Xəlil xana çatan kimi öz sevimli vəziri olan, bacarıqlı və hazırcavab Molla Pənah Vaqifi çağırıb beytə cavab yazmasını tapşırır. Molla Pənah Vaqif öz növbəsində Ağa Məhəmməd xanın məktubunun arxasında yazır:

Gər nigəhdari-mən anəst ki, mən midanəm,
Şişera dər bəğəli-səng nigəh midarəd.

(Əgər məni qoruyan mənim bildiyimdirsə,
O, şişəni daşın qoltuğunda mühafizə edər).

Ağa Məhəmməd xan həmin cavabı alan kimi qəzəbnak olub Şuşa üzərinə qəti və inadlı hücuma girişdi. Şah bütün qüvvəsini ayağa

qaldırıb, nə qədər ciddi-cəhd etdisə də, heç bir nəticə əldə edə bilmədi. O, qarabağlıların mərdanə müqavimətini sındıra bilmədi. Əksinə, onun hərbi düşərgəsi tez-tez qarabağlıların hücumuna məruz qalıb çoxlu tələfat verdi. Meşələrdə gizlənmiş qarabağlılar, Vərəndə, Xaçın və Dizaqdan olan ermənilər hər tərəfdən hücum edərək Ağa Məhəmməd xanın əsgərlərini, qoşqu heyvanlarını qırıb, sürsat gətirən karvanları qarət edirdilər. Onlar İranın müxtəlif vilayətlərindən Qızılbaş qoşunu üzün göndərilən ərzaq karvanlarını dağıdıb, ərzaq, at, qatır, dəvə və başqa heyvanlarını əllərindən alır, özlərini də əsir edərək İbrahim xanın yanına göndərirdilər.

Ağa Məhəmməd xan qorxuya düşüb öz vəzir və müşavirlərini yığıb, onlarla məsləhətləşdi və belə bir qərara gəldi: "...zərərin yarısından qayıtmaq da bir mənfəətdir. Müsibətli bir yerdən at başı qaytarmağın özü də bir nicatdır. Bu yerdə bir az da qalsaq, bizdən bir nəfər də olsun salamat geri qayıtmayacaq. Odur ki, köçüb getmək məsləhətdir..."

Bu əsnada gəncəli Cavad xanla Çiləbörd məliki Məlik Məcnun Ağa Məhəmməd şahın yanına gəlib, məsləhət gördülər ki, "Şuşadan ona heç bir səadət yoxdur. Yaxşısı budur ki, şah həzrətləri Şuşadan əl çəkib, Gürcüstan üzərinə hərəkət etsin".

Xatırladaq ki, Məlik Məcnun və Cavad xan müharibənin əvvəlindən orada olub Ağa Məhəmməd xana kömək edirdilər.

Şah Məlik Məcnunun və Cavad xanın məsləhətini qəbul etdi. Şuşadan naümid olub geri çəkilmək barədə əmr verdi. İran qoşunları məğlub və qəmgin bir halda geri çəkildilər. Onlar əvvəlcə Ağdam ətrafına cəmləşdilər, orada bir düşərgə düzəldib zahirən dincəlmək istədiklərini bildirdilər. Həqiqətdə isə Tiflis üzərinə hücuma hazırlaşırdılar. İran qoşunlarının Şuşanı 33 gün mühasirə edib ala bilməmələri Ağa Məhəmməd xanı bərk qəzəbləndirmişdi, orduda böyük ruh düşkünlüyü yaratmışdı. Ordunun ruhunu qaldırmaq, İranda özlərinə qarşı nifrəti azaltınaq üçün Məlik Məcnun və Cavad xanın bələdçiliyi ilə Ağa Məhəmməd xanın Tiflis üzərinə yürüşü başlandı. Ağdam ətrafında bir ay "istirahət" edərkən Ağa Məhəmməd xanın növbəti niyyətini İbrahim xan yaxşı hiss edirdi. İbrahim xan Gürcüstan valisini vaxtında xəbərdar etdi. O yazırdı: "Ağa Məhəmməd xan qalanı (Şuşanı) işğal etməkdə aciz qalmışdı. Onun qoşununa, minik heyvanlarına və

başqa ləvazimatma hədsiz ziyan dəymişdir. O, bu məğlubiyyəti düzəltmək üçün Tiflisi almaq və Gürcüstan kəndlərini qarət etmək xəyalındadır. Onun fəsad və istilasının qarşısını almaq tədarükündə olun!"

Ağa Məhəmməd xan sentyabrın əvvəlində Ağdamdan hərəkət etdi. Qoşunun qabağında Məlik Məcnunun dəstəsi gedirdi. Nəhayət, onlar Gürcüstan sərhədinə yetişdilər. Bu zaman II İrakli ilə gürcü knyazları arasında çəkişmə və ziddiyyətlər var idi. Bunun üçün də gürcülər Ağa Məhəmməd şaha qarşı qüvvələrini birləşdirə bilmədilər.

Vali II İrakli az bir qüvvə ilə güclü düşmənin qarşısına çıxmışdı. 1795-ci ilin 12 sentyabrında müxtəsər bir vuruşmadan sonra İran sərbazları Tiflisi alıb, qarət və talan etdikdən sonra onu yandırdılar. Heç bir tarixdə Ağa Məhəmməd xanın Tiflisdə gürcü xalqına etdiyi zülmə bənzər bir hadisə görsənməmişdir. Ağa Məhəmməd xan Tiflisi xarabazara döndərdikdən sonra yerli xalqdan çoxlu əsirlə Azərbaycana qayıtdı. O, Muğanda qışlayıb yazda İrəvan üzərinə hücum etmək, sonra yenidən Şuşaya divan tutmaq qərarına gəlmişdi.

Elə bu zaman İran vilayətlərində Ağa Məhəmməd xana qarşı dönüklük və iğtişaş başladı. Bu səbəbdən Ağa Məhəmməd xan İrəvana yürüşdən imtina edib İrana qayıtmaq qərarına gəldi. Həqiqətdə də İrandakı üsyan bütün Gilan və İraq sahələrini əhatə etmişdi. Üsyançılar fars əyalətlərini tutduqdan sonra Cənubi Azərbaycan üzərinə yürüşə başlamışdılar. Qacar İrandakı iğtişaşı yatırmaq üçün səfər edərkən İbrahimxəlil xan ətrafında nizam və intizamı bərpa etməyə başladı. O, Car-Balakəndən güclü ləzgi qoşunu gətirib, Gəncə şəhəri üzərinə yürüş edib şəhəri mühasirəyə aldı. İbrahim Məlik Məcnunu və Cavad xanı cəzalandırmaq üçün hərbi əməliyyata başladı.

İbrahimxəlil xana vali II İrakli də kömək edirdi. Şiddətli vuruşma nəticəsində Məlik Məcnun öldürüldü, Cavad xan isə öz oğlunu və qızmı girov şərtilə İbrahim xanın yanına göndərib üzr istədi. Cavad xan bir daha İbrahim xanın itaətindən çıxmamağa və həmişə ona sadiq qalacağı barədə əhdnamə bağlayaraq canını qurtardı.

Ağa Məhəmməd xanın Şuşaya və Tiflisə hücumundan sonra istər vali II İrakli, istərsə də İbrahimxəlil xan Rusiyadan kömək istədilər.

Bu zaman Rusiya imperatriçəsi II Yekaterinanın əmri ilə general anşef Valerian Zubov 30 minlik bir ordu ilə Qafqaza gəldi. Onlar

Dərbənd şəhərini işğal edib, buradan da Şirvan istiqamətində hərəkət etdilər. İbrahimxəlil xan generalın gəlməsini eşidən kimi öz oğlu Əbülfət xanı bir neçə bəyzadə və çoxlu hədiyyə ilə general Zubovun yanına göndərib Rusiya dövlətinə tabe olacağını və bu sahədə sadiq qalacağını bildirdi. Eyni zamanda, İbrahimxəlil xan imperatriçənin adına dəxi bir ərizə yazaraq general Zubova təqdim etmişdir. General Zubov Əbülfət xanı və onunla gəlmiş bəyzadələri çox hörmətlə və ehtiramla qəbul edib, İbrahim xanın ərizəsini Peterburqa II Yekaterinaya göndərdi. İbrahimxəlil xanın məktubundan imperatriçə çox şad oldu. İbrahimxəlil xana çox qiymətli hədiyyələr və bəxşişlər göndərdi, Molla Pənah Vaqif üçün də cavahiratla bəzənmiş bir əsa göndərdi. İbrahim xanın Rusiyaya meyli yayıldıqda, Azərbaycan xanlarının bir çoxu Rusiya dövləti himayəsinə keçmək qərarına gəldilər. Əvvəlcə Gürcüstan valisi II İrakli, sonra Talış xanı Mir Mustafa xan, gəncəli Cavad xan, eləcə də İrəvan, Naxçıvan, Xoy və Qaradağ xanları da şövqə gələrək ərizə yazaraq İbrahim xan vasitəsilə general Zubova, oradan da rus çariçasına göndərdilər.

Təəssüf ki, 1796-cı il noyabr ayının 6 (18)-da II Yekaterina vəfat etdi. Onun yerinə çarlığa başlayan Pavel general Zubovu Qarabağdan geri çağırdı.

General Zubovun Rusiyaya qayıtmağı İbrahim xanı çox mütəəssir etdi.

Heç bir hədə, qorxu, müharibə və təklif olmadığı halda, İbrahim Xəlil xanın öz xoşu və istəyi ilə ms dövləti himayəsinə keçmək arzusu Ağa Məhəmməd şah Qacarı (Qacar 1796-cı ildə tacgüzarlıq məclisi keçirib özünü İran şahı elan etdi) artıq dərəcədə qəzəbləndirmişdi. Odur ki, general Zubovun Qafqazdan geri qayıtması Ağa Məhəmməd şah Qacarın məqsədinə uyğun və əlverişli oldu. O, hədsiz-hesabsız fars, İraq sərbazlarını, Şahsevən xanlarını ayağa qaldırdı. Birinci məqsədi Şuşa qalasını alıb İbrahim xanı cəzalandırmaq idi. Bu zaman Qarabağın iqtisadi vəziyyəti quraqlıq üzündən çox ağır idi. Hər yerdə aclıq hökm sürürdü. Yoluxucu xəstəliklər yayılmışdı.

Belə bir şəraitdə Ağa Məhəmməd şah Qarabağ ərazisinə daxil oldu. İbrahim xan Şuşanı hərbi yolla müdafiə etməyin mümkün olmadığını gördü. Xan öz əhli-əyalını, yaxın dost və qohum-əqrəbalarını, onun yolunda canından keçməyə hazır olan xanzadə və bəyzadələri,

onların əyal və övladlarını götürüb qaladan çıxdı və Car-Balakənə doğru hərəkət etdi.

Qacar Araz kənarında ikən ona İbrahim xanın Şuşadan çıxıb getməsi xəbərini verdilər. Şah təcili olaraq İbrahim xanı tutmaq üçün hərbi qüvvə göndərdi, eyni zamanda Balakən ləzgilərinə fərman yazdı.

Ağa Məhəmməd şah İbrahim xanın ardınca öz nədimi Səfərəli bəyi iki min atlı ilə yola salmışdı. Səfərəli bəy İran sərbazları, sərkərdə və xanları ilə birlikdə Tərtər çayı kənarında İbrahim xanın köçünə rast gəldilər. Döyüş vaxtı İbrahim xana qalib gələ bilməyən Səfəralı azca qarət və qənimətlə geri qayıdır. İbrahim xan Kür çayını keçərək Car-Balakən istiqamətində hərəkət edir.

Yolda Car və Tala ləzgilərindən şahın əmrinə tabe olan bəzi adamlar onlara maneçilik törədib, yolu kəsmək istədilərsə də, İbrahim xanın əyalı olan dağıstanlı Ümmə xanın bacısı Bikə ağa onlara nəsihət və məzəmmət edib yolkəsənləri geri qaytardı. Bundan sonra İbrahim xan maneəsiz olaraq Car və Tala-Balakən torpağına daxil oldu.

Ağa Məhəmməd şah mübarizəsiz və maneəsiz Şuşa şəhərini işğal etdi. Şəhəri alan kimi nüfuzlu və məşhur adamlarını tutub həbs etdi ki, onları tənbeh edib ağır cəza versin... Rəvayət vardır ki, şah dəmirçi çağırıb çoxlu mıx və nal qayırmasını əmr etdi. Məqsəd o idi ki, ucları şiş olan mıxları atların ayağına vurdurub həbsə alınmış şuşalıların sinəsi üstdən at sürmək və cıdıra çıxmaq yolu ilə onları həlak etsin. Qayrılacaq nalları isə həbsdə olan bəzi nüfuzlu şəxslərin əllərinə və ayaqlarına vurdurmalı idi. Şuşa şəhəri yas və matəm içində idi. Şah xidmətçisi Abbas bəydən su istəyir. Abbas bəy onun sözünü eşitmir. Şah "mənim sözümü eşitməyənin qulağı kəsilməlidir" - deyə Abbas bəyin qulağının kəsilməsinə əmr verir. Bununla kifayətlənməyən şah sabah ağır cəza verəcəyi ilə hədələyir...

Bu zaman böyük bir qoşunla İbrahimxəlil xanı tutub gətirilməyə göndərmiş Səfərəli bəy əliboş qayıdıb şahın yanına gəlir. "...Hanı İbrahim xan?" - deyə Ağa Məhəmməd xan qəzəblənir. Səfərəli bəy cavabında: "- Şahım! Biz Tərtər çayının qırağında ona yetişdik. Onlar çox olduqlan üçün bizə qalib gəldilər" - deyə cavab verir.

Bu cavabdan şah daha da qəzəblənir: "Yalan deyirsən, yalan! İbrahim xan Şuşadan qaçarkən cəmi 200 nəfər adam aparıbdır ki, onların da çoxu qadın və uşaqlardır. Görünür ki, tülkü kimi qorxub

qaçmısan. Get, eybi yoxdur, sabah bu Abbas bəylə öz mükafatınızı alarsınız..."

Şah danışır, danışdıqca da hiddətlənib, son sözlərini ifadə edirdi: "- Sabah burada bir qan tökəcəyəm ki, Bağrıqan dağının dibindən əl-aman sədaları asimana bülənd olsun. Sabah burada bir qan tökə-cəyəm ki, hüccac ibn Yusif qəbirdən baş qaldırıb mənə əhsən desin. Sabah gərək Qarqar çayında su yerinə insan qanı axsın. Sabah fələyin qüdrətli və işıqlı padşahı başını Şərq qapısından çıxardarkən, mən də sizin bu mənhus başınızı alçaq vücudunuzdan ayırıb, bütün aləmə ibrət olmaq üçün şuşalıların kəlləsindən iki böyük minarə quraraq, birinin başına, Abbas bəy, sənin, o birinin isə bu Səfərəli bəyin başını nəsb edəcəyəm! Di gedin!".

Belə rəvayət vardır ki, İbrahimxəlil xan Şuşadan gedərkən bir çox adamları, o cümlədən, Molla Pənah Vaqifi müəyyən tapşırıqla Şuşada saxlatmışdı.

Əvvəlcədən Vaqifin Səfərəli bəylə əlaqəsi olmuşdur. Güman ki, şahın həmin gecə öldürülməsi yalnız onun qəzəblənməsi ilə deyil, əvvəlcədən düşünülmüş və Vaqifin rəhbərlik etdiyi sui-qəsd nəticəsi idi...

Gecədən xeyli keçmişdi. Yuxunun ən şirin və ən ağır bir çağı idi. Bu zaman Abbas bəylə Səfərəli bəy əldə xəncər şah yatan otağa girib Qacarın başını kəsərək, onun bədəninə də bir neçə yerdən yara vurdular. Abbas bəy birinci olaraq xəncəri şahın ürəyinə soxarkən şah qəzəb və həyəcanla son nəfəsində demişdi: "Ey xanə xərab, İranda viran kərdi" (Yəni: "Ay evi dağılmış, İranı viran elədin").

Qatillər şahın tacını, bazubəndini və həmailini götürüb şahın baş sərkərdəsi Sadıq xan Şəqaqinin yanına gəldilər. Əhvalatı söylədilər. Lakin Sadıq xan onların sözünə inanmadı.

Abbas bəy və Səfərəli bəylə birlikdə Məhəmmədhəsən ağanın evinə, şahın yataq otağına yollandılar. Sadıq xan içəri girən kimi öz adəti üzrə baş endirib təzim etdi. Bu zaman Səfərəli bəy irəli yeriyib yorğam şahın üstündən götürdü. Sadıq xan Şəqaqi şahın kəsilmiş başını və cəsədini gördü. Sadıq xan qorxuya düşdü. Öz iqamətgahına qayıdan kimi yaxın adamlarını və əsgərlərini toplayıb belə bir yalançı şayiə yaydı ki, "Şah məni məmur edibdir ki, İbrahim xanı tutub gətirəm". Bu sözlərlə gecə ikən şahın tacını, bazubəndini və həmai-

lini götürüb qoşunla şəhərdən çıxdı, şahın qatillərindən Abbas bəyi özü ilə bərabər apardı. Sadıq xanın getməsindən bir neçə saat sonra şahın ölüm xəbəri Şuşaya yayıldı. İran sərkərdə və sərbazları qorxudan dəhşətə düşüb Şuşanı tezliklə tərk etməyə çalışırdılar.

Dünənə qədər qorxu və əsarət zənciri ilə əl-ayaqları bağlanmış şuşalılar şahın ölüm xəbərini eşidən kimi şirə döndülər. Onlar hakimsiz qalmış iranlıların üzərinə düşdülər. şahın yaşadığı bina qarət olundu. Sonra şuşalılar İran xanlarını, sərkərdə və sərbazları tərksilah edib onların qarət etdikləri şeyləri əllərindən aldılar. Hətta bəzi sərbazları soyundurub şəhər hasarından bayıra çıxarırdılar. Sərbazlar canlarını qoruyub gözyaşı içində deyirdilər: "Babacan! Mənim ailəm var, əyalım var, körpə uşaqlarım var. Mənə rəhm elə! Məni öldürmə, burax evimə gedim, məni bura zorla gətiriblər".

Dünyanın ən dəhşətli müstəbidlərindən biri olan Ağa Məhəmməd şah Qacarın qaniçən, soyğunçu ordusu Şuşa şəhərində beləcə süqut etdi. Şahın öldürüldüyü həmin saatlarda İbrahim Xəlil xanın qardaşı oğlu Məhəmməd bəy öz dəstəsilə meydana çıxdı. O, şahın yaşadığı binanı tutaraq şahın xəzinəsindən qalan hər nə varsa öz evinə daşıtdı. Ağa Məhəmməd şahın başını isə Məhəmməd Rəfi bəy vasitəsilə Balakənə əmisi İbrahim xana göndərdi.

Məhəmməd bəy şahın həbsə aldığı şuşalıları, o cümlədən, Molla Pənah Vaqifi həbsdən azad etdi. M.P.Vaqif həbsdən azad olan kimi aşağıdakı misralarla başlayan məşhur şerini yazaraq dostu Molla Vəli Vidadiyə göndərdi:

Ey Vidadi! Gərdişi-dövrani-kəcrəftarə bax!
Ruzigara qıl tamaşa, karə bax, kirdarə bax!
Əhli-zülmü necə bərbad eylədi bir ləhzədə,
Hökmü-adil padşahi-qadiri-qəhharə bax!
Sübh söndü, şəb ki xalqa qiblə idi bir çiraq,
Gecəki iqbalı gör, gündüzki idbarə bax!..

Molla Pənahın şerində "Payimal oldu təpiklərdə, səri-sərdarə bax!" misrasının mənası budur ki, şahın zülmündən cana gəlmiş şuşalılar şahın başını ayaq altına salıb təpikləyə-təpikləyə şəhərin aşağı hissəsində olan, Çuxur məhlədən (Məhəmmədhəsən ağanın

evindən) meydana və oradan da "Divanxana" yerləşən bazar başına qədər gətirmişdilər...

Vaqifin şerində həm də "Mıxı mismara döndərən Tanrı var" misalına işarə olunur. Yuxarıda şahın dəmirçiyə cəza məqsədi ilə çoxlu mıx və nal düzəltməyi əmr etməsini demişdik. Bu dəfə hadisədən iki gün keçmiş həmin dəmirçini çağırıb ona tapşırdılar ki, şahın tabutuna çalmaq üçün mismar hazırla...

İbrahim xanın Balakəndə olmasının 22-ci günü idi. Bu zaman Məhəmməd Rəfi Ağa Məhəmməd şahın başım xana gətirdi. İbrahim xan dərin fikrə getdi və şəriət qaydaları ilə şahın başını Car qəbiris-tanında dəfn etdirdi. Lakin Mirzə Adıgözəl bəyin rəyincə İbrahim xan şahın başını Gürcüstana II İrakliyə hədiyyə kimi göndərmişdir.

Şahın ölümünü yəqin edəndən sonra İbrahimxəlil xan bir neçə ay Qarabağa gəlmədi. Bu dövrdə əlinə çoxlu variyyət düşmüş Məhəmməd bəy Cavanşir cavanlıq qüruru ilə, eləcə də bir para dələduz və müfəttin şəxslərin fitvasına uyub hökmranlıq xəyalına düşdü. Məhəmməd bəy öz yerini möhkəmləndirmək və hər sahədə möhkəm və asudə olmaq üçün "İbrahim xan tərəfdarı" hesab etdiyi şəxsləri sıradan çıxarmağa başladı.

Məhəmməd bəy hər kəsdən artıq Molla Pənah Vaqifdən qorxur və ondan şübhələnirdi. O, Vaqifin xalq arasındakı nüfuzunu yaxşı bilirdi. Vaqif həm də İbrahim xana sadiq bir vəzir idi.

Rəvayət olunur ki, şahın ölümündən sonra Vaqifin İbrahim xana göndərdiyi bir məktub Məhəmməd bəyin əlinə keçir. Molla Pənah Ağa Məhəmməd şahın ölümü ilə əlaqədar İbrahim xanı təbrik edib ona gözaydınlığı verməklə "Qarabağın hökmranlığı səni gözləyir" - deyə onu tezliklə Şuşaya qayıtmağa çağınrdı. Onsuz da Vaqifdən şübhələnib onu öldürməyə bir bəhanə axtaran Məhəmməd bəyin əlinə əlverişli imkan düşür. Məktubu əldə əsas tutaraq Vaqifin öz oğlu Əli ağa ilə bir yerdə öldürülməsi haqda əmr verir. Bununla kifayətlənməyən Məhəmməd bəy Vaqifin evini talan edib yandınr. Beləliklə, Məhəmməd bəy rəqiblərini aradan götürüb geniş qol-qanad açır.

Vəziyyətdən xəbərdar olan İbrahimxəlil xan Məhəmməd bəyi sakitləşdirmək üçün tədbirlər görür. Əvvəlcə oğlu Mehdiqulu ağanı bir neçə nəfər bəyzadə və xanzadələri ilə Şuşaya göndərdi. Mehdiqulu xanın Şuşaya gəlməsi Məhəmməd bəyi təşvişə saldısa da, o,

üzdə "Səmimiyyət və məhəbbət"dən dəm vurdu. Ozünü İbrahim xana çox sadiq bir adam kimi göstərdi. Həqiqətdə isə hakimiyyət ehtirası onu sərxoş etmişdi. Mehdiqulu ağa istər Şuşada, istərsə də bütün Qarabağdakı vəziyyəti barədə atasını xəbərdar etdi... Məhəmməd bəy də İbrahim xanın qayıdıb gəlməsindən ehtiyat etməyə başladı. Ağa Məhəmməd şahın sarayından və Qarabağdan əlinə keçmiş çoxlu qızıl, gümüş və cavahiratın başqalarının əlinə keçməsindən qorxan Məhəmməd bəy onları gizlətmək qərarına gəldi. Bu şeyləri iki nəfər erməni ilə götürüb şuşalıların qırxpilləkən dedikləri yerdən Daşaltı çayına yendirdi, oradan Kirs dağı istiqamətində bu xəzinəni meşədə basdırdı. Qayıdan başı xəzinənin sirri açılmasın deyə, qırx pilləkəndən çıxarkən erməni nökərləri öldürdü... İndi də həmin sərvətin basdırıldığı yer Xəzinə qayası adlanır.

Məhəmməd bəy bundan sonra İbrahim xanla necə rəftar edəcəyi barədə düşündü. O, Qarabağ ellərinin bir neçəsini köçürüb Araz kənarına apardı və üsyankarlıq mövqeyi tutdu. Bunu eşidən İbrahim xan böyük oğlu Məhəmmədhəsən ağanı 500 nəfər dağıstanlı qoşunu və Qarabağ sərkərdələri ilə Şuşaya göndərdi. Hər bir hazırlığı görüb rahatlanmış Məhəmməd bəy Kirs dağına gedərək orada rahatca istirahət edirdi.

Məhəmmədhəsən ağa əsgər və yoldaşları ilə Şuşanın alt tərəfindən keçərək Kirs dağının 2-3 verstliyində dayandı. Məhəmmədhəsən ağanın gəlməsini eşidən şuşalılar və qarabağlılar dəstə-dəstə onun görüşünə gəlir, əlini öpür, ixlas göstərirdilər.

Məhəmməd bəy təşviş içində ikən Məhəmmədhəsən ağa adam göndərib onu öz yanına çağırdı. Bu dəvətdən qorxan Məhəmməd bəy Məhəmmədhəsən ağanın yanına gəldi, onun əlindən öpüb yanında qaldı.

Məhəmmədhəsən ağa Məhəmməd bəyin hökmranlığı dövründə fitnə və fəsad düzəldib şuluqluq salan fırıldaqçılardan bir neçəsini tutub onun gözü qarşısında cəzalandırdı. Sonra bütün Qarabağ əhlinə müraciət göndərərək onları "...Öz işində, öz kəsbikarında olmağa, hər kəsin öz iş və peşəsilə məşğul olmağa, fitnəkarlıq və şuluqluqdan" əl çəkməyə çağırdı. Qarabağda yenidən əmin-amanlıq bərqərar oldu.

Məhəmməd bəy Məhəmmədhəsən ağa tərəfindən xatircəm edildikdən sonra özünü xanın başqa yaxın adamları kimi sakit aparmağa

başladı. Bununla belə əlində olan saysız varidat Məhəmməd bəyi sakit buraxmır. O, çoxlu sərvət götürüb İbrahim xan gələnə kimi Kür sahilinə gedir. Fürsətdən istifadə edən hiyləgər Şəki xanı Məhəmmədhəsən xan Məhəmməd bəylə dostluğa başlayır. Məhəmmədhəsən xan qızım və xanlığı ona vəd edir: "Mən bir kor kişiyəm. Özümün də bir nəfər qızımdan başqa bir kəsim yoxdur. Şirvan hakimi Mustafa xanın hökmlərindən cana gəlmişəm. Gəl, qızımı sənə verim və səni də öz yerimdə Şəki xanı təyin edim". Şöhrət düşkünü Məhəmməd bəyi bu vədlər aldatmışdı... Şəkidə Məhəmməd bəy həbs olundu. Şirvan hakimi Mustafa xan Məhəmməd bəy ilə ədavətli və qanlı idi. Çünki Məhəmməd bəy onun atasını və qardaşını öldürmüşdü. Məhəmməd bəyin Şəkidə dustaq olmasını eşidən kimi Məhəmmədhəsən xanın yanına adam göndərib Məhəmməd bəyi istədi. Xain, alçaq və hiyləgər olan Məhəmmədhəsən xan dərhal Məhəmməd bəyi Mustafa xana göndərdi. Mustafa xan da onu namərdliklə facianə bir surətdə öldürdü.

## İBRAHİM XANIN BALAKƏNDƏN ŞUŞAYA GƏLMƏSİ VƏ BAŞQA HADİSƏLƏR

Balakəndə 2-3 ay qalandan sonra İbrahim xan böyük əzab və fəlakət içərisində olan Qarabağa qayıtdı. Bir tərəfdən təbii fəlakət, digər tərəfdən Ağa Məhəmməd şahın sərbazları tərəfindən qarət və talan edilməsi nəticəsində Qarabağda ağır bir yoxsulluq yaranmışdı. Əhalinin bir hissəsi qaçıb başqa yerə dağılmışdı. Ətraf xanlar da üzdə onun dost olmalarına baxmayaraq, bu ağır günlərdə Qarabağa heç bir yardım göstərməmişdilər. Əksinə, bir çox halda Qarabağın ətraf kəndlərini talan və qarət etməkdə idilər.

Ağa Məhəmməd şah Qacar öldürüləndən sonra Şiraz hakimi Ağa Məhəmməd şahın qardaşı oğlu Sərdar Baba xan adlanan Fətəli şah Qacar Tehrana gələrək vəsiyyətə görə İran şahlığını ələ almışdı. O, tezliklə İranın hər yerində nizam-intizamı bərpa etməyə müvəffəq oldu. Şah İbrahim xanın yanına elçilər göndərib Ağa Məhəmməd şahın cənazəsini tələb etdi. Xan İrandan gələn elçilərə lazımi hörmət göstərdi. Ağa Məhəmməd şahın cənazəsini hörmətlə İrana yola saldı.

Fətəli şah İbrahimxəlil xanın bu hərəkətindən razı qaldı, onun Tehrana şahı dəfn etməyə gələn adamlarına bəxşiş və xələtlər verərək hörmətlə Qarabağa yola saldı. Eyni zamanda, İbrahim xana qılınc və qızıl yəhər göndərərək Qarabağdan əlavə, Qaradağ vilayətinin bütün mədaxilini onun ixtiyarına verdi. Eyni zamanda, İbrahim xanla qohum olmaq arzusunu bildirdi: Beləliklə, İbrahim xanın ağıllı və sevimli qızı Ağabəyim ağa üçün Tehrandan elçilər gəldi, kəbin kəsildi. Ağabəyim ağa Şuşadan Tehrana təntənəli şəraitdə yola salındı. Eyni zamanda, İbrahim xanın oğlu Əbülfət ağa da şahın yanına göndərildi. Fətəli şah Əbülfət ağaya xanlıq rütbəsi verdi və yüksək dərəcəli xanlar sırasında öz hüzurunda saxladı. Fətəli şah tez-tez bəxşişlər və xələtlər göndərmək yolu ilə İbrahim xanı öz tərəfinə çəkməyə çalışırdı.

Fətəli şahın bütün istəklərinə rəğmən İbrahim xan Rusiya ilə birləşmək üçün əlverişli məqam axtarırdı. Bu məqsədlə Mazdok xətti ilə Tiflisə gələn general Qudoviçin yanına İbrahimxəlil xanın elçiləri göndərildi və itaətə hazır olduğunu bildirdi. Nəhayət, 1803-cü ildə general Sisianov Zaqafqaziyaya sərdar təyin olunaraq Tiflisə gəldi. Əslən gürcü olan Sisianov şöhrətpərəst, şəxsiyyətini hədsiz sevən mənsəbpərəst bir adam idi. Buna görə də o, birinci dəfə Car və Tala ləzgilərini, İrəvan və Gəncə xanlıqlarını özünə tabe etmək və bu yol ilə Gürcüstanı ətraf xanlıqların hücumundan xilas etməyə çalışdı...

O, 1803-cü ilin dekabr ayında Gəncə üzərinə hücum edib, 1804-cü ilin yanvarında oranı işğal etdi. Lisaneviç Cavad xanı öldürdü, Gəncə əhalisini qırıb talan etdilər... Sisianov Gəncəni alandan sonra mayor Lisaneviçi İbrahim xanın yanına göndərib rus hökumətinə tabe olmağa çağırdı. İbrahim xan razılıq verib Lisaneviçi hörmətlə geri qaytardı.

1805-ci ilin mayında Gəncə ilə Qarabağ sərhədi olan Kürək-çayda Sisianovla İbrahim xan arasında təntənəli şəraitdə danışıqlar başladı. İbrahimxəlil xanı bu görüşdə oğlanları Məhəmmədhəsən ağa, Mehdiqulu ağa, Xanlar ağa, eləcə də Qarabağın məşhur bəyzadələri müşayiət edirdilər. İbrahim xanın dəvəti üzrə onun kürəkəni Şəki hakimi Səlim xan da Kürəkçaya gəldi. 14 may 1805-ci il tarixindən Kürəkçayda əhdnamə və müqavilə ilə Qarabağ xanlığı Rusiya itaətini qəbul edib rus təbəəliyini qəbul etdi.

Həmin müqaviləyə görə Qarabağ xanlığı təxminən aşağıdakıları öhdəsinə almışdı:

1. İbrahim xan İran, Türkiyə və başqa dövlətlərlə hər cür əlaqə və asılılıqdan imtina edib, yalnız rus imperiyasını tanıyır və onun hakimiyyətini qəbul edir.

2. Qarabağ xanlığı qonşu hakimlərlə əlaqə saxlamamalıdır. Onlardan alınan hər növ məktublar Şuşadakı rus komandanlığının və ya Gürcüstan baş hakiminin Qarabağda olan vəkilinin mülahizəsinə verilməlidir.

3. Xanlığın ərazisində saxlanan rus qoşunları üçün komandanlıq tərəfindən təsdiq olunmuş qiymətlərlə ərzaq tədarük olunmalıdır.

4. Rus qoşunları üçün lazımi bina verilməlidir.

5. Gəncədən Şuşaya gedən yol arabaların rahat getməsi üçün təmir olunmalıdır.

6. Sədaqət və inam əlaməti olaraq xanın böyük oğlundan olan nəvəsi həmişəlik Tiflisdə yaşamaq şərtilə girov verilməlidir.

7. Xan hər il 8000 çervon rus dövlətinə bac verməlidir. Və bunu da iki vaxtda: fevralın birində, sentyabrın birində ödəməlidir.

Bu şərtlərin müqabilində rus dövləti Qarabağ xanlığına aşağıdakıları vəd edirdi:

1. Xanın mülkü salamat saxlanılır. Xanlığın idarəsi irsi böyük-lüyə görə nəsildən-nəslə keçir və bunu rus imperatoru təsdiq edir. Məhkəmə işi, cəza və vergi toplamaq xanlığın ixtiyarında qalır.

2. Xanın mülkünü müdafiə etmək üçün Şuşa qalasına topları ilə birlikdə 500 nəfər rus soldatı göndərilir.

3. Xana öz evində saxlamaq üçün üzərində rus gerbi olan bayraq bağışlanır.

4. Xanın əmanət təyin edilən nəvəsinə gündəlik xərc olmaq üzrə 10 manat gümüş pul müəyyən edilir. Bütün bunlarla birlikdə İbrahim xana general-leytenant, Məhəmmədhəsən ağaya general-mayor, Xanlar ağaya polkovniklik hərbi rütbəsi verilir.

Az sonra mayor Lisaneviçin komandanlığı ilə rus hərbi hissəsi xan bağında yerləşdi, bir qədərdən sonra bu soldatlar bilavasitə Şuşa şəhərinə köçürüldülər. İbrahim xanın ruslarla birləşməsi Fətəli şahı təşvişə saldı. O, guya kömək məqsədi ilə Əbülfət xanın başçılığı ilə 5000 sərbazı Qarabağa İbrahim xanın köməyinə göndərdi. Şah təklif

edirdi ki, qoy Əbülfət xan həmişəlik Qarabağda qalsın, əvəzində Məhəmmədhəsən ağa şahın hüzuruna gəlsin.

Şahın bu təklifiəri İbrahim xanı acıqlandırdı. Əmr etdi ki, Əbülfət xan təcili olaraq öz qoşunları ilə Qarabağ torpağını tərk etsin. Əbülfət xan riyakarlıq edərək geri qayıtmaq əvəzinə Tuğ kəndi ətrafında mövqe tutdu. Həmin zaman İbrahim xan oğlu Məhəmmədhəsən ağa və Mehdiqulu ağa ilə həmin kənddə idilər. Əbülfət xan hücum edərək onları əsir etmək fikrinə düşdü. Müharibə nəticəsində Əbülfət xan məğlub olub Arazın İran sahilinə qaçdı.

Bu hadisə Fətəli şah Qacarı son dərəcə qəzəbləndirdi. Şah Kərim xan, Rəhim xan və Abdulla xanı elçi sifətilə İbrahim xanın yanına göndərdi. Mülayim söz və qəliz andlarla dolu bir məktub dəxi yazaraq bütün Qaradağ və Qaradağın şahlıq xəzinəsinə çatası vergilərini İbrahim xana və onun övladlarına veriləcəyinə vəd etdi. Şah bu təklifin əvəzində Əsgəran qalasının hər iki bürcünün İran hökuməti ixtiyarına verilməsini təklif edirdi. Eyni zamanda Şuşa çayı və şəhərin beş verstliyində olan səngər dəxi İranın əlində olmalı idi. Şahbulaq qalasında isə bir İran sərdarı və sərbaz saxlanmalı idi. Bununla şah rusların Şuşaya gəlmək yollarını bağlamaq istəyirdi və s. Şahın məqsədi o idi ki, Şirvan və Gürcüstan vilayətlərinin qapısı olan şəhəri rusların deyil, iranlıların əlində olsun. Təbii ki, İbrahim xan öz əhdnaməsinə sadiq qaldı və iranlıların təkliflərini rədd etdi. Belə olduqda İran qoşunlarının Araz kənarına yaxınlaşması xəbəri yetişdi. Arazın suyu çox yüksəldiyindən yalnız körpüdən keçmək mümkün idi. Məhəmmədhəsən ağa İran qoşununu körpüdən geri qaytarmaq məqsədilə mayor Lisaneviçi götürüb Xudafərin körpüsünə doğru getdi. Təəssüf ki, iranlılar körpünü keçib Qarabağ ərazisinə soxulmuşdular. İranlılarla rus və Qarabağ döyüşçüləri Cəbrayıl bağlarında üz-üzə gəldilər. Qanlı müharibə başlandı. Gecə Məhəmmədhəsən ağa öz əsgərlərini götürüb Şuşanın mühafizəsi üçün qalaya qayıtdı. İranlılar irəliləyib Şuşanın 28 verstliyində olan Ağoğlan qalasını tutdular. İran qoşunlarının sərkərdəsi naibüssəltənə Abbas Mirzə öz qərargahını Çanaxçı kəndində yerləşdirdi. O, 5000-dən çox İran sərbazı göndərərək Şuşa şəhərini mühasirəyə başladı. Digər tərəfdən, polkovnik Karyagin və polkovnik Kotlyarevski qoşun və topxana ilə gəlib Şahbulaq qalasında yerləşdi.

Rusların gəlməsini eşidən naibüssəltənə Abbas Mirzə Çanaxçı kəndindən çıxıb polkovnik Karyaginin üstünə gəldi. Əsgəran ətrafında on gün müharibə getdi. Nəticədə polkovnik Kotlyarevski yaralandı və ruslar geri çəkilməyə məcbur oldular. Bu müharibədə ruslara Vanya yüzbaşı bələdçilik edirdi. İranlılar Şahbulağı alıb oranı möhkəmləndirdilər.

Fətəli şah ruslara qarşı müharibəni daha da qızışdırmaq məqsədilə qoşunla Şuşa şəhərinin 18-20 verstliyində ordugah qurdu. Belə bir şəraitdə ruslar Vanya yüzbaşının bələdçiliyi ilə meşələrdən, dağlardan keçib Şuşaya daxil oldular. Lakin özləri mühasirəyə düşüb Gən-cəyə qayıtmağa məcbur oldular. Şuşa ətrafında İran qüvvələrinin güclədiyini eşidən Sisianov böyük qüvvə ilə Qarabağa gəldi. Naibüssəltənə Gəncə - Tiflis istiqamətində irəliləyərkən Fətəli şah Ağoğlan qalasında çadırlarını qurmuşdu. Bu zaman Fətəli şaha xəbər çatdı ki, rus hərbi qüvvələri Xəzər dənizi vasitəsilə Talış və Rəştə əsgərlər çıxanınşlar. Şah Ağoğlandan hərəkət edib Ərdəbil tərəfə getdi.

General Sisianov Ağoğlan yaxınlığında olan Xonaşenə qədər irəlilədisə də, iranlılarla qarşılaşmadı. Geri qayıdarkən Sisianov Şuşaya gəldi. Şuşada İbrahim xanın yanına İrandan göndərilən və girov saxlanan üç İran xanı ilə görüşdü, onlara ehtiram göstərdi.

1805-ci ilin qışında Sisianov Bakı, Şamaxı, Dərbəndi almaq məqsədilə Kür çayını keçib Şəki istiqamətində hərəkət etdi. İbrahimxəlil xanın göstərişi ilə oğlu Mehdiqulu ağa və şəkili Səlim xan Sisianova kömək edirdilər.

Şirvan hakimi Mustafa xan Sisianova tabe olmaqdan boyun qaçıraraq Fit dağına çəkilmişdi. Mehdiqulu ağanın elçiliyi ilə Mustafa xan yola gəlib rus dövlətinə itaət etdi.

Sisianovun qoşunu Şirvandan Bakı üzərinə hərəkət etdi. Bu zaman İbrahim xanın böyük oğlu Məhəmmədhəsən ağa vəfat etdi. Ona görə Sisianov Mehdiqulu ağanı Şuşaya qaytardı və İbrahim xana başsağlığı məktubu göndərdi. Sisianov Məhəmmədhəsən ağanın oğlu Cəfərqulu ağaya məktub yazaraq onu həmişə himayə etməyə hazır olduğunu bildirdi.

Sisianov Bakı üzərinə hücum edərkən onu həm qurudan, həm də dənizdən mühasirəyə aldı. Vəziyyəti belə görən Bakı xanı Hüseynqulu xan hiyləyə əl atdı. O, Sisianovu qaladan azca aralıda qurulmuş

çadırına dəvət etdi. Sisianov Hüseynqulu xanın çadırında danışıq apararkən xanın qohumlarından İbrahim bəy namərdlik edib Sisianovu tapança ilə vurdu.

Sisianovun ölümü İbrahimxəlil xanı da kədərləndirdi. Sisianovdan sonra onun yerinə müvəqqəti olaraq Nesvetayev təyin olundu. İbrahim xan onun yanına elçilər göndərib Rusiyaya sədaqətini bir daha təsdiq etdi. General Nesvetayev xanın elçilərini hörmətlə qəbul edib ənam və bəxşişlərlə Qarabağa yola saldı.

## İBRAHİMXƏLİL XANIN ÖLDÜRÜLMƏSİ. İRANLA MÜHARİBƏNİN GENİŞLƏNMƏSİ

1806-cı ilin yaz fəslində iranlılar yenə də Qarabağa yürüş etməyə hazırlaşırdılar. Tez-tez İbrahim xanın yanına şah elçiləri gəlir, vədlər və ümidlərlə onu öz tərəfinə çəkmək istəyirdilər. Hər dəfə iranlılarla görüşünü İbrahim xan mayor Lisaneviçə bildirirdi. Müharibənin qarşısını almaq üçün İbrahim xan bacardıqca iranlılarla mülayim hərəkət etməyə çalışırdı. Digər tərəfdən, məhsulun yetişməsi və yığılması dövrü yaxınlaşdığından xan Qarabağı müharibə meydanı etməkdən çəkinirdi. Bu biri tərəfdən Şuşada rus qoşunu o qədər az idi ki, bununla ciddi müharibə aparmaq mümkün deyildi...

Bu zaman xəbər çatdı ki, İran sərbazları Şuşa qalasına doğru hərəkət edirlər. İbrahim xan Şuşadan 12 kilometr aralıda olan Xan bağından köçüb şəhərin 4 kilometrliyində Qaraqaya adlı yerə gəlib düşərgə saldı. Fitnəkarların aravurması nəticəsində gecə mayor Lisaneviç qoşunla Şuşadan çıxıb xanın düşərgəsinə hücum etdi. Xan çadırdan çıxıb mayoru gördü: "- Gecənin bu vaxtında nə hadisə üz vermişdir?" - deyə sual verdi. Lakin nahaq qan tökməyə adət etmiş Lisaneviç çadırlara atəş açmaq üçün soldatlara əmr etdi. Həmin gecə çadırda olanlardan 17 nəfəri öldürüldü. Ölənlər içərisində İbrahimxəlil xan, arvadı Tuba xanım, qızı Səltənət bəyim, 12 yaşlı oğlu Abbasqulu ağa, Kəbirli bəylərindən iki nəfər qonaq və başqaları var idi. Həmin qanlı və faciəli gecədə Mehdiqulu ağa və Cəfərqulu ağa Şuşada idilər. Nagahani olan bu hadisədən şuşalılar və bütün Qarabağ əhli həyəcana düşdü. Lakin Mehdiqulu xan xalqı sakit edib dedi: "Hökumət özü

müqəssirləri cəzalandıracaq". Lakin xalqın narazılığı və çoxlu şikayəti nəticəsiz qaldı. İbrahim xan çarizmin qəddar müstəmləkəçiliyinin qurbanı oldu. Lisaneviçin hörməti və hərbi rütbəsi artırılırdı.

Şuşada belə gərgin vəziyyət yarandığı şəraitdə İran qoşunları Qarabağa hərəkət edib Ağoğlanda yerləşdilər. Tezliklə general Nebolsin öz qoşunu ilə gəlib əvvəlcə Şahbulağa, sonra Əsgərana çatdı. Mehdiqulu xan və bəzi Qarabağ əyanları tezliklə rus qoşunu ilə birləşdilər. General Nebolsin iranlıların hücumunu iki gün gözlədi. Lakin üçüncü gün özü iranlılar üzərinə hücum etməyə başladı. İranlılar general Nebolsinə Xonaşen dərəsindəki vuruşmada qalib gəldilər. Lakin köməyə gələn Mehdiqulu xanın Qarabağ süvariləri tezliklə iranlıları geri qaytardılar. Atasının ölümündən sonra Mehdiqulu xanın bu şücaəti ancaq onun milli qeyrətindən irəli gəlirdi.

1811-ci ilin sentyabrında Bakıya səfər üçün yola düşən general Markiz Pauliççi Gəncədə dayandı, Cavad xanın dustaq və əsir olan ailə üzvlərini həbsdən azad etdi. Qafqazın hər yerində ruslara qarşı narazılıq, şuriş əhvalı hökm sürürdü. Rusların qaba rəftarı, müstəmləkəçi hərəkətləri nəticəsində əhali İrana və Türkiyəyə mühacirət edirdi. İbrahim xanın nəvəsi Cəfərqulu ağa da İrana qaçmışdı. Bunu görən naibüssəltənə Abbas Mirzə Qarabağa hücum edərək bir batalyon rus soldatını məhv etdi. Bu xəbəri eşidən Markiz Bakı səfərini təxirə salıb Şuşaya tərəf hərəkət etdi. Markiz Pauliççi Şuşa şəhərinə daxil olub bəzi adamları məzəmmət etdi, şəhərdə nizam-intizamın bərqərar olmasına çalışdı. Şuşada asayiş qaydaya düşdükdə, general Pauliççi Tiflisdən arvadından məktub aldı ki, Kaxetiyada və onun ətrafında üsyan başlanmışdır. 12 fevral 1811-ci ildə Markiz Pauliççi Şuşadan Tiflisə getdi. Gürcüstanda əmin-amanlıq bərpa edilərkən Fransa-Rusiya müharibəsi başlanması ilə əlaqədar Markiz Pauliççi 16 aprel 1812-ci ildə Rusiyaya çağrıldı. Əvəzində Retişşev baş komandan təyin olundu. O, Rusiyanın beynəlxalq vəziyyətini nəzərə alaraq İranla müharibəni dayandırıb danışıqlar aparmağa başladı. 12 oktyabr 1813-cü ildə Gülüstan deyilən yerdə İranla Rusiya arasında sülh müqaviləsi bağlandı. Müqaviləyə əsasən Zaqafqaziyanın böyük əraziləri Rusiyaya verildi.

"Gülüstan" müqaviləsindən bir qədər sonra general Retişşevi baş komandan vəzifəsində general Yermolov əvəz etdi. Yermolovun

kobudluğu, müstəmləkəçiliyi o dərəcəyə çatdı ki, Qarabağ xanı Mehdiqulu xan və şirvanlı Mustafa xan İrana qaçmağa məcbur oldular. Şəki xanı da vəfat etdi. Özündən çox bədgüman olan Yermolov 1822-ci ildə Qarabağ, Şəki və Şirvanda xanlıq idarəsini ləğv edərək onların əvəzinə çar zabitlərindən ibarət komendantlıq yaratdı. Beləliklə, çarizm öz vədlərindən əl çəkib Zaqafqaziyanı həqiqi müstəmləkəyə çevirdi.

"Gülüstan" müqaviləsindən sonra Qafqazda bir müddət asayiş oldusa da, həmin müqavilədən narazı qalan İran Rusiyaya qarşı yeni, böyük müharibəyə hazırlaşırdı. 1826-cı ilin iyulunda İranla-Rusiya arasında ağır müharibə yenə də Qarabağ ətrafında, Şuşa şəhəri uğrunda mübarizə ilə başladı. Şahzadə naibüssəltənə Abbas Mirzə Qarabağa daxil olub Gorusda olan rus soldatlarına hücum etdi. Rus qüvvələrinə isə Şuşaya geri çəkilmək əmri verilmişdi. Bu döyüşdə şuşalılar qalib gəlirlər. Polkovnik Nazımka və mayor Kovalenski və xeyli soldat əsir alınıb Ərdəbil şəhərində dayanmış Fətəli şahın hüzuruna göndərilir. Bu zaman qaradağlı Mahmudqulu xan və sərdar Əmirxan Naxçıvana, Gorunzor istiqamətində şahzadənin yanına gedirlər. Səhər Çanaxçıdakı rusları əsir etməyi qərara alan şahzadə Kürdüstan yolu ilə deyil, Şuşadan keçib getməyi qərara alır. Elə bu zaman Mehdiqulu xanın Şuşadan çıxıb İran tərəfinə keçməsi xəbəri almır. Şəhəri əldən verməmək üçün general Reutt cəld hərəkət edib Şuşa şəhərinə daxil olur. Şahzadə belə bir şəraitdə Çanaxçıya getmək planını dəyişib, böyük qüvvə ilə irəliləyib Şuşa şəhərini mühasirəyə alır. Qarabağ erməniləri Xəzinə qayası tərəfdən hücum edib ruslara kömək etmək istərkən əks nəticə verdi və bu hücum iranlıların xeyrinə oldu. O zaman Qarabağ rəiyyətindən bir çoxu İran tərəfə keçərək Mehdiqulu xanın yanına gedirdilər. Vaxtilə Şuşam müdafiə edən qarabağlılardan bir çoxu indi İran tərəfdə vuruşurdu. Bu zaman Ruslar Talış xanlığını tərk etməli oldular. Talış Mir Həsən xan üsyan qaldırıb Kaspi dənizindəki rus batalyonunu məhv etmişdi. Sonra qardaşlarını Abbas Mirzənin yanına göndərib ona sədaqətini bildirmişdi. İranlıların sürətlə Zaqafqaziyada irəliləmələri nəticəsində bir çox xanlar qayıdıb əvvəlki hakimiyyətlərini bərpa etmişdilər. O cümlədən, şirvanlı Mustafa xan Şamaxıda əvvəlki xanlığını bərpa edirdi...

Rus qoşunlarının yüz minlik İran qoşunu qarşısında geri çəkilməsini görən şahzadə Abbas Mirzə dayısı Əmir xan ilə Nəzərli xanı Gəncə qalasını möhkəmləndirmək üçün ora göndərmişdi. Naibüssəltənə öz yaxın adamlarından Biçən xanı böyük müjdə və ümidlə mühasirə halında olan Şuşa şəhəri üzərinə göndərib şəhəri təslim etməyi ona tapşırmışdı. Lakin 1795-ci ildə olduğu kimi, 1826-cı il mühasirəsində də şuşalıların iradəsini qırmaq qeyri-mümkün idi. Ruslar təslim olmaq təklifini müzakirə üçün və Yermolovdan qalanın sonrakı taleyini öyrənmək üçün iranlıların razılığı ilə Tiflisə bir heyət göndərdilər. Yermolov iranlılara belə cavab yazmışdı: "...Kapitulyasiya sözü rus dilində yoxdur. Fransız dilində isə kapitulyasiya qalanı təslim etməyə deyilir". Beləliklə, Şuşanın mübarizəsi bir neçə ay davam etdi və qələbə ilə nəticələndi...

Rusiya-İran müharibəsi Şamxor və Gəncə ətrafında davam edirdi. Ən böyük döyüşlər general Mədətovun qoşunları ilə sərdar Əmir xanın qüvvələri arasında olmuşdur. İranlıların məğlub olmaq xəbərini eşidən şahzadə Mehdiqulu xanı Ağdam tərəfdə qoyub, Gəncə tərəfə getdi. 1826-cı ilin 13 sentyabrında Gəncədə Nizami məqbərəsi yanında baş verən müharibədə ruslar özlərindən bir neçə dəfə artıq olan iranlıları məğlub etdilər. Beləliklə, İran sərbazları İrana çəkildilər. Gəncə müharibəsindəki məğlubiyyətdən sonra (13 sentyabr 1826-cı il) iranlılar Şuşanın mühasirəsindən əl çəkdilər. İranlıların təqib edilməsində Qafqazın yeni canişini, sonralar İrəvan qalasını fəth edən Paskeviç iştirak etmişdi. O, sərhədi keçərək İranın bir çox əyalətlərini almışdı.

General Mədətovun özünü pis aparıb sabiq xanları incitdiyinə və başqa özbaşınalıqlar etdiyinə görə, 1827-ci ilin aprel ayında onun yerinə knyaz Abxazov təyin olundu. O, Qarabağ, Şəki və Şirvan vilayətlərinin rəisi kimi əhalini sakitləşdirirdi. General Paskeviç isə İrəvan və Sərdarabadın fəthi üçün yola düşdü. Bu zaman Dərələyəzidə olan Qarabağ hakimi Mehdiqulu xan Paskeviçin təminatı ilə İran hökumətindən üz çevirərək təkrar Rusiya tərəfinə keçdi. Bu əməliyyat belə olmuşdur: Paskeviçin göstərişi ilə general Abxazov iki batalyon soldat götürərək, Mehdiqulu xanın yanına getdi. İki dövlətin sərhədi olan Ağ Karvansara adlı yerdə görüşdülər. General

Abxazov Mehdiqulu xanı xatircəm edib onunla İrana getmiş adamları Qarabağa köçürülməsinə təminat verdi...

Naibüssəltənə Abbas Mirzə və general Paskeviç qoşunları arasında olan şiddətli vuruşmalar nəticəsində İrəvan və Sərdarabad qalaları ruslara təslim olur.

Paskeviç elə bu zaman Qarababa yaylağında istirahətdə olan general Eristova Təbriz üzərinə hücum etmək haqqında əmr verdi. Rus qoşunları heç yerdə ciddi müqavimətə rast gəlmədən 13 oktyabr 1827-ci ildə Təbrizə daxil oldular. Təbrizin fəthindən sonra Abbas Mirzə ilə general Paskeviç arasında sülh danışıqları başlandı. Lakin rusların sülh təkliflərini Abbas Mirzə inadla rədd edirdi. Danışıqların uzandığını görən general Paskeviç Tehran üzərinə yürüşə hazırlaşmaq əmrini verdi. Xəbər tezliklə Abbas Mirzəyə və atası Fətəli şaha çatdı. Şah çarəsiz qalıb sülhə razı oldu. Hər iki dövlətin nümayəndələri Türkmənçay adlanan yerdə sülh məclisinə toplaşdılar. Araz çayı İran ilə Rusiya arasında sərhəd təyin olundu. İran tərəfi təzminat olaraq ruslara 7 kürur verməli oldular (hər kürur rus gümüş pulu hesabı ilə iki milyon manatdır). Bu pul ödənənə qədər Xoy vilayəti rusların əlində girov kimi qalmışdı. Türkmənçay müqaviləsilə İrəvan və Naxçıvan xanlıqlarının əraziləri də rusların əlinə keçdi.

## ŞUŞANIN MƏDƏNİ HƏYATI VƏ TARİXİ ABİDƏLƏRİ

XVIII əsrin ikinci yarısından başlayaraq Şuşa şəhəri Azərbaycan mədəniyyəti, ədəbiyyat və incəsənətinin mühüm mərkəzlərindən biri olmuşdur. Şübhə yoxdur ki, bu işin möhkəm təməlini İbrahim xanın vəziri Molla Pənah Vaqif qoymuşdur. O da məlumdur ki, Vaqif Şuşada fəaliyyətə Saatlı məhləsində açdığı mədrəsə ilə başlamışdı. Vaqifin böyük ədəbi məktəb yaratdığı, onlarca davamçılar yetirdiyi oxuculara yaxşı məlumdur. Hələ o zaman Şuşada Molla Əli Xəlfə, Molla Zeynalabdin və bir çox başqa müdərrislər çoxlu istedadlı şagirdlər yetişdirmişlər.

Hələ o dövrdə Şuşada yaşamış Musa Kəlimullahın qələmi ilə XVIII əsrin ağır müharibələri, xalqın çətin vəziyyəti qələmə alınmışdır:

Zalım fələk! Sənə netdim, neylədim?
Əcəl qılıncları çalhaçaldadır.
Hansı halalını haram eylədim,
Bəlasız başımız qalmaqaldadır?

Şirvanlı Çələbi döyülüb qaçdı,
Qacar Məmmədhəsən bir oyun açdı,
Ovşar Fətəli də yolunu çaşdı,
İndi başqa fikir, başqa haldadır.

Qızmış şirə döndü Ağamməd Qacar,
Qarabağa gətdi qanlı bir azar.
O saymadı, bax gör fələk nə sayır,
Leşi gorda, başı bizim yaldadır.

Yasa döndü bütün toylar, düyünlər,
Ələ düşdü nazlı qızlar, gəlinlər,
Ləkələndi ismət, namus, yəminlər,
Bu cəza nə yerdə, nə mahaldadır.

İbrahim Xəlil xanın oğlu Əbülfət xan Tuti və qızı Ağabəyim ağa da şair idilər. Onların hər ikisi Şuşada və Qarabağda əminamanlıq və sülh yaratmaq məqsədilə Fətəli şahın sarayına göndərilmişdilər.

Əbülfət xan Şuşadan gedərkən yazmışdı:

O gün kim həsrətilə ol büti-zibadan ayrıldım,
Qalıb bir surəti-bahiss kimi mənadan ayrıldım...

Eyni ayrılıq ruhunu biz onun bacısı Ağabəyim ağanın şeirlərində də görürük:

Mən aşiqəm, Qarabağ,
Qara salxım, qara bağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

O, başqa bır şerındə yazırdı:

Şərhi-Şişə ki, əcəb abi-həvayi darəd,
Xürrəm on ki, bə səri-kuyi o cayi darəd...

Ağabəyim ağanın Azərbaycan və fars dillərində bir çox mənzumələri olmuşdur:

Əfsus ki, yarım gecə gəldi, gecə getdi,
Heç bilmədim, ömrüm necə gəldi, necə getdi.

Şuşa şəhəri zəngin memarlıq abidələri şəhəridir. Bunların bir çoxu tarix keçdikcə uçub dağılmış, bir hissəsi isə bizim dövrümüzə qədər gəlib çatmışdır. Bu abidələrdən iki məscid, divanxana (ruslar buranı hərbi kəlisaya çevirmişdilər), böyük karvansara daha yaxşı vəziyyətdə qalmışdır.

Cümə məscidi adı ilə məşhur olan bu bina meydanın qarşısında tikilmişdir. Əhali çox vaxt həmin binaya yuxarı məscid deyir. Bu bina hicri 1182 (1768)-ci ildə İbrahim xan tərəfindən tikilmişdir.

Hicri 1282 (1866)-ci ildə İbrahim xanın qızı həmin məscidi əsaslı şəkildə təmir etmişdir. Bunu məscidin girəcəyindəki qapının üstündəki kitabələr əks etdirir. Bu kitabələr həmin məscidin vəqf hesabına işlənməsi və təmir olunmasını göstərir. Məsciddəki kitabələr fars dilində aydın nəstəliq xətlə daşa həkk olunan sənət əsərləridir. Eyni zamanda, kitabələr vəqf məqsədi daşıyan hər iki məscidin gəlirinin nəyə sərf olunduğunu bildirir.

Yuxarı məscidin (meydandakı) kitabəsinin tərcüməsi belədir:

"Ürəkləri bilən odur" (o Allahdır). Şuşa qalasında olan iki gövhəriyyə mədrəsəsi və iki məscidin vəqfləri aşağıdakılardır: aşağı məscidin cənub tərəfində bir qatardan ibarət bütün on bir ədəd dükanlardır ki, bir tərəfdən məscidin həyətinə bitişir və digər tərəfdən qala meydanına qədər uzanır. Cavanşir mahalından Maqsudlu kəndinin aşağı tərəfindəki qərbdən hüdudu quzey kəndləri, şərqdən Gəlinxanımlıya və Quzanlıya, bir tərəfdən Kudri yüzbaşılıya və oradan da Ağ Kəhrizin yuxarısından otaqçı damına çatır. Və oradan da yeddi gözə qədər və cənubdan Şahbulaq və Göytəpə sərhədinə və Gəlinxanımlıya doğru üzüaşağı şimaldan Xaçın çayına kimi

quzey kəndlərindən Tösü bağının yuxarısında olan Yolçu bağına kimi və Kudri yerindən dəstəmaz suyuna və Elçi şıxlara kimi çıxır.

Cavanşir mahalından Qaradağlı kəndinin bütün altındakı hüdudu, şərqdən Tələk çayına, qərbdən Seysulan çayına və cənubdan Seysulan xəndəyinin ortasına qədər və oradan üzüaşağı Səngi köbər və ildırım uçan, şimaldan Səhləbada gedən yolla və Daşlı keçiddən üzüaşağı Şıxbaba çinarına kimi və nəhayət, Telek çayına qədər uzanır. Kəbirli mahalından Evoğlu kəndinin bütün aşağı hissəsinin hüdudu: Şərqdən Saqqız ağacı pirinə, qərbdən Hacı Lazımın dəyirmanının başından üzüaşağı Oğulboynu çayına kimi və oradan Lələ bağına və oradan Qarqarlı meşəsinə və oradan Kiçik Şumlu təpəsinə və oradan Gurşənaha ağacına, oradan Kürə və Saqqız ağacı pirinə kimi və şimaldan yuxarısı Hacı Lazımın dəyirmanına və üzüaşağı Ərəs xanın əkdiyi yerə qədər və oradan bağ ağzına və oradan Evoğlu qışlağına qədər, çaydan və oradan Evoğlu əkin yerinə qədər gəlir və oradan Kürə və oradan yastı yolun və oradan Saqqız ağacına qədərdir. Və Daruqəli torpağının bütün mülk və bağları. Məhduddur şərqdən Xıdırlı çayı ilə, qərbdən Qarağacı qəbiristanından Damlı təpəyə gedən ümumi yol ilə, cənubdan Kərim ağanın bağı ilə, şimalda Daşlı təpədən üzüaşağı qeyd olunan çaya qədər. Şərqdən Mirzəlibəy və şimaldan Məşədi Aşurun bağı ilə, qərbdən dəllək oğlu Məhərrəmin və Allahqulu oğlu İmamqulunun bağı ilə, cənubdan böyük yol ilə, şimaldan Süleyman xan oğlu Həsən ağanın bağı ilə məhdud olan Telli kəndindəki bir parça meyvə və üzüm bağı bütünlüklə məscidin vəqfinə daxildir.

İki məscid mövqüfatının qalan hissəsi vəqfnamənin əslində və onun kitabçalarında ətraflı surətdə şərtlərlə yazılmışdır ki, vilayətin möminləri və müvəkkilləri onların (şərtlərinin) yerinə yetirilməsinə əməl etsinlər.

Cənnət məkanlı xanlar xanı xoşbəxt İbrahimxəlil xan Cavanşirin qızı həzrəti Zəhranın möhtac kənizi, misilsiz xanım, böyük əsilli və uca nəsəbli, səadətli və şərafətli və həqiqət ədalı yüksəklik və böyüklüyün xəzinəsinin yeganə gövhəri həzrəti Məryəm xasiyyətli, əsrin Bilqeyisi sərkar cənabi-Gövhər ağa bütün möminlərdən, xüsu-silə Şuşa şəhərindəki qeyd olunmuş möminlərdən dua tələb edir. Hər kim qeyd olunan mövqüfata zülm əlini uzatsa, Allahın və Allahın övliyalarının əbədi lənətinə tutulsun.

Allahın lənəti olsun zalım tayfaya..."

Şuşada meydan qarşısında olan yuxarı Gövhər ağa məscidinin girəcəyində qapının sol tərəfində də çox sözlü zərif bir kitabə vardır. Həmin kitabə qapının sağ tərəfində yuxarıda farscadan tərcüməsini verdiyimiz kitabə ilə eyni həcmdə və formadadır.

Bu kitabə də vəqf yerlərindən alınan gəlirin (mədaxilin) nəyə və haraya xərc olunmasından bəhs edir.

Kitabənin mətni:

"Sirləri bilən odur (Allahdır). Gövhəriyyənin iki məscid və iki mədrəsəsinin mövqüfatını xərcləyən mütəvəkkillər vəqf gəlirini hər il üç yerə bölsünlər; üçdə bir hissəsinin şəri qaydalara əsasən müamilələr vasitəsilə hər iki məscid və mədrəsə üçün tənxah (ehtiyat) yığsınlar və bu qaydanı müəyyən müddət davam etdirsinlər ki, inşallah məscid və mədrəsələrin təmirinə bütünlüklə kifayət edəcək məbləğ hazır olsun. Allah eləməmiş məscidlər və mədrəsələr xarab olarsa, müvəkkillər (bu pul ilə) onları yenidən təmir etsinlər və həmin üçdə bir hissəsini xərcləsinlər.

Müvəkkillər qalan iki hissəsini xərclərkən (aşağıda göstərilən surətdə) məscid və mədrəsələrin hal-hazırda və gələcəkdəki təmirini birinci dərəcəli iş kimi nəzərdə tutsunlar. Sonra isə gecələr məscid və mədrəsələrin hücrələrinin işığını, qış və payız fəsillərində isə kömür pulu, məscid və mədrəsələrin iki nəfər işçisinin və iki nəfər əzançısının məvacibini, mədrəsələrdə iki nəfər müəllimin məvacibini, məscidin işlərini idarə edən iki işçi, o cümlədən, zəhmət çəkən müvəkkillərin zəhmət haqqı da ödənilsin.

Aşuranın on günlüyündə cənabi Seyyidi-Şühədanın (imam Hüseynin) təziyyəsinin xərci ödənilsin. Vaxtın tələbinə görə müvəkkillər lazım bilsələr eləcə də Tasua günündə (yəni Məhərrəmin 9-cu günündə) məscidlərdə və həyətlərində şərbət paylasınlar. Məhərrəm və ramazan aylarında vaxtın tələbi və müvəkkillərin məsləhətinə görə ehtiyacı olanlara müəyyən miqdarda pul paylansın. Məscidlərin minbərlərində vəqf sahibini xeyir-dua ilə yad etdirməkdən ötrü bir məbləğ xərclənsin. 70 nəfər müstəhəqqə ramazanəl-mübarək ayının əhya gecələrində məscidlərin həyətində iftar verilsin. Ramazan əl-mübarək ayında 3 gün əhyanı məscid həyətlərində tutanların

yanacaq və buxur (buxur - yanarkən müşk-ənbər qoxusu verən, bir növ bitkidir - red.) ödəsinlər.

Ramazan ayında məscidlərdə otuz gün (gecə və gündüz) 20 nəfər Quran oxuyanın haqqı pul ilə ödənsin. Belə ki, ramazan ayının 30 günündə 100 cild Allah kəlamını (burada cild surə mənasındadır - red.) oxuyub, onlardan 50 cild vəqf sahibəsinin özü üçün, 20 cild ata və anası üçün, 20 cild bacı və qardaşları üçün, 10 cild də qohum-əqrəbaları üçün - hamısı adbaad vəqfnamədə qeyd olunduğu kimi Quran tapşınlsın. Quran-tapşırma işi əsasən əhya günlərində məsciddə başa çatdırılsın.

Şəban ayının 15-ci günü qəriblərə və tüllablara[1] məscidlərdə mütəvəkkillərin məsləhəti və vəqtin tələbinə görə yemək verilsin və hor Qurban bayramında məscidlərin həyətində on qoyun kəsib, ehtiyacı olanlara paylayıb vəqf edəni və onun sülaləsini xeyir-dua ilə yad etsinlər. Məscidlərin birinin yanında yeri-yurdu olmayan qərib xəstələr üçün "Darüş-şəfa" adlı xəstəxana açıb həmin gəlirdən təmin etsinlər və onun xərcləri: müalicə, dərman, pərəstarların maaşı və ölənlərin dəfn xərci vəqfnamədə göstərildiyi kimi təmin edilsin. Qeyd olunanlardan sonra artıq qalan gəliri mütəvəkkillər iki yerə bölüb, bir hissəsini yenə bir etibarlı adama tapşırsınlar ki, o pul həmişə müamilədə - artmaqda olsun ki, əgər işdir, bir il vəqflərin gəliri olmasa və ya az olsa və yaxud da mədrəsə və məscidlərin hər ildəkindən artıq təmirə ehtiyacı olsa, haman ikinci toplanmış pulu onların təmir və abadlaşmasına sərf etsinlər. Qalan hissədən ilbəil şəriət və müqəddəmat elmlərinə aid kitab alıb mədrəsələrin kitabxanasına vəqf adı ilə vəqfnamədə qeyd olunmuş şərtlər əsasında daxil etsinlər (müqəddəmat: tarix, sərfnəhv, məntiq və başqa ictimai elmlər nəzərdə tutulur - red.).

Əgər bir adam bunu (yəni yuxarıda deyilənləri) eşidəndən sonra onu dəyişsə, xəbəri yoxdur ki, onu dəyişənlərin günahı nədən ibarətdir. Onlar bilməlidirlər ki, zülmkarlar hansı axirətə qayıdacaqlar.

Xanlar xanı xoşbəxt İbrahim xan Cavanşirin qızı vaqifə, hezrəti Zəhranın ən alçaq kənizi, misilsiz xanım, sərkar Gövhər ağa, ilahi haqq-hesab günündə möminləri, məni və mənim valideynlərimi bağışla. 1282 (1866-1867)-ci il.

1 Mədrəsədə təhsil alanlara deyilirdi.

Yuxarı məsciddə başqa kitabələr də vardır. Bu məscidin şimal tərəfində, yəni girəcək yolunda üç qapı vardır. Bu qapılardan ikisi kiçik və biri (ortadakı) böyükdür. Qapıların hər üçünün üstündə daş lövhələr vardır ki, bu lövhələrdə müxtəlif kitabələr həkk olunmuşdur. Aşağıda həmin kitabələrin farscadan tərcüməsini veririk.

Birinci balaca qapı üzərində (şərq tərəfdə) yazılmışdır:

Peyğəmbər - Allahın ona salam və salavatı olsun, - dedi: -Allaha ibadət edin! Guya sən onu görürsən, əgər görməsən, o səni görür və əbd sözündə, üç hərfdən ع ayn, ب be, د dal hərflərindən ibarətdir. Əbd sözündəki ayrı onun (Allah bəndəsinin - red.) Allaha aid olmasını; be onun (Allah bəndəsinin - red.) başqasına qarşı olan fəzilətdir. Dal isə onun görünməyən və pərdəsiz Allaha yaxın olmasıdır. Həqiqəti olmayan (yəni inamı olmayan - red.) yalan ibadət köynəyini geymək iddiasında olmaqdan şiddətli (ağır) günah yoxdur".

Girəcəkdə orta böyük qapı üzərində daşa həkk olunmuş kitabənin tərcüməsi:

"Doğrudan da, Allah kərimdir. Onu razı salmaqdan ötəri qapısına əyilən əlacsız bəndələri üçün kəramət arzulayır.

Cənnətməkan Gövhər ağanın vəsiyyətnaməsinə əsasən (məscid təmir olundu)".

Bu kitabənin üzərində iki kiçik xonça rəsmi dəxi vardır.

Birinci xonçada aşağıdakı sözlər həkk olunmuşdur: "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn".

İkinci xonçada isə belə bir cümlə həkk edilmişdir: "O Allahın əli onların əlləri üstündədir".

Aşağı məscid də İbrahimxəlil xanın qızı Gövhər ağa tərəfindən bina olunmuşdur. Maraqlıdır ki, hər iki məscidin inşa və təmirləri bir-birinə yaxın tarixə təsadüf olunur. Şuşada məhlə məscidləri ilə yanaşı, iki came məscidinin tikilməsinə zənnimizcə ciddi ehtiyac var idi. Çünki Şuşada yalnız şiələr deyil, sünnilər də var idi.

Dindarlar arasında da təfriqələr çox idi. XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Şuşada 12-yə qədər təriqət və ya əqidə mövcud idi. O cümlədən: Şeyxi, Üsuli, Mütəşər, Kərim xanı və s. Xüsusilə Şuşada "Şeyxi"lər və "Üsuli"lər məşhur idi. Şeyxilər ilə Üsulilər arasında gərgin mübarizə gedirdi. Mərhum Gövhər ağa

yuxarı Cümə məscidini inşa vstəmir edən kimi Şeyxilər dərhal oranı "işğal etdilər..." Aşağı masciddə isə əsasən Üsulilər ibadətlə məşğul idi. Aşağı məsciddə kitiələr çox məhduddur. Yalnız məscidin içərisində olan minbərlərJən (ortada) birində ayaq tərəfdən qarışıq nəstəlik xətlə Qurandanayələr və hədislər həkk edilmişdir. Aşağı məscidin xaricində şimaltərəfi də (fasadda) məscidə daxil olmaq üçün yuxarı məsciddəki kimi iki xırda və bir böyük qapı vardır. Xırda qapılar üzərində kitabə yoxdur. Ortada olan böyük qapının yuxarısında iki balaca və bir böräk lövhə vardır. Balaca lövhələrdə "Allah, Məhəmməd, Əli, Fatima, Həsən və Hüseyn" sözləri yazılmışdır. İki kiçik lövhə arasındakı böyük lövhədə aşağıdakı mənzumə həkk olunmuşdur (farscadan səfi tərcümə):

"Şişə şəhərinin banisi ki, həşəmət və mərtəbə etibarilə,
Onun taxtının qübbəsi ayın sərapərdəsinə tərə vururdu.
Yəni fələk şövkətli olan sərdar İbrahim xan
Ki, onun qapısına bütün dünya xanlarının sığınacağı idi.
Onun parlaq və mübarəkgünlü bir Gövhəri var idi ki,
Bunun üzünün işığı günəşin başına tac idi.
Bu məscid və mehrabı binadən həmin pak olan Gövhər oldu.
Behişt əhli tamamilə buna şahiddirlər.
Dua edənlərin qələmi onun tarixini belə yazır:
Bu Gövhər həmişə Allahın sədəfi içərisində olsun".

Həmin mədhnamə əslində məscidin bina olunması haqqında "maddeyi-tarix" idi.

"Məscidi-əqsayi-Hüseyniyyə" haqqında aşağıdakıları demək olar:

Bu bina-karvansara Şuşanın dindar varlılarından olan Məşədi Hüseyn Mirsiyab oğlu tərəfindən yuxarı məscidə vəqf olunmuşdur. Şuşada Yuxarı Cümə məscidindsn təxminən 25-30 metr aralı böyük bir karvansara bina olunubdur. Bu karvansaranın daxilində 25 dükan və dükanlardan yuxarıda 2-ci mərtəbədə 25 mənzil vardır. Şimal tərəfdən dörd dənə dükan vardrki, bu da karvansaranın, tikintinin genişliyini, onun üç dalan və qapanın zəruriliyini əmələ gətirmişdir. Karvansaranın ikinci mərtəbəsində cənub tərəfin qurtaracağında böyük bir zal məscid üçün nəzadə tutulmuşdur.

Həmin böyük salonu Məşədi Hüseyn məscid məqsədilə təsis etmişdir. Həmin məscid Şuşanın məhəllə məscidləri həcmindədir. Bu binanı vəqf edən Məşədi Hüseyn Mirsiyab oğlu öz vəsiyyət-naməsini karvansaranın həmin məscid salonunun bayır fasadında gözəl və aydın xətlə daşa həkk etdirmişdir. Həmin kitabədə Məşədi Hüseyn məscidi "Məscidi-əqsaya Hüseyniyyə" adlandırmışdır.

Məşədi Hüseynin vəsiyyəti dörd parça daş üzərində nəqş olunmuşdur. Aşağıda nəstəliq xətlə fars dilində yazılmış kitabənin tərcüməsini veririk.

Birinci kitabənin tərcüməsi:

"Pəhmli və mehriban Allahın adı ilə (başlayıram). Şəriətin göstərişinə uyğun olaraq yüksək nəcabətli Mirsiyab oğlu Məşədi Hüseyn öz mülk və dükanlarını abad edərək bunu "Məscidi-əqsa" adlandırmışdır. Və aşağıda göstərilən qayda ilə vəqf edilmişdir. Əvvəla, meydanın qərbində olan karvansara ona tabe olan mənzillər və içərisində olan əşyalar hamılıqla (ardı 2-ci kitabədədir)".

İkinci kitabənin tərcüməsi: "Vəqf olunmuş töhfələr zəminində əlliyə qədər mənzil və dükanlar ki, karvansaradadır və buna şimal tərəfdən olan dörd bab dükan dəxi əlavə olunur. Bundan başqa bazar başında rus kilsəsi yanında Qara Hacı Sadıq oğlu ilə şərikli olan on beş bab dükanlar və qəssabxananın şimalında yenə həmin Qara ilə şərikli üç dükan. Bu karvansara və dükanlar vəqf sahibinə müşəxəssdir (məxsusdur), tamamilə doğru və düzgün qayda ilə öz xahişi və razılığı ilə vəqf olunur".

Üçüncü kitabənin tərcüməsi:

"Mülklərdən gələn mədaxili mütəvəkillər xərcləməkdən ötəri qayda və qanun: Bütün mülklərdən gələn gəliri üç hissəyə bölməlidirlər. Əvvəlan birinci hissəni şəriətin qanuni ilə artırmaq üçün müamiləyə buraxmah ki, Allah eləməmiş, məscidi əqsayi-hüseyniyyə uçarsa və ya xarab olarsa, həmin qazanılmış nəqd ilə bərpa olunsun. Bundan sonra qalan üçdə iki hissəni bu qərar ilə sərf etməlidirlər (xərcləməlidirlər)".

Vəqfiyyat işlərinə mübaşir olan vəkilə ildə bir yüz manat. Bundan sonra vəkillər o molla ki, hər gün gəlib bu məscidi-əqsada cəmaət namazı qılır və bu işi özü üçün bir vəzifə kimi hesab edir. Həmin mollaya ildə əlli manat. Bir nəfər müəzzin və bir nəfər mücavir;

hər birinə ildə qırx manat. Bir nəfər rövzəxana iyirmi beş manat (verilsin). Hər məhərrəm ayı hər bir məhəlləyə beş put qara neft və üç manat nəqd pul; hər üç nəfərə piyada zəvvarın hər birinə 15 manatdan 20 manata kimi (verilsin). İstehqaq əhlindən (kimsəsizlərdən) qərib yerli və qeyri hər kəs ölərsə onu kəfən və başqa şəri tələbat ilə təchiz etməli. Vəqf sahibinin ehsanına olaraq hər il həcc üçün (gedənlər üçün) beş yüz manat və ya vəkillər məsləhəti ilə 500-dən 700-dək, bundan sonra baqi qalanlardan hər həftə cümə axşamları şəhər füqərasına üç manat (verilsin).

Dördüncü kitabənin mətni, demək olar ki, üçüncünün yekunundan ibarətdir.

Bizim yuxarıda gətirdiyimiz və memarlıq abidələrinə məna verən kitabələr Şuşanın inzibati, hərbi və yaşayış binalarında son dərəcə çoxdur.

Şuşa şəhəri quruluş etibarilə Azərbaycan və ümumən Şərq üsuli-memariyyəsinə nümunədir. Şəhərin Bazar başı, Rasta bazar, Meydan, Aşağı bazar, Şeytan bazar, Çar su, karvansaralar və başqa komplekslərinin tikintisi XIX əsrin ikinci yarısından başlayaraq, əsrimizin 20-ci illərinə qədər davam etmişdir.

**HƏSƏNƏLİ QARADAĞİ**

# QARABAĞ VİLAYƏTİNİN QƏDİM VƏ CƏDİD KEYFİYYƏT VƏ ÜVZALARI…

**(İQTİBAS)**

## HƏSƏNƏLİ QARADAĞİ

Həsənəli Qaradaği (1848-1928) Qarabağda çoxcəhətli fəaliyyət göstərmişdir. O, ana dili ilə yanaşı olaraq rus, fars, ərəb dillərini də yaxşı bilirdi. Didaktik məzmunlu şeirləri və tərcümələri Qori seminariyası üçün nəzərdə tutulan "Vətən dili" kitabından tutmuş, müasir dövrümüzə qədər müxtəlif dərslik və məcmuələrdə çap olunmuşdur. Mir Möhsün Nəvvabla dostluq etmiş və Şuşada "Məclisi fəramuşan" yığıncaqlarında iştirak etmişdir. 0, hələ Şuşada ana dilli məktəblərdə müəllimlik edərkən Şuşa və Qarabağ tarixi abidələrinə dərin maraq göstərirdi.

Qarabağ tarixinə bəslənən dərin maraq nəticəsində 1880-ci ildə "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları, Pənah xan, İbrahim xan və Mehdiqulu xan əyyami-hökumətlərinin əksər vəqaye və hekayətləri" adlı əsər yazmışdır. Təəssüf ki, əsər tam halda əldə yoxdur. Oxuculara həmin əsərdən Həsənəli Qaradağinin oğlu Məhəmməd Qaradağinin 1936-cı ildə etdiyi qısa iqtibası oxuculara təqdim edirik.

## ÜMUM QARABAĞ VİLAYƏTİNİN (SABİQ QARABAĞ XANLIĞININ) MƏRKƏZİ OLAN ŞUŞA ŞƏHƏRİNİN ƏHLİ, 1848-ci MİLADİ İLİNDƏ TƏVƏLLÜD TAPMIŞ VƏ 1929-cu İLDƏ VƏFAT ETMİŞ VƏ ŞUŞADA MƏDFUN OLMUŞ, ZƏMANƏSİNİN MƏRUF VƏ MƏŞHUR ƏDİB VƏ ŞAİRİ VƏ MƏTBUAT İŞÇİSİ HƏSƏNƏLİ QARADAĞİNİN ƏSƏRİ OLAN, 1880-ci İLDƏ YAZILIB HƏMAN İLİN YEDDİ AVQUSTUNDA XƏTM EDİLMİŞ

"Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları, Pənah xan, İbrahim xan və Mehdiqulu xan əyyami-hökumətlərinin əksər vəqaye və hekayətləri" adlı kitabından iqtibas:

Mən məzkur Həsənəli Qaradağinin oğlu hal-hazırda Ağdam şəhərində (Qarabağ) yaşayan Ağdam rayon torpaq şöbəsinin müfəttiş-aqronomu Məhəmməd Qaradaği mənə tapşırıldığı üzrə gərək rus dilində yazaydım. Lakin dövlət orqanları tərəfindən mənə verilmiş vaxt yalnız bir gündən ibarət olduğundan (yəni 1936-cı il 8 may) mərhum ağamın yazdığı kitabın mühüm və lazımi yerlərindən iqtibas edərək eynilə türk dilində bu dəftərə köçürməyi lazım bildim.

Kitabın müqəddiməsində: Qarabağın keyfiyyət və hekayətlərinə dair keçmişlərdən nüsxəcati-mütəfərriqə tərqim və tərsil qılmışdılar. Amma onların müsəvvəcatı köhnə və mündəris olmuşdular. Həm də farsi zəbani ilə inşa edib yazmışdılar ki, savadı az olan türklər ondan ləzzətəndus və dimağəfruz olmazdılar. 0 cəhətə, o mütəfərriqə nüsxələrdən və qeyrilərdən tərtib və təsnif etdim. Vazeh türk lisanına tərcümə qılıb yazdım ki, Qarabağ vilayətinin əksər vəqaye və keyfiyyətləri və xəvanini-sabiqlərin icmalən əhvalat və hekayətləri və əlavə münasibi-məqam olan güzarişlərdən ondan məcmu və mündərəc ola ki, bir asar və yadigar qala. Zira bu vaxta kimi bu işə hələ başqası iqdam etməmişdir.

Ümidvaram ki, bu təzə güftarı uyubi-kəzb və duruqdan ari bilib qeyri təvarixlərin mədh və zəmm və ifrat və təfrit birlə münəffəm güman və qiyas olunmayıb ki, həqiqəti əhval sidqi məqqad mərqum və məshur olmuşdur.

Bəsirət əhli hikmət sanma hər cahildən əxz eylər,
Süluk əhli təriqəti mürşidi kamildən əxz eylər.
Səyahət bəhru bər seyli deyil, ərbabi-ürfanə,
Ki, rəsmi hikməti arif baxar, aqildən əxz eylər.

## QARABAĞIN SƏRHƏD VƏ SINIRI VƏ ONDA OLAN MƏNFƏƏTLİ NƏHRİ-ƏZİM VƏ ŞƏHRİ QƏDİMLƏR

Qədim asar və təvarixə görə Qarabağ vilayətinin sərhəd və sınırı cənub tərəfi Araz çayıdır. Xudafərin körpüsündən gedib Qazax Dəmirçi-Həsənəli camaatının içində vaqe olan "Sınıq körpü"yə ki, indi rusca ona "Krasnıy most" deyilir. Şimal tərəfi Kür çayıdır. Şərq tərəfi Cavad qəryəsidir ki, orada Araz ilə Kür bir-birinə müttəsil olub gedib dəryayi-Xəzəriyyəyə tökülür. Qərb tərəfi böyük dağlardır ki, Gəncənin Qazax, Şəmsəddin xalqının və Qarabağ ilatının yaylaqlarıdır.

Bu halda Qarabağda sərhədi-müəyyən budur: Cənub Araz çayı Xudafərin körpüsündən gedir Cavad, Zərdab və Əlvənd kəndlərinin müqabilinədək, Şərq Kür çayıdır. Səmti - şimali ki, Gəncə ilə Qarabağın sərhədi olan Goran çayıdır. Qərbən Kuhistani - Qarabağdır. İlat xalqının yaylağı ki, Küşpək, Salvartı və Ərikli dağlandır. Yazılara görə bu Qarabağ vilayəti qədim Aran məmləkəti cümləsindəndir. Nuh tufanından sonra Nuhun övladlarından Aran adlı birisi gəlib bu vilayətlərə hökmran olub, bu məkanları abad qılıb və Kür suyu ilə Araz çayının arasında olan şəhərlərə ki, ibarət ola Tiflis, İrəvan və Naxçıvan və Qarabağda olan Bərdə və Beyləqan şəhərləri ki, hənuz ikisi də xarabadır və Gəncə ki, indi Rusiya ona Yelizavetpol ad qoyubdur, tamam bu yerlərə öz ismini qoyub Aran məşhur edibdir. Qarabağ vilayətində əvvəl şəhər ki, bina olub Bərdə şəhəridir ki, Tərtər çayının üstə və Kür çayının qiblə tərəfində və üç ağaclığında

vaqedir. Sabiq Bəni Abbasiyə xəlifələrinin əsrində, o zamandakı Bağdad şəhərini məmur edib və Darülxilafə qılıb əylənirlər. İslamiyyə tarixi 306 sənədə olanda həmən şəhərin əhli müsəlman oldular. Bərdədən sonra Qarabağda səmti-Arazda Beyləqan şəhəri bina olub. İran və Fars padşahlarından Qubad padşah (zahirən Ənuşirəvan Adilin atası) bina etmişdir. Təxminən min yüz il bundan qabaq. Həmən Qubad şah Araz çayından bir əzim arx götürüb səhrayı vəsiül-fəzai Beyləqan şəhərini abad edib və Köndələn çayı ilə Qarqar çayının arasında yaxşı kəndlər salıb, əkin yerləri təqsim edib. Hamı o aralıqda bağ və ziraət və abadanlıq etmişdir. Qədim vaxtı o arxın adı "Bərlası"dır. İndi Govur arxı məşhur olub. İslam tarixi 635-ci ildə Çingiz xan (monqol) davasında bu Beyləqan şəhəri mühasirədə qalandan sonra Çingiz xan İrana artıq qəzəbnak olduğu üçün o şəhəri qətliam etdirib, o şəhəri və arxı viran etmişlər. Qarabağ vilayətinin əhalisi təmamən Qarabağın dağlarına və Şirvana pərakəndə olub dağıldılar. Çox müddət bu yerlər virana qaldı. Teymurləng padşah sultani-Rum İldırım Bayazıdı davada məğlub edib qayıdarkən Muğana gəldi və güzarı Beyləqan şəhərinin xərabəsinə düşüb bu yerləri çox bəyendi. Oraları yenidən abad etməyə başladı. Əmr verdi, camaat toplandı. Sabiq qərar üzrə buraları abad etdirdi. İkinci dəfə bu şəhər Səfəviyyə dövlətinin əsrinə yaxın İran və Rum qoşunları Gürcüstan və Şirvan vilayətlərinə tərəddüd etməyindən və mükərrər gəlib-getməkdən o məkanlar səhra və düz yerlər olduğu cəhətdən ləşkər tərəfindən payımal və qarət olmağa davam gətirməyib əhali şəhəri buraxıb yenə də dağıldılar. Nəhr və şəhər yenidən viranə qaldı. Bu yaxın vaxtlarda Əhməd bəy Cavanşir ibn Cəfərqulu bəy və o da Məmməd bəyin oğlu ki, Pənah xanın övladlarındandır, hicri 1283-cü ildə Qarabağın Vərəndə mahalına hakim mənsub olmuşdur. Buna baxmayaraq ki, rus hökuməti çox mühəndis və mütəxəssislər göndərmişdir, gəlib o arxın məbərinə mülahizə edib ixracatına təxmin qılmışlar. Dəhnəsi və məbəri qayətdə əsəb və üsirül-əlac olduğu üçün əmələ gəlməyib artıq milyonlar xərc tələb etdiyi üçün uzun müddət tədricən təmir etməyə qərar qoymuşdular. Nəhayət, Əhməd bəy Cavanşir öz tədbirli adamları ilə əlahiddə məhəldən arxa dəhnə bina edib öz xərci ilə bu arxı yenidən çıxartdı. Şimdi otuz dəyirman işlədən suyu vardır. Keçən il bu arxın altında düyü, maş, küncüd,

bostan, ipək, çəltik, ipək üçün tut, darı və hər növ hübubat əkilmişdir. Əgər bu arx yaxşı təmir olunub nizama salınarsa, beş min ev burada gözəlcə güzəran edər. Bu arxdan başqa Beyləqan səhrasına qədim əsrlərdə ayrı-ayrı bir çox arxlar Araz çayından dəxi çəkib gətirmişlər. Və öz üzərlərində böyük kəndlər və ziraətlər bulunmuş. Bu balaca arxlardan Pənah xan və İbrahim xan əsrlərində təmir edilib istifadə edilirmiş. Bu arxların adları: Kürək arxı, Meymənə arxı, Ləvar arxı, Gəmiçi arxı, Taşqay arxı, Sarı arx, Xan arxı, Ayaz arxı olmuşdur.

## ƏVVƏLİNCİ FƏSİLDƏN

Qarabağ qədimlərdə Gəncə xanlarına tabe olarmış. Gəncə xanlarının əsilləri Qacariyyədir ki, onlara məşhur Ziyadoğlu itlaq edərlərmiş. Onlar sabiq padşahın firdosməkan Səfəviyyənin əsrlərində dudman olub, nəhayət, çox ixlas və iradətləri olduğu səbəbə əksər ovqat İran dövlətində sahibi ixtiyar, bəylərbəyi və sərdar olurdular. Həmişə iqamət yerləri Gəncə olurdu. Gürcüstan ilə onların sərhədləri Sınıq körpü, Yuxarı Surudaş və İran Azərbaycanı ilə sərhədləri Araz çayı və Xudafərin körpüsü olub. Gəncədə daim sakin və hakim olublar. Bəzən tamam Azərbaycan məmləkətinə hökumət olublar. 1148-ci sənədə Nadir şah məmaliki-İrana padşah oldu. Nadir şah Muğan səhrasında özünü şahi-İran elan etdikdə Gəncə xanları bunun İrana şah olmasına bərəks olduqlarını Nadir şaha xəbər verdilər. O da onları oradan Xorasana sürgün etdirdi. Nadir şah tez zaman Gəncə, Tiflis, Qarabağ, İrəvan, Şəki və Şirvan vilayətlərini Rum sultanının tələssütündən çıxarıb öz tərəfinə gətirdi. Bir az müddət bu vilayətlər Gəncə hakiminə baxdılar. Amma sonra Ümumazərbaycan bəylərbəyisinə tabe oldular. Belə ki, hər mahalda xanlar vəməliklər və minbaşılar olub Azərbaycan sərdarının əmri ilə idarə edilirdilər. Tainki, 1160-cı tarixdə Nadir şahı Xorasanda qətlə yetirdilər. Hər yerdə iğtişaş düşdü.

# İKİNCİ FƏSİL

Pənah xanın əsil və nəsəbi Cavanşir Dizaq elindən və Sarıcalı oymağındandır ki, Sarıcalı qədim Bəhmənli elindən bir firqədir ki, əyyami-sabiqdə Türküstan məmləkətindən gəlibdir. Mirzə Adıgözəl nam yazdığına görə, belə rəvayət edir ki, Pənah xanın əsil-nəsəbi Arqun xan Çingizə yetişib. Belə ki, dudmani-Çingiziyyənin padşahlığı dağıldıqdan sonra o nəsildən biri Gürcüstanın Lori qalasına gəlib gizli yaşayır. Gəncə xanlarının işləri tərəqqi edən zaman isə gəlib Gəncədə xidmət edirmiş. Sonradan daha o xanlara xidmət etmək istəməyib Qarabağa gəlir və Cavanşir oymağında olur. Burada yaxşı dövlət qazanır. Bir oğlu olur, çox gözəl, adını Əli qoyur. Bunu çox sevərmiş. Və Sarıca Əli deyərmiş. Burada dövləti, naxırı, sürüsü, çoban və nökər, muzdurları artırıb bir böyük oba olurlar. Bu obanın adını o vaxtdan Sarıca Əli qoyurlar. Pənah xan həmin bu nəsildən əmələ gəlmiş (Sarıcalı kəndi indi Ağdam rayonundadır). Pənah xanın atasının adı İbrahimxəlil ağa imiş. Bu İbrahimxəlil ağanın Ağdamda tağbənd damı varmış. (Damın üstü ağ olduğu üçün yer Ağdam adını bu damdan götürmüş.) Araz kəndində dəxi asari və yaylaqda İbrahimxəlil ağa qalağı, məşhur imarəti və nişanəsi vardır. Bunlar hamısı onun böyük dövlət və hikmət sahibi olmasını sübut edir. Nadir şah bu yerləri tələssüt edən zaman harada qoçaq və bacarıqlı adam varsa öz başına toplamağa başlayır. O cümlədən, İbrahimxəlil ağanın böyük oğlu Fəzləli bəyi çağırıb öz yanında yaxşı xidmətə qoyub (eşikağası mənsəbinə), sonra Fəzləli bəyi qətlə yetirirlər. Nadir şah onun qardaşı ilat arasında məşhur Pənahəli bəy Cavanşir Sarıcaəlini çağırıb qardaşının yerinə qoyur və rütbəsini dəxi artırır. Nadir şah Gəncə və s. vilayətləri Osmanlı sultanının ixtiyarından çıxarandan sonra Osmanlı sultanı Abdulla paşanı yüz min atlı və piyada qoşun ilə göndərib Nadir şahdan həmən vilayətləri xilas etmək üçün dava etmişlər. Əlhasil, Nadir şah onları məğlub edib, Abdulla paşanı dəxi qətlə yetirmişdir. Bu davada Pənah xan böyük rəşadət göstərmiş. Nadir şah bundan sonra Pənah xanı çox yaxın tutarmış. Bu yaxınlıq sonralar çox müqərrəb şəxslərin həsədinə bais olduğundan Nadir şaha Pənah xandan çox iftiralar düzəldib deyirdilər. Nadir şahın yavaş-yavaş Pənah xana etibarı kəsilir, bunu hiss edən Pənah xan Nadir şahın Xorasandan getməsindən istifadə edib, yığışıb Qarabağa fərar edir.

Başına dəstə toplayıb quldurmanənd dağlarda və meşələrdə yaşayaraq və ətraf Şəki vilayətində Qəbələ mahalında gün keçirərmiş. Nadir şah bu əhvalı bilərkən onun Cavanşirdə olan qövm elini və əqrəbasını və camaatını tamamilə Xorasana sürgün etdirib Pənah xanın özünün tutulmasına və təqib edilməsinə əmr verdi. Sonralar Pənah xanın 15 yaşında oğlu İbrahimxəlil ağa (babasının adını qoymuşdu) Xorasandan qaçıb atasının yanına gəlmişdi. Nəhayət, Nadir şah Xorasanda qətlə yetiriləndən sonra (hicri 1160-cı il) Pənah xan Qarabağda hüzura çıxır və başına cavanlardan böyük qüvvə toplayıb Gəncə və Naxçıvan tərəflərə hücum edib, çalıb-çapıb, götürürlər. Xorasana sürgün edilmiş ilat Nadir şah qətlə yetiriləndən sonra geri qayıdırlar. Bu xəbər Pənah xana çatan kimi İraq və Azərbaycan sərhədlərinədək öz dəstəsi ilə ilatı istiqbal edir. Böyük şadyanalıq ilə Qarabağa varid olurlar. Bu dəfə Pənah xan bu camaatın qüvvətlənməsi üçün çalışıb bunları bir növ düzəldir. Tez bir zamanda bu yerlərdə böyük hörmət və qüvvəyə malik olur.

Pənah xanın calal və qüdrətini bilən ətraf Şirvan və Şəki hakimləri bunun davamını özləri üçün qorxulu olduğuna qərar verdilər və rəfinə ölçü götürməyə çalışdılar. Pənah xan dəxi öz növbəsində bunlardan özünü müdafiə etmək üçün tədbirlər görməyə başladı. İlk əvvəl bir qala bina etməli idi ki, ətraf xanlar ona hücum edən zaman öz ailə və yaxınlların orada hifz edə bilsin. Hicri 1161 (1747)-ci ildə Bayat qalasını ki, indi Kəbirli mahalındadır, bina edib hasar çəkdirdilər. Əhli-əyallarını buraya topladılar. Şəki və Şirvan xanları dəfələrlə hücum etdilərsə, Pənah xan onları məğlub etdi. Ondan sonra günü-gündən Pənah xan qüvvətlənib böyüdü.

Nadir şahdan sonra İranda Adil şah hakim oldu. Bunun tərəfindən Azərbaycana göndərilən hakim əmirlər Pənah xanın şöhrətini bilib ona ənam göndərirlər. Pənah xan da qəbul edib, onun adamlarına böyük hörmət və ziyafət edir. Əlhasil sərdar Əmiraslanın yazmasına görə Adil şah Pənahəliyə xanlıq fərmanı göndərir. Bu dəfə olur Pənahxan(1747-ci ildə).

Qarabağın erməni camaatı yaşayan tərəf o vaxt Xəmseyi-Əramənə adlanaraq, beş məlikə təqsim edilirdi. Bu məliklər erməni məlikləri tərəfindən idarə olunaraq İran şahlarına tabe idilər.

1. Dizaqmahalı. Məlik Yeqan tərəfindən idarə olurdu. Bu məlik Nadir şaha çox yaxın idi. Əsli Loridən fərar etmişdi.

2. Vərəndə mahalı. Məlik Şahnəzər. Əsli Göyçə mahalındandır.
3. Xaçın mahalı. Məlik Həsən Calalyan övladı.
4. Çiləbörd mahalı. Məlik Allahqulu nəsli tərəfindən idarə olu-nurdu.
5. Talış mahalı. Məlik Usub nəsli.

Bu məliklər ilə xüsusən Çiləbörd və Talış mahalı ilə Pənah xanın vuruşmaları olub. Sonralar özünə tabe edir. Pənah xan Qarabağda ikinci bir qala tikdirdi. Bu da Tərnəgüt qalası adlandı. Hansı ki, indi Şah bulağı deyilir. 1165-ci hicridə. Bunun səbəbi o idi ki, Bayat qalası Aran yerdə olduğu üçün yay zamanı yaşamaq çətin idi. Odur ki, dağ səmtinə getməyi məsləhət bildilər. Təzə qalanın yaxşı suyu və badi-səfa yeri var idi. Tez bir zaman Pənah xan bütün Gürcüstan, İran, Naxçıvan, Azərbaycan və hər yerdə şöhrət tapıb hamı qorxudan ona yaxınlıq və dostluq etməyə başladılar. Hara gedirdi, təsərrüf tapırdı.

Azərbaycana Məhəmmədhəsən xan Qacar hakim olmuşdu. Hərçənd son illər ki, hakimlər ilə, xüsusən Əmiraslan xan ilə Pənah xan çox dost idi, lakin bu yeni gəlmiş Məhəmmədhəsən xandan ehtiyat edirdi. Ona görə də mövcud qalaları əgər dava düşərsə, İran qızılbaşlarına cavabverici tərzdə deyildi. Pənah xan və onun yaxınları yeni bir möhkəm qalanın binasına qərar verdilər. Bu qalanın elə bir mərkəzdə olmasını məsləhət gördülər ki, bura həm Aran, həm də dağ camaatına yaxın olsun. Belə bir məkan, indiki Şuşa şəhərinin yerini tapdılar. Təbii bir qaladır ki, hər yandan hündür qayalar, əlçatmaz daşlar idi. Yalnız belə bir yerdə İran qızılbaşlarından müdafiə olunmaq mümkün idi. Şuşa qalası hicri 1168 (1754)-ci ildə bina olunmuşdu. İlk əvvəl bura Pənahabad adlandırılır. Burda pul sikkəsi dəxi vurulur. Eyni zamanda şəhərin yaxınlığında olan Şuşa kəndinin adı ilə Şuşa da adlanır. Pənah xanın üzərinə Azərbaycan hakimi Məhəmmədhəsən xan hücum etməyə başladı. Şuşa qalasını mühasirə etdi. Çox davam etdikdən sonra İranda İraq vilayətində Kərim xan Zəndin cülus etməsini eşidib çoxlu qoşun toplayıb İrana getdi və Qarabağı buraxdı. Bu dava ona müyəssər olmadı. Özü də orada qətlə yetirildi. Pənah xan sonralar Kərim xan Zəndin yanına gedib böyük rütbəyə mənsub oldu. Qarabağda oğlu İbrahimxəlil xan qalmışdı. Bir müddətdən sonra xəstəliyindən öz əcəli ilə Şiraz vilayətində vəfat etdi. Ancaq onun nəşini götürüb Qarabağda, indiki Ağdamda dəfn etdilər.

Nadir şahın qətlindən sonra Pənah xan 12 il Qarabağda xanlıq etmişdi. Pənah xandan sonra İbrahimxəlil xan hökumət edib, o da 1174-cü hicri ilindən 1221-ci hicri ilinə kimi Qarabağda hökumət olubdur. Bunun ən müqərrib adamlarından Qarabağın məşhur şairi Molla Pənah Vaqif olmuşdu.

İbrahim xan çox tədbirlər, xüsusən şəhərə hasar çəkdirmək və Şuşanın 28 kilometrliyində daş yolda olan Əsgəran adlanan möhkəm banları da Şuşanı kənar düşmənlərinin hücumundan xilas etmək üçün çəkdirmişdir.

Onun hökmranlığında Ağa Məhəmməd şah Qacar iki dəfə Şuşa qalasına hücum etmişdir. Birinci dəfə qaçmış, ikinci dəfə Şuşanı təsəllüt etmiş, özü də Şuşada qətlə yetirilmişdir. Ağa Məhəmməd şah hadisələrinin və ondan sonra rus dövlətinin təsəllütünü müfəssəl yazmağa lüzum yoxdur. Zira bu tarix aydındır və hər bir kəsə məlumdur. İbrahim xan dəxi öz atasının yanında Ağdamda indi (imarət) adlanan hasarlı bağda mədfun olmuşdur. Onun və ondan sonra olan nəsillərinin qəbirləri dəxi oradadır (günbəzlərdir). Molla Pənah Vaqifin qəbri isə Şuşa şəhərində Cıdır düzü adlanan yerin aşağısında qoşa günbəzlər ilə hazırda vardır.

Ağdam şəhəri, Qaradağlı
8.V. 1936.

**ABBASQULU AĞA BAKIXANOV**

# GÜLÜSTANİ-İRƏM

**V FƏSİL**

## ABBASQULU AĞA BAKIXANOV

Abbasqulu ağa Bakıxanov (1794-1846) Azərbaycan xalqının ictimai fikir tarixində görkəmli yer tutur. O, XIX əsrin birinci yarısında Azərbaycan maarifçiliyinin əsasını qoyanlardan biridir. İstedadlı şair olan A.Bakıxanov eyni zamanda ensiklopedik biliyə malik idi. Onun tərbiyə problemlərinə dair "Təhzibül-əxlaq", "Nəsihətnamə" fars dilinin qrammatikasından bəhs edən "Qanuni-Qüdsi", coğrafiyaya aid "Kəşfül-qəraib" və "Ümumi coğrafiya", astronomiyaya aid "Əsrarül-mələkut", "Eynül mizan" və bir sıra başqa əsərləri vardır.

A.Bakrxanov təhsilə Bakı şəhərində başlamış, Qubada onu davam etdirərək fars və ərəb dillərini, klassik Şərq ədəbiyyatı, tarixi və fəlsəfəsini öyrərrmişdir.

Qafqazın baş hakimi M.P. Yermolovun dəvəti ilə 1819-cu ilin dekabrından Tiflisdə Şərq dilləri mütərcimi vəzifəsində işləmişdir. A.Bakıxanov Rusiya-İran (1826-1829) və Rusiya-Türkiyə (1829) müharibələrində bilavasitə iştirak edib fərqlənmişdir.

1828-ci ildə Türkmənçay müqaviləsi bağlanarkən A.Bakıxanov draqoman-tərcüməçi sifətilə orada iştirak edirdi.

A.Bakıxanovun Azərbaycan, o cümlədən, Qarabağ tarixinə marağı hədsiz idi. 1823-cü ildə o, Yermolov tərəfindən Qarabağ əyalətini tədqiq edən komissiyanın üzvü təyin olunur. Onun Qarabağın tarixi, coğrafiyası və etnoqrafiyası barədə topladığı materiallar 1841-ci ildə tamamladığı "Gülüstani-İrəm" əsərində öz əksini tapmışdır. Müəllif Azərbaycan tarixini öyrənmək üçün misli olmayan həmin əsərini 1844-cü ildə rus dilinə tərcümə etmişdir... Təəssüf ki, əsəri tam halda çap etdirə bilməmişdir.

"Gülüstani-İrəm"in V (sonuncu) fəslində Azərbaycanın başqa xanlıqları ilə yanaşı, Qarabağ xanlığının 1747-1813-cü illərdəki siyasi mənzərəsi öz əksini tapmışdır. Bu səbəbden və Qarabağ xanlığının başqa Azərbaycan xanlıqları ilə əlaqəsi barədə nisbətən geniş təsəvvür almaq məqsədilə "Gülüstani-İrəm" əsərinin V fəslini "Qarabağnamələr"ə əlavə etdik.

# NADİR ŞAHIN VƏFATINDAN "GÜLÜSTAN" ADLI YERDƏ RUSİYA VƏ İRAN DÖVLƏTLƏRİ ARASINDA BAĞLANAN SÜLH MÜAHİDƏSİNƏ QƏDƏR

Nadir şahın öldürülməsi xəbəri ordu içərisində yayıldı. Əfqan və özbək tayfaları sonradan Əfqamstan şahı olacaq Abdallı Əhməd xanın sərkərdəliyilə, Nadir şahın qatilləri əfşarlarla müharibəyə giri-şib qalib gəldilər. Ordunu qarət edərək öz yerlərinə getdilər.

Nadir şahın qardaşı oğlu Əliqulu xan İbrahim xan oğlu Heratdan Məşhədi-müqəddəsə gəldi və Zöhrab adlı qulamını dünyanın qəribə asarından sayılan Kəlat qalasına göndərdi. O da qalanı qəflətən alıb Rzaqulu mirzəni böyüklü-kiçikli on beş nəfər Nadir övladı ilə bərabər öldürdü. Nadir şahın oğlanları Nəsrulla mirzə və İmamqulu mirzəni, Rzaqulu mirzənin Şah Sultan Hüseynin qızından olan oğlu Şahrux mirzə ilə Məşhədə gətirdi. Nadirin oğlanlarını və 14 yaşlı Şahrux mirzəni də, gizlində qalada həbs edib öldürüldüyü xəbərini yaydı. Bu tədbirlə o, belə xəyal edirdi ki, əgər iranlılar onun səltənətinə razı olmasalar, iki tərəfi bu səltənətə layiq olan şahzadəni əldə saxlamış olsun. Özü də Əlişah adı ilə taxta oturdu. Cavahirat və sair qiymətli şeylərdən başqa, on beş gürurluq nağddan ibarət olan Nadirin xəzinələrini Kəlatdan Məşhədə gətirib israfla puç etməyə başladı.

Bu zaman İsfahan hakimi olan qardaşı İbrahim xan üsyana başladı. 7 aydan artıq Mazandaranda olan Əlişah qardaşını cəzalandırmaq üçün hərəket etdi. Zəncan ilə Sultaniyyə arasında müharibə vaqe oldu. Bu müharibədə Əlişah məğlub olub Tehrana qaçdı. Qardaşının əmrilə tutulub gözləri çıxarıldı. İbrahim xan, Şahrux mirzəni Nadirin xəzinələrilə bərabər ələ keçirmək xəyalilə öz qardaşı Hüseyn bəyi əmirlərdən bir neçəsilə bərabər Xorasana göndərdi. Xəbər verdi ki, onun bu işdən məqsədi Şahrux həzrətlərini ata-baba taxtına əyləşdirməkdir; yenə təklif etdi ki, şahzadə gəlib İraqda taxta otursun. Lakin kürd xanları və Xorasan rəisləri şahzadənin getməsini lazım bilməyib, istəmədiyi halda, onu hicri 1161-ci (1748) ildə, aqustos (avqust) ayının 17-də taxta oturtdular. "Sultani-əzəm" tərkibi (əbcəd

hesabilə) onun taxta oturmaq tarixi oldu. İbrahim xan da həmin il təşrini-sanı (noyabr) ayının 24-də Təbrizdə taxta oturdu.

İbrahim xan hər bir ləyaqətsiz adamı işə cəlb edib ona xanlıq ləqəbi verirdi və bunu "təlifi-qülub" (ürəkləri ələ almaq) deyə adlandırırdı. O, Xorasana getmək qəsdilə Azərbaycandan çıxıb yükləri və çadırları, yanında məhbus saxladığı kor Əlişah ilə bərabər Qum şəhərinə göndərdi. Simnanın Sürxə adlı mənzilinə çatdıqda, qoşunu dağılmağa üz qoydu. Labüd qalıb yanındakı əfqan tayfası ilə Quma getdi. Qumun mühafizləri darvazaları onun üzünə bağladılar. O, şəhəri güclə alıb qarət etdi. Qalapur qalasına çəkildi. Qala əhli onun əl-qolunu bağlayıb, hadisəni şahın dərbarına bildirdilər. Şahrux tərəfindən onun və Əlişahın Xorasana gətirilməsi haqqında hökm verildi. İbrahim xan yolda, Əlişah isə Məşhədi-müqəddəsdə öldürüldü. Şahrux mirzə də bir neçə vaxtdan sonra dövlət başçılarının əlilə kor edilərək səltənətdən qovuldu.

Şah Sultan Hüseynin qız nəvəsi olan Məşhədi-müqəddəs mütə-vəllisi Mirzə Seyid Mühəmməd Sədri, II Şah Süleyman adı ilə taxta oturdu. Dövlət başçıları bir neçə vaxtdan sonra onu da kor edib səltənətdən çıxardılar. Şahrux mirzəni yenidən taxta oturtdular.

Azad xan Əfqan, Xorasanda yüksəliş fikrilə çapalayırdısa da, dövlət və hökumət qapıları onun üzünə açılmırdı. Məhəmmədhəsən xan Qacar İraq, Təbəristan və Azərbaycanı istila edib sikkə və xütbə sahibi olmuşdu. Bu zaman Əlimərdan xan Bəxtiyari Kərim xan Zənd ilə İsfahan üzərinə yeridilər. Buranın hakimi Əbülfət xan qarşıya çıxdısa da, məğlub olub şəhərə qayıtdı. Bəzi danışıqlardan sonra əhdnamə bağlandı və hər üçünün ittifaqı ilə Şah Sultan Hüseynin qız nəvəsi Mirzə Əbutürab, III Şah İsmayıl ləqəbilə taxta oturdu. Əlimərdan xan divan vəkalətinə (nazirliyinə), Əbülfət xan İsfahan əyalətinə, Kərim xan da bütün ölkənin sərdarı təyin edildi.

Kərim xan İsfahandan kənara çıxdığı zaman, Əlimərdan xan Əbülfət xanı öldürdü. Öz adlı-sanlı, lakin ixtiyara malik olmayan padşahını götürüb, Şiraza hərəkət etdi və Fars vilayətini ələ keçirdi.

Əbülfət xanın öldürülməsindən qorxuya düşən Kərim xan, evvelcə Şahrux ölkəsinin sərdarı Məhəmmədəli xanın üstünə gedib onu məğlub etdi, topxanasını və ordu ləvazimatını alıb Kürdüstana üz qoydu. Bu yerləri də fəth etdikdən sonra İsfahanı almağa yürüş etdi.

Əlimərdan xan Şirazdan müdafiəyə çıxdı, lakin məğlub olub öldürüldü. Kərim xan onun yerinə divan vəkalətinə (nazirliyinə) keçdi. Sonra gedib, Astarabad nahiyələrinin çoxunu aldısa da, qacarlar tərəfindən məğlub edilərək İsfahana qayıtdı. Bu zamanlar Şah Təhmasibin oğluyanı iddiası ilə, II Şah Sultan Hüseyn adı ilə naməlum bir şəxs zühur edib, Mustafa xan Bekdilininköməkliyilə İraqa yürüdü. Kərim xan ona qarşı çıxmaq məqsədilə Kirmanşaha gedib qalibiyyət qazandı. Nəsəbi məlum olmayan şah müharibədə öldürüldü. Bundan sonra Azad xan Urmudan (Urmiya) İraqa hərəkət etdi. Kərim xan bu döyüşdə məğlub olaraq İsfahana qayıtdı. Azad xan Pəri qalasını mühasirə edib, sülh ilə aldı. Kərim xanın burada olan qohumlarını, anasını və qadınını min nəfər süvari ilə Urmiyaya göndərdi. Mənzillərin (düşərgələrin) birində, Zənd qadınları öz ərlərinin buxov və zəncirlərini qırıb qarovulları dağıtdılar və Kərim xana qoşuldular.

Azad xan qoşununun gəlməsilə Kərim xan İsfahandan Kazrana qaçdı, buradan da gedib Şirazı alaraq yenə İsfahana qayıtdı. Bu zaman Məhəmmədhəsən xan Qacar onun üzərinə yeridi, Kərim xan məğlub olub Şiraza qayıtdı. Məhəmmədhəsən xan gedib onu mühasirə etdi. Lakin əfqanların dönüklüyünə görə Mazandarana qayıtmağa məcbur oldu və öz nökərlərinin əlində öldürüldü. Kərim xan yenə gəlib İsfahan, Yəzd və Tehranı alaraq Azərbaycana hərəkət etdi.

İndi də Nadir şahın ölümündən sonra Dağıstan və Şirvanın nə halda olduğunu nəzərdən keçirək. Nadir şahın vəfatından sonra İran qoşunu bu ölkədən çıxıb getdi. Hər bir vilayətdə bir həşəmət sahibi baş qaldıraraq, istiqlaliyyətdən dəm vurub başqasına tabe olmurdu. Quba və Salyan hakimi Hüseynəli xan Sultan Əhməd xan oğlu, Xudad qalasını köçürüb, indiki Quba şəhərinin Qudyal adlı yerində tikdirməyə başladı. İğtişaş zamanında bu ölkənin özbaşına qalan bir çox mahallarını itaətə məcbur etdi. Dərbəndlilər İmamqulu xanın oğlu Məhəmmədhəsən bəy Qorçunu xanlığa seçdilər.

Nadir şahın yaxın əmirlərindən sayılan bakılı Mirzə Məhəmməd xan Dərgah xan oğlu, Bakı ölkəsini müstəqil olaraq ixtiyarına keçirdi. Şamaxı əhalisi sürsat təhvildarı olan Hacı Məhəmmədəli Sufi Nəbi oğlu Zərnəvaini hökumətə keçirdi. Xançobanı tayfasından olan Əsgər bəy Allahverdi bəy oğlu Sərkarın oğlanları Şirvan elatı arasında hakimiyyət bayrağı qaldırdılar. Nuxalı Hacı Çələbi Qurban oğlu

istiqlaliyyət bayrağı qaldıraraq, Şəki, Ərəş və Qəbələ mahallarını özünə tabe etdi. O, Nadir şah dövründə Şəkidən göndərilən həvaləcatın (vergilərin) yerinə çatdırılması xüsusunda camaatın vəkili idi. İşinin axırında qaçaq düşüb, 3 il Gələsən-Görəsən qalasında gizlənmişdi.

Nadir dövrünün axırlarında qaçıb Şəki və Şirvan ölkələrində keçinən Pənah bəy İbrahimxəlil oğlu Cavanşir ardıcıl davam edən müharibələr nəticəsində xanlıq ləqəbilə Qarabağda hökmranlıq bayrağını yüksəltdi. Əvvəlcə Bayat və daha sonra Tərnəgüt qalasını bina etdi. Bu qalanın hasar və dükanlarının asarı I Şah Abbasın qışlağı yerində, Şahbulaq adlı çeşmənin yanında, indi də mövcuddur. Bir neçə vaxtdan sonra erməni məliklərilə düşmənçilik edən Məlik Şahnəzər Vərəndinin bələdçiliyi ilə indiki Şuşanın yerində Pənahabad qalasını bina etdi. Erməniləri özünə tabe edərək, gündən-günə qüvvətləndi. Xudafərin körpüsündən başlayaraq, Kürək çayına və Bərgüşat mahalına qədər yerləri ələ keçirdi. Bundan əlavə, Qaradağa aid Mehri və Güney mahallarını, Naxçıvana aid Tatif və Sisyanı, İrəvana aid Tərtər Kolanını və Təbrizə aid olan Zəngəzur və Qafam tutdu. O, bəzən Ərdəbil və sair kimi qonşu ölkələri də özünə tabe edirdi.

Şahverdi xan Ziyad oğlu Gəncəni öz ixtiyarına almışdı. Qaziqumuqlu Surxay xan, Nadir şah dövrünün sonlarından bəri, hökuməti öz oğlu Məhəmməd xana tərk edərək, (Qaziqumuğun) on ağaclığında olan Ketrux kəndində izlətə və ibadətə çəkilmişdi. Üsmi Əhməd xan tez vəfat etdi, şücaət və mətanətilə məşhur olan nəvəsi Əmir Həmzə xan Məhəmməd oğlu onun yerinə üsmi oldu. Şamxal Xasfulad xan öz hökmranlığında qaldı. Novsal xan Əmmə xan oğlu avar mülkünü müstəqil olaraq idarə edirdi. Bunlardan başqa yenə böyük əmirlər var idi ki, onlar da bu qərar üzrə idi: Mehdi bəy Əhmədxan bəy oğlu Cenqutayi Mehdili əmirliyində bərqərar idi. O, avar şahları dudmam şəcərəsindən və bəzi xəbərlərə görə, moğol və tatar nəslindən idi. Sultan Bud övladı İndiri və Yaxsayda hökmranlıq sürürdü. Terlavm vərəsələri isə Mıçıqıçda mülkədar idilər. Mürtəzaəli Məhəmməd Məsum oğlu məsumluqda və Mürtəzaəli Rüstəm oğlu Təbərsəran qaziliyində paydar idilər.

Buynaq əmiri Mehdi Mürtəzaəli oğlu o zaman Xasfulad xan ilə pis rəftar etdiyi və çəkişdiyi üçün Nadir şah tərəfindən Astrabada

göndərilmişdi. Nadir şahın vəfatından sonra Qıpçaq çölünə getdi. Oradan da kalmıq qoşunu ilə gəlib Qazanışın yaxınlığında, iki çay arasında şiddətli müharibə edərək qalib gəldi. Axırda Xasfulad xan ilə barışıb, qabaqkı kimi Buynaq əmirliyinə keçdi.

Hicri 1162 (1749)-ci ildə Şahsevən Əhməd xan, Ali-Sərkarın oturağı olan qədim Şamaxı şəhəri üzərinə gəldi. Ağa Razi bəy Əsgər bəy oğlu üz-üzə döyüşdə onun qardaşı Məhəmmədrza xanı öldürdü. Əhməd xan özü intiqam almaq üçün meydana atıldısa da, Ağa Razi bəy tərəfindən bərk yaralandı, məğlub olub geri qayıtdı və şəhərin yarım ağaclığında vəfat etdi.

Bu zaman Gürcüstan valisi İrakli Hacı Çələbinin dəfi xüsusunda məşvərət və məsləhət bəhanəsilə gəncəli Şahverdi xan, qarabağlı Pənah xan, qaradağlı Kazım xan, irəvanlı Hüseynəli xan və naxçıvanlı Heydərqulu xanla Gəncənin yaxınlığında görüşüb hamısını bir yerdə yaxaladı və əsir etdi. Hacı Çələbi bu xəbəri eşidən kimi şücaət və igidliyilə Sərkar xanədanmın hökmranlığına vasitə olan Ağa Razi bəylə ittifaq edib, Gürcüstan valisinin üzərinə hücum etdi. Gəncənin yarım ağaclığında, Qızıl Qaya adlı yerdə onu məğlub edərək, həmin xanları xilas etdi. Sonra valini təqib edib, Qazax və Borçalı mahallarını ələ keçirdi. Oğlu Ağakişi bəy iki ilə yaxın bu hüdudda hökm sürüb, zülm etməklə məşğul oldu. Tiflis şəhərinin dörd ağaclığında, Paydar adlı yerdə, onun tərəfindən tikdirilən qalanın yeri indi də mövcuddur.

Nəhayət, Gürcüstan valisi çərkəzlərdən və sairdən kömək alıb öz dəstəsini düzəldincə Ağakişi bəy Şəkiyə qayıtdı. Bir zaman keçəndən sonra İrakli xan külli tədarüklə Car əhalisinin Gürcüstandan aldığı Nikli tayfasraı geri almaq üçün getdi. Hacı Çələbi Car camaatının köməyinə gəlib, Qanıq çayının sol sahilində çox şiddətli bir müharibəyə girişdi. Gürcüstan valisi əvvəlkindən daha ciddi məğlub olub geri qayıtdı.

Hicri 1168 (1755)-ci ildə Hacı Çələbi külli qoşunla Şirvanı almaq məqsədilə gəlib Ağsu şəhərini mühasirə etdi. Burada olan Hacı Məhəmmədəli xan Quba hakimi Hüseynəli xandan kömək istədi. O da 3000 nəfər Quba qoşunu və 500 nəfər qüvvəyə malik olan Əmir Həmzə ümsi ilə bərabər iki düşməni barışdırmaq üçün gəldi. Hacı Çələbi, Hacı Piri adlı bir nəfəri elçi göndərib onu hədələdi və geri qayıtmağı təklif etdi. Beləliklə, iş müharibə ilə nəticələndi. Şəkinin

külli qoşunu bu azacıq camaatın qarşısında məğlub olub, qarət edildi və çoxu öldürüldü.

Hüseynəli xan 3 gün qonaqlıqdan sonra öz hökumət mərkəzinə qayıtdı və hicri 1169 (1756)-cu ildə oğlu Fətəli ağanı qoşunla göndərib, ata-baba mülkü olan Salyan nahiyəsini, öz qohumu rudbarlı İbrahim xanın əlindən geri aldı.

Hüseynəli xan hicri 1171 (1758)-ci ildə vəfat etdi. O, cəsarətli, ali hümmətli bir əmir idi. Həmişə ölkənin abadlığı və rəiyyətin asayişi fikrində idi. Şirvanlı Ağa Razi Əsgər bəy oğlu dərhal gedib Qubanın Bərmək mahalını qarət etdi və 200 ailəni köçürüb gətirdi. Hüseynəli xanın oğlu Fətəli xan qisas almaq məqsədilə Şirvana hərəkət etdi. Ağa Razi bəy qarşıya çıxdı və qədim şəhərin xaricində məğlub edilib öldürüldü. Fətəli xan bir neçə aylıq mühasirədən sonra qətl-qarətdən əlavə öz elatının iki mislini götürüb geri qayıtdı.

Dərbəndlilər Məhəmmədhüseyn xanın qardaşı Tahir bəyin pis rəftarından təngə gəlmişdilər. Fətəli xan onların təşviqilə hicri 1172 (1759)-ci ildə, Dərbəndin üzərinə gedib, azacıq mühasirədən sonra oranı da aldı. Məhəmmədhüseyn xan öz istəyinə görə Bakıda yurd saldı.

Əzmdə, hünərdə və rəiyyətpərvərlikdə mümtaz olan Hacı Çələbi həmin məğlubiyyətdən (Şirvan məğlubiyyətindən) az zaman sonra vəfat etdi. Onun cəsarətli və hünərli oğlu Ağakişi bəy hökumət başına keçdi. Bu zaman qaziqumuqlu Məhəmməd xan, ərəşli məlik Əlinin təhrikilə Ərəş mahalına gəlib, Ağakişi bəyi görüş və məşvərət bəhanəsilə yanına çağırdı və öldürdü. Beləliklə, Şəki ölkəsini ələ keçirdi. Ağakişi bəyin əyalı olan öz qızını ilisulu Alxas bəyə verdi. Əhməd xan da bundan doğuldu.

Məhəmməd xan Şəkidə 40 gün hökmranlıq etdi. Hacı Çələbinin bütün dəfinələrini ələ keçirdi və olmazın zülm törətdi.

Hacı Çələbi oğlu Ağakişi bəy öldürüldükdən sonra Hüseyn ağa Həsən ağa oğlu Qəbələ yolu ilə Dərbəndə, Fətəli xanın yanına getmişdi. Quba qoşununun köməkliyi və Şəki əyanının ittifaqilə Məhəmməd xanı buradan çıxararaq öz mülkünə sahib oldu. Bu hadisədən üç il sonra, hicri 1175 (1762)-ci ildə Nadir şahın böyük əmirlərindən Fətəli xan Əfşar Azərbaycanı aldı, hökmranlıq iddiası ilə Gəncə və Qarabağa hərəkət etdi. Pənah xan onunla itaət edər kimi sazişə girdi, oğlu İbrahimxəlil ağanı ona girov verdi, ərəşli məlik Əli də Şəki hakimiyyəti təmənnasilə onun hüzuruna getdi. Lakin bu zaman

Hüseyn ağa Qutqaşınlı Kəlbəli sultan və sair tərəfdarları ilə Fətəli xanın yanına gəldi. Xanlıq ləqəbi alaraq qayıdıb məlik Əlini öldürdü.

Hicri 1176 (1763)-cı ildə Şirvanda və xüsusilə Ağsu şəhərində şiddətli taun xəstəliyi baş verdi. Bu xəstəlikdən çox adam tələf oldu. Bu zaman, Vəkil Kərim xan Azərbaycanı istila etmək məqsədilə gəldi. Qarabağlı Pənah xan öz oğlunu xilas etmək üçün ona qoşuldu və Urmiya şəhərini almaqda, həmçinin Fətəli xanı öldürməkdə çox yardım göstərdi.

Vəkil Kərim xan Pənah xanın oğlu İbrahimxəlil ağanı xanlıq ləqəbilə Qarabağa göndərdi, özünü isə həmişə yanında saxlayırdı. Pənah xan Şirazda vəfat etdi, nəşi də Qarabağa göndərildi. Deyirlər ki, Pənah xan cəsarətli, sadə, xoşrəftar və tədbirli bir əmir olmuşdur.

Xülasə, Vəkil Kərim xan Azərbaycanı ələ keçirdikdən sonra məlumat aldı ki, Zəki xan Zənd səltənət iddiasındadır və Bəxtiyari tayfasının təşviq və təhriki ilə İsfahana gəlmişdir. Vəkil Kərim xan bütün əmirlər və qoşunla bərabər onu dəf etməyə getdi. Zəki xan İsfahanın əyanlarını köçürüb Dəştə apardı. Nəzərəli xan Zənd, Vəkilin hökmü ilə gedib ona qalib gəldi və Luristanın son hüduduna qədər onu təqib etdi. Zəki xan naçar qalıb, Vəkilin tövləsinə pənah apardı və aman tapdı.

Gürcüstanda məğlub edilərək soyulmuş olan Azad xan Əfqan və Vəkilin dərgahına aman gətirdi və mehribanlıqla qəbul olundu. Bu qayda üzrə İran ölkəsi rəqabətsiz Vəkil Kərim xanın ixtiyarına keçdi.

Hicri 1178 (1765)-ci ildə Əsgər bəyin oğlanları Məhəmməd Səid xan və Ağası xan elat arasında Vəkildən xanlıq ləqəbi qazanıb, Ağsu şəhərini aldılar və cahi-calah sevib dinc yaşamaq istəyən Hacı Məhəmmədəli xanı öldürdülər. Bu zaman, Fətəli xan Əmir Həmzə üsminin bacısı Tutu bikəni aldı. Üsmi də Fətəli xanın Hüseyn xan Rudibarının qızından olan bacısı Xədicə bikə üçün elçi göndərdi. Lakin Fətəli xan öz bacısını bakılı I Mirzə Məhəmməd xanın oğlu Məlikməhəmməd xana verdi. Məlikməhəmməd xanı atası öz sağlığında hökumət başına keçirmişdi.

Xədicə bikənin üstündə Əmir Həmzə ilə Fətəli xanın arasına ədavət düşdü. Bir zatnan keçdikdən sonra Üsmi öz bacısını görmək bəhanəsilə Dərbəndə gəlib, Narınqalanı almaq fikrinə düşdü. Fətəli xan bundan xəbər tutaraq, Quba qoşunu ilə Dərbənd üzərinə gəldi.

Üsmi üç gün top-tüfəng ilə müdafiəyə qalxmışdı. Axırda müqavimət göstərə bilməyib, dayanmadan Carçıqapıdan çıxıb, öz mülkünə qayıtdı. Üsmi bu andan etibarən daima kin və ədavət saxlayıb, Fətəli xandan intiqam almaq pusqusunda idi.

Bundan əlavə, öz əmisi qaziqumuqlu Məhəmməd xandan üz döndərmiş Eldar bəy, Fətəli xanın etimadını qazanıb Dərbənd naibi olmuşdu. O, yersiz və münasibətsiz danışıqları və hərəkətləri ilə üsminin ədavətini qazanmışdı. Üsmi də, düşmənçilik vəsaitini hazırlayıb, öz bacısı oğlu olan Təbərsəran qadisi Rüstəm Mürtəzaəli oğlunu qüvvətləndirirdi. Bu zaman, Mirzə oğlu Şeyx Əli bəy, Məhəmməd məsumun oğlu Mürtəzaəli məsumu öldürüb, özü məsumluğa keçdi. Lakin onun işi baş tutmadı. Üsmi və qadinin təhrikilə xalq üsyan qaldırıb, onu çıxartdı. O da Fətəli xanın yanına gəldi. Bundan sonra, yuxarıda adı çəkilən Mürtəzaəlinin oğlu Novruz bəy məsumluğa təyin edildi. Bu lal olduğu üçün anası Xanım, kişi kimi hökmranlıq edirdi. O, məsumlar nəslindən Qaraxanın qızı idi.

Hicri 1181 (1767)-ci ildə Fətəli xan Şəki xanı Hüseyn xanla birlikdə iki tərəfdən gəlib, Məhəmməd Səid xan və Ağası xanın yenidən abad etdikləri qədim Şamaxı şəhərini mühasirə etdilər. Məhəmməd Səid xan çarəsiz qalıb Fətəli xanın, Ağası xan isə Hüseyn xanın yanına getdi. Hüseyn xan Ağası xanı kor etdi. Fətəli xan da Məhəmməd Səid xanı həbsə alıb Dərbəndə göndərdi, şəhəri də Ağsuya köçürdü. Hər iki tərəfdən iki naib təyin etdilər. Ölkəni iki hissəyə böldülər. Sədari və Qəsani mahalları Hüseyn xana, Şirvanın qalan hissəsi isə Fətəli xana çatdı.

Bir neçə vaxt keçdikdən sonra Fətəli xan bütün Şirvan ölkəsini aldı və qədim şəhəri yenə abad etdi. Kür çayının kənarında, Kotevan qalasında sakin olub, ölkəsini geri almağa çalışan kor Ağası xan, Hüseyn xana pənah apardı. Hüseyn xan avar xanzadələrindən Bulac və Məhəmməd Mirzənin sərkərdəliyilə Avardan qoşun götürüb Şirvana, Fətəli xanın üstünə gəldi. İki qoşun qarşılaşdığı zaman araya barışıq məsələsi düşdü. Gözlənilmədən, hər iki tərəfdən bir neçə nəfərin birdən-birə çəkişməsi nəticəsində arada şiddətli döyüş və vuruşma başladı. Bu müharibədə Bulac və Məhəmməd Mirzə öldürüldü. Hüseyn xan məğlub olub Şəkiyə, Ağası xan da yenə Kotevana getdi.

Hicri 1187 (1773)-ci ildə şamxal Xasfulad xan vəfat edərkən, öz bacısı oğlu Buynaq əmiri Mürtəzaəli Mehdi oğlunu öz yerinə təyin etdi. Xasfulad xan rabitəli, igid və səxavətli bir əmir idi. O, öz qohum-əqrəbasilə pis rəftar edirdi. Onun qardaşı oğlu və Qazanış əmiri ağıllı və cəsarətli Dişsiz Məhəmməd, Mürtəzaəli ilə çəkişməyə başladı. İndri əmirləri, avarlı Novsal xan Əmmə xan oğlu və Əmir Həmzə Üsminin köməkliyilə gəlib Mürtəzaəlini Tarxu və Buynaq-dan çıxarıb, şamxallığa oturdu. Mürtəzaəli şamxal Qoysuboy və Aqquşa mahallarında yaşayan əhalinin köməkliyilə, bir aydan sonra gəlib, məmləkəti təsərrüfünə keçirdi. Bu mahalların əhalisi həmişə böyük işlərdə şamxala tabe olub, onun müavini hesab edilirdi. Yeni şamxal təyin edildiyi zamanda, onların iştirakı lazım idi. Dişsiz Şamxal və ondan sonra oğlu Xasfulad, əvvəlki kimi Qazanış əmirliyinə qane oldular.

Hicri 1188 (1774)-ci ildə Ağası xan, Fətəli xanın qan düşməni və Qarabağa gəlmiş olan avarlı Novsal xanı özünə müttəfiq edib, Şamaxı şəhərini aldı. Fətəli xan Quba və Dağıstandan külli qoşun toplayıb, bakılı Məlikməhəmməd xanla birlikdə onlara qarşı müharibəyə girdi və müharibədən qalib çıxdı. Ağası xan qaçdı, Novsal xan isə qədim şəhərin yuxarı hissəsində çıxılmaz və çətin bir sığınaqda gizləndi. Axırda Fətəli xan aman vədəsilə Novsal xanı öz yanına gətirtdi. Xanların hər üçü bir yerdə oturmuşdular. Bu zaman Aqquşa qoşunu toplaşıb, Fətəli xandan yanlarına gəlməsini, Novsal xan ilə keçmişdə ədavətləri olduğu üçün onun öldürülməsini xahiş etdilər. Fətəli xan çarəsiz qalıb, əmr verdi ki, çadırın arxa tərəfini yarıb, Məlikməhəmməd xanı bayıra çəksinlər. Novsal xanı isə öz tərəfdarları ilə birlikdə öldürdülər. Əmir Həmzə Üsmi belə bir fürsəti qənimət saydı. Dişsiz Məhəmməd xamxal və damadı qaziqumuqlu Məhəmməd xan ilə əlbir olub Fətəli xana qarşı müharibəyə çıxdı. Fətəli xan bu hadisəyə görə Qubaya gəldi. Ağası xan onun getməsindən istifadə edib Şirvanı tutdu.

Gavduşan düzündə çox şiddətli bir müharibə oldu. Bir-birilə əhd bağlamış iki qoşun məğlub edilmək ərəfəsində ikən, yuxarıda adı çəkilən Üsminin oğlu Əli bəy, bir dəstə igidlə özünü qoşunun mərkəzinə yetirdi. Zəfər yenə də onun şücaət və mərdanəliyilə birləşdi. Dişsiz Şamxal, Məhəmməd xanın qardaşı oğlu Eldar bəy və Şeyx Əli məsum iki tərəfdən öldürüldülər. Məğlub olan Fətəli xan da

Qubada qalmağı münasib bilməyib Salyana getdi. Üsmi, Şamxalın nəşini götürüb apardı. Dərbəndin yaxınlığında yalandan Fətəli xanın öldürülməsi xəbərini Tutu bikəyə göndərdi, qalanın təslimini tələb etdi. Tutu bikə ona inanmayıb özü gecə-gündüz bürclərin üzərində qalanı mühafizə etməyə məşğul oldu. Məhəmməd xan Qubanı aldı. Üsmi də Bakının üzərinə yürüdü. Qalanı almaq mümkün olmadığından, Məlikməhəmməd xanın ilxısını və kəndlərin mallarını qarət edib geri qayıtdı.

Fətəli xan, himayə edilmək xahişilə dərbəndli Mirzə bəy Bayatı elçi olaraq Rusiya imperatriçəsi II Yekaterinanın dərbarinə göndərdi. Özü isə gizlincə Şabrandan və Müskürdən keçib Dərbəndə gəldi. Bir az keçincə, tərəfdarları onun ətrafına toplaşmağa başladılar. Bu zaman Məhəmməd xan Qubanı tərk edib, öz mülkünə qayıtmağa məcbur oldu.

Bir il sonra hicri 1189 (1775)-cu ildə general-mayor De-Medemin komandası altında olan bir dəstə rus qoşunu Fətəli xana köməyə gəldi. Eyni zamanda o, keçən il məşhur rus səyyahı Qmelini həbsə aldırıb öldürmüş Əmir Həmzə üsmini cəzalandırmağa məmur edilmişdi. Üsmi Başlının bir ağaclığında bütün qoşunu ilə ruslara hücum etdi. Lakin məğlub oldu, qoşununun çox hissəsi öldürüldü. Fətəli xanın qoşunu da tərəkəmə kəndlərini qarət edib yandıraraq Dərbəndə qayıtdı. Bundan sonra Kürə nahiyəsində Məhəmməd xanın külli qoşununu məğlub etdi. Onları qarət etdikdən sonra Yuxarı Təbərsəranı tabe etmək üçün Qaluq adlı yerə yürüş etdi. Təbərsəranlılar da dağlara və meşələrə arxalanaraq döyüşə çıxdılar və məğlubiyyətdən sonra tabe oldular. Həmin il rus qoşunu Qızlara qayıtdı. Rusların bu köməyi Fətəli xanın şöhrətli iqtidarının daha da möhkəmlənməsinə səbəb oldu.

Ali-Sərkar Fətəli xana xeyirxah və tərəfdar olduqlarını izhar edərək, onunla dost olmaq istədilər. Bunun nəticəsində 7 ildən bəri Dərbənddə dustaq olan Məhəmməd Səid xan azad edildi. O, Ağsu şəhərində hakimliyə başladı, Ağası xan da Əlvənddə oturub, bütün Şirvana hökmran oldu. Bu zaman Əmir Həmzə Üsmi 3000 igid qoşunla Dərbənd, Quba və Şirvan ölkələrindən keçib, Ərdəbilə getdi. Buraları çalıb-çapdıqdan sonra Qarabağdan keçib Gəncəyə gəldi. Buranı da Ərdəbildən daha pis qətl-qarət etdi, hədsiz qənimətlə Şəki, Axtı və Kürədən keçib, öz mülkünə döndü. Adı çəkilən ölkələrin

əmirləri ona qarşı durmağa cürət etmədilər. Bunlardan bəzisi hədiyyə göndərmək vasitəsilə özünü onun şərindən qurtarmaq istəyirdi. Fətəli xan, xan Məhəmməd xanı öz tərəfinə çəkdi. O, yuxarıda adı çəkilən üsminin qardaşı oğlu olub, igidlikdə şöhrət tapmışdı. Fətəli xan Qubadan 100 ev köçürdüb, Dərbəndin üç ağaclığında ona məxsus bir qala tikdirdi. Məhəmməd xan cürbəcür vasitələrlə üsminin işinə əngəl törədirdi. Bundan əlavə, mənfəət verdiyi və əlaqəyə girdiyi üçün Dağıstan əmirləri, əyanları və əhalisi gündən-günə Fətəli xanın dövlətinə daha artıq meyil göstərirdilər. Üsmi artıq böyük işlərə qarışa bilmədiyindən, naçar qalıb barışmağa məcbur oldu.

Məhəmməd xanın oğlu Şahmərdan bəy ögey anasından olan qardaşı Surxay ilə ədavətli idi. Buna görə atası Məhəmməd xandan inciyib, Fətəli xana meyil göstərərək xidmət edirdi. Fətəli xan da Dərbənd üstündə sayılan Kürə nahiyəsinin aşağı hissəsini Qəbərək kəndinə qədər və Qubanın Güney mahalını ona verdi. Ayrıca camaat olan Qurah mahalını da Şahmərdan bəy özü ələ keçirdi. Beləliklə, Məhəmməd xan da müxalifət iqtidarında olmayıb, müdara ilə keçinirdi.

Bu zaman Təbərsəran əmirəsi Xanım vəfat etdi. Mirzə nəvəsi Əliqulu Sail oğlu qulluq göstərmək bəhanəsilə lal məsumla dostdaşdı. Rüstəm qadisin köməyilə onu iki oğlu ilə öldürüb, məsumluğa keçdi. Fətəli xanın xidmətində Gavduşan döyüşündə öldürülmüş qardaşı Şeyx Əli məsumun oğlanları: Məhəmmədhüseyn bəy, Söhrab bəy, Şamxal bəy və Mustafa bəy Qubaya getdilər. Fətəli xan bir müddətdən sonra Əliqulu məsumu Dərbəndə gətirib həbs edərək Salyana göndərdi. Özü isə qoşunla gedib, Məhəmmədhüseyn bəy Şeyx Əli oğlu məsumu, keçmiş məsumların oturağı olan Çıraq kəndində məsumluğa oturtdu. Ondan sonra qardaşlan: Söhrab məsum, Şamxal məsum və oğlu Qırxlarqulu məsum bir-birinin ardınca əmirlik etdilər.

Şəki hökmranlığında müstəqil olan Hüseyn xan aralığa düşən ədavətə görə əmisi Cəfər ağanı öldürüb, öz xanədanında ədavət toxumu əkdi. Hacı Çələbinin oğlu Hacı Əbdülqadir öz tərəfdarları ilə ondan üç çevirdi. İbrahim xanın köməyilə Kür çayı kənarında, Dardoqqaz adlı yerdə sakin oldu. Hüseyn xan bir neçə dəfə onun üzərinə gedib vuruşdusa da, məqsədə nail olmadan geri qayıtdı. Bu müvəffəqiyyətsizlikdən sonra o, Hacı Əbdülqadirin tərəfdarları olan qutqaşınlı Kəlbəli sultanı, qışlaqlı Hacı Ağanı və Hacı Rəsul bəy Hacı

Şeyx Əli oğlunu həbsə aldı. Bir az keçəndən sonra Hacı Rəsul qaçdı, o biri iki nəfər isə öldürüldü.

Həmin hicri 1193 (1779)-cü ildə ədalətli və hünərli bir əmir olan Vəkil Kərim xan vəfat etdi. O, qoşununun intizamına və ölkəsinin asayişinə çalışıb, 30 ilə yaxın İranda hökmranlıq etdi. O, çox insaflı olub səltənətin qədr və qiymətini gözlədiyindən, ancaq Vəkil ləqəbilə kifayətlənmişdi. Zəndiyyə dövləti də əmirləri arasına düşən ixtilaf nəticəsində tez puç olub aradan çıxdı.

Hicri 1194 (1780)-cü ijdə Hacı Əbdülqadir, Hacı Çələbinin əmisi oğlu Hacı Rəsul bəy Hacı Şeyx Əli oğlunun köməkliyi, Ərəş məlikzadələri və Şəki əyanının ittifaqilə qəflətən Nuxu qalasına soxuldu. 22 il hökmranlıq sürməkdə olan Hüseyn xanı öldürüb, hökumət bayrağını qaldırdı. Hüseyn xan hünərli, şücaətli, gözəl tədbirli və düzgün fikirli olmaqla bərabər, təbiətən rəhmsiz bir adam idi.

Ağa Məhəmməd xan Qacar hüdud boyunu tutduğu zaman, Gilan hakimi Hidayətulla xan məğlub olub, kömək tələbilə Bakıya, buradan da Qubaya gəldi. Fətəli xan Salyan və Talış yolu ilə Mirzə bəy Bayatın komandası altında 9000 qoşun göndərib, onu Rəştdə əvvəlki yerində oturtdu.

Hicri 1196 (1781)-cı ildə dindar, ədalətli bir əmir olan bakılı Hacı Məlikməhəmməd xan Hacı Mirzə Məhəmməd xan oğlu, 11 yaşlı oğlu II Mirzə Məhəmməd xanı dayısı Fətəli xanın himayəsi altında Bakı hakimi təyin etdi. Özü Ətəbatə (Kərbəla və Nəcəfə) ziyarətə gedib, Nəcəf-əşrəfdə vəfat etdi.

Bu zaman Məhəmmədhəsən xan Fətəli xanın bacısı Fatma xanımı öz oğlu Məhəmmədrza bəy üçün istədi. Fatma xanımı keçmişdə Vəkil Kərim xan da öz oğlu Əbülfət xana namizəd etmişdi. Onun qardaşı Ağası xan, Fətəli xanın Şirvan iddiasında olduğunu bilib, bu işdən narazı idi. Özü də Əlvənddə sakin idi. Füzulinin bu beytini yazıb ona göndərdi:

Kuhkən Şirinə öz nəqşin çəkib vermiş firib,
Gör nə cahildir yonar daşdan öziçün bir rəqib.

Məhəmmədsəid xan da cavabında, Füzulinin bu beytini yazıb göndərdi:

Kuhkən künd eyləmiş bin tişəni bir dağ ilə,
Bən qoparıb atmışam bin dağı bir dırnaq ilə.

Xülasə, Fətəli xanın bacısını almaq səbəbinə, iki qardaşın arasına ayrılıq düşdü. Hicri 1198 (1784)-ci ildə Fətəli xan Ağası xana kömək edən İbrahim xanın üzərinə getdi, Ağdamı dağıtdı və Qarabağın aşağı mahallarını talan etdi. Hacı Əbdülqadir xan da Şəki qoşunu ilə onunla yoldaş idi. Bu səbəbə İbrahim xan, atası öldürüldüyü zaman Qarabağa qaçıb, məhbus olan Məhəmmədhəsən ağa Hüseyn xan oğlunu gizlincə azad edib Cara göndərdi. Məhəmmədhəsən ağa Car ləzgilərinin köməkliyilə Şəkinin üzərinə yürüş etdi. Birinci dəfə məğlub oldu. İkinci dəfə isə qalib gəldi. Hacı Əbdülqadir xan da Əlvəndə Ağası xanın yanına qaçdı. Ağası xan onu tutub, qoşunla onu təqib və tələb edən Məhəmmədhəsən xana verdi. Məhəmmədhəsən xan, atasının intiqamı üçün onu yeddi oğlu ilə bərabər öldürdü. Deyirlər ki, o, (Hacı Əbdülqadir xan) igid və cəsarətli bir əmir olub, amma cüzi işlərdə çox şiddət göstərərmiş.

Fətəli xan hicri 1199 (1785)-cu ildə Ağası xan və onun müttəfiqi Məhəmmədhəsən xan ilə müharibə etmək qəsdilə Şirvana getmişdi. Bu zaman qardaşı qarabağlı İbrahim xandan üz çevirmiş olan Mehrəli bəy Fətəli xanın yanında idi. Bir gecə Bakıdan Şirvana getdiyi zaman, yolda Ağası xanın böyük oğlu Əhməd bəyə rast gəldi, aralarında müharibə oldu, Mehrəli bəy öldürüldü. Fətəli xan onun cənazəsini kamal-ehtiramla Qarabağa göndərdi. Bu hadisədən sonra İbrahim xanla Fətəli xan dostlaşmağa başladı. Ağası xana qarşı hər iki tərəfdən qoşun göndərildi. Ağası xan məcbur qalıb Fətəli xanın hüzuruna gəldi, oğlanları ilə bərabər məhbus olaraq, Qubaya göndərildi. Bundan sonra Fətəli xan Şəki üzərinə yürüş etdi. Bu müharibədə məğlub olan Məhəmmədhəsən xan öz bacısını Fətəli xana verib barışdı. Fətəli xan da ittifaqı möhkəmləndirmək məqsədilə öz bacısı Huri Peykər xanımı ona verdi. Həmin il cəsarətli, xoşrəftar və eyni zamanda, xasiyyətcə vüqarsız və kinli bir şəxs olan Mürtəzaəli Şamxal vəfat etdi. Qardaşı Məhəmməd şamxallığa oturdu. Hicri 1201 (1787)-ci ildə Fətəli xan Məhəmməd Şamxalın qızı Kiçik Bikəni Üsminin bacısından olan Əhməd ağa adlı oğlu üçün aldı, çoxlu cehiz və böyük bir dəbdəbə ilə Dərbəndə gətirdi. Əmir Həmzə Üsmi də həmin il vəfat etdi və qardaşı Ustar xan onun yerinə təyin olundu.

Öz qardaşının ələ keçməsindən qorxuya düşən Məhəmmədsəid xan gizlicə keçmişdəki işlərin əvəzini almağa çalışırdı. Fətəli xan, Ağası xanı, Əhməd bəy və Məhəmməd bəy adlı iki böyük oğlanları

ilə hakim təyin etmək bəhanəsilə Qubanın Qonaqkənd kəndinə gətirdi. Məhəmmədsəid xan, Qəsaniyə və buradan da Qəbələyə getdi. Fətəli xanın damadı Məhəmmədrza bəy onu qarşıladı. Fətəli xan Ağası xanı oğlanları ilə Bakıya göndərdi. Özü isə Ağsuya gələrək Məhəmmədrza xanı Şirvana hakim təyin etdi. Lakin həqiqətdə özü hökmranlıq edirdi.

Bu zaman Fətəli xan bir nəfər göndərib Məhəmmədsəid xanı oğlanları ilə bərabər və Ağası xanın oğlu Mustafa bəyi Məhəmmədhəsən xandan istədi. Məhammədsəid xan işi arzusu xilafinə görüncə, naçar qalıb, Fətəli xanın yanına gəldi. O, iki oğlu - Mahmud bəy və İskəndər bəylə Salyan və Məhəmmədrza xan da Qubaya göndərilərək, həbsə alındılar.

Bu hadisə zamanı Məhəmmədsəid xanın oğlanları - Əsgər bəy, Qasım bəy və Ağası xanın oğlu Mustafa bəy Qarabağa qaçmışdılar. Ərəşli Məlikəlinin qardaşı oğlu Şəhabəddin sultan, Məhəmmədhəsən xanın əmrilə onları aldadaraq tutdu. Məhəmmədhəsən xan onların üçünü də buxovlayıb, Fətəli xanın elçisi Məhəmmədkərim bəy Hacı Səfərəli bəy oğlu və öz inanılmış adamı Hacı Seyid bəylə Şirvana göndərdi. Təsadüfi olaraq Göyçay yolu kənarında, Şəki və Şirvan sərhədində, Ali-Sərkar tərəfdarlarından bir nəfər, belə bir yalan şayiə buraxdı: guya Fətəli xan Şəki tacirlərini soyub həbsə almışdır, özü də müharibəyə hazırlaşır. Hacı Seyid bəy Şirvan xanzadələrini buraxıb, Məhəmmədkərim bəyi buxovlayaraq geri qayıtdı. Bu 3 nəfər Cara, buradan da Avara getdilər. Novsəl xanın qardaşı oğlu və damadı Əmmə xanı əmilərinin qanını almaq üçün Şirvana gətirdilər. Yanında hazır qoşunu olmayan Fətəli xanı Ağsu şəhərində 9 ay mühasirəyə aldılar. Axırda Fətəli xan öz qızı Pəricahan xanımı və Salyan nahiyəsini Əmmə xanın əmisinin qan bahasına namizəd edib barışdı. Əmmə xan Avara, Şirvan xanzadələri isə Qarabağa, oradan da osmanlı Axalkalakına getdilər.

Bu zamanlar Mürtəzaqulu xan Qacar öz qardaşı Ağa Məhəmməd xandan üz çevirib, Bakıya və mühasirədən iki ay əvvəl Şirvana gəlmişdi. O, qalanı müdafiə etməkdə Fətəli xana böyük xidmət göstərdi. Mühasirə bitdikdən sonra da kömək istəmək üçün Rusiya imperatriçəsinin dərbanına getdi.

Hicri 1202 (1788)-ci ildə, Ali-Sərkarın məhbusları olan - saf-qəlbli, dəyişkənməcazlı Məhəmmədsəid xan iki oğlu ilə Salyanda,

iş bacaran, cəsarətli və eyni zamanda, etimada layiq olmayan Ağası xan, iki oğlu ilə Bakıda, Məhəmmədrza xan da Qubada öldürüldü. Ağası xanın övladından iki-üç nəfəri də kor edildi.

Məhəmmədhəsən xan Əmmə xanın hadisəsindən və şirvanlıların təhrikindən cəsarətləndi. Əli Sultan bəy Mehdi bəy oğlu Cangu-tay ilə ittifaq edərək, qəfildən Ağsu şəhəri üzərinə gəldi. Müharibədə ondan qalibiyyət nişanələri zahir oldu və hətta qoşunundan bir hissəsi də şəhərə daxil olmuşdu. Bu zaman Fətəli xan Quba və Dərbənd dəstəsi ilə hücuma keçdi. Əvvəlcə döyüşdə zəiflik göstərən ləzgilər də Mehdi bəy Məhəmmədoğlu Şamxalın komandası altında hücuma başladılar. Məhəmmədhəsən xan məğlub olub Şəkiyə qaçdı. Əli Sultan bəy də Mehdi bəyin vasitəçiliyilə, məğlub və qarət edilmiş qoşunu ilə Quba və Dərbənd yolundan vətəninə qayıtmağa izin aldı.

Həmin il Fətəli xan gedib Ərdəbili aldı və Şahsevən əmirləri ona tabe oldular. Muğanlı Həsən xan da ona səmimiyyət göstərməkdə idi. Əvvəlcə Qubada məhbus olan Mir Mustafa xan Qaraxan oğlu, sonralar onun himayəsi altında Talışda, həmçinin Hidayət xan da Gilanda hakimiyyət sürürdülər. Yalnız qarabağlı İbrahim xan, olduğu yerin möhkəmliyinə görə düşmənlikdə davam edirdi. Lakin Qarabağın aşağı mahalları Fətəli xanın hücumundan rahat deyildilər. Şamxal, Üsmi və Qaziqumuq xanı ona qarşı ixlas göstərirdilər. Avar xanı və Mehdili əmiri çarəsiz qalıb, onunla sülh ilə keçinirdilər. Təbərsəranın məsum və qadisi onun itaətkar xidmətçisi idilər. Dağıstanın azad xalqının əyan, qazi və əmirlərinin çoxu onun sədaqətli tərəfdarı idilər. O, özünəməxsus olan Quba, Dərbənd və Salyan ölkələrindən başqa, Şirvan ölkəsini də tamamilə ələ keçirdi. Bakının kiçikyaşlı xanı da onun himayəsi altında idi. İran dövlətinin üsuli-idarəsində olan qarışıqlıq səbəbilə Azərbaycan əmirlərindən bir çoxu, məsələn, Qaradağ, Təbriz və s. əmirləri Ağa Məhəmməd xan Qacarla düşmən olduqlan üçün himayə ediləcəkləri ümidlə ona səmimiyyət göstərməyə başladılar. Axırda bütün istiqlal və ehtişam vəsaitinə malik olan Fətəli xan, Azərbaycan və bəlkə də, bütün İran işlərini intizama qoymaq xəyalilə Gürcüstan valisi İrakli xanla görüşüb məsləhətləşmək binasını qoydu. İrakli xan da öz dudmanlarından Sadıq bəy Yadigar oğlunu səfir sifətilə Fətəli xanın yanına göndərdi. O, qədim gürcü valiləri neslindən yadigar qalıb, doqquzuncu babası, İranın qüvvətli padşahları dövründə müsəlman olmuşdu. Onun oğul və nəvələri indi də

Tiflisdə yaşamaqdadırlar. Səfir Sadıq bəy Nuxada xanın hüzuruna gəlib, hədsiz lütf və mərhəmətə nail oldu.

Məhəmmədhəsən xan öz əməlindən peşman oldu, əyalı olan Fətəli xanın bacısını əfv və aman diləməyə göndərdi. Özü də Fətəli xanın hüzuruna gəldi. Fətəli xan cah və calalla Nuxa şəhərinə getdi. Bir neçə gün qonaqlıq və şadlıqla keçirib, Gəncəyə yola düşdü. Cavad xan ibn-Şahverdi xan Ziyad oğlu Qacar, ölkənin bütün əyanı ilə bərabər Kür çayının kənarında onu pişvaz edib qalanın qapılarını üzünə açdı. Fətəli xan da.Cavad xanın əlindən çıxmış Şəmsəddinli mahalını Gürcüstan valisindən alıb ona verdi.

Xülasə, yüksəkmərtəbəli iki vali, Şəmkir yaxınlığında bir-birilə görüşdülər. Rusiya dövlətindən himayə görmək ümidilə tədbirlər gördülər. Geri qayıtdığı zaman Fətəli xan şiddətli bir qızdırmaya tutuldu. Xəstəliyi gündən-günə şiddətləndi. Buna görə sürətlə Şirvana, buradan da Bakıya, bacısının yanına getdi. Hicri 1203 (1789)-cü ildə mart ayının 22-də, 54 yaşında ikən vəfat etdi.

Fətəli xan tədbirli, mərhəmətli, əzmində sabitqədəm, məmləkəti idarə etmək işlərində mahir bir adam idi. O, könülləri ələ almaq və düşməni aldatmaqda xüsusi bir məharətə malik idi.

Hünərli bir əmir olan qaziqumuqlu Məhəmməd xan da həmin ildə vəfat etdi. Oğlu II Surxay xan onun yerinə keçdi.

Fətəli xanın böyük oğlu Əhməd xan hökumət bayrağını yüksəltdi. Onun başında gənclik ehtirası və hökmranlıq qüruru var idi. O, ölkəni idarə etmək işlərindən bixəbərdi. Bir ildən sonra Məhəmmədhəsən xan köhnə ədavətə görə onun əleyhinə olaraq şirvanlılarla ittifaq bağladı. Osmanlı ölkəsindən Qarabağa gəlmiş Əsgər bəyi, Qasım bəyi və Mustafa bəyi öz yanına çağırdı. Hacı Məhəmmədəli xanın oğlu Manaf bəylə Şirvan üzərinə hərəkət etdi. Əhməd xan müqavimət göstərə bilməyib Qubaya getdi.

Məhəmmədhəsən xan Ali-Sərkarı elat arasında, Manaf xanı isə Ağsu şəhərində hakim təyin etdi. Cürbəcür vasitələrlə tacirlərdən və başqalarından çoxlu mal topladı. Orada bir neçə gün qaldıqdan sonra Şəkiyə qayıtdı. Bir həftədən sonra Ali-Sərkar gəlib Ağsu şəhərini aldı, zəif təbiətli və tədbirsiz Manaf xanı öldürdü. Bunların hamısından böyük olan Əsgər xan Məhəmmədsəid xan oğlunu hökumətə oturtdular. Mustafa bəy Əlvəndə gedib Qətran səngərində oturdu.

Hicri 1205 (1791)-ci ildə Əhməd xan ilə bakılı II Mirzə Məhəmməd xan arasında ədavət düşdü. Əhməd xan ona xəracgüzarlıq vədə verən I Mirzə Məhəmməd xanın oğlu Məhəmmədqulu ağanın təhrikilə bir dəstə qoşunu Salyana getmək bəhanəsilə Bakıya göndərdi. Məhəmmədqulu ağa da gizlicə Bakıya gəlib, öz tərəfdarlarının köməyilə, azacıq döyüşdən sonra şəhəri aldı. Mirzə Məhəmməd xanı Qubaya göndərdi. Məhəmmədqulu xan müstəqil olub, Əhməd xana vergi vermədi. Əhməd xan da öz gördüyü işdən peşman olub, Mirzə Məhəmməd xana kömək üçün Bakıya bir dəstə qoşun göndərdi. Məhəmmədqulu xan naçar qalıb, Mirzə Məhəmməd xanın evində Nadir şah dövründən qalan malların talan edilməsi haqqında ölkə əhalisinə əmr verdi. Bu vəsilə ilə əhalinin çoxu Mirzə Məhəmməd xandan qorxub, Məhəmmədqulu xana tərəfdar oldu. Mirzə Məhəmməd xan naçar qalıb bir sıra mühasirə və müharibədən sonra Qubaya döndü.

Məhəmmədhəsən xan da Manaf xanın öldürülməsi münasibətilə Ali-Sərkardan incimişdi. Əhməd xanın yanına üzr üçün bir elçi göndərdi və Şirvanın alınmasında ona kömək edəcəyini vəd etdi. Əhməd xanla Məhəmmədhəsən xan öz qoşunları və Dağıstan ləzgilərilə gəlib, Ağsu şəhərini iki tərəfdən mühasirə etdilər. Mühasirə xeyli uzandı, istilər də şiddətləndi. Əsgər xan Məhəmmədhəsən xanın ordusundakı ləzgilər üçün gizli olaraq nağd və mal ilə 5000 tümən göndərdi. Beləliklə, qoşunun arasına ayrılıq düşdü.

Bu hadisədən bir az sonra Əhməd xan vəfat etdi. Onun Salyanda naib olan 13 yaşlı qardaşı Şeyx Əli ağa, hökmran olmaq üçün Qubaya gəldi. Yeddi yaşlı Həsən ağa adlı qardaşım naib adı ilə Salyana göndərdi.

Əsgər xanın hökmranlığından 6 ay keçmişdi. Təbiətindəki süst-lüyə görə Şirvan əyanı ondan üz çevirib qardaşı Qasım bəyin hökumət başına keçməsində ittifaq etdilər. Əsgər xan bir müddət dustaq olub, sonra Şəkiyə qaçdı. Qasım xan, Mustafa bəyin səngərinə hücum etmək üçün Əlvəndə getdisə də, məğlub olub geri qayıtdı. O, əhəmiyyətsiz şeylərə çox fikir verirdi. Verdiyi hökmdə aşağı təbəqələr ilə yuxarı sinif arasında təfavüt qoymurdu. Bu cəhətdən şirvanlılar ondan iycimişdilər, o da Şirvan əhlini özünə bədxah sayırdı. Qasım xan hədiyyə və sovqat göndərərək, Məhəmməd Şamxalın oğlu Şahbaz bəyi bir dəstə ləzgi ilə gətirdib, xalqa müsəllət etdi. O bu

hərəkətilə hökuməti əldə saxlamaq və ölkənin asayişini mühafizə etmək fikrində idi.

Nəhayət, hicri 1206 (1792)-cı ildə Şirvan əyanının, xüsusilə Yüzbaşı bəy Hövzi və Ömər Sədarinin təklifilə, Mustafa bəy Əlvənddən gəlib şəhərdə hökumət bayrağını yüksəltdi. Qasım xan isə öz tərəfdarlarından bir dəstə ilə Qəbələ yolundan Qubaya getdi.

Həmin ildə Ustar xan Üsmi vəfat etdi. Əli bəy Əmir Həmzə oğlu üsmi oldu. Səxavətli, lakin bərkürəkli bir əmir olan bakılı Məhəmmədqulu xan da vəfat etdi. Qardaşı oğlu Hüseynqulu ağa Hacı Əliqulu ağa oğlu bir neçə bəyin - dayısı oğlu və damadı Qasım bəy Mənsurxan bəy oğlunun və sair tərəfdarlarının səyilə hökumət başına keçdi. Mirzə Məhəmməd xan Quba qoşunu ilə yenə Bakı üzərinə gəldi. Hüseynqulu xan şəhərdə, Mirzə Məhəmməd xan isə kəndlərdə gah müharibə, gah da sülh edib, ölkəni və mədənləri öz aralarında bölüşdürürdülər.

Bu zaman, Mustafa xan Göyçayın kənarına və Surxay xan da Xaçmaza gəlib, Qəbələnin üç mahalını üsyana qaldırdılar. Ərəşli Şəhabəddin sultan da qarabağlılardan bir dəstə gətirdib Məhəmmədhəsən xanın əleyhinə qalxdı. Lakin Məhəmmədhəsən xan özünü igidcəsinə müdafiə edərək Surxay xanı, Mustafa xanı və qarabağlıları tədricən geri qayıtmağa məcbur etdi. Gözəl tədbirlərlə ölkəni aram etməklə məşğul oldu.

Şəhabəddin sultan qalanın möhkəmliyinə və qonşu əmirlərin himayəsinə arxalanaraq düşmənçilikdə inad edir, Ərəş və Ağdaş mahallarını rahat qoymurdu. Məhəmmədhəsən xan bir neçə dəfə onun üstünə yeridi, ancaq qalib gələ bilmədi. Axırda Şəhabəddin sultan təslim olmaq və Məkkəyə getmək arzusu ilə Məhəmmədhəsən xanın yanına gəldi. Övlad və əqrəbasından bir çoxu ilə bərabər öldürüldü.

Hicri 1208 (1794)-ci ildə Məhəmmədhəsən xan və Şeyx Əli xan, Qasım xana yardım üçün Ağsu şəhəri üzərinə gəldilər. Bir neçə aylıq mühasirədən sonra bir gün güclü yağış və şiddətli seldən çadırlar xəsarətə uğradı. Ordunun vəziyyəti xarablaşdı. Mühasirədəkilər Sədari Ömər sultanın sərkərdəliyi ilə hücuma keçib, mühasirə edənləri məğlub etdilər. Şeyx Əli xan və Məhəmmədhəsən xan öz mülklərinə qayıtdılar. Qasım xan da Quba ilə Şəki arasında olan Qaraburqa dağında özünə oturaq seçdi.

Hicri 1209 (1795)-cu ildə cəsarətli və safqəlbli Üsmi Əli bəy vəfat etdi. Mamay ləqəbilə məşhur olan Rüstəm xan ibn-Sultan ibn-Xan Məhəmməd ibn Əhməd xan Üsmi əmirliyə oturdu. II Mirzə Məhəmməd xan arif və dinclik sevən bir əmir olduğundan, çox vaxt mülki işlərlə məşğul olmurdu. Hüseynqulu xan bundan istifadə edərək bir gecə Şirvan qoşununun köməyi ilə gizlincə gəlib, neft mədəni olan Balaxanı qalasını aldı. Bura o zaman Mirzə Məhəmməd xanın hökumət mərkəzi idi. Keçmişdə buraya Əməlian da deyərdilər. Mirzə Məhəmməd xan yenə Qubaya getdi.

Cənubi Qafqaz ölkələri iğtişaş və inqilab məhəlli olmuşdu. Belə qanşıq bir zamanda İran ölkəsinin hökmranlığı şövkətli Qacar sülaləsinə keçdi. Ağa Məhəmməd xan bu ölkəni almağa hərəkət etdi.

Əbdürrəzzaq bəy Məasiri-sultaniyyə[1] adlı əsərində deyir: Abağa xanın canının əmrilə bu tayfanın rəislərindən Sərtaq adlı bir nəfər Arqun xana atabəy təyin edilib, Xorasan və Təbəristanda əmirülümərа olmuşdu. Onun Qacar adlı bir oğlu vardı, bu tayfanın çoxu onun nəslindəndir. Onlardan (qacarlardan) bir çoxu da zaman keçdikcə Rum və Şam vilayətlərinə getmişlər. Əmir Teymur onlardan 50000 ailəni gətirib İrəvan, Gəncə və Qarabağ nahiyələrində yerləşdirdi. Onlar gündən-günə artıb, cah və calal sahibi oldular. Qacar əmirlərindən bir çoxu da Səfəvilər dövründə etibarlı hökumət adamları olub, Ermənistanda və Şirvanda yüksək iqtidara malik idilər. İrəvan hakimləri həmin nəsildən olmuşdur. Gəncə və Qarabağ hakimləri də Ziyadoğlu ləqəbilə, Xudafərin körpüsündən başlayaraq, Sınıq körpüdən yuxarı olan Şülaver kəndinə qədər hökmranlıq edirdilər. Bunlar Muğanın böyük şurasında Nadir şahın səltənətinə razılıq verməyib, Səfəviyyə dövlətinin bərqərar olmasını tələb edirdilər. Buna görə Nadir şah İran səltənəti taxtına oturunca, onların əzəmət və iqtidarını qırmaq istəyərək, Qarabağ əhalisinin bir çoxunu Xorasana köçürdü. Bərgüşad və Xəmsə məliklərini onların ixtiyarından çıxarıb, Azərbaycan sərdarına tapşırdı... Qazax və Borçalı mahalı əhalisini Gürcüstan valisinin ixtiyarına verdi. Bu səbəblə həmin xanlar çox zəif düşüb ancaq Gəncə ətrafının hökmranlığı ilə kifayətlənirdilər.

---

1 Qacar tarixi haqqında yazılmış ilk əsərlərdən biridir. Müəllifi Əbdürrəzzaq bəy ibn Nəcəfquludur. "Məasiri-sultaniyye" mətbəə üsulilə İranda çıxan birinci kitablardan olub, hicri 1241 (1825/26)-ci ildə Təbrizdə çap olunmuşdur.

Hicri 1218 (1804)-ci ildə Rusiya sərdarı knyaz Sisianov hücum ilə Gəncəni aldı... İrəvan, Gəncə və Qarabağ əhalisi və əmirlərinin çoxu, Qacar nəslindən olduğu üçün, onlar çox vaxt Şirvan ölkəsində sakin və hökmran olmuşlar. Buna görə Dağıstan əhalisi bu hüdud sakinlərinə indi də Qacar deyirlər.

I Şah Abbas Səfəvi 30000 qacar ailəsini buradan köçürdüb, Xorasanın Mərv nahiyəsində və Astarabadın Mübarəkabad qalası ətrafında yerləşdirdi. İranda hökumət sürən indiki şahların sülaləsi Astarabad qacarları nəslindəndir. Doğrudur, "Məasiri-sultaniyyə" müəllifi bu sülaləni Astarabadın qədim qacar sakinlərindən sayır, lakin bunların babalarının Gəncə Şəmkiri ətrafında olmaları xalq arasında məşhurdur. Şəmkir şəhəri xarabalarının aşağı tərəfində, çayın sol sahilində, onların yurdları, ev və səkilərinin yeri Mehdibəyli adı ilə indi də görünməkdədir.

Bu sülalədən olan Fətəli xan, Şah Təhmasibin yanında çox cah-calala, əzəmət və iqtidara malik idi. Nadir şah, Şah Təhmasibə yaxınlaşınca, şahın məzacını ondan çevirdi. Hətta hicri 1139 (1726)-cu ildə onun işini bitirdi. Onun iki oğlu qaldı. Biri Məhəmmədhəsən xan idi. Nadir şah dövründə Astarabad nahiyələrində üsyan qaldırıb məğlub oldu və türkmən çöllərində dolanmağa başladı. O, Nadir şah öldürüləndən sonra gəlib Təbəristan, İraq və Azərbaycanı aldı, sərdarlıq ləqəbilə sikkə və xütbə sahibi oldu, Azad xan və Kərim xan Vəkil ilə müharibə etdi. Axırda hicri 1178 (1759)-ci ildə öz nökərlərinin əlində öldürüldü. Kiçik qardaşı Məhəmmədhüseyn xandan iki oğlan qalmışdı: biri Ağa Məhəmməd xan, o biri Hüseynqulu xan. Kərim xan Vəkil girov adı ilə bunları həmişə öz yanında saxlayırdı. Bu böyük əmirin vəfatından sonra Ağa Məhəmməd xan Astarabada gedib, gündən-günə cah-calalını və səltənət büsatını artırdı. Zəndiyyəyə qalib gəlib, tədricən İraq, Təbəristan, Gilan və Azərbaycan ölkələrini fəth etdi. Hicri 1209 (1795)-cu ildə Qarabağı fəth etmək məqsədilə Xudafərin körpüsünü təmir edib Pənahabad (Şuşa qalası) üzərinə yürüş etdi. İbrahim xan İran qoşununun bu tərəfə keçməsinə yol verməmək üçün bu körpünü xarab etmişdi. Ağa Məhəmməd xan Topxana mənzilində yerləşib, qalanı mühasirə etməyə başladı. Təqribən bir aydan sonra Gürcüstana hərəkət etdi. Qətl və qarətdən və Tiflis şəhərini xarab etdikdən sonra qayıdıb Muğanın Çehilnam adlı yerində qışladı. Şirvan, Bakı, Şəki və Dərbənd hakimləri ərizə və

hədiyyələr göndərib sədaqət izhar etdilər. Şəki hakimi Məhəmmədhəsən xan Hüseyn xan oğlu, Ağası xanın oğlu Mustafa xanın əleyhinə təbliğat aparmaq üçün öz inanılmış adamı, Hacı Seyid bəy adlı bir nəfəri Ağa Məhəmməd xanın hüzuruna göndərdi. Lakin o, Məhəmmədhəsən xanın özündən şeytanlıq etdi. Sərdar olan Qacar Mustafa xan Dəvəli, Mustafa xanı cəzalandırmaq üçün təyin olundu. Məhəmmədhəsən xan da Şəki qoşunu ilə zahirdə onun köməyinə təyin edildi. Şirvanlı Mustafa xan, Xançobanı tayfasını toplayıb Ağsu şəhərini Fit dağına köçürməyə əmr verdi. Yaşayış vəsaitinin azlığından və soyuğun şiddətindən əhalinin bir çoxu fəlakət və zillətə məruz qaldı, bir çoxu da Qubaya və Dərbəndə dağıldı. Sərdar gəlib şəhərdə qalan malları qarət etdi. Bundan sonra o, Ağdaş mahalına, buradan da Xaçmaz mahalına gəlib, Tərkəş kəndində dayandı. Məhəmmədhüseyn xanın qardaşı Səlim ağa bu hadisədən 8 ay qabaq Cara qaçmışdı. O, Car və avar qoşunu ilə Əliskəndər Hüzzatinin sərkərdəliyi ilə Şəkini almağa hərəkət etdi. Məhəmmədhəsən xanı məğlub edib, şəhəri Gələsən-Görəsən adlanan yerə köçürdü. Məhəmmədhəsən xanın yeddi oğlunu öldürtdü. Bunlardan biri qubalı Fətəli xanın bacısı oğlu idi. Öz bacısını qarabağlı İbrahim xana verib, onun qızını da özü üçün aldı. Məhəmmədhəsən xan yardım almaq ümidilə sərdarın yanına gəldi. Sərdar əksinə olaraq Məhəmmədhəsən xanın gözlərini çıxardıb, dustaq olaraq Təbrizə göndərdi, çünki qabaqcadan Ağa Məhəmməd xan Şəki əhalisinin şikayətinə və Hacı Seyid bəyin böhtan və iftirasına görə, Məhəmmədhəsən xanı kor etmək xüsu-sunda ona fərman göndərmişdi. Bu hadisədən xəbər tutmaq üçün Ağa Məhəmməd xan onu öz yanına çağırdı. O da 200 və ya 300 nəfərlə orduya gedərkən, bir dəstə şirvanlıya rast gəldi. Sərdar döyüşdə öldürüldü.

Bu zaman, rus qoşununun gəlməsi xəbəri alındı. Quba, Salyan və Dərbənd hakimi Şeyx Əli xan dərbəndli Xızır bəy Hacı bəy oğlu Qorçunu göndərib, Ağa Məhəmməd xandan kömək istədi. Lakin onun qoşunu azuqə azlığı, heyvanların qırılması və qışın şiddətindən çox pərişan bir halda idi. Həm də, ola bilsin ki, bəzi mülahizələrə görə ruslarla müharibə etmək istəmirdi. Buna görə o, Xorasam almaq məqsədilə Tehrana hərəkət etdi. Rus qoşunu da Şirvana daxil oldu.

Bu hadisənin təfsilatı belədir: Nadir şah ilə sülh bağladıqdan sonra Rusiya ilə İran dövlətləri arasında həmişə dostluq əlaqəsi vardı.

Rus imperatriçəsi Anna İranovna, hicri 1152 (1740)-ci ildə təşrini-əvvəlin (oktyabrın) 17-də vəfat etdi. Sonra Böyük Pyotrun qardaşının qız nəvəsi III İvan iki aylıq uşaq ikən səltənətə təyin edildi. Anası Anna, oğlunun əvəzində dövlət işlərini idarə etməyə başladı. 7 ay keçəndən sonra Böyük Pyotrun qızı Yelizaveta ona qarşı üsyan qaldırıb, xas bölüklərin köməyilə taxta oturdu. Anna oğlu və əri ilə bərabər həbsə alındı. Yelizaveta 20 ildən artıq ölkənin abadlığına və millətin asayişinə çalışıb, Rusiya padişahı oldu. Hicri 1174 (1761)-cü ildə kanuni-əvvəlin 25-də vəfat etdi. Vəliəhdi, Böyük Pyotrun qızı Annadan olan III Pyotr taxta oturdu. 6 aydan sonra onun arvadı II Yekaterina padişahlığa keçdi. O, ölkənin mülki vəziyyətini və qanunlarını aqilanə bir tərzdə möhkəmləndirdi. Sülh və müharibə işlərini nizama salmaqla, öz dövlətinin əzəmət və iqtidarını artırdı. Qafqazın cənub tərəflərində asayişi bərpa etmiş olan Fətəli xan öləndən sonra hər bir işdə iğtişaş əmələ gəldi. Bu zaman İranda yüksək bir iqtidara malik olan Ağa Məhəmməd xan Qacar bu ölkəni tutmaq fikrinə düşdü. Gürcüstana girib, qətl-qarətə başladı.

Hicri 1210 (1796)-cu ildə imperatriçə İran ilə müharibəyə başladı. Qraf Zubovun baş komandası altında güclü bir qoşun göndərdi. General-mayor Sobolev, itaət edib, yanına gəlmiş olan Məhəmməd xan şamxal, Rüstəm xan üsmi və Təbərsəran qadisi Rüstəm ilə bərabər Dərbəndin 8 ağaclığına gəldi. Keçən il Rusiya dövlətinə ixlas göstərmək mərasimini təzələmiş olan Şeyx Əli xandan tabe olmağı tələb etdi. O isə gözlənilmədiyi halda müxalifət göstərdi. General həmin il şübatın (fevralın) 11-də Dərbəndin xaricinə çatıb, şimal-tərəfdən mühasirəyə başladı.

Bundan bir zaman keçəndən sonra Şeyx Əli xan, Kürə və Qazi-qumuq hakimi Surxay xan, süvari və piyada olaraq, 20 min qoşun hazırlayıb, rus ordusuna hücum etmək istədilər. General, mühasirəni faydasız görüb, neysanın (aprelin) ikinci gecəsi qayıdaraq, Dərvaq çayı kənarında yerləşdi. Neysanın (aprelin) axırında rus sərdarı qraf Zubov külli qoşunla Dərvaq çayı kənarına yetişdi. Ertəsi gün Dərbənd üzərinə hərəkət etdi. Quba və Dərbənd süvariləri şəhərin bir ağaclığında kazaklarla müharibəyə girişdilər, məğlub olub geri qayıtdılar. Şəhər darvazalarını bağlayıb, qalanı müdafiə etməyə başladılar. Təbərsəran qadisi Rüstəm general-mayor Bulqakovu 10 min qoşunla Təbərsəranın ortasından, Dərvaq dərəsindən və bərk meşəlik yollar-

dan keçirmişdi. O, mayısın (mayın) 3-də Dərbəndin cənub tərəfində göründü. Şimal tərəfində və Şeyx Əli xanın tikdirdiyi böyük bürc hücumla alındı. Burada dərbəndlilərdən bir çoxu öldürüldü və yerdə qalanları qaçdılar.

Ertəsi gün iki tərəfdən şəhərə top, tüfəng gülləsi və qumbaralar yağmağa başladı. Dərbənd əhalisi müqavimət göstərə bilməyib, Xızır bəy Hacı bəy oğlu Qorçunu camaat tərəfindən vəkil göndərdilər. O da aman istəmək üçün sərdarın hüzuruna gəldi, xahişi qəbul olundu. Qraf Zubov, Şeyx Əli xanı Dərbənd və Qubanın əyan və mötəbər adamları ilə hüzuruna çağırdı. O, bir neçə nəfərlə gəlib orduda saxlandı. 6 gündən sonra Fətəli xanın qızı Pəricahan xanım Dərbənd və Qubanın müvəqqəti hakiməsi təyin edildi. Xızır bəyin təhrikilə Dərbəndin mötəbər adamlarından 10 nəfəri Hacı Tərxana (Həştərxana) göndərildi. General Sobolev Dərbəndi mühafizə etməyə təyin edildi. Sərdar özü isə Qubaya yola düşdü. Quba şəhərinin yarımağaclığında, Təpələr adlı yerdə üç gün dayanıb Şabrana gəldi.

Bir gün səfər zamanı, Pirə Xəlil çölündə Şeyx Əli xan at çapmaq bəhanəsilə qoşunun içindən çıxıb qaçdı. Bu əhvalatdan Quba şəhərində həyəcan əmələ gəldi. Xanın köçü və ailəsi Buduq mahalında onunla birləşdi. Qraf Zubov general Bulqakovu 5 min qoşunla Quba əhalisini sakit etməyə göndərdi. Şəhərin və kəndlərin əhalisi öz yurdlarına qayıtdılar. Şeyx Əli xan Qrız kəndinə gəlib, buradan Qəbələ yolu ilə Axtıya və Misgincəyə getdi.

Rus sərdarı Bakıya getdi. Oranın hakimi Hüseynqulu xan pişvazına çıxıb təltif edildi. Şəhərin mühafizəsi üçün bir dəstə soldat təyin olundu. Sərdar özü isə Şirvana hərəkət etdi. Şirvan hakimi Mustafa xan ona tabe olmayaraq, Ağsu şəhərini Fit dağına köçürtdü. Şirvanın qabaqkı hakimi Qasım xan, öz damadı Yüzbaşı bəy Səfərəli bəy oğlu Hövzinin köməyilə Qaraburqa dağından enib gəldi. Mustafa xan qarşı dura bilməyib, Qarabağa getdi. İbrahim xan buna razı deyildisə də, oğlu Məhəmmədhəsən ağa onun tərəfini saxlayırdı. Qasım xan ölkənin mötəbər adamlarını toplayıb, Kür çayı kənarına rus sərdarının hüzuruna gəldi. Bu xidmətin əvəzində Şirvan hökumətinə təyin edildi.

Pəricahan xanım da sərdarın əmrilə və ana qohumlarının yanına, İlisuya getmiş olan kiçik qardaşı Həsən ağanı Qubaya gətirdi. Ölkənin əyanları ilə bərabər sərdarın hüzuruna göndərdi. İmperatorun əmri

mucibincə ona qiymətli daşlar kəsb edilmiş cıqqa verildi və Quba hökumətinə təyin edilərək geri qayıtdı.

Bu zaman Şeyx Əli xan Surxay xanın köməyilə 10 min nəfərlə Quba şəhərinin yarımağaclığında olan Alpan kəndinə gəldi. Bulqakov onun qarşısına min nəfər soldat və bir neçə top göndərdi. Aralarında şiddətli döyüş oldu. Mövqenin çətin olması üzündən hər iki tərəfdən bir çox adam öldürüldü, ruslar geri çəkildilər...

General Bulqakov Həsən xanla birlikdə Qubadan, Sobolev isə Rüstəm xan Üsmi, Məhəmməd Şamxalın oğlu Mehdi bəy və Rüstəm qadi ilə bərabər Surxay xanı cəzalandırmaq qəsdilə Dərbənddən Samur kənarına gəldilər. Surxay xan naçar qalıb, aman istədi və sədaqətlə rus dövlətinə itaət edəcəyinə and içib söz verdi. Qraf Zubov Kür çayı kənarında qışladı, oradan Gəncəyə bir dəstə qoşun göndərdi. Gəncə hakimi Cavad xan Ziyad xan oğlu tabe olmaq fikrilə qabağa çıxıb qalanı təslim etdi. Qarabağlı İbrahim xan və şəkili Səlim xan da, elçilər və məktublar göndərməklə ixlas və itaət göstərdilər.

Həmin il təşrin-saninin (noyabrın) 9-da imperatriçə II Yekaterina vəfat etdi. Oğlu I Pavel rus səltənəti taxtında oturdu. Onun səltənət işlərini nizama salmaq uğrundakı tədbirlərindən, dövlətin xarici və daxili məsələlərindəki dəyişikliklərdən biri də bu idi ki, o, İran ilə müharibəni dayandırdı və qoşuna geri qayıtmaq əmri verdi.

Hicri 1211 (1797)-ci ilin baharında vəzifədən kənar edilmiş olan qraf Zubov, İran taxtına keçmək arzusu ilə bu səfərində onunla yoldaşlıq edər Mürtəzaqulu xan Qacar ilə bərabər, Bakıdan gəmi ilə Hacı Tərxana getdi. General Bulqakov bütün qoşunu ilə Dağıstan yolundan Qızlara hərəkət etdi. Pəricahan xanım həmin il atası Məhəmməd Şamxalın ölümü münasibətilə onun yerinə şamxallığa keçmiş olan Mehdi bəyə ərə getdi. Fətəli xan sülaləsinin əsrlər boyu toplamış olduğu bütün malları və qiymətli şeylərini özü ilə apardı, sair vərəsələri bundan məhrum etdi. Bacısı Çimnaz xanımı da, Şeyx Əli xandan icazəsiz Rüstəm qadinin oğlu Abdulla bəyə verdi. Həsən xan Qaytağa getdi. Rüstəm xan Üsmi İlisu əmirləri xanədamndan olan onun anası Hürzad xanımı aldı. Rus qoşunu hələ Kafiri səhrasında idi ki, Şeyx Əli xan Qazıqumuqdan Dərbəndə gəldi.

Gəncəli Cavad xan hünərli və elm sevən bir adam olmaqla bərabər, qaniçən və günah işdən çəkinməyən bir əmir idi. Ölkə əhalisi ondan üz çevirmişdi və qonşu əmirləri də onun məhv olmasını arzu

edirdilər. Buna görə ruslar qayıtdıqları zaman Gəncə ölkəsini Gürcüstan valisinə verdilər. Vali İrakli xan, qarabağlı İbrahim xan və şəkili Səlim xan qoşunla Gəncənin xaricinə gəldilər. Şəmsəddinli Əli sultanı vali tərəfindən naib sifətilə Gəncə hökumətinə təyin etdilər. Cavad xan çarəsiz qalıb qaçmaq fikrinə düşdü. Lakin onun arvadı Şükufə xanım adam göndərib, Əli sultan ilə mehmannəvazlığa başladı. Keçmişdə Cavad xanın etmiş olduğu yaxşılıqları və onu həbsxana cəzasından necə azad etdiyini ona xatırlatdı. Əli sultan da, zatında olan vəfadarlıq və insanlığı üzündən, Cavad xanın hüzuruna gəlib, ixlas və təzim ilə qalanın açarını təslim etdi və onun xidmətində durdu. Bu hadisədən sonra Gəncə əhalisi ona tabe oldu. Ətrafa dağılmış xanlar da öz mülklərinə qayıtdılar.

Digər tərəfdən Ağa Məhəmməd xan hicri 1210 (1796)-cu ildə Tehrana varid olandan sonra səltənət tacım başına qoyub, Xorasana hərəkət etdi. Məşhəd şəhəri asanlıqla alındı. Şahrux mirzə Nadirin xəzinələrini ona verdikdən sonra vəfat etdi. Oğlu Nadir mirzə Qəndəhara qaçdı, Teymur övladından Əfqan şahına pənah apardı.

Sonrakı il şah Şuşa qalasını almaq və Şirvan ölkəsini fəth etmək qəsdilə 100.000 qoşunla səfərə çıxdı. Araz çayım keçəndən sonra İbrahim xan Car nahiyəsinə qaçdı. Şuşa qalası maneəsiz və zəhmətsiz zəbt edildi. Əliqulu xan Sərdar Şirvana təyin olundu. Qasım xan zahirdə itaət göstərdi. Ruslar Qarabağdan qayıdandan sonra Qətran səngərinə gəlmiş olan Mustafa xan, oradan şahın hüzuruna getdi. Bundan qorxuya düşən Qasım xan Şirvam boşaldıb Şəkiyə qaçdı.

Gəncəli Cavad xan və bakılı Hüseynqulu xan da şahın hüzuruna gəlib töhmət edildilər. Hələ bu üç nəfərin işinin axırı məlum deyildi. Bu zaman, hicri 1211 (1797)-ci ildə həziranın (iyunun) 12-də, səhər açılanda, həyatları qorxu altında olan saray xidmətçilərindən iki-üç nəfər qaniçən şahın qəzəbindən qorxub onu öldürdülər. Keşik əmirlərindən və sairdən bir neçə nəfər cavahir və qiymətli şeylərdən ələ keçəni götürüb Tehrana qaçdı.

Ağa Məhəmməd xanın aşağıda yerləşmiş böyük ordusu da onun baş əmirlərindən Sadıq xan Şəqaqinin başına toplandı. şahın qatilləri onun qılınc, xəncər, bazubənd və sandıqçasını Sadıq xanın yanına aparmışdılar. Sadıq xan Azərbaycanı fəth etdikdən sonra Qəzvin üzərinə gəldi. Lakin şəhərə girə bilmədi. Öldürülən padşahın vəliəhdi

və qardaşı oğlu Fətəli şah Hüseynqulu xan oğlu ilə olan müharibədə Sadıq xan məğlub olub Səraba qayıtdı. Fətəli şah Zəncana gəldi, Hacı İbrahim xan Şirazini Sadıq xanın yanına göndərib təklif etdi ki, itaətə gəlib, dövlətə aid qiymətli şeyləri təslim etsin. Sadıq xan bütün şeyləri ərizə ilə göndərib üzr istədi. O, şah tərəfindən bağışlandı. Gərmürd və Səraba hakim təyin olundu.

Ağa Məhəmməd şah öldürüləndən sonra Şuşada Pənah xan nəvəsi Məhəmməd bəy Mehrəli bəy oğlu bir neçə gün hökmranlıq iddiasında oldu. Lakin o, İbrahim xan gələn kimi Şəkiyə qaçdı. Şəki hakimi Məhəmmədhəsən xan onu həbsə alıb, şirvanlı Mustafa xanın yanına göndərdi. Məhəmməd bəy qubalı Fətəli xanın əmrilə onun atasını və qardaşlarını Bakıda öldürmüşdü. Buna görə o, da Məhəmməd bəyi intiqam məqsədilə öldürdü.

İbrahim xan şahın cənazəsini böyük ehtiram və alimlərin (ruhanilərin) müşayiətilə yola saldı. Səmimiyyət və ixlas tərzilə yeni şahın hüzuruna bir ərizə yazdı və nəvazişə nail oldu. Oğlu Əbülfət ağanı da padşahın hüzurunda qalmaq üçün göndərdi.

Mustafa xan Şuşadan Şirvana qayıtdığı zaman, şahın Təbrizdən gətirib Muğanda saxladığı kor Məhəmmədhəsən xanı özü ilə aparıb Şirvanı aldı. Buradan da Şəki üzərinə getdi. Səlim xan Qarabağa qaçdı. Məhəmmədhəsən xan yenə hökumət başına keçdi. Mirzə Məhəmməd xan şahın öldürülməsi xəbərini alınca, Qubadan Bakını almağa hərəkət etdi. Hüseynqulu xan ondan qabaq gəlib, qalanın müdafiəsilə məşğul oldu. Axırda aralarında barışıq olub məmləkəti böldülər. Hüseynqulu xan şəhərdə, Mirzə Məhəmməd xan Məşqətə kəndində bir qala tikdirib, hökumətə oturdular.

Bir zaman sonra şahın yaxın adamlarından olub, Xoy və Təbriz əyalətlərini idarə edən Cəfərqulu xan Dünbülü, Sadıq xana qarşı köhnə ədavətinə görə, bir bəhanə ilə gəlib Sərabı xaraba qoydu.

Sadıq xan Muğan yolu ilə Şirvana, Mustafa xanın yanına qaçdı. Bir müddət keçəndən sonra Cəfərqulu xanın başına dönüklük havası düşdü. Bunu eşidən Sadıq xan Şirvandan Səraba qayıdıb, onunla birləşdi və bir neçə başqa əmirlə üsyana başladı. Cəfərqulu xanı məhz bir xain kimi qələmə verən Sadıq xan, özü şahın sarayına gəldi. Lakin o, boş bir otaqda həbs edildi və burada da acından öldü.

Cəfərqulu xan Xoya getdi. Lakin şaha sadiq olan qardaşı Hüseyn xan onu qəbul etmədi. O, bir neçə müddət avara gəzdi, qardaşı

öləndən sonra isə gəlib Xoyu ələ keçirdi. Bir vaxtdan sonra şahın istəkli oğlanlarından olub, Azərbaycan işlərini nizama salmağa təyin edilən Abbas Mirzə tərəfindən məğlub edildi. Makuya və oradan da Rum sərhədinə Koroğluya nisbət verilən Çənlibel adlı yerə gedib sakin oldu.

Rus hadisəsində Həsən xan Qubaya gəldikdən sonra İbrahim xan Rudbarinin qardaşı oğlu Məhəmməd xan Salyanı ələ keçirdi, Əmir Kəlbəl sultanın oğlu naib Mir Qubad sultanı oradan çıxartdı.

Hicri 1213 (1799)-cü ildə Şirvan vilayətinə və xüsusilə Ağsu şəhərinə şiddətli taun xəstəliyi düşdü, bir çox adam tələf oldu. Bu zaman Quba qoşunu rus qayıqları ilə gedib Salyanı aldılar. Şeyx əli xan 4000 ləzgi ilə oraya getdi. Ramazan ayında öz yaxın adamlarının təhrikilə zülmkarlığa və günah işlər görməyə başladı. O, qayıdandan sonra şirvanlı Mustafa xan Rudbar əmirlərinin köməyi və salyanlıların təklifi ilə gedib Salyanı aldı. Şəhəri köçürüb, dörd ağac yuxarıda, indiki yerində bina etdi. Hakimliyini də İbrahim xanın oğlu Əli xana verdi. Bir müddətdən sonra buranı bölüşdürüb Əli xana və onun əmisi oğlu Məhəmməd xana verdi. Lakin Əli xan tez bir zamanda Məhəmməd xanı həbsə alıb, Talış Mir Mustafa xanın himayəsi altına keçdi.

Digər tərəfdən Şeyx Əli xan Salyandan qayıdandan sonra Dərbənddə bərk xəstələndi. Qazıqumuqlu Surxay xan bu hadisədən istifadə edərək, bir gecə gizlincə öz oğlu Nuh bəyi Həsən xan adı ilə göndərib Quba qalasını aldı. Özü də qoşun ilə Qubanın Qullar adlı kəndində oturub, ay yarım hökmranlıq etdi. Şeyx Əli xan Şamxaldan, Aqquşa və Qoysuboy mahallarından 10000 nəfər kömək aldı. Surxayı Qubadan çıxardıqdan sonra Kürək çayı üzərinə yürüdü. Şiddətli müharibə oldu. Surxay xan məğlub edildi, o nahiyə də ta Çıraq kəndinə qədər tamamilə qarət olundu. Şeyx Əli xan buradan qayıdaraq, ləzgiləri altı ay Qubada qonaq saxladı. Onların tələbatı üzündən qubalılara çox haqsızlıqlar edildi. Hətta əhalidən diş kirayəsi belə alınırdı. Şeyx Əli xan 8000 nəfərin məsarifini Quba maliyyatından verib, qalan 2000 nəfər ləzgini Dərbəndə gətirdi ki, onların maaşlarını da oranın mədaxilindən ödəsin.

Qubadakı kimi olan ikigünlük qonaqlıq dərbəndlilərin ümumi iğtişaşına səbəb oldu. Xalq Şeyx Əli xanın eyş və işrət düşkünü olduğundan narazı idi. O, çıxılmaz bir vəziyyətə düşdü. Axırda Şeyx Əli

xanın görüşünə gəlmiş olan bakılı II Mirzə Məhəmməd xan dərbəndlilərin yığıncağına gedib ləzgiləri buradan çıxarmaq vədilə onları sakit etdi. Şeyx Əli xan bu məsələdən inciyib Qubaya üz qoydu.

Hicri 1214 (1800)-cü ilin əvvəllərində, Dərbənddə şiddətli taxıl qəhətliyi oldu. Taxıl gətirmək üçün Şamxal mülkündən Qubaya gedən 400 arabanı dərbəndlilər döyüş və söyüşlə geri qaytardılar. Bu məsələ Şeyx Əli xanın xoşuna gəlmədi və bundan bərk incidi. Dərbəndlilər Sultan bəy Bayatın təhrikilə üsyan qaldırıb, Dərbənd naibi olan Məhəmmədhüseyn bəy Əhməd bəy oğlu Bayatı qovdular. Şeyx Əli xan Dərbəndə gəlib Sultan bəyin ətrafında çoxlu cəmiyyət topladığını gördü. Labüd qalıb, öz bacısı II Mirzə Məhəmməd xanın arvadı olan Xanbikə xanımı Dərbəndin sahib ixtiyarı (hakimi) və Sultan bəyi də onun kargüzarı (müavini) təyin etdi.

Şeyx Əli xan Qubaya qayıdandan bir az sonra II Surxay xan Fətəli xanın oğlu Həsən xanı cürbəcür vasitələrlə Qaytaqdan öz yanına gətirdi. Aralarında bir çox ixtilaf olan dərbəndlilər ilə ittifaq etdikdən sonra həmin ilin mayıs (may) ayında Həsən xanı Dərbənd hökumətinə oturtdu.

Bir gecə Sultan bəy Bayat, Xızır bəy Qorçu ilə xan sarayında dava saldı. Hər iki tərəfdən bir çox adam tələf olub, Xızır bəy öldürüldü. Sultan bəy də yaralı olaraq aradan çıxıb getdi. Ertəsi gün xanın əmri və dərbəndlilərin ittifaqı ilə Sultan bəy cəzalandı. Bu hadisədən sonra Şeyx Əli xan Şirvan və Bakı xanlarından, həmçinin şamxaldan və Aqquşa camaatından kömək aldı, hər iki tərəfdən Dərbəndin mühasirəsinə başladı. Yalnız Təbərsəran qadisi dərbəndlilərin tərəfini saxlayırdı. On iki günlük mühasirədən sonra Şeyx Əli xan məqsədə çatmadan Qubaya qayıtdı. Ağır xəstə olduğundan onun ölüm xəbəri ətrafa yayıldı. Surxay xan qoşunla Eniq kəndinə gəldi və qarşısına çıxan Quba qoşununu məğlub etdi. Özü də Şeyx Əli xanın sağ olduğunu bilincə, vətəninə qayıtdı.

Bundan sonra Quba hakimiyyətini Həsən xana vəd edərək qəflətən külli qoşunla Quba şəhərinin bir ağaclığındakı Zizik kəndinə gəldi. Şeyx Əli xan azacıq sağalmış olsa da, müdafiə üçün heç bir tədarükü yox idi. Arvadı, bakıh Hacı Məlikməhəmməd xanın qızı Zeybünnisa bəyim ruslardan qaçdığı zaman Surxay xanla ata-qızlıq peymanı bağlamışdı. Ziyafət mərasimini yerinə yetirməklə və dostluğu bildirən peyğamlar göndərməklə Surxay xanı geri qayıtmağa razi etdi. Həsən xan da çarəsiz qalıb Dərbəndə getdi.

Bir zaman keçəndən sonra Şeyx Əli xan qəflətən gedib Dərbəndin Ulus nahiyəsinin 9 kəndini köçürüb Qubaya gətirdi. Beləliklə, Həsən xanın əlində Dərbənd şəhərindən başqa heç bir yer qalmadı.

Həmin ilin axırlarında Gürcüstan valisi Georgi xan vəfat etdi. Bu ölkənin əyalı və əmirləri daxili qarışıqlıqlardan və xarici müdaxilələrdən xilas olmaq ümidilə Rusiya imperatoru III Pyotrun oğlu I Pavelin dərbarına vəkillər göndərib, onun himayəsinə keçməyi xahiş etdilər. Bu xahişin qəbulunu bildirən imperator fərmanı hicri 1215 (1801)-ci ildə, kanuni-saninin (yanvarın) 18-də sadir oldu. General-leytenant Konorrinq Gürcüstan hökumətinə təyin edildi. Bundan başqa həmin ayın 23-də ayrıca bir fərman verilərək, ona tapşırıldı ki, onlardan vergi toplamasın və daxili işlərinə qarışmasın. Yalnız o zaman müdaxilə etsin ki, onlar öz razılıqlarilə mənim himayəmi qəbul etmiş olsunlar, çünki sülhpərvər müttəfiqlərə malik olmaq, etibarsız rəiyyəti başa toplamaqdan daha yaxşıdır.

Bundan sonra martın 12-də imperator Pavel birdən-birə vəfat etdi. Oğlu I Aleksandr səltənət təxtinə oturdu. Qafqazın işləri həmin qayda üzrə intizama düşməkdə idi. Keçən il dərbəndli Həsən xan tərəfindən Hacı Tağı, qubalı Şeyx Əli xan tərəfindən Mirzə Əsgər, bakılı Hüseynqulu xan tərəfindən Mirzə Hadi bəy, talış Mir Mustafa xanın və Dağıstan əmirlərindən Mehdi xan Şamxalın, Rüstəm xan Üsminin, avarlı Əmmə xanın və təbərsəranlı Rüstəm qadinin elçiləri ilə bərabər, himayə edilmək üçün səfarətlə Rusiya imperatorunun dərbanna göndərilmişdilər. Aqustos (avqust) ayının 28-də bu əmirlərdən hər birinin adına imperatorun fərmanı sadir oldu. Bu fərmanda deyilirdi ki, onlar bir-birlərilə həmişə müdarə edərək sülh ilə yaşasınlar və bölüşdükləri kimi Qubaya Şeyx Əli xan, Dərbəndə Həsən xan sahib olsun. Beləliklə, iki qardaş çay kənarında bir-birlə görüşüb, qardaşlıq və xüsusiyyət mərasimini təzələdilər.

Bu qayda üzrə I Aleksandrın səltənətindən iki ilə yaxın keçdi. Gürcüstana sahib olmaq Rusiya dövlətindən böyük məsarif və çox səy tələb edirdi. Başaçıq (İmeretiya) valisi və Minqreliya əmirləri Rusiya Padşahı Aleksey Mixayloviçin zamanında yardım almaq arzusu ilə həmin dövlət ilə əlaqə və rabitə qapısını açmışdılar.

Tarxu şamxalı, Bakı və Dərbənd xanları onun oğlu Böyük Pyotra tabe olmuşdular. Şirvan, Şəki, Qarabağ və Gəncə xanları qraf Zubov §əldiyi zaman himayə xahiş etmişdilər. Bunların bir çoxu təzədən

yenə elçilər vastəsilə tabe olmaq fikrində idilər. Buna görə imperator Aleksandr bu böyük və mühüm işlərin sərəncamını, əslən gürcü olub, Rusiyada yaşayan general-anşef knyaz Sisianova tapşırdı. Bu əmir daxili işlərin intizamına, ədalətin bərpa edilməsinə və xarici fütuhata son dərəcə səy edirdi.

Hicri 1217 (1803)-ci ildə Həsən xan çiçək xəstəliyindən ölümcül bir halda xəstələndi, dərbəndlilər onun görüşünə gələn Şeyx Əli xanın arvadı Zeybünnisa bəyimə vasitəçilik üçün yalvardılar. O da and içərək öz əri tərəfindən onları xatircəm etdi və vəziyyəti bildirmək üçün Qubaya bir qasid göndərdi. Şeyx Əli xan Həsən xanın vəfatını eşidən kimi Dərbəndə gəlib, matəm mərasimini yerinə yetirdi. Sonra İmamqulu bəyi Dərbəndə naib qoyub Qubaya qayıtdı. Bu zaman bakılı Hüseynqulu xan şirvanlı Mustafa xanın köməyilə Məşqətə qalasını aldı, Mirzə Məhəmməd xan Qubaya qaçdı və öz mülkünü geri almaq üçün vəsait toplamağa başladı.

Həman il avarlı Əmmə xan Car nahiyəsində vəfat etdi. Zatən hünərli olan Əmmə xanın şan və şöhrəti Fətəli xan dövrünün axırlarından başlayaraq daha da artmaqda idi. O, ətrafa etdiyi basqınlardan başqa, dəfələrlə Gürcüstana gəlib Gümüşxanam talan və qarət edərək, Axısqaya getmiş və oradan Balakənə qayıtmış idi. O, Gəncənin ətrafını qarət edərək, öz damadı qarabağlı İbrahim xanın köməyilə Naxçıvanı ələ keçirmişdi. Lakin tez bir zamanda Naxçıvan xanı tərəfindən məğlub edilərək Qarabağa qayıtmışdı. Gürcüstan valisi İrakli xan öz mülkünün ətrafını qorumaq üçün hər il ona 5000 manat verərək, onunla müdəra edirdi. Keçən il Rusiya dövlətinin himayəsinə girdikdən sonra da, onun aldığı bu pul maaş şəklində yenə ona verilirdi. Heç bir vərəsəsi yox idi. Ögey qardaşı Gebek əmirlik arzusu ilə onun arvadı və Novsal xanın qızı olan Gehlini almaq istədi. Lakin Gehli gizlicə Əmmə xanın bacısı oğlu Sultan Əhməd bəy Əli Sultan bəy oğlu Canqutayi ilə əlbir olub, bir gecə Gebeki aldadaraq öldürdü. Sultan Əhməd, Əmmə xanın bacısı oğlu olub, onun başqa arvaddan olan qızı - Paxubikəni almışdı. Sonra Gehli avar xanı Sultan Əhmədi ərliyə qəbul etdi. Sultan Əhmədin kiçik qardaşı Həsən xan öz ata-baba mülki olan Mehdili əmirliyində qaldı.

Sonrakı il, Gürcüstanın ən böyük düşmənlərindən olan Cavad xan ibn-Şahverdi xan Ziyad oğlu, əvvəlcə Rusiyaya və daha sonra İrana zahiri itaət göstərməklə Tiflis tacirlərini qarət edirdi. Knyaz Sisianov

Gəncəni almaq məqsədilə hərəkət etdi. Yuxarıda adı çəkilən Əli Sultanın qardaşı oğlu şəmsəddinli Nəsib sultan onunla birləşdi. Cavad xan şəhərin xaricində müharibə edərək məğlub olub qalaya çəkildi.

Hicri 1218 (1804)-ci ildə kanuni-sani (fevral) ayının 3-də Ramazan bayramı günü sübh çağı qala hücum ilə alındı. Cavad xan bir neçə övladı və əhalidən bir çoxu ilə bərabər öldürüldü. Gəncə Yelizavetpol adı ilə adlandırıldı. Rus sərdarı, general-mayor Qulyakovu buradan Car nahiyəsinə göndərdi. O, çətin keçilən yerlərdə düşmənə hücum edib, məğlub edildi və özü də öldürüldü. Lakin Car ləzgilərinin gözü elə qorxmuşdu ki, bu hadisədən bir az sonra Tiflisə vəkillər göndərib üzr istədilər və səmimiyyət göstərdilər. Minqreliya Abxaziya əmirləri və Başaçıq (İmeretiya) valisi Süleyman xan da sədaqətlə tabe oldular. İran dövləti bu cür fütuhatdan qorxuya düşüb, Gürcüstanı geri qaytarmaq ümidilə İran dövlətinə sığınan İrakli xanın oğlu Aleksandr mirzəni, əmirləri və əhalini üsyana qaldırmaq üçün Gürcüstana göndərdi. Onun işini qüvvətləndirməyi, İrəvan və Qarabağı mühafizə etməyi isə Abbas Mirzəyə tapşırdı.

İrəvan hakimi Məhəmməd xan Qacar batində İran hökumətindən narazı idi. İrəvan elatının çoxunu Rum ölkəsinə göndərdi, özü də qalaya çəkilib Rusiyadan kömək istədi. Knyaz Sisianov İrəvanı almaq qəsdilə yola düşdü. Üçkəlisa (Eçmiadzin) yaxınlığında, Qırxbulaq adlı yerdə ruslardan dörd dəfə artıq qoşunu olan Abbas mirzəni məğlub etdi. Bu zaman sədri-əzəm Mirzə Şəfi İrəvan qalasına gedib Məhəmməd xanı cürbəcür nəsihətlərlə İran dövlətinə tərəfdar etdi. Rus sərdarı qalanı mühasirəyə aldı. Müharibəyə gəlmiş olan şah özü də məqsədə nail olmadan geri qayıtdı. Lakin bir tərəfdən mühasirə müddətinin uzanması və yürüş ilə bir iş götürülməməsi, digər tərəfdən də azuqə azlığı və cürbəcür qorxulu xəstəliklərin törənməsi rus sərdarını hicri 1219 (1805)-cu ildə eylül (sentyabr) ayının 3-də Gürcüstana qayıtmağa məcbur etdi. Bu hadisədən sonra ləzgilər, osetinlər və qabardinlər Aleksandr mirzənin təhrikilə üsyan edib Gürcüstana hücum etdilər. Beləliklə, Rusiyanın yolu bağlandı. Knyaz Sisianov mərdanə fütuhatla hamısını sakit etdi və Rusiyanın yolunu açdı. Həmin il rus qoşunu dənizdən Rəşt üzərinə gəldi. Lakin müharibədən sonra məqsədə çatmadan Bakı bəndərinə qayıtdı. Hər iki tərəfdən top atışması başlandı. Nəhayət, ruslar sahilə çıxıb şəhəri mühasirəyə aldılar.

Qubalı Şeyx Əli xan və qazıqumuqlu II Surxay xanın oğlu Nuh bəy bir dəstə İran qoşunu ilə Hüseynqulu xanın köməyinə gəldilər. Rus qoşunları gəmilərə oturub Talışın Sarı cəzirəsinə getdilər.

Bu zaman Rüstəm xan Üsmi vəfat etdi. Onun yerində Ustar xan oğlu Əli xan üsmi oldu. Araya ədavət düşdü. Mustafa xan Səlim xanı Qarabağdan gətirdib, Şəkinin üzərinə getdi. Məhəmmədhəsən xan qarşıya çıxaraq, vəziyyəti istədiyi kimi görməyib qoşunu azad etdi. Özü də Mustafa xanın yanına gəldi. Mustafa xan hər iki qardaşını Şirvana gətirib, əmisi oğlu Şeyx Əli bəyi Şəkidən naib təyin etdi. Lakin Şəki əhalisi üsyan qaldırdı. Onun qardaşı Məhəmmədhəsən xan tərəfindən kor edilən Fətəli ağanı xanlığa qəbul etdilər. Üç aydan sonra Mustafa xan çarəsiz qalıb Səlim xanı Şəkiyə hakim göndərdi və onun qızını özü üçün aldı. Məhəmmədhəsən xan Qubaya, Dərbəndə və buradan da Cara, axırda rusların yanına gedib, Hacı Tərxana göndərildi. O, cəsarətli, rəiyyətpərvər bir əmir olmaqla bərabər, mütəəssib və qantökən bir adam idi.

Hicri 1220 (1805)-ci ildə şahın vəliəhdi Abbas mirzə, naibüssəltənə ləqəbi ilə Azərbaycan hökmranlığına təyin edildi. O, qoşun və topxananı yenidən təşkil edərək, Firəng (Avropa) üsulunda qalalar tikdirdi. Rus sərdarı Kürək çayı kənarında qarabağlı İbrahimxəlil xan ilə görüşdü. İbrahimxəlil xan bağlanan əhdnamə mucibincə rus dövlətinin himayəsinə daxil oldu və xərac olaraq hər il 10000 əşrəfi verməyi öhdəsinə aldı. Özünü qorumaq üçün 50 soldat götürüb Şuşa qalasında yerləşdi. İmperator tərəfindən onun özünə general-leytenant rütbəsi, oğlanları Məhəmmədhəsən ağa və Mehdiqulu ağaya general-mayorluq və Xanlar ağaya da polkovniklik rütbəsi verildi.

Digər tərəfdən, naibüssəltənə (Abbas Mirzə) Qarabağı almaq qəsdilə damğanlı İsmayıl bəyi və Şahsevən Əliqulu xanı 10000 nəfər qoşunla Xudafərin körpüsündən göndərdi. Məhəmmədhəsən ağa rus qoşunu ilə onların qarşısına çıxdı. Cəbrayıllı bağlarında döyüşə başladı və Şuşaya qayıtdı.

Şah özü Qarabağın Təxti-Tavus adlı yerinə və naibüssəltənə də Ağoğlan və Çanaxçı yolunda Əsgəranın aşağısına gəldi. Naibüssəltənə Gəncədən bir dəstə soldatla Şuşaya gedən polkovnik Karyagin ilə döyüşə başladı. Polkovnik qayıdıb Şahbulaq yanında olan Tərnəgüt qalasına gəldi. Buradan da gedib, Tərtər çayı kənarında yerləşmiş və 2000 soldatla şahın müharibəsinə gedən knyaz Sisianov ilə birləşdi.

Şahın oradan qayıtması xəbərilə əlaqədar rus sərdarı Şuşa qalasına gəldi. Naibüssəltənə də Gəncəyə getdi. Orada olan ruslar ermənilərin bir hissəsilə qalaya çəkildilər. Naibüssəltənə Gəncə əhalisini öz xahişlərinə görə köçürüb Qazaxın Həsənsuyu yolu ilə Təbriz tərəfinə göndərdi. Özü də bir neçə gün Ağstafada qaldı. O, beləliklə, Qazax, Borçalı mahallarını və Gürcüstanı öz tərəfinə çəkmək istəyirdi. Lakin məqsədinə çatmadan İrəvan tərəfinə qayıtdı. Qazaq əhalisi Dilican dərəsində onun qoşununun qabağını kəsib, qətl və qarətə başladılar. Rnyaz Sisianov Şirvana gəlib zahirdə itaət göstərən Mustafa xan ilə görüşdükdən sonra Bakıya getdi. Sarıda olan ruslar da dəniz yolu ilə gəlib onunla birləşdilər.

Bəzi xidmətlər göstərmiş olan II Mirzə Məhəmməd xanın qardaşı Əbdürrəhim ağa Qubadan Şirvana, sərdarın hüzuruna gəldi. O, hərçənd Hüseynqulu xanın İran tərəfdarı olduğunu söyləyirdi, lakin sərdar onun sozünü qərəzsiz sanmayıb qəbul etmirdi.

Sərdar hicri 1220 (1806)-ci ildə şubatın (fevralın) 2-də qalanın yanında Hüseynqulu xan ilə təslim olmaq haqqında danışıq aparırdı. Bu zaman sülh və müsalimət qanunu xilafinə olaraq iranlıların təhriki və ya Hüseynqulu xanın tapşırığı ilə onun bibisi oğlu İbrahim bəy ibn-Məhəmmədhüseyn xan ibn-İmamqulu xan Dərbəndinin əlində öldürüldü. Başı qatilin atası ilə şahın hüzuruna göndərildi. Ruslar gəmilərə minib Sarı tərəfə getdilər.

Sərdar öldürüləndən sonra Tarxu şamxalından başqa, bütün xanlar üsyan qaldırdılar. Həmişə İran dövlətindən qorxuda olan və Rusiyanın himayəsini istəyən Talış Mir Mustafa xan, Mirzə Büzürg Qaimmə-qam ilə görüşdükdən sonra xatircəm olub ruslarla ziddiyyətə başladı. Şirvanlı Mustafa xan ruslara tərəfdar olan Səlim xan ilə ədavət binası qoydu. O, Gəncədən Şəkiyə, Səlim xana köməyə gedən bir dəstə rus qoşununa mane olmaq istədi, lakin məğlub olub geri qayıtdı.

Başaçıq (İmeretiya) valisi Rusiyanın düşmənlərilə dostluq etməyə başladı. İranlılar yenə Arazdan keçdilər. Osmanlılar da öz dövlətlərilə sülhün pozulduğunu görüb, Gürcüstana soxulmağa hazır oldular. General-anşef qraf Qudoviç sərdarlığa (baş komandanlığa) təyin edildi.

Qarabağlı İbrahim xan bir çox ərizə göndərməklə İran dövlətinə ixlas göstərirdi. Onun xahişinə görə oğlu Əbülfət xan bir dəstə qoşunla Qapan yolunda Şuşa qalasının yanına gəldi. Naibüssəltənə

özü də Xudafərin körpüsündən keçdi. Şuşada sakin olan rus qoşununun komandiri mayor Lisaneviç hicri 1221 (1806)-ci ildə həziran (iyun) ayının 2-də gecəyarısı qalanın xaricində köç və külfətilə yerləşən İbrahim xanın üzərinə basqın edib onu, arvadı, oğlu, qızı və bir çox əyan və xadimlərilə bir yerdə öldürdü. İbrahim xan hünərli, ədalətli, bərk və sadə rəftarlı bir əmir idi.

Həmin gün Əbülfət xan geri qayıtdı. İbrahim xan nəvəsi Cəfərqulu ağa, oğlu Məhəmmədhəsən ağa Ordubadın yaxınlığına qədər onu təqib edərək, çoxlu qətl və qarət etdi. Mehdiqulu ağa atasının yerinə Qarabağ hökumətinə təyin edildi. Neçə vaxtdan sonra Əbülfət xan Şahsevən Ətaulla xanın köməyilə cəbrayıllı tayfasını və Qarabağın sair elatını köçürüb Qafan ətrafına getdi. Bu zaman ruslar və Cəfərqulu ağa cəbrayıllı elinin üsyan qaldırmasından istifadə edərək, iranlıları çətin keçilən və meşəlik yerlərdə məğlub etdilər. İranlılardan bir çoxu qarət edildi, elat da öz məskəninə qayıtdı.

Bu zaman naibüssəltənə Aslandüz və Qarabağ yolu ilə Şirvana hərəkət etdi. İran qoşununun keçməsinə mane olmaq üçün Mustafa xanın Kür çayı kənarında yerləşdirdiyi cəmiyyəti dağıtdı. 6000 ailəyə yaxın olan Şəryan, Muradxanlı və sair elatı Muğana köçürdü. Özü isə Ağsu şəhərinin qırağına düşdü. Mustafa xan şəhəri köçürüb, çətinliklə gedilən Fit dağına çəkildi. Şeyx Əli xan şahzadəni xas atlılarından bir dəstəni Pirqulu xan Qacarın komandası altında Qubaya apardı. Özü bakıh Hüseynqulu xanla naibüssəltənənin hüzuruna gəldi və sonra geri qayıtdı. Naibüssəltənə Şirvanda məqsədinə nail olmayacağını görərək Qaimməqamın oğlu Mirzə Əbdülqasımı iranlılardan qorxan Şəki hakimi Səlim xanın yanına göndərdi. Onu öz tərəfinə çəkmək istədi. Sonra Pirqulu xanı Qubadan gətirib, Muğanda qalmağa məmur etdi, özü də Azərbaycana qayıtdı.

Qraf Qudoviç Qafqazın hər iki tərəfindən dəfələrlə səfər edərək ləzgi, os (osetin) və mıçıqıçları (çeçenləri) sakit etdi. General Qlazenapi Qızlar tərəfindən Dərbənd, Quba və Bakım almağa göndərdi. O özünə tabe olan şamxal Mehdi xanla bərabər Buynaqa gəldikdən sonra dərbəndlilər Mirzə bəy nəvəsi Əlipənah bəy Əhməd bəy oğlu Bayatın başına toplaşıb, rəftar və hərəkətlərindən narazı olduqları Şeyx Əli xanı şəhərdən qovdular. Generalın istiqbalına adamlar göndərib, tabe olduqlarını bildirdilər. Hicri 1221 (1806)-ci ildə həziran (iyun) ayının 21-də Dərbənd rus dövlətinin ixtiyarına keçdi. Ulus

mahalı, səmimi xidmətlərinə görə Dərbənd xanı ləqəbı alan general-leytenant Mehdi xan Şamxala, şəhərin naibliyi isə mayorluq rütbəsi alan Əlipənah bəyə verildi.

Bir ay keçəndən sonra general-anşef Bulqakov qoşun sərdarı təyin edilib Qubaya gəldi, buradan da o zaman Hüseynqulu xanla birləşməsinə görə qubalı Şeyx Əli xandan incik olan II Mirzə Məhəmməd xanla Bakıya yola düşdü. Bakı şəhərinin altı ağaclığına çatanda cəsarətli, lakin təbiətən iradəsiz və ürəyisaf bir əmir olan Hüseynqulu xan öz təbəəsilə İrana qaçdı. Bakı əhalisi səmimiyyətlə tabe oldu. Bulqakov Bakını Rusiya dövlətinin ixtiyarına keçirdi. Qubaya qayıtdığı zaman, uzaqdan zahiri itaət göstərən Şeyx Əli xandan girov aldı. Surxay xan tərəfindən elçi gəlib, ixlas və səmi-miyyət izhar etdi. Təbərsəranlı Qırxlarqulu məsum, Məhəmməd qadi və Qaytaq üsmisi Əli xan da itaətdə idilər. Bundan sonra Gəncədə olan ruslardan bir dəstə Şirvana gəldi. Mustafa xan çarəsiz onları qəbul etdi. İstədi ki, onların qüvvəsilə öz elini Muğandan geri qaytarsın. O gedib elatı Talışa aparan Pirqulu xan Qacar ilə müharibəyə girişdi və məğlub olaraq geri qayıtdı. Buradan öz camaatını ruslarla Salyana göndərdi. Mir Mustafa xan Talışın qardaşı Mir Bağır bəy 300 nəfərlə orada idi. Salyanlılardan bir hissəsi öz hakimləri Əli xandan narazı olduqları üçün şirvanlı Mir Mustafa xanla gizli əlaqə saxlayırdılar. Mir Bağır bəy bundan xəbərsiz müharibəyə başladı. Salyanlılar müharibədən üz çevirdilər. Əli xan da qaçdı. Mir Bağır bəy talışlarla bərabər əsir düşdü.

Bu zaman Şəki hakimi Səlim xan, İbrahim xanın arvadı olan öz bacısını öldürməsi ədavətilə rus dövlətilə çəkişməyə başladı. Bir müddət bundan əvvəl, Gəncədən özünə kömək gətirdiyi ruslardan bir neçə nəfərini öldürdü, qalanları Gəncəyə qayıtdılar. Bu hadisədən general Nebolsin, sərdar Qudoviçin əmrilə Gəncədən Şəkiyə hərəkət etdi. Səlim xan qabaqcadan naibüssəltənədən çoxlu pul almışdı, Car və avar ləzgilərini gətirib, mükəmməl qüvvə ilə yerin çətinliyinə və lazımi hazırlığa arxalanaraq, müqavimətə girişdi. Müharibə zamanı ləzgilər qaçdı, o da naçar qalıb, ailə və əqrəbası ilə vətənini buraxıb İrana getdi. Səlim xan xoşrəftar, kefcil və rəhimsiz bir əmir idi.

Hicri 1221 (1806)-ci ildə Şəki ölkəsi Rusiyanın ixtiyarına keçdi. Keçən il Koroğluya nisbət verilən Çənlibel adlı yerdən rus dövlətinə pənah aparmış olan general-leytenant Cəfərqulu xan Dünbüli, Şəki hakimliyinə təyin edildi.

Qraf Qudoviç həziranın (iyunun) 18-də sərəskər Yusif paşanı Arpa çayın kənarında məğlub etdi. Sonra hicri 1223-cü (1808) ildə İrəvanı almağa getdi. Ayrı bir dəstəni də Qarabağ yolu ilə Naxçıvan üzərinə göndərdi. Naibüssəltənə də gəldi. Bu ətrafda arasıkəsilməyən müharibələr oldu. Axırda qış zamam, soyuğun şiddətindən Rusiya qoşunu məqsədə çatmadan geri qayıtdı. Həmin il cəsarətli və zabitəli bir əmir olan Üsmi Əli xan vəfat etdi, qardaşı Adil xan onun yerinə keçdi.

Keçən il şirvanlılar gəlib Bərmək mahalının qoyunlarını qarət etmişdilər. Şeyx Əli xan bunun əvəzini almaq üçün Şirvan üzərinə gedib müharibə etdi və cüzi bir qarətdən sonra geri qayıtdı. Buna görə qədimdən bəri Fətəli xan sülaləsinə ədavət bəsləyən Mustafa xan, Şirvanda sakin olan rus sərkərdəsi podpolkovnik Tixanovski ilə Quba üzərinə hərəkət etdi. Bir neçə döyüşdən sonra buduqlu Məlik Adi nəslindən olan Məlik bəy Hacı bəy oğlu, bəylər və əhalinin çoxu Şeyx Əli xandan üz çevirib rus dövlətinin itaətinə keçdilər. Şeyx Əli xan eyş və işrətpərəst olub, ölkənin vəziyyətindən xəbərsiz idi. Lakin çox şücaətli, səxavətli və yüksək hümmətə malik bir zat idi. O, bir çox bəy və sair tərəfdarları ilə bərabər Təbərsəran nahiyəsinə, öz damadı Abdulla bəy Rüstəm oğlıı qadinin evinə, buradan da onunla birgə Aqquşaya getdi. Bura əhalisinin çoxu onun ehsan və iltifatına borclu və sülaləsinin tərəfdan idilər.

Qırx gün keçdikdən sonra Şeyx Əli xan 5000 nəfər qoşunla yenə Qubaya gəldi. Qaladan başqa bütün ölkəni ələ keçirdi. Şabran qalası yanında kömək üçün Bakıdan Qubaya gələn bir dəstə rusla müharibə edib, bir iş görə bilmədi. General-mayor Qurnev öz qoşunu ilə Bakıdan gəlib çatdı. Çərxi kəndində onu məğlub etdi. Şeyx Əli xan yenə Təbərsərana getdi. Quba ölkəsi daimi olaraq Rusiya dövlətinin ixtiyarına keçdi. Buranın ixtiyan Bakı və Qubanın alınmasında bir çox xidmətlər göstərmiş olan bakılı II Mirzə Məhəmməd xana verildi.

Şeyx Əli xan Təbərsərana qayıdandan sonra Ersi kəndində sakit oldu. Rüstəm qadinin oğlu Abdulla bəy, qardaşları və əmisi Mirzə qadi ilə bərabər onunla müttəfiq idilər. Dərbənd və Quba ətrafında çapqınçılıq və müharibə edirdilər. Rus qoşunu da Təbərsəranın bəzi əmirləri və Dərbənd qoşumı ilə Mehraqa kəndi üzərinə yürüdülər. Şeyx Əli xan və Rüstəm qadinin oğlanları Mirzə qadinin köməyinə gəldilər, lakin məğlub olub geri döndülər...

Hicri 1224 (1809)-cü ildə general-anşef Tormasov qraf Qudoviçin yerinə sərdarlığa keçdi. O da Başaçıq (İmeretiya) və Abxazi-yada asayiş yaratmaqda idi. Bu zaman İran şahının oğlu və Kirman-şahan fərmanfərması olan Məhəmmədəli Mirzə Gürcüstan səfərinə göndərildi. Ona kömək olaraq naibüssəltənə İrəvanın Göycə yaylağına və Fərəculla xan Nəsəqçibaşı Muğan hüdudunun mühafizəsinə təyin edildi. Məhəmmədəli Mirzə damqanlı İsmayıl bəyi bir dəstə ilə Boy kəndi və Hamamlı kəndlərindəki rusların üzərinə göndərdi. Bir neçə dəfə müharibə oldu. İrəvanın Pənbək və Suvagil sakini olan keçmiş elatı və xüsusən Nağı bəy İran dövlətinə bir çox yararlı xidmətlər göstərdilər. Bunun ardınca Məhəmmədəli Mirzə ğəlib Bozçalı (Borçalı) mahalını çalıb-çapdı. Sonra Abbas Mirzə gizli olaraq onun işlərinə qarışdığı üçün Qars hüdudundan İrəvana və buradan da Kirmanşaha getdi. Fərəculla xan Nəsəqçibaşı Ərdəbilə gəldikdən sonra Şahsevən Nəzərli xandan (talışlara qarşı) qoşun toplamağı tələb etdi. Lakin o, Mir Mustafa xan Talışla qohum olduğundan işi ləngidirdi. Mir Mustafa xan məşhur adamlardan bir hissəsini və Talış qoşununu köçürüb Gamışvanda yerləşdirdi. Bura hər tərəfdən dəniz və mürdab ilə əhatə olunmuşdu, yalnız bir tərəfdən - qurudan Ləngərkünan (Lənkəran) ilə bitişirdi. O, kömək olaraq ruslardan da bir dəstə gətirdi. Bundan bir az əvvəl, Şirvanın möhtərəm adamlarından biri sayılan Ömər sultan Sədari, hər iki Mustafa xanı barışdırmaq və Şirvan elini geri köçürmək üçün Talışa gəlmişdi. Mir Mustafa xan Talışın oğlu Mir Həsən bəyin davasında qəflətən öldürülmüşdü. Buna baxmayaraq, Mir Mustafa xan yenə öz oğlu Mir Hidayət bəyi kömək istəmək üçün şirvanlı Mustafanın yanına göndərdi. Mustafa xan Şirvandan Gamışvana bir dəstə piyada qoşun yola saldı.

Mir Həsən bəy bir dəstə ilə Ucarud hüdudunda olan bakılı Hüseynqulu xanın, şirvanlı Mustafa xanın qaçqın qardaşı Haşım xanın, rudbarlı Əli xanın, Bekdili Məhəmməd xanın üzərinə qəflətən hücum etdi. Əli xan və Məhəmməd xan əsir düşdülər, o birilər isə qaçıb qurtardılar. Nəsəqçibaşı vaxtın tələbinə görə əlində olan ixtiyara əsasən şahsevən Nəzərli xanı və Fərəculla xanı həbsə aldı, Ləngərkünan (Lənkəran) şəhərini yandırdı, Gamışvanı mühasirə etməyə başladı, lakin bir iş görə bilmədi. Axırda barışıq sözü araya düşdü, Mirzə Büzürg Qaimməqam şah tərəfindən gəlib Mir Mustafa xanla görüşdü, əhdnamə və dostluğu möhkəmləndirdi.

Hicri 1225 (1810)-ci ildə ilyarımdan artıq Təbərsəranda qalmış Şeyx Əli xan əcdadı Səfəvilər dövründən Şeyx Cüneyd türbəsinin mütəvillisi olan həzrəli Xan Butay bəy Hacı Şərif bəy oğlunun təhrikilə gəlib Quba əhalisinin çoxunu özünə müttəfiq etdi. Ölkəni almaq və qalanı mühasirə etməklə dörd ay məşğul oldu. O, əhalinin bir hissəsini Qrız kəndinə köçürüb, yeni bir şəhər salmışdı. Bu zaman polkovnik Lisaneviç rus qoşunu, Şəki və Şirvan atlılan ilə gəlib Şeyx Əli xanı Çiçi kəndi yaxınlığında məğlub edərək ölkədən çıxardı. Şeyx Əli xan yenə Aqquşaya gedib orada sakin oldu. Damadı Abdulla bəy də, Təbərsəranda qala bilməyib onunla birləşdi.

Bir zaman keçəndən sonra Şeyx Əli xan Aqquşa əhalisindən və öz təbəələrindən üç minə yaxın bir cəmiyyətlə maneəsiz Üsmi mülkündən keçib Təbərsərana gəldi. Rüstəm qadidən sonra qardaşı polkovnik Məhəmməd qadi hökumət başına keçmişdi. O, yalnız bir keçidi olan Xoçni kəndinin yarımağaclığında bir yerdə səngər düzəldib müdafiəyə başladı. Ləzgilər yürüş etmədilər. Şeyx Əli xan öz nökərləri ilə hücum edib səngəri aldı. Məhəmməd qadi qaçdı, Abdulla bəy isə Xoçnidə onun yerinə keçdi.

Şeyx Əli xanın qayıtmasından iki ay sonra Məhəmməd qadi yenə gəlib Abdulla bəyi çıxartdı və öz yerində əyləşdi. Xülasə, bir müddət Rusiya, Rum (Türkiyə) və İran hüdudları döyüş meydanı və xüsusən Qarabağ ölkəsi qoşunkeşlik və elat gediş-gəlişinə məxsus bir sahə olmuşdu.

Hicri 1226 (181 l)-cı ildə general Tormasov Fransa ilə müharibə etmək üçün Rusiyaya çağrıldı. General-leytenant markiz Pauliççi onun yerinə keçdi.

Şeyx Əli xan Aqquşa qazisi Əbubəkirin köməyi və İran dövlətindən onun adına göndərilən vəsaitlə Aqquşa əhalisini təkrar müharibəyə təhrik etdi. Aqquşa, Mehdili, Təbərsəran və Qaziqumuqdan topladığı səkkiz min nəfərə axın bir ordu və II Surxay xanın oğlu Nuh bəylə birlikdə Qubanın üstünə gəldi. Ləzgilər öz atlarını Kürə nahiyəsinin Samur çayı kənarındakı Məhərrəm kəndindən Təbərsərana qaytardılar. Özləri piyada olaraq Cibir kəndinə gəldilər. Ertəsi gün general-mayor Qurnevyev onların üzərinə hərəkət etdi, lakin Quba bəylərinin ona göstərdikləri əlverişli qərb yolunu qoyub şərq tərəfdəki yoldan hücuma keçdi. Yolun çətinliyi üzündən məğlub olub Zeyxur kəndinə qayıtdı.

Şeyx Əli xan Rustov kəndinə gedib, ölkəni yenə öz itaəti altına keçirdi. Yalnız Quba qalası və Zeyxur kəndi rusların əlində qaldı.

İki aydan artıq keçəndən sonra general-mayor Xatunsev yeni bir qüvvə ilə yetişdi. Şeyx Əli xanı Rustov kəndində məğlub edib, ölkədən çıxardı. Ləzgilər çox tələfat verdilər. Aqquşa qazisi Əbubəkir də bu döyüşdə öldürüldü. General Xatunsev Surxay xanı cəzalandırmaq üçün Kürə nahiyəsinə hərəkət etdi. Surxay xanın qardaşı oğlu Aslan ağa Şahmərdan oğlunu öz yanına çağırdı. O, keçmişdə öz əmisi Surxay xanın yanından Rum (Türkiyə) ölkəsinə qaçmış, keçən il Tiflisə və oradan da Qaytağa, üsminin yanına gəlib orada sakin olmuşdu. General Xatunsev Şeyxikənddə səngər atmış Surxay xanın üzərinə yürüşə başladı. Surxay xan məğlub olub Qaziqumuğa qaçdı. Kürə nahiyəsi rusların əlinə keçdi. Aslan ağa polkovniklik rütbəsi və xanlıq ləqəbilə buraya hakim təyin edildi. Onu qorumaq üçün də Qurahda bir batalyon soldat saxlanıldı. O, hünərli, zabitəli, bədməzac və içki sevən bir əmir idi.

Şeyx Əli xan Qubadan qaçdıqdan sonra bir zaman Sunbat kəndində, onun yaxın adamları isə Cümcüqat kəndində olurdular. O, Əbubəkir qazinin oğlu Bəhanın köməyi və sair vasitələrlə yenə Aqquşaya gedib məskən saldı.

Həmin ilin axırında, İrana tərəfdar olması qəti zənn edilən polkovnik Cəfərqulu ağa Məhəmmədhəsən ağa oğlu həbsə alınıb, ruslardan bir dəstə piyada və bir neçə nəfər kazakla Tiflisə göndərildi. Tərtər çayından keçərkən Cəfərqulu ağa atının cilovunu soldatın əlindən qapdı, özü ilə bərabər atın sağrısında oturan o biri soldatı suya salaraq, Cəbrayıllı elinin arasında qaçdı. Bu xəbər naibüssəl-tənəyə çatan kimi Qarabağa gəldi. Əmir xan Qacarı, Cəfərqulu ağa ilə Cəbrayıllı elini və Qarabağın sair elatını köçürməyə məmur etdi. Özü isə topxana və sərbazla Sultan Bud səngəri üzərinə gəldi. Burada qarabağlı Mehdiqulu xanla bir rus batalyonu var idi. Bunları məğlub edib bir çoxunu öldürdü və sağ qalanlarını əsir aldı. Mehdiqulu xan isə qaçıb qurtardı.

Əmir xan və Cəfərqulu ağa beş-altı min ailəni Arazdan keçirib naibüssəltənə ilə birləşdilər. Naibüssəltənə Qarabağ elatını yerbəyer edib, Qaradağ kəndlərinin hökumətini xanlıq ləqəbilə Cəfərqulu ağaya verdi. Özü də Təbrizə qayıtdı.

Bu zaman qazıqumuqlu Surxay xan Kürək üzərinə gəldi. Aslan xan rus batalyonu ilə gedərək Qurahdan üç ağac yuxarıda Kərxən kəndində onu məğlub etdi. Surxay xan da Aslan xanın anasından olan öz oğlu Mürtəzaəli ağanı Qaziqumuq hakimliyinə təyin edib, özü İrana getdi. Aslan xan öz ana qardaşının yanına gedib orada sakin oldu. Surxay xan bir il sonra İrandan qayıtdı.

Mürtəzaəli xan Aslan xanın qardaşı Fətəli ağanı götürüb, müharibə bəhanəsilə qarşıya çıxdı. Lakin o, yolda Fətəli ağanı öldürüb öz atası ilə birləşdi. Aslanxan Kürəkə qayıtdı. Surxay xan da yenə Qazıqumuğa sahib oldu. Surxay xan alim, rəiyyətpərvər və qantökən bir əmir idi.

Markiz Pauliçči naibüssəltənənin gəlmək xəbərini eşidincə, tam sürətlə Qubadan Qarabağa gəldi. O, general Kotlyarevskini Qubada qoydu, özü isə Tiflisə getdi. Buradan da qulluqdan çıxarılaraq Rusiyaya qayıtdı. General-anşef Rtişşev onun yerinə sərdar göndərildi.

Hicri 1227 (1812)-ci ilin baharında, naibüssəltənə şah tərəfindən göndərilmiş külli ləvazimat və qoşunla Mişkin qəsəbəsinə varid oldu. Əmir xan Qacar sərbaz və topxana ilə bu tərəfdən, sair əsgərlər də onun ixtiyarında olaraq Ərkəvan, Zuvand və Astara səmtində Talış Mir Mustafa xanı cəzalandırmaq üçün göndərildi. O yenə İran dövlətindən üz çevirib, rusları öz köməyinə çağırmışdı. Əmir xan aqustos (avqust) ayının 4-də,Ləngərkünana (Lənkərana) çatdı. Ruslar döyüşdən sonra Mir Mustafa xanla bərabər Gamışvana çəkildilər. İranlılar Gamışvanın qarşısında səngər və bürclər düzəltdilər. İki aya yaxın dənizdən və sahildən atışma davam etdi. Gamışvanı almaq mümkün olmadı. Naibüssəltənənin əmrilə Ləngərkünanda (Lənkəranda), Ərkəvanda və Astarada üç qala tikildi və bu qalalara mühafizlər, topxana və azuqə təyin olundu. Qalan qoşun isə geri qayıtdı.

Bu zaman ingilis elçisi ser Qrozli vasitəsilə barışıq söhbəti araya atıldı. Rus sərdarı naibüssəltənə ilə Arazın kənarında danışığa başladı. Lakin bu danışıq bir nəticə vermədi. Sərdar Rtişşev Kotlyarevskini 2000 soldat və altı topla Arazın kənarında qoyub özü Tiflisə qayıtdı. Naibüssəltənə Pirqulu xan və Mirzə Məhəmməd xan Qacarı və Əlimərdan xan Xəmsəni atlı dəstələrilə Sultanhasardan Şəki ölkəsinə göndərdi. Özü də sərbaz və topxana ilə Aslandüz adlı yerə gəldi. Sadıq xan Qacarı və Cəfərqulu ağanı, eli köçürtmək üçün Qarabağa göndərdi. Ağoğlanda dayanan general Kotlyarevski gecə

gizlıcə Arazdan keçıb, səhərçağı öz qoşunundan bır neçə qat artıq olan İran ordusu üzərinə hücum edib onları məğlub etdi. İranlıların bir hissəsi olduqca pərişan bir halda qaçdı. Naibüssəltənə isə qalan qoşunla müharibəni davam etdirdi. General ertəsi gecə təşrin-əvvəlin (oktyabrın) 20-də hücum edib onları tamamilə dağıtdı. Bir çoxlarını öldürüb, külli qənimətlə geri qayıtdı. Şəki və Qarabağa təyin edilən qoşunlar da bu xəbəri eşidincə, qayıdıb naibüssəltənə ilə Mişkində birləşdilər. Buradan da Təbrizə getdilər.

General Kotlyarevski Muğana gedib, burada olan Qarabağ elatını geri qaytardı və Ərkəvan qalasını yürüşlə aldı. Sonra Ləngərkünana (Lənkərana) gedərək, oranın qalasını mühasirə etdi. Hicri 1228 (1813)-ci ildə kanuni-saninin (yanvarm) birində, aşura axşamı yürüşə başladı. Hər iki tərəf şiddətli müqavimət göstərib mərdanəliklə vuruşdu. Axırda rus generalının qorxubilməz təbiətinin qüvvəti sayəsində qala alındı. Qala mühafizlərinin sərkərdələri olan sərhəng Sadıq bəy və Məhəmməd bəy Qacar rus və müsəlmanlardan bir çox adamla bərabər öldürüldü. Kotlyarevski özü də üç ağır yara aldı.

Həmin ilin baharında İran dövləti ruslar tərəfindən alınan ölkələri geri qaytarmaqda naümid oldu. Rum (Osmanlı) barışığı və Xorasanda baş verən iğtişaş nəticəsində şah barışığa meyil göstərdi. Mirzə Əbülhəsən xan Şirazi İran dövləti tərəfindən vəkil edildi. Sərdar Rtişşev də gəldi. Qarabağın Gülüstan adlı yerində hicri 1228 (1813)-ci ildə təşrin-əvvəl (okryabr) ayının 12-də Rusiya ilə İran dövlətləri arasında əhdnamə bağlandı. Bu əhdnaməyə görə İran dövləti Gəncə, Qarabağ, Talış, Şəki, Şirvan, Bakı, Quba, Dərbənd xanlıqları, bütün Dağıstanı, Gürcüstanı və ona həmhüdud olan ölkələri Rusiya dövlətinə tərk etdi. Onlar haqqında hər cür iddiadan əl çəkdi. Rusiya imperatoru da öhdəsinə aldı ki, şah hansı bir övladını vəliəhd təyin etsə, ona yardım göstərsin və hüququnu müdafiə etsin.

## SON SOZ

## QARABAĞ VƏ "QARABAĞNAMƏ"LƏR

Qarabağ xanlığının tarixindən bəhs edən "Qarabağnamə"Iərlə hələ əllinci illərdən tanış idim. Klassik ədəbiyyatımızı tədqiq edərkən tez-tez Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir Qarabaği, Rzaqulu bəy Mirzə Camal oğlu, Əhməd bəy Cavanşir, Mir Mehdi Xəzani, Həsənəli xan Qaradaği, Baharlı, Mirzə Yusif Qarabağinin adlarına rast gəlirdim. Bu müəlliflər öz dövrlərinin tanınmış şəxsiyyətləri olmuş, ədəbi həyatda da yaxından iştirak etmişlər.

Hələ XIX əsrdə həm mətbuatda, həm də "Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı sənədlər aktları"nda (AKAK) Qarabağ tarixinə dair saysız-hesabsız materiallar toplanmışdı. Lakin bu vaxta qədər tarixçilərimiz həmin problemi tam şəkildə işıqlandırmamışlar. Elə bu səbəbdən, Dağlıq Qarabağ Muxtar Vilayətində məlum hadisələr zamanı erməni müəlliflərinin nəşr etdirdikləri bir sıra kitab və məqalələr həm Azərbaycanda, həm də Ermənistanda sözün həqiqi mənasında çaşqınlıq yaratdı. Halbuki, Qarabağ tarixinə dair elmi əsərlər vaxtında yazılsaydı, indi bu torpağa göz dikənlərin yanlış yol tutduqları aşkar olardı. Nə Azərbaycan Sovet Sosialist Respublikası yaranarkən, nə də son minillik tarixi ərzində xalqımız heç kimin ərazisini zəbt etməmişdir. Əksinə, Rusiya ilə İran arasında bağlanan Gülüstan sülh müqaviləsi nəticəsində Azərbaycan ərazisi iki yerə parçalanmış, Cənubi və Şimali Azərbaycan məfhumları yaranmışdır. Şimali Azərbaycanın - Azərbaycan SSR-nin coğrafi və tarixi ərazisi də indiki kimi qolu-qanadı kəsilmiş vəziyyətdə deyildi. Azərbaycanın şimal hüdudları tarixən Dərbənd qalasını, şimal-qərbdə Tiflisi, qərbdə Göyçə gölünü, cənub-qərbdə Naxçıvan da daxil olmaqla Zəngəzur mahalını özündə birləşdirirdi...

Bir xalqın başqa xalqdan torpaq iddiasını heç bir təbliğat, hay-küy, qərarla həyata keçirmək olmaz. Tarixdən də məlumdurki, Fətəli xan Əfşar, Məhəmmədhəsən xan Qacar, Ağa Məhəmməd şah Qacar, Fətəli şah Qacar və onun oğlu Abbas Mirzə Qacar və başqaları Qarabağ torpağında on minlərlə insan cəsədi qoyaraq geri çəkilməyə məcbur olmuşlar. Görünür, tarixi həqiqətlər çoxlarına dərs olmamışdır...

Dağlıq Qarabağ hadisələri ərəfəsində və ondan sonra erməni tarixçiləri bir sıra kitablar nəşr etmişlər. O cümlədən, "История Агван", "Албания-Алуанк в греколатинских и древноармянских источниках", "Армянский геноцид", "Турки перед историей", "Нагорный Карабах" və s.

Bu əsərlərdə Alban dövləti qeyd-şərtsiz Ermənistanın tərkib hissəsi kimi alınır. Ermənistanın tarixi coğrafiyası Qara dəniz, Aralıq dənizi və Xəzərin

qərb tərəfini əhatə edən geniş ərazi kimi oxucuya təqdim olunur. Əlbəttə, hər iki mülahizə yanlışdır.

Bu yaxınlarda Yerevanda, rus dilində çap olunmuş " Армяния в первой половине XVIII века" xəritəsində qəribə bir mənzərə ilə qarşılaşdıq. Azərbaycanın təxminən bütün ərazisi, Kiçik Asiyanın üzdə bir hissəsi və cənubi Gürcüstan bu xəritəyə daxil edilmişdir. Xəzər sahili Azərbaycan şəhərlərinə qəribə adlar verilmişdir. Min ildən bəri elmi mənbələrdə Bakı (Badkubə) kimi xatırlanan, tanınan Bakı şəhəri Bakunakert adlandılmışdır. Rus alimlərinin XVIII əsrin sonu və XIX əsrin əvvəllərində topladıqları və çap etdirdikləri statistik materiallarda göstərilir ki, Dərbənd, Salyan, Kənkəran kimi şəhərlərdə o zamanlar erməni əhalisi yaşamamışdır.

Adi çəkilən xəritə "daşnaksutyun"un çoxdan bəri iflasa uğramış "dənizdən-dənizə böyük Ermənistan" "ideyasının" ifadəsindən başqa bir şey deyildir. Bu tarixi saxtakarlığın tarixşünaslıq elmi ilə heç bir əlaqəsi yoxdur. Əksinə, xalqlararası münasibətlərə ciddi zərbə vurur. Nədənsə, həmişə Ermənistanda qonşu xalqlara qarşı torpaq iddiası baş qaldıranda tarixi həqiqətlərə göz yumulur. Əlüstü qədim Albaniya problemi ortaya atılır. Halbuki, Alban dövlətinin süqutundan sonra da Zaqafqaziya xalqlarının gün kimi aydın tarixi, həmçinin xəritələri vardır.

Təxminən 75 il mövcud olmuş Qarabağ xanlığının tarixindən (1747-1822) söz düşəndə bu ərazini köçəri türk tayfalarının zəbt etməsi ideyası irəli sürülür. Bəs xanlıqdan əvvəl Səfəvilər dövründə təxminən iki əsr yarım mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyi?

Məgər iki yüz ildən artıq monqolların, teymurilərin işğalı altında olan Qarabağda ermənilər yaşayırdı? Kürəkçay (1805), Gülüstan (1813), Türkmənçay (1828) müqavilələrilə Rusiya tərkibinə daxil edilmiş Qarabağ, sonrakı dövrlərdə də Gəncə (Yelizavetpol) quberniyasının mühüm hissəsi idi. Azərbaycan Demokratik Cümhuriyyəti dövründə də mərkəzi Şuşa şəheri olan Qarabağ vilayəti hazırki Dağlıq Qarabağı, aran Qarabağını və 1920-ci ildən sonra ədalətsiz olaraq Ermənistana "töhfə" edilmiş Zəngəzur mahalını əhatə edirdi. Görünür, 1923-cü ildə Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsi Lenin milli siyasətinin ifadəsi kimi yox, bəziləri tərəfindən Ermənistana məxsusluğu kimi mənalandırılır...

Erməni tarixçilərinin son dövrdə çap etdirdikləri kitablarda, saysız-hesabsız məqalələrdə Türkiyə Cümhuriyyəti az qala erməni xalqının bütün faciələrinin əsas müqəssiri hesab edilir. Əsil həqiqət isə belədir: Eramızın IV əsrinin sonlarında Ermənistan dövləti ləğv olunub Qərbi və Şərqi Ermənistana böləndü. Bu aktı həyata keçirən Bizans və İran dövlətləri idi.

Türklərin Kiçik Asiyaya gəlişi isə erməni dövlətinin parçalanıb suverenliyini itirməsindən təxminən 7 əsr sonra, XI əsrdə başlamışdır...

# 1. "QARABAĞNAMƏ" MÜƏLLİFLƏRİ

XVIII əsrin ikinci yarısında Azərbaycanda 20-yə yaxın xırda feodal dövlətləri - xanlıqlar yaranması tariximizin maraqlı bir mərhələsi idi. Bu xanlıqlar arasında Qarabağ xanlığı heç bir digər dövlətə, xüsusilə İran və Türkiyəyə tabe deyildi, öz suverenliyi uğrunda xarici müdaxiləçilərə qarşı uğurla mübarizə aparırdı.

Elə bu səbəbdən XIX əsr Azərbaycan tarixşünaslığında Qarabağ xanlığının tarixini işıqlandırmağa meyil güclü idi. Müqayisə üçün deyək ki, Quba, Şəki, Gəncə xanlıqlarının hər birinin tarixindən cəmi bir əsər yazıldığı halda, Qarabağ xanlığından yeddi kitab yazılmış, saysız-hesabsız məqalələr, sənədlər çap edilmişdir. Rus jurnalisti və hərbi xadimi Platon Zubov "Qarabağ astroloqu və Şuşa qalasının 1752-ci ildə əsasının qoyulması" adlı kitabını 1843-cü ildə Moskvada çap etdirmişdir.

XIX əsrin 40-cı illərində Mirzə Adıgözəl bəyin Azərbaycan dilində "Qarabağnamə" (1845), Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi" (1847) əsərləri yazıldı. Həmin əsrin 60-70-ci illərində Mir Mehdi Xəzaninin "Qarabağ tarixi", Mirzə Yusif Qarabağinin "Tarixi-Safi", Rzaqulu bəy Mirzə Camal oğlunun "Qarabağnamə" əsərləri meydana çıxdı. 1884-cü ildə Əhməd bəy Cavanşirin "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair" əsəri "Kavkaz" qəzetində hissə-hissə çap olundu. Özü də bu əsərlərin bir neçəsinin variantları da mövcuddur. Bu variantlar: Məşhur Azərbaycan şairi və xəttatı Mirzə Şəfi Vazehin üzünü köçürdüyü Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sindən, şərqşünas Adolf Berjenin ruscaya tərcümə etdiyi Mirzə Camalın "Qarabağ tarixi"ndən, Həsənəli xan Qaradağinin Mir Mehdi Xəzaninin yazdığı "Qarabağ tarixi"nə əlavələrdən ibarətdir.

Qarabağ xanlığının tarixinə dair rus, İran, Türkiyə tarixçilərinin əsərlərində də çoxlu faktik materiallar, fikir və mülahizələr toplanmışdır.

"Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı sənədlər aktları"nda Qarabağ xanlığı tarixi ilə əlaqədar dəyərli sənədlər çap edilmişdir. XIX əsrin II yarısından rus dilində çap olunan "Qafqaz əyalətləri və tayfalarını təsvir etmək üçün materiallar məcmuəsi"ndə (SMOMPK) Qarabağla bağlı onlarca oçerk, bədii və etnoqrafik əsərlərlə qarşılaşdıq.

Mirzə Adıgözəl bəy (təxminən 1780-1848) "Qarabağnamə" əsərini 1845-ci ildə yazmışdır. O, varlı ailədən olub böyük mülk sahibi idi. Ailəvi məqbərələri hal-hazırda Qasım İsmayılov (indiki Goranboy) rayonunda vaxtilə sahibi olduğu Rəhimli kəndindədir.

Mirzə Adıgözəl bəy öz tərcümeyi-halı barədə "Qarabağnamə"də xüsusi bəhsdə söz açır.

Mirzə Adıgözəl bəy bu əsəri şifahi söyləmiş, qarabağlı şair Mirzə Hüseyn Salari onu qələmə almışdır.

Əsər yazıldıqdan bir neçə il sonra qədim erməni dilinə (qrabar) tərcümə edilmişdir.

Keçən əsrdə Tiflis şəhər ümumi kitabxanasında Mirzə Adıgözəl bəyin "Qarabağnamə"si saxlanılırdı. Bu, Adolf Berje tərəfindən həmin kitabxananın təsvir olunmuş kataloqunda da öz əksini tapmışdır.

Mirzə Adıgözəl bəyin yazdığı tərcümeyi-haldan aydın olur ki, o, məktəbdə oxuyarkən, 1795-ci ildə Ağa Məhəmməd xanın Şuşaya hücumunu görmüşdür. Beləliklə, Mirzə Adıgözəl bəy 1795-ci ildən sonra Qarabağda baş vermiş hadisələrin ya şahidi, ya da iştirakçısı idi. 12 fəsildən ibarət olan "Qarabağnamə" 1736-1828-ci illərin hadisələrini əks etdirir. Mirzə Adıgözəl bəy Tiflisdə nazir Kovalenskinin yanında qulluq etmişdir. Sonralar o, general-mayor Lisaneviçin yanında tərcüməçi işləmişdir. Bu zaman ona podporuçik rütbəsi verilmişdir. 1816-cı ildən Mirzə Adıgözəl bəy general Yermolovun icazəsi ilə Qarabağ hakimi Mehdiqulu xanın yanında işə başlayır. Mirzə Adıgözəl bəy birinci (1805-1813) və ikinci (1826-1827) Rusiya-İran müharibələrində iştirak etmişdir. Türkmənçay müqaviləsindən sonra (1828) o, kapitan rütbəsinə layiq görülmüşdür. Qarabağ xanlığının ləğvi ilə əlaqədar olaraq Mirzə Adıgözəl bəy əyalət məhkəməsində işləyir. O, məşhur şair Qasım bəy Zakirin uşaqlıq və gənclik dostu idi. Gəncədə bərbad vəziyyətdə olan Nizami Gəncəvi məqbərəsini öz hesabına bərpa edib abadlaşdırmışdı.

Mirzə Adıgözəl bəy 9 sentyabr 1848-ci ildə vəfat etmiş və Rəhimli kəndində dəfn olunmuşdur. Onun özünəməxsus mülkü əvvəllər Ağbulaq kəndi idi, sonralar Varvarah və Qaraoğlanlı kəndlərinə də sahib oldu. Bu kəndlərdən 59 ailə Mirzə Adıgözəl bəyə vergi verirdi. Həmin kəndlərdə 37 rəncbər ailəsi yaşayırdı[1].

İlk "Qarabağnamə"lər Zaqafqaziyanı idarə edən nüfuzlu şəxslərin sifarişi ilə yazılırdı. Mirzə Adıgözəl bəy "Qarabağnamə"ni kimin sifarişi ilə yazdığını belə izah edir:

"...Qarabağ mahalında Rusiya hakimiyyəti bərpa olandan bir qədər sonra buraya təyin olunan hakimlərdən biri də... general Kolyubakinin oğlu cənab podpolkovnik Mixail Petroviç idi. Onun keçmiş hadisələri bilməyə həmişə həvəsi vardı. Podpolkovnik xüsusilə Qarabağ xanlarının və (Şuşa) şəhərini bina edən şəxsin əhvalatını öyrənmək istəyirdi. Buna görə, məndən - kapitan Mirzə Adıgözəl bəydən xahiş etdi ki, bu əhvalatı qısa və müxtəsər bir surətdə bəyan edim. Çünki, mən bizdən əvvəl keçmiş Gürcüstan sərdar və əmirlərinin hüzurunda xidmət etmişdim, bir-birindən fərqli olan dilləri və müxtəlif ləhcələri bilirdim. Mən bu əhvalatın bir hissəsini erməni, bir qismini də gürcü və müsəlmanların yaşlı adamlarından soruşub öyrənmiş və çoxlu məlumat yığmışdım. Buna görə, o böyük cənabın əmrinə itaət edərək, işə başladım"[2].

1 Bax: Mogilevski və A.P.Yermolov. Qarabağ vilayətinin statistik təsviri, AKAK, VII cild, səh.152-153, 203.

2 Bax: Mirzə Adıgözəl bəy. Qarabağnamə, bu nəşrin I kitabı, səh.34

Mirzə Adıgözəl bəyin "Qarabağnamə"si 1848-ci ildə, Tiflisdə böyük Azərbaycan şairi Mirzə Şəfi Vazeh tərəfindən nəstəliq-şikəstə xətti ilə nəfis şəkildə köçürülmüşdür. Vaxtilə Mirzə Şəfinin həmin əlyazması Peterburqdakı məşhur "Asiya muzeyi"ndə olmuşdur. Əsər üzərində ştamp və inventar qeydi də bunu aydın şəkildə göstərir. Hazırda isə həmin əlyazma SSRİ Elmlər Akademiyasının Leninqrad şəhərindəki Şərqşünaslıq İnstitutunun kitabxanasında saxlanılır. Bu barədə Ə.Ə.Səidzadənin "Mirzə Şəfi və ya Bodenştedf?" (Bakı, 1940) və Mikayıl Rəfilinin "Mirzə Şəfi dünya ədəbiyyatında" (Bakı, 1958) əsərlərində də məlumat verilmişdir.

Mirzə Adıgözəl bəyin "Qarabağnamə" əsərinin Mirzə Şəfi Vazeh tərəfindən köçürülmüş əlyazma nüsxəsini biz yeni əlifbaya köçürmüş, onu tədqiq edib aşağıdakı nəticəyə gəlmişik:

1. Mirzə Şəfi Vazeh, Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sinin üzünü 1848-ci ildə "Asiya muzeyi"nin sifarişi üzrə köçürmüşdür.

2. Mirzə Adıgözəl bəy "Qarabağnamə" əsərini öz dəsti-xətti ilə deyil, nəql əsasında qarabağlı şair Salari tərəfindən qələmə aldırmışdı. Bu səbəbdən, əsərdə səcli cümlələr, yersiz təşbeh və mübaliğələr çoxdur. Mirzə Şəfi Vazeh əsərin üzünü köçürərkən orijinalın məzmununa xələl gətirmədən cümlələri adi qaydada elmi üsluba uyğunlaşdırmışdır.

3. Gələcəkdə Mirzə Adıgözəl bəyin "Qarabağnamə"si çap edilərkən Mirzə Şəfinin əlyazma variantı, onun düzəlişləri nəzərə alınmalıdır.

Mirzə Camal Cavanşir "Qarabağ tarixi" əsərini fars dilində, 1847-ci ildə bitirmişdir. Həmin əsərin dəyəri ilk növbədə müəllifin hadisələrin bir çoxunun iştirakçısı, canlı şahidi olmasındadırsa, digər tərəfdən bu hadisələri Qarabağda yaşayan hərbi və siyasi xadimlərdən eşidib qələmə almasıdır. Mirzə Camalın tərcümeyi-halı haqqında tarix elmləri namizədi Ə.Hüseynzadə yazırdı:

"Qarabağ xanlığının tarixinə dair" ikinci əsərin müəllifi Mirzə Camal Cavanşir (1773-1853) İbrahim xanın vəziri olmuş, xanlığın daxili və xarici işlərində yaxından iştirak etmişdir. Qarabağ xanlığı Rusiya himayəsinə keçdikdən sonra da Mirzə Camal Mehdiqulu xanın yanında həmin vəzifədə qalmışdır.

Qarabağ xanlığı ləğv edildikdən sonra o, məhkəməyə təyin edilmiş və burada 18 ilə yaxın çalışdıqdan sonra, 1840-cı ildə qocalığı ilə əlaqədar olaraq istefaya çıxmışdır[1].

1855-ci ildə "Kavkaz" qəzetində Mirzə Camalın "Qarabağ tarixi" əsərinin tərcüməsini çap edən Adolf Berje eyni zamanda Mirzə Camalın qısa tərcümeyi-halını (bu tərcümeyi-halındakı faktları ona Rzaqulu bəy Mirzə Camal oğlu vermişdir) əsərə əlavə etmişdir.

1 Bax: Ə.Hüseynzadə. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı, Bakı, 1967, səh.31.

Adolf Berje yazır: "Mirzə Camal fars, ərəb və osmanlı dillərindən başqa avar və ləzgi dillərini də bilirdi. Tarix, coğrafiya və astronomiya haqqında yaxşı məlumatı vardı, tibb elmini də öyrənmişdi, istefaya çıxdıqdan sonra ömrünün sonuna qədər xəstələri pulsuz müalicə edirdi. Onun üçün də xalq arasında hörməti vardı"[1].

Mirzə Camal 1853-cü ildə 80 yaşında ikən vəfat etmişdir.

Onun qələmə aldığı "Qarabağ tarixi" Pənahəli xan və İbrahimxəlil xanın xarici istilaya qarşı ədalətli müharibəsinin təsvirinə həsr olunub.

Mirzə Camal Məhəmmədxanbəy oğlu 1773-cü ildə Qarabağın Xocalı kəndində anadan olmuşdur. Onun atası Məhəmmədxan boy İbrahim xanın dərin hörmətini qazanmışdı. İbrahim xan onu Şuşa şəhər qalabəyisi təyin etmişdi. Mirzə Camal Şuşada ərəb, fars dillərində təhsil almışdır. Gəncədəki İbrahim xanın dəftərxanasında yazı işlərini aparırdı. Az sonra Mirzə Camal İbrahim xanın arvadı Car-Balakən hakimi Ümmə xanın bacısı Bikə xanımın yanında katib (mirzə) işləyir. İbrahim xan, Qacarın öldürülməsindən sonra Şuşaya qayıtmış, Mirzə Camalın və atasının xidmətini nəzərə alaraq onu M.P.Vaqifin yerinə vəzir təyin etmişdir. 1805-ci ilin mayında İbrahim xanla general Sisianov arasında Kürəkçay sazişi bağlanarkən Mirzə Camal da orada olmuşdur. "Kavkaz" qəzetinin Qarabağ tarixinə aid çap etdiyi çoxlu materiallar içərisində ən maraqlısı, şübhəsiz, Mirzə Camal Cavanşirin "Qarabağ tarixi" əsəridir[2]. Həmin əsər yuxarıda qeyd etdiyimiz kimi rus dilinə görkəmli şərqşünas, Qafqaz Arxeoqrafiya Komissiyasının sədri Adolf Berje tərəfindən tərcümə olunmuşdur. Əsər rəğbətlə qarşılanmış və heç bir tarixdə, o, cümlədən, erməni tarixçilərində də etiraz doğurmamışdır. Çünki Mirzə Camal Cavanşir tarixi həqiqəti qələmə alırdı. Müəllif bu əsəri Qafqaz canişini Voronsovun təklifi ilə yazdığını müqəddimədə də qeyd edir.

Keçən əsrin əllinci illərində Mirzə Camalın oğlu Rzaqulu bəy də "Qarabağnamə" yazıb atasının yolunu davam etdirir.

Əsərin adı əlyazmasında belədir: "Rzaqulu Mirzə Camal bəy oğlu. "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri".

Əhməd bəy Cavanşirin Qarabağ xanlığının tarixinə dair 1883-cü ildə yazdığı "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair" adlı məşhur əsəri də "Kavkaz" qəzetində çap olunub[3].

Əhməd bəy Cavanşir özü də Qarabağ xanları nəslinə mənsub idi.

1843-cü ildə sabiq Qarabağ xanı Mehdiqulu xanın təklifi ilə çar I Nikolay Əhməd bəyi Peterburqa dəvət edir və o, dövlət hesabına, dvoryanlara məxsus Pavlov kadet korpusuna qəbul edilir. 1848-ci ildən 1854-cü ilə qədər Əhməd bəy hərbi xidmətdə çalışır.

1 Bax: "Kavkaz" qəzeti, 1855, №61.

2 Yenə orada, № 61-69.

3 Ахмед бек Джаваншир. О политическом существовании Карабахскоства в 1747-1805 гг.; "Кавказ" яегей, 1884, №139, 150, 154, 161, 167.

1853-cü ildə Krım müharibəsi başlananda Əhməd bəy döyüşən ordu sıralarına göndərilir. Onun mənsub olduğu Qusar polku Sevastopol uğrunda vuruşurdu. Yeri gəlmişkən xatırladaq ki, Krım müharibəsində, xüsusilə, Qafqaz cəbhəsində iki mindən artıq azərbaycanlı döyüşlərdə iştirak etmişdir. O cümlədən Qasım bəy Zakirin oğlu Nəcəfqulu bəy, qardaşı oğlu İskəndər bəy bu döyüşlərdə şücaət göstərmişlər.

Əhməd bəy 1854-cü ildə istefaya çıxıb, doğma kəndi Kəhrizliyə qayıdır. Keçən əsrin 60-cı illərində o, susuz Mil səhrasında kənd təsərrüfatını canlandırmaq məqsədilə Arazdan su arxı çəkdirməyə səy göstərir. Arazdan alınan su qədim Gavur arxı ilə birləşdirilir.

70-ci illərdə o, Şuşa bəy komissiyasının tərkibinə daxil edilmişdi. Saxta yollarla bəylik adı alanları ifşa etdiyinə görə, düşmənləri ona şər atıb bir müddət həbsxanada saxlatmışdılar.

Əhməd bəyin əsərləri və tərcümələri qızı Həmidə xanımın təşəbbüsü ilə 1906-cı ildə Tiflisdə, C.Məmmədquluzadənin təşkil etdiyi "Qeyrət" mətbəəsində "Asari-Əhməd bəy Cavanşir" adı ilə çap olunmuşdur.

Əhməd bəy Cavan[1]şirin "Qarabağnamə"si 1961-ci ildə Azərbaycan SSR EA terəfindən ras və Azərbaycan dillərində də çap edilmişdir. Əsəri tarixçi Ə.Şükürzadə Azərbaycan dilinə tərcümə etmiş, kitaba şərhlər yazmış və müəllifin ömür yolu barədə yığcam məlumat vermişdir.

Mirzə Yusif Nersesov Qarabağinin "Tarixi-Safi" əsəri də "Qarabağnamə"lər silsiləsində mühüm yer tutur. Həmin əsər haqqında ilk məlumatı Ə.Ə.Səidzadə vermişdir. Son illərə qədər həmin əsəri itmiş hesab edirdilər. Lakin axtarış nəticəsində məlum oldu ki, əsərin yeganə nüsxəsi Gürcüstan SSR EA yanında S.N.Canaşia adına Dövlət muzeyinin əlyazmaları fondunda (inventar 195) saxlanılırdı. Fars dilində olan bu əsər Qarabağın əsasən 1745-1828-ci illər arasındakı tarixindən söz açır.

Müəllifin ziddiyyətli və yanlış mülahizələri həmin əsərin ayrı-ayrı fəsillərində özünü göstərir. Tarixçi Ə.Hüseynzadənin "Mirzə Yusif Qarabağinin "Tarixi-Safi" əsəri haqqında" məqaləsində əsərin məziyyət və qüsurlan ətraflı şərh olunmuşdur[2].

Mirzə Yusif Qarabaği (1798-1864) Cənubi Azərbaycanın Əhər mahalından olub, minlərlə başqa ermənilər kimi sonradan Qarabağa köçmüşdür. O, 18 il İranda yaşamış, farscanı öyrənmiş Sərdar Əmirxanın yanında işləmişdir. Qarabağa qayıtdıqdan sonra bir müddət Tiflisdə Qriqor Orbelianinin yanında tərcüməçilik etmişdir.

---

1 А.А.Сеид-заде. Мирза Юсиф Нерсесов (Шушински). "Известия" Азерб. ФАН СССР, 1960, №6.

2 Bax: Ə.Hüseynzadə. Mirze Yusif Qarabağinin "Tarixi-Safı" əsəri haqqında. Azərbaycan SSR EA xəbərləri (ictimai elmlər seriyası), 1960, № 6.

Q.Orbelianinin yanında işləyərkən Dağıstan hərbi əməliyyatlarında iştirak etmişdir. 1856-cı ildə Temirxanşurada "Məcmuəi-divani-Vaqif və müasirin" əsərini çap etdirmişdir.

Mirzə Yusif Qarabaği 1864-cü ildə vəfat etmişdir. O, "Tarixi-Safi" əsərini Qriqor Orbelianinin əmri və knyaz D.D.Georqadzenin maddi yardımı ilə yazmışdır (1855).

Mir Mehdi Xəzaninin "Qarabağ tarixi" əsərinin də "Qarabağnamə"lər silsiləsində özünəməxsus yeri var. Xəzani Qarabağın sabiq Zəngəzur qəzasının Bərgüşad mahalında, Mamırlı kəndində doğulmuşdur. Atası Mir Haşım Qarabağın məşhur seyidlərindən biri idi. Sonralar onlar Qarabağın Tuğ kəndinə köçmüşlər. Mir Mehdi Xəzani Tuğ kəndində də vəfat etmişdir. Qəbri də elə oradadır.

Qarabağ təzkirəçilərindən Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab", Məhəmmədağa Müctəhidzadə "Riyazül-aşiqin" əsərində Xəzaninin mükəmməl savada malik olduğunu, Şərq dillərini bildiyini, divan yaratdığını qeyd edirlər.

Xəzani ilk təhsilini qardaşı Mir Cəfərdən almışdır. Sonra isə Zəngəzura gelmiş, burada molla Zülfüqarın yanında olmuş, ondan çox şey öyrənmişdir.

Keçən əsrin 30-40-cı illərində Gəncə şəhərində yaşayan Xəzani çoxlu kitab mütaliə etmiş, Gəncə məktəblərində məktəbdar olmuşdur. Az sonra M.M.Xəzani rus dilində yeni tipli məktəb açmışdır. 1859-cu ildən o, Şuşaya köçmüşdür. 70-80-ci illərdə M.M.Nəvvabın "Məclisi-fəramuşan" ədəbi məclisinin yığıncaqlarının fəal iştirakçılarından biri də Xəzani idi.

M.M.Nəvvabla M.M.Xəzani möhkəm dost idilər. M.M.Nəvvab "Təzkireyi-Nəvvab" kitabında M.M.Xəzaninin öz dəsti-xətti ilə yazılmış qısa tərcümeyi-halını və şeirlərindən nümunələri vermiş, öz litoqrafiyasında onun "Şəriətül-islam" kitabçasını çap etmişdir. Xəzaninin "Qarabağ tarixi" əsərinin bir sıra əlyazmaları mövcuddur, bu variantlar haqqında tarixçi Əli Hüseynzadə bir məqaləsində geniş söz açır. Məlum olur ki, M.M.Xəzani öz əsərini Mirzə Adıgözəl bəyin və Mirzə Camalın "Qarabağnamə" əsərlərinin təsirilə yazmışdır. Təsadüfi deyildir ki, M.M.Xəzani öz əsərinin ilk variantını "Asari-əl-camal" adlandırmışdır[1]. Əsərin təkcə adı deyil, məzmunu və fəsilləri də Mirzə Camalın əsərinə bənzəyir. M.M.Xəzaninin əsəri müqəddimə, 24 fəsil və bir xatimədən ibarətdir. "Qarabağ tarixi" əsərində təsvir olunan hadisələr Nadir şahın vəfatı dövründən Türkmənçay müqaviləsinin bağlanmasına qədərki bir dövrü (1747-1828) əhatə edir.

Tarix elminə çoxdan məlum olan bu əsərin əldə bir neçə əlyazma nüsxəsi olduğundan onun elmi-tədqiqat mətninin çapında həmin nüsxə fərqlərini nəzərə almaq zəruridir.

1 Bax: Azərbaycan SSR EA-nın Əlyazmaları İnstitutu, inv. B-2381.

M.M.Xəzaninin elm aləminə məlum olan "Qarabağ tarixi"nin son nüsxəsi Əlyazmaları İnstitutunda B-1917 inventarla saxlanır. "Asarül-Camal" adlanan həmin nüsxənin həcmi 166 səhifədən ibarətdir. Giriş sözü, müqəddimə və birinci fəsli olmayan həmin nüsxənin üzü 9 noyabr 1905-ci ildə köçürülmüşdür. Xəttatın özü tərəfindən verilən qeyddə də əsərin üzünün tələsik köçürüldüyü göstərilir və oxuculardan üzr istənilir.

"Qarabağ tarixi" əsərinin əlyazması şəklində belə geniş yayılmasına səbəb onun sadə Azərbaycan dilində yazılmasıdır.

M.M.Xəzaninin "Qarabağ tarixi" əsərinin yazılma tarixi dəqiq məlum deyildir. Lakin son nüsxədə cjeyd olunur ki, əsər 1866-cı ildə yazılan bir əlyazmasından köçürülmüşdür. Aydın olurki, bu əsər 1866-cı ildən əvvəl mövcud idi.

Qarabağ tarixini öyrənmək üçün maraqlı və əhəmiyyətli mənbələrdən biri də Mirzə Yusif Əhərinin "Əhərnamə" kitabıdır. Bu əsərdə Qarabağ tarixinin bir sıra mühüm problemləri işıqlandırılır. Həmin əsərdə Ağa Məhəmməd Şah Qacar müharibələri dövründə Xəmsə erməni məliklərinin xəyanəti və satqınlığı barədə maraqlı faktlar vardır. Şübhəsiz, erməni məliklərinin bu antiazərbaycan və antigürcü siyasətinin doğru izahı (onlar Qarabağı ələ keçirmək üçün Qacara öz xidmətlərini təklif edirdilər və təbiidir ki, bu zaman Rusiyanın Qafqazdakı planlarına ciddi zərbə endirirdilər) erməni alimlərinin belə bir mülahizəsinin puçluğunu göstərir ki, guya Qarabağın Rusiya tərkibinə daxil olması, ilk növbədə, buradakı erməni məliklərinin fəaliyyəti nəticəsində mümkün olmuşdur...

Qafqazda çıxan ilk rus qəzeti "Тифлисские ведомости" (1828-1833) səhifələrində Qarabağ tarixinə dair bir sıra maraqlı məqalələr çap olunub... O cümlədən, "Qarabağ əyalətinə tarixi nəzər" (23 sentyabr 1830), "Şahbulaq qalası", "Şahbulağın müasir tarixi", "Səyahətdən" (28 avqust 1830) və s. həmin məqalələr "3...v" imzası ilə çap olunmuşdur. Şübhəsiz, bunların müəllifi Platon Zubovdur. 1749-cu ildə Pənah xan tərəfindən tikilmiş Şahbulaq qalası XIX əsrin əvvəllərində də öz müdafiə əhəmiyyətini saxlayırdı. "Qarabağnamə" müəllifləri də bu faktı təsdiq edirlər.

P.Zubov az sonar "Карабахский астролог или основания крепости Шуши в 1752 году (Москва, 1834)" əsərini yazdı. Həmin əsərdən bəzi parçalar əvvəlcə "Тифлисские ведомости" qəzetində dərc edildi. P.Zubov şübhəsiz ki, Pənah xanın və ümumən Qarabağ xanlığının təşəkkülü və formalaşması prosesini öyrənə bilməmişdi. Şuşanın 1752-ci ildə tikilməsi fikri də doğru deyil. Çünki Şuşa şəhəri 1750-ci ildə salınmışdır. Bununla belə P.Zubovun "Qarabağ astroloqu və ya Şuşa qalasının 1752-ci ildə bina edilməsi" əsərini Şuşa tarixinə dair ilk mənbələrdən biri hesab etmək olar.

Tiflisdə çıxan "Закафказский вестник" qəzetindəki iki məqalə də Qarabağ tarixini öyrənmək üçün xüsusi əhəmiyyət kəsb edir. Bunlardan biri imzasız çap olunub, "Qarabağ xanlığının Pənah xandan Mehdiqulu xanadək mövcudiyyəti övründəki hadisələrin təsviri" adlanır[1].

1 "Закавказский вестник", 1845, №13-14.

Məlumdur ki, Mirzə Adıgözəl bəy, M.P.Kolubyakinin tapşırığı ilə 1845-ci ildə məşhur "Qarabağnamə" əsərini yazmışdı. Bu məqalədə də Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sinin qısa icmalı verilir.

"Закавказский вестник" qəzetindəki ikinci məqalə "Ağa Məhəmməd xan Qacarın həyatı, Qacar sülaləsinin yaranması, onun Qafqazda hərbi səfərləri" adlanır[1]. Redaksiya qeydindən həmin əsərin ingilis dilinə tərcümə olunduğu göstərilmişdir. Həmin məqalədə Qacarın 1797-ci il yürüşləri və Şuşada öldürülməsi barədə tarixi həqiqətlə səsləşən faktlar xüsusilə maraq doğurur.

Əsrimizin 20-ci illərindən başlayaraq Azərbaycan xalqının tarixinə dair mənbələrin nəşrinə başlandı. Azərbaycan tədqiq və tətəbbö cəmiyyəti tərəfindən A.Bakıxanovun "Gülüstani-İrəm" əsəri 1926-cı ildə rus dilində, 1951-ci ildə Azərbaycan dilində çap edildi, bir qədər sonra əsərin farsca elmi tənqidi mətni işıq üzü gördü. Bu əsər XVIII əsr Azərbaycan xanlıqlarının tarixini öyrənmək üçün də əvəzsiz elmi mənbədir. "Qarabağnamə'Tərdə irəli sürülən fakt və mülahizələri dəqiqləşdirmək məqsədilə "Gülüstani-İrəm"ə tez-tez müraciət olunur.

Şərq və Qərb tarixçilərinin əsərlərini, Azərbaycanın maddi mədəniyyəti abidələrini diqqətlə öyrənən A.Bakıxanov ilk dəfə xalqımızın tarixini bütöv halda işıqlandırmağa səy göstərmişdir.

Qarabağ tarixinin öyrənilməsində Şeyx İbrahim Qüdsi Gəncəvinin "Gəncə tarixi" əsərinin də mühüm əhəmiyyəti var. F.Köçərli qeyd edir ki, "Gəncə tarixi" əlyazma şəklində əldən-ələ gəzirdi. Təəssüf ki, həmin əlyazma indiyədək əldə edilməmişdir. "Kavkaz" qəzetinin 1846-cı il 37-ci nömrəsində Lazerev imzası ilə "Gəncə" adlı geniş bir məqalə çap olunmuşdur. Redaksiya qeydində deyilir: "Həmin məlumat Gəncə sakinləri arasında tatar (Azərbaycan - N.A.) dilində əldən-ələ gəzən əlyazmasından alınmışdır".

"Gəncə tarixi"ndən bəhs edən "Gəncə" məqaləsi şəhərin əsasının qoyulmasından 1804-cü ilə qədər - Sisianov tərəfindən zəbt olunmasına qədərki uzun bir dövrü əhatə edir.

1926-cı ildə "Azərbaycanı tədqiq və tətəbbö cəmiyyəti" tərəfindən "Şəki xanlarının ixtisar üzrə tarixi" əsəri çap olundu. Onun müəllifi Əbdüllətif Əfəndi idi. Sonrakı illərdə S.Mümtazm axtanşları göstərdi ki, "Şəki xanlarının ixtisarüzrə tarixi" əsərinin müəllifi Əbdüllətif Əfəndi deyil, Səlim xanın nəvəsi, Fateh təxəllüsü olan Kərim Ağadır. 1829-cu ildə qələmə alınmış bu əsərin şəkli Fətəli xanın oğlu Kərim ağa Fateh tərəfindən yazıldığı Ə.Hüseynzadə tərəfindən də təsdiq olunmuşdur[2]. Həmin əsərin Qarabağ tarixi ilə bağlı bəzi sətirləri xüsusilə diqqəti cəlb edir. 1795-ci ildə Ağa Məhəmməd xanın Qarabağa hücumu zamanı Şəki xanı Səlim xan Qacarın yürüşünün qarşısını almaqda İbrahim xana yaxından kömək etmişdir. 1805-ci ildə də Səlim xan İbrahim

1 Bax: "Закавказский вестник", 1845, 14-18

2 Bax: Ə.Hüseynzadə. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı, Bakı, 1967, səh.29.

xanın təklifinə razı olub Kürəkçayda Şəki xanlığının Rusiya tərkibinə daxil olması haqda müqaviləni imzalamışdı.

"Şəki xanlarının ixtisar üzrə tarixi" əsəri də təsdiq edir ki, 1806-cı ildə İbrahim xan öz ailəsi ilə birlikdə Şuşa qalası yaxınlığında qala komendantı Lisaneviç tərəfindən öldürülmüşdür. Öldürülənlər arasında Səlim xanın bacısı da var idi. Bu qətldən sarsılan Səlim xan öz yanında olan bir neçə rus soldatını öldürdü. General Nebolsin isə Səlim xana qarşı qoşun göndərdi. Səlim xan İrana keçməyə məcbur oldu...

İskəndər bəy Hacınskinin "Qubalı Fətəli xan" əsəri də XIX əsr tarixşünaslığının maraqlı nümunələrindəndir. Əsər ilk dəfə 1847-ci ildə, Tiflisdə "Kavkaz" qəzetinin 48-49-cu nömrələrində dərc olunmuşdur. İ.Hacınski Qafqaz canişinliyində mütərcim vəzifəsində işləyirdi, Fətəli xanın hərbi-siyasi fəaliyyətini işıqlandıran həmin əsərdə Qarabağ xanlığından da söz açılır. Əsərdə göstərilir ki, Fətəli xan İbrahim xanın qardaşı Mehrəli bəyi himayə etdiyi üçün onların bir-birilə arası yox idi. Həm də Fətəli xan Qarabağı almaq istəyirdi. Əsərdə oxuyuruq: "Qarabağlı İbrahim xan Quba xanı ilə mübarizə etmək üçün Şirvan hakimlərinə tez-tez kömək etdiyindən Fətəli xan güclü qoşun toplayıb, 1784-cü ildə Qarabağa hərəkət edir. Lakin Şuşa qalasına hücum etmək iqtidarında olmayıb Ağdamı və Qarabağ xanlığının başqa aşağı mahallarını talan etdi"[1]. Əsərboyu Qarabağ xanlığı və onun mərkəzi Şuşanın hərbi-siyasi qüdrəti nəzərə çapdırılır. Lakin müəllif Mehralı bəyi səhvən İbrahim xanın qardaşı oğlu kimi təqdim edir.

XIX əsrin əvvəllərində Rusiya - İran müharibələri haqqında daha dolğun təsəvvür verən mənbələrdən biri də Nasir Nəcminin "Abbas Mirzə, yaxud Qacar sülaləsinin ən qəhrəman, ən vətənpərvər oğlu və İran-Çar Rusiyası müharibələri" əsəridir[2].

Həmin əsərdə Türkmənçay müqaviləsi ilə nəticələnən sonuncu rus - İran müharibəsinin (1826-1827) təsviri verilir.

Qarabağ tarixini yazmaq üçün bir sıra Azərbaycan ziyalılan da XIX əsrdə və XX əsrin əvvəllərində təşəbbüs göstərmişlər. O cümlədən Baharlının "Əhvalati-Qarabağ", Həsənli Xan Qaradağinin "Qarabağ tarixi", Həsən İxfanın "Şura tarixi", Mirzə Rəhim Fənanın "Qarabağ tarixinə aid materialları", müəllim Mirzə Xosrov Axundovun "Qarabağ tarixinə dair qeydləri" məlumdur. Adı çəkilən əsərlər yarımçıq və səthi olsalar da, onları çap etmək müəyyən maraq doğura bilər, həm də azərbaycanlı müəlliflərin Qarabağ xanlığı tarixini öyrənməyə sonsuz marağını nümayiş etdirir.

"Qarabağnamə"lərdə Qafqaz canişini olmuş bir sıra görkəmli rus generallarının adı çəkilir, onların Qarabağla əlaqələrindən söz açılır. Lakin tez-tez

1 İskəndərbəy Hacınski. Qubalı Fətəli xan. Bakı, 1959, səh.20.

2 Nasir Necmi. Abbas Mirzə, yaxud Qacar sülaləsinin ən qəhrəman, ən vətənpərvər oğlu və İran-Çar Rusiyası müharibələri, Tehran, hicri 1326.

xronoloji səhvlərə yol verilir. Ümumiyyətlə, XIX əsrin əvvəlində Qafqaz canişinliyi vəzifəsini aşağıdakı hərbi-siyasi xadimlər icra etmişlər: K.F.Knorrinq (1801 -1802), P.D.Sısianov (1802-1806), İ.V.Qudoviç (1806-1809), A.P.Tormosov (1809-1811), F.O.Pauluççi (1811), N.F.Rtişşev (1812-1816), A.P.Yermolov (1816-1827), İ.F.Paskeviç (1827-1831), Q.V.Rozen (1831-1837), Y.Q.Qolovin (1837-1842), A.İ.Neydqard (1842-1844), M.S.Voronsov (1845-1855), N.N.Muravyov (1855-1856), Baryatinski (1856-1862) və b.

Qarabağ xanlığının tarixini, xalqın həyat və məişətini, arzu və istəklərini öyrənmək üçün M.P.Vaqif və onun müasirlərinin yaradıcılığı da zəngin xəzinədir. Həmin dövrdə yaranmış şifahi xalq ədəbiyyatı nümunələrini də unutmaq olmaz. Nümuno üçün "Külli-Qarabağın abi-həyatı olan" bir neçə bayatıya diqqət yetirək.

Xalq arasında Şuşa qalası alınmaz, bakirə bir qala hesab olunurdu. Lakin elə ki, qala üzərinə qara yellər əsdi, xalq öz həyəcanını belə ifadə etdi:

Mən səni yel bilirdim,
Başımda tel bilirdim.
Uca dağlar başında
Qurumaz göl bilirdim.

Arasıkəsilməz xarici istilalar qarabağlıların canını boğazına yığmışdı. Qarabağa, onun paytaxtı Şuşaya növbəti hərbi yürüşlərin birində xalq öz kədərini gizlədə bilmir:

Gəldi, haradan gəldi,
Könlü qaradan gəldi.
Göydə bulud yox idi,
Bu sel haradan gəldi.

Bayatı Qarabağda şifahi xalq yaradıcüığının ən çox yayılmış janrı idi. Tarixin hər bir hadisəsi bayatıda səslənirdi:

Arazı keçən də var,
Suyunu içən də var.
Çəkməyin canan adın,
Ürəyi keçən də var.

"Riyazül-aşiqin" təzkirəsinin müəllifi Məhəmmədaqi Müctəhidzadə (1867-1958) "Qarabağnamə" mənzum əserində bu torpağın gözəlliyini və tarixi şəxsiyyətlərini tərənnüm etmişdir:

Sınıq körpü, sərhədi-mülki İran,
Günbatanı Basarkeçər, İrəvan,

Qibləsidir Araz çayı, Naxçıvan,
Gündoğam Arazla Kür qovşağı,
Cavanşirlər dastanıdır Qarabağ.

Dağ-daşları, meşələri, yaylağı,
Dərə-təpə mədən suyu, bulağı,
Əti, yağı, süd, pendiri, qaymağı,
Turac, kəklik, qırqovulu, ovlağı,
Haqqın bizə ehsanıdır Qarabağ.

Hücum edib dağ-daşlardan, qayadan
Qorxmayıban qılınclardan, yaradan.
Elləri toplayıb ora-buradan,
Pənah xandır bu ölkəni yaradan,
Ər fatehlər meydanıdır Qarabağ.

Elmi və bədii mənbələrdə Qarabağın paytaxtı üç adla qeyd olunub: Pənahabad, Qala, Şişə. Qarabağın Rusiya tərkibinə daxil edilməsindən sonra rus mənbələrində Şişə sözü rus orfoepiyasına uyğun gəlmədiyindən Şuşa kimi tələffüz olundu və indi də belə işlənir. Mirzə Həsən Qarabağı (1824-1904) Qarabağın və Şuşanın təsvirinə həsr olunmuş poemasını "Rəsmi vilayəti-Qarabağ və "Şəhri Şişə" adlandırmışdır[1].

Biz yuxarıda yalnız "Qarabağnamə"lərə və bəzi əlavə mənbələrə nəzər saldıq. Məlumdur ki, hər hansı bir xalqın, vilayətin, şəhərin tarixini yazmaq üçün yazılı mənbələr kifayət deyil. Burada maddi mədəniyyət abidələrinin - şəhərlərin, kəndlərin, müdafiə qalalarının, memarlıq abidələrinin, arxeoloji sənədlərin son dərəcə mühüm əhəmiyyəti vardır. Qarabağ xanlığı dövründən (1747-1822) külli miqdarda maddi mədəniyyət abidələri qalmışdır. Bu abidələrin yaranma tarixi Qarabağ xanlığının bir çox məsələlərini aydınlaşdıra bilər. Yeri gəlmişkən qeyd edək ki, bir çox abidələr baxımsızlıq üzündən itib-batmış, tarixin yaddaşından silinmişdir. Belə abidələrdən biri də Qarabağ xanlığının ilk dayaq nöqtəsi və mərkəzi olan Bayat qalası idi (1747-1748).

Əsgəran qalasına, Ağoğlan qalasına, Xudafərin körpüsünə və bir sıra başqa abidələrə etinasız münasibət indi də davam etməkdədir. Şuşanın hələ xanlıqlar dövründən mövcud olan 16 məhlə hamamından yalnız biri qalmışdır. Qarabağın qədim və orta əsr abidələrinə gəldikdə isə bunların vəziyyəti lap dözülməzdir. Bərdə abidələri tamamilə sıradan çıxmaqdadır. Qədim Beyləqanın arxeoloji abidələri itib-batır... Halbuki həmin abidələr Azərbaycan tarixini, o cümlədən Qarabağ tarixini öyrənmək üçün misilsiz əhəmiyyətə malikdir.

---

1 Bax: Mirzə Həsən Qarabaği. Seçilmiş əsərləri, Bakı, 1973, səh.75-94.

## 2. QARABAĞIN KEÇMİŞİNDƏN

İstər inqilabdan əvvəlki, istərsə də Sovet dövrü tarixşünaslığında Qarabağın tarixi ilə bağlı maraqlı fikir və mülahizələrə rast gəlirik. "Qarabağnamə"lərin özündə də Qarabağın uzaq və yaxın keçmişindən yeri gəldikcə bəhs edilmişdir. Lakin bu əsərlərdə bəzi yanlış mülahizələrə, birtərəfli və subyektiv fikirlərə də rast gəlirik.

Məsələn, Mirzə Yusif Nersesov Qarabağinin "Tarixi-Safi" əsərində Qarabağın tarixi ilə bağlı məsələlər yanlış mövqedən qiymətləndirilmişdir.

M.Y.Nersesov öz əsərində Qarabağın ayrı-ayrı vilayətləri, onun sərhədləri, coğrafi şəraiti, şəhərləri və s. haqqında söhbət açmışdır. Burada diqqəti daha çox Qarabağın Qafqaz Albaniyası dövründəki tarixi cəlb edir. Müəllif qədim Uti vilayəti və Aran haqqında məlumat verir. Onun fikrincə, Uti vilayətinin sərhədləri Murov dağından Kür sahillərinə, habelə Xaçınçaydan Kürəkçaya qədər olan bir sahəni əhatə edir. Bu mahalın böyük şəhərləri sırasında müəllif Bərdəni xüsusilə qeyd edir, Bərdənin zəngin keçmişi barədə Nizami Gəncəvinin "İskəndərnamə" poemasından nümunələr gətirir. Lakin bu faktlar Azərbaycan oxucularına çoxdan məlumdur.

M.Y.Nersesov Qaradağ, Şamaxı, Şəki ərazilərini birlikdə Aqvanıstan adlandırır. Beləliklə, onun fikrincə, bu yerlər qədim erməni ərazisi imiş.

Qeyd edək ki, müəllif Qarabağ tarixindən söz açdığı səhifələrdə XVIII əsr erməni tarixçisi Çamçiyanın yanlış fikirlərinə istinad edir, həm Qafqaz Albaniyası, həm də Qarabağ tarixi haqqında oxucularda səhv fikir yaradır. Müəllif Alban dövlətinin tərkibində türk tayfalarının olmasını unudur, halbuki Alban dövlətində türk tayfaları mühüm yer tuturdu.

Sovet tarixşünaslığı Qafqaz Albaniyası tarixini öyrənməkdə bir sıra nailiyyətlər əldə etmişdir. Qədim dövrün Alban tarixçisi Musa Kalankatlı, yaxud Alban çarlarının sülaləsini, xronikasını yazmış Mxitar Qoş (Muxtar Qoç) bu ölkəni Ermənistana dəxli olmayan dövlət kimi qələmə almışdır. Yampolskinin "Albaniya" əsərində, akademik Z.Bünyadovun "VII-IX əsrlər Azərbaycan tarixi" monoqrafiyasında Qafqaz Albaniyasından müstəqil, suveren bir dövlət kimi bəhs olunmuşdur. Gürcü alimi Şanidze arxeoloji tədqiqatlar nəticəsində 52 işarədən ibarət alban əlifbasını aşkar etmişdir. Həmin dövrdə erməni əlif-bası da mövcud idi. Alban əlifbasının ifadə etdiyi fonemlər erməni dilinin səs sisteminə uyğun gəlmirdi.

Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası haqqında son tədqiqatlar bu problemə bir qədər də aydınlıq gətirmişdir[1].

Mirzə Yusif Qarabaği xanlıqlar dövründə və ondan əvvəl mövcud olan Qarabağ Xəmsə məliklərinin mənşəyini yanlış izah etmişdir. F.Məmmədovanın araşdırmalarından və tərtib etdiyi xəritələrdən aydın olur ki, hazırkı Dağlıq

1 Мамедова Фарада. Политическая история и историческая география Кавказской Албании. Баку, Элм, 1986.

Qarabağ Vilayətinin ərazisində Qafqaz Albaniyası dövründə Ərsaq adı ilə (erməni dilində Artsak, rus dilində Apuax - N.A.) bir vilayət mövcud olmuşdur. Həmin vilayət hələ o zaman əkinçiliklə, heyvandarlıqla məşğul olurdu. Qafqaz Albaniyası dövründə Ərsaq on iki xırda inzibati dairəyə bölünmüşdü. Onun əhalisi qarqarlar, utilər, hunlar və xəzərlərdən ibarət idi. Ərsaq I-VI əsrlərdə alban Arşagitləri sülaləsinə, VI-VIII əsrlərdə isə Albaniyanın Mehranilər adlanan böyük knyazlarına tabe idilər. O zaman Ərsaqda bütpərəstlik etiqadı güclü idi. Albaniyada xristianlıq ümumxalq dininə çevrildikdən sonra Ərsaq əyalətinə də yayıldı. Ərsaqda bir çox yepiskopluq yaradıldı. Ruhanilər əhali ilə birlikdə Albaniyanın ümumi kilsə tədbirlərində iştirak etdilər, hətta alban katolikoslarından bir neçəsi Ərsaq ruhanilərindən seçildi.

VIII əsrdə ərəblər Albaniyada Mehranilər hakimiyyətini aradan qaldırdılar. Ərsaq da Albaniyanın tərkibində Əməvi xilafətinin tərkibinə qatıldı. IX əsrdə Qriqol Hümam dağıdılmış alban çarlığını bərpa etdi. Onun tərkibində Ərsaq vilayəti də var idi. Qriqorinin ölümündən sonra Ərsaq başqa alban Uti vilayətləri ilə birlikdə Qriqorinin oğlu Saakın ixtiyarına keçdi.

Ərəb istilasından sonra Albaniyanın başqa ərazilərindən fərqli olaraq Ərsaq ərazisində xristianlıq saxlanılmışdır. Sonrakı mərhələdə erməni kilsəsi ilə alban kilsəsi öz aralarında formal mənada əlaqə saxlayırdı. Alban kilsəsi ilə erməni Qriqoryan kilsəsinin din, ibadət kultunda ciddi fərqlər mövcud idi. Bu gün mövcud olan orta əsr alban kilsə abidələri ilə erməni Qriqoryan kilsələrinin memarlıq quruluşunda da ciddi fərq var. Alban kilsələrinin mərkəzi tağları müsəlman məscidləri, hamamları və s. tikintiləri üçün səciyyəvi olan dairəvi, hündür tağlara bənzəyir. Qriqoryan kilsəsində isə Roma katolik kilsələri üçün səciyyəvi olan qotik memarlıq üslubu saxlanılır. Mardakert rayonu ərazisində yerleşən Xaçın knyazlığı dövründən qalmış abidə - Qanzasar kilsəsi, Şuşa şəhərində XIX əsrin II yarısında tikilmiş məşhur Kazancesos kilsəsi də alban kilsə memarlığı ənənələrində tikilmişdir. Yeri gəlmişkən qeyd etməliyik ki, hazırda Şuşadakı Kazancesos kilsəsinin təmir bərpa işləri düzgün aparılmır. Bərpaçı istehsalat birliyi və memarlıq təşkilatları bu kilsəni tarixən olduğu şəkildə deyil, onun memarlıq üslubunu təhrif edərək qotik kilsə üslubunda "bərpa" edirlər...

Məlumdur ki, sonrakı dövrlərdə Ərsaq vilayəti əhalisinin bir qismi erməni dilini qəbul etdi və burada erməni dilinin Qarabağ dialekti yarandı. Bu dialektin lüğət tərkibində türk mənşəli sözlər çoxluq təşkil edir. Ümumən Ərsaqda ermənilərlə yerli albanlar arasında mədəni ideoloji assimilyasiya prosesi getdi və son əsrlərdə bu daha da gücləndi...

Zaqafqaziya Rusiya tərkibinə daxil edildikdən sonra Ərsaqda alban kilsəsinin ənənələri davam edirdi. Çarizm erməni katolikosunun arzusuna əməl edərək, 1836-cı il fərmanı ilə alban katolikosunu ləğv etdi və onu erməni Qriqoryan kilsəsinə birləşdirdi[1]. Bu fərmana əsasən Eçmiadzin katolikosluğu nəz-

1 Bax: ЦГИА. Опис №10, дело 89.

dində iki yepiskopluq və bir əvəz olunan yeparxiya yaradıldı. 1909-1910-cu illərdə sinodun göstərişi ilə alban dövrünə aid köhnə kilsə arxivi məhv edildi.

Qafqaz Albaniyasının tarixi-coğrafi xəritələrinə bu gün etiraz edənlərə bizim eradan əvvəl II əsrin yunan tarixçisi Klavdiy Ptolomeyin mülahizələri tutarlı cavabdır[1]. O yazırdı ki, Qafqaz Albaniyasının sərhədləri şimalda Sarmatiya, Qərbdə İberiya, Cənubi-qərbdə Atrapaten və Ermənistanın bir hissəsi, Şərqdə isə Xəzər dənizi olmuşdur.

Böyük səyyah və tarixçinin bu fikirləri çoxcildli SSRİ tarixinin Moskva nəşrlərində də saxlanılmışdır. V əsr erməni tarixçisi Xorenli yazır ki, Albaniya əsasən Şərqi Qafqazı əhatə edirdi və İberiya, Ermənistan, Sarmatiya ilə həmsərhəd idi.

V əsrdə Sasanilərə qarşı mübarizədə Zaqafqaziya xalqları arasında əsil birlik mövcud idi. Albanlar İran zülmkarlarına qarşı mübarizədə ermənilər və iberlərlə birlikdə hərəkət edirdilər. Alban salnaməçisi qeyd edir ki, "Ermənistan və Albaniya ölkələri arasında vahid qardaşlıq və sözsüz bir razılıq mövcud idi."

Yeğişe Vardapet bildirir ki, Ermənistanda, Albaniyada və İberiyada Sasanilər əleyhinə dəstələr təşkil olunmuşdur. Albanlar, ermənilər və iberlər Zəyəm çayı (Kürün Gəncənin qərbindən keçən qolu) sahillərində düşmənləri qarşılayaraq onu darmadağın etdilər[2].

Xristian kilsəsinin Ərsaqda təsiri daha güclü idi. Alban tayfalarının qədim vaxtlardan sakin olduqları bu vilayət miladın başlanğıcında arasıra erməni çarlarının istilasına məruz qalırdı. Erməni çarlan bu vilayətin əhalisini erməniləşdirmək siyasəti yürüdürdülər. Lakin Ərsaq əyanları müstəqil olmağa çalışır və erməni çarlığının hərbi-siyasi qüdrəti zəifləyən kimi vilayətdə alban hökmdarlarının hakimiyyəti bərpa edilirdi. Buna baxmayaraq, Ərsaqda, əsasən onun dağlıq hissəsində ermənilərin buraya axıb gəlməsi ilə əlaqədar olaraq erməni dilinin təsiri qüvvətlənirdi. Tədricən erməni dili ilə yerli türk dili qovuşub qarışırdı[3].

Qarqar hidroniminə (Qarqar çayı) diqqət edin:

Qarqar çayı Qarabağın hazırkı ərazisinin tən ortasından (Laçın, Şuşa, Ağcabədi) keçərək Kürə tökülür. Həmin çay ətrafında yaşayan qarqar tayfaları türkdilli olmuşlar. Musa Kalankatlı də təsdiq edir ki, onların dilində "çoxlu boğaz səsləri" olmuşdur.

Zaqafqaziyaya gəlmiş Xəzər-türk tayfaları da Qarabağın siyasi həyatında fəal iştirak edirdilər.

Bizans imperatoru İrakli 626-cı ildə Sasanilərə qarşı mübarizədə xəzərlərlə ittifaq bağlamışdı. Musa Kalankatlı yazır ki, Bizans imperatorunun qoşunları Albaniyanın düzənlik hissəsindəki şəhərləri və kəndləri talan edib dağıdırdı.

---

1 Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. Собрат и издат с русским переводом Б.В.Латышев, Санкт-Петербург, 1890.

2 Azərbaycan tarixi, I cild, Bakı, 1968, səh.99.

3 Yenə orada

"Saysız-hesabsız yunan (Bizans) qoşunları Uti vilayətində Kazankaytuq (Qalakənd) kəndi sərhədlərində yerləşdi. O (qoşunlarm) keçdiyi yerlərdən qabağına çıxan gözəl bağları və tarlaları tapdalayaraq xarabalara döndərdi".

Musa Kalankatlı xəzərlərin Azərbaycanda olması barədə yazır: "O bütün Aqvaniyada - Azərbaycanda albaniyalıların ərazisinə və Atropatenanın bir hissəsinə basqınlar etdi. Külli miqdarda xristianları və hətta bütpərəstləri qılıncdan keçirdi. Əsir düşənlərin və ölənlərin sayını kim bilir. Onlar (xəzərlər) Araz çayı yanında dayandılar. Şad Xosrov şahın (II Xosrov) yanına carçı göndərdi ki, özünün imperatorla birləşməsi haqqında ona bildirsin"...

Antik və qədim əsrlərdə (e.e. V - b.e. X əsrlərdə) Azərbaycan ərazisində bir sıra türk tayfaları yaşamış və ya bu ərazidə hökmranlıq etmişlər. O cümlədən: bulqarlar, hunlar, sabirlər, xəzərlər, oğuzlar, cinlilər, saklar, qaşqaylar, qarqarlar, qarabanlar, ağbanlar və başqa türk tayfaları həmin tayfaların Qafqaz Albaniyası və Azərbaycanın soy kökündə iştirakı şübhəsizdir[1].

Xəzərlər Kürün hər iki sahilində bir əsrə qədər yaşamışlar. Onların siyasi və inzibati mərkəzi Qəbələ şəhəri idi.

Bu gün Qarabağda işlənən yüzlərlə türk mənşəli toponimlərin çox qədim tarixi vardır. Qarqar etnoniminə hələ V əsr tarixçisi Musa Xorenlinin əsərində rast gəlmək mümkündür.

Qarabağ toponimi də türk mənşəlidir və iki sözün (anlayışm) vəhdətindən ibarətdir. Qara sözü uzun əsrlər boyu böyük, möhtəşəm, geniş mənasında işlənmişdir: Qarabağ (böyük bağ); Qarabulaq (böyük bulaq) və s. Əsrimizin əvvəllərinə qədər sahəsinin 50%-dən çoxu meşə və bağlarla örtülü olan bu ərazinin Qarabağ adını daşıması təsadüfi deyildi. Qarabağ toponiminə min ildən bəri Azərbaycan, ərəb, fars və başqa mənbələrdə rast gəlirik. Dağlıq Qarabağ anlayışı isə yalnız XX əsrin 20-ci illərində DQMV yaranması ilə leksikona daxil olmuşdur. Arifə İsmayılovanın "Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin coğrafi adlarının tədqiqi" əsərində vilayətin coğrafi toponimikası barədə maraqlı mülahizələrə rast gəlirik. Məsələn, müəllif Dağlıq Qarabağdakı toponimləri xüsusi dioqramda təqdim edir. Bu dioqramda hazırda Dağlıq Qarabağda 309 toponimin mənşəcə hansı xalqa mənsubluğu göstərilir. Məlum olur ki, 309 yaşayış yerində (şəhər, qəsəbə, kənd) 208-nin adı Azərbaycan mənşəlidir. 77-si erməni mənşəli, 24-ü isə qarışıqdır. Yəni bir hissəsi Azərbaycan, bir hissəsi erməni dilindədir.

Ərəb istilası dövründə Qafqaz Albaniyasında islam-dini zorla qəbul etdirilirdi. Gürcüstanda və Ermənistanda isə bu mümkün olmadı. Alban xristian dini isə yalnız Qarabağın Dağlıq hissəsində qalmışdı. VII-X əsrlərdə Azərbaycanın siyasi-inzibati bölgüsündə Qarabağ əvvəl Bərdə, sonra Beyləqan şəhərlərindən idarə edilirdi. Səfəvilər dövründə Qarabağın mərkəzi Gəncə, xanlıq dövründə isə Şuşa şəhəri idi.

---

1 Bax: Mirzə Bala. Azərbaycan türk-alban dövləti. Ankara, 1951.

Babək hərəkatı da ilk dəfə Qarabağda başlamışdı. 210 (826)-cu ildə, Beyləqan tərəflərində atəşpərəstlərdən Babək adlı bir nəfər meydana çıxdı. O, atəşpərəstlik məzhəblərindən Xürrəmkiş adlı məzhəbin əsasını qoydu. Bu məzhəb Məzdəki dinin əslini yeni bir şəklə salmaqdan başqa bir şey deyildi. Babək öz başına çoxlu tərəfdar topladı... Azərbaycanı ələ keçirib, Həmədan və İsfahanı da fəth etdi. Mötəsim xəlifə İshaq ibn İbrahim ibn Müsahibi çoxlu qoşunla İrani-əcəm hüduduna göndərdi. İshaq onlardan 60000 nəfər qırdısa da, yenə bir nəticə əldə edilmədi. Axırda, hicri 221 (836)-ci ildə, Mavərün-nəhr əyanlarından Aqşin ləqəbli Heydər ibn Kavus saysız bir qoşunla Babəki dəf etməyə təyin edildi. Müharibə iki il davam etdi. Babək məğlub olub bir neçə nəfərlə Ermənistana, Səhl Sumbat oğlunun yanına qaçdı... Səhl Babəki qolubağlı Aqşinin yanına gətirdi. Səhl təltif edildi. Babək də Bağdada göndərilib orada böyük bir əziyyətlə öldürüldü[1].

X-XI əsrlərdə dünya şöhrəti qazanmış Bərdədə Səid İbn Əmirül Bərdəi, Əbübəkr Bərdəi kimi elm və mədəniyyət xadimləri yaşayıb yaratmışlar. Şəhərlərin inkişafı başqa xalqlarla ticarət və mədəni əlaqələri daha da genişləndirirdi.

Qarabağ adlı şəhər olmuşdurmu? Ən əvvəl qeyd edək ki, Qarabağ sırf Azərbaycan adı olub, VII əsrdən dilimizdə işlənməkdədir. Deməli, Qarabağ şəhərinin tarixi VII əsrdən başlanır. Beləliklə, Qarabağ şəhəri ən azı min il mövcud olmuş və XVII əsrdə süqut etmişdir.

Bəs Qarabağ şəhəri harada yerləşmişdir? Bu haqda R.Yüzbaşov aşağıdakı məlumatı verir: "Azərbaycan SSR EA Coğrafiya İnstitutunun kartoqrafik fondu öyrənilərkən orada olan "İran səltənəti" adlı xəritə Qarabağ şəhərinin yerini dəqiq müəyyən etməyə imkan verdi. Həmin xəritənin müəllifi alman səyyahı Adam Oleari XVII əsrin birinci yarısında Rusiyadan İrana getmiş, həmin yolla da vətəninə qayıtmış və bundan sonra adını çəkdiyimiz xəritəni tərtib etmişdi.

A.Olearinin xəritəsində Qarabağ şəhəri 39° şimal en dairəsi ilə 82°21' şərq uzunluq dairəsinin kəsişdiyi nöqtədə göstərilir. Həmin şəhərin qalıqlan indiki Füzuli rayonunda Horadiz dəmiryol stansiyasından şərqdə, İran ərazisində olan Aslandüz kəndindən şimalda, İrandan keçib Araza tökülən Qarasu çayının mənsəbinə yaxın bir yerdə olmalıdır. Qarabağ adının kiçik miqyaslı bir xəritəyə düşməsi və böyük bir mahalın (əyalətin) onun adı ilə adlandırılması Qarabağ şəhərinin mühüm şəhər olduğunu göstərir. Bunu da qeyd etmək vacibdir ki, İran Azərbaycanından Kiçik Qafqaza gedən böyük ticarət yolu da Qarabağ şəhərindən keçirmiş"[2].

Məşhur ərəb tarixçisi İbn əl-Əsir (1160-1284) Beyləqanın monqollar tərəfindən 618 (1221)-ci ildə zorla alınıb xarabalığa çevrilməsini təsirli cümlələrlə

---

1 Bax: Abbasqulu ağa Bakıxanov. "Gülüstani-İrəm", səh.61.

2 R.Yüzbaşov, K.Əliyev, Ş.Sədiyev. Azərbaycanın coğrafi adları. Bakı, 1972, səh.63-64.

qələmə almışdır: "...bir qədər vuruşduqdan sonra 618 (1221)-ci ilin ramazan (sentyabr) ayında şəhəri zorla aldılar. Qılıncı sıyırıb kiçik, böyük və arvad burax-madılar (hamısını qırdılar). Hətta hamilə qadınların qarınlarını yarıb çağalarını çıxartdılar və öldürdülər, özləri də arvadları zorlayıb sonra öldürdülər..."

Daha sonra İbn əl-Əsir böyük təəssüf hissi ilə yazırdı: "Kaş anam məni doğmamış olaydı, yaxud mən bu hadisədən əvvəl ölmüş və tamamilə unudulmuş olaydım".

Qarabağın keçmişindən söz açarkən, onun mövcud xəritələrini də nəzərə almaq zəruridir. Qarabağ Azərbaycanın ən mühüm vilayətlərindən biri kimi bu xəritələrdə öz əksini tapmışdır.

Böyük ərəb coğrafiyaşünası və səyyahı Əbülqasım ibn Höukəl X əsr Azərbaycanı haqqında bir sıra maraqlı fikirlər söyləmişdir. Azərbaycanın ilk xəritəsini Əbül-Qasım ibn Höukəl tərtib etmişdir. Bu xəritənin hüdudları Şərqdə Xəzər dənizi, Şimali-şərqdə Dərbənd, Qərbdə Göyçə gölü, Cənuba doğru Naxçıvan; Urmiya gölü və oradan bir xətlə Xəzər dənizinin cənub sahillərini əhatə edir.

Azərbaycan haqqında tarixi məlumatlara, o cümlədən, Qarabağın təkrarolunmaz təbiəti və tarixi keçmişi haqqında Qətran Təbrizi (X əsr), Xaqani Şirvani, Nizami Gəncəvi, Mücirəddin Beyləqani (XII əsr) və başqalarının əsərlərində dönə-dönə rast gəlirik.

A.Bakıxanov yazır ki, ərəb istilası dövründə Qarabağ mühüm siyasi mərkəzlərdən biri idi:

Qazanxan "...vəfat etdikdən sonra hicri 703-cü ildə, İlqaytu Məhəmməd Xudabəndə ibn Arqun xan taxta oturdu. Sultaniyyə şəhərini bina və özünə paytaxt etdi. O, ədalətli, xeyirli işlər görən bir padşah idi. Onun adı Bakı şəhərində bina etdirdiyi bürc və məscidlər üzərindəki kitabələrdə indi də durur..."

İbn Arqundan sonra hicri 616 (1317)-cı ildə 13 yaşında olan böyük oğlu Sultan Əbusəid taxta oturdu. Onun dövründə "Qıpçaq padşahı Özbək xan (özbək qəbiləsi bunun adı ilə adlanmışdır) hicri 718 (1319)-ci ildə Dərbənd yolu ilə Azərbaycanı almağa gəldi. Sultan Əbusəid müqavimət məqsədilə çıxıb Qarabağ düzündə qışladı. Özbəyin qoşunu müqavimət göstərə bilməyib qaçmağa başladı... Özbək şah hicri 735 (1335)-ci ildə təkrar Azərbaycana yürüş etdi. Sultan Əbusəid yenə müqavimət məqsədi ilə qarşıya çıxdı, havanın istiliyi və üfunəti üzündən Şirvanda xəstələnib hicri 736 (1336)-cı ildə vəfat etdi. Müasirlərindən biri yazdığı bir şeirdə onun Qarabağda vəfat etdiyini qeyd etmişdir. Qarabağ çox vaxt Şirvan üstündə sayıldığından, tarix kitablarında Şirvan adı ilə şöhrət tapmışdır"[1].

Teymurləngin Qarabağda Beyləqan şəhərini bərpa etmək təşəbbüsü barədə A.Bakıxanov yazır:

---

1 Abbasqulu ağa Bakıxanov. "Gülüstani-İrəm", səh.77-78.

"... Qarabağda Qubad ibn Faruzi-Sasani tərəfindən bina edilən Beyləqan şəhəri Hülakü tərəfindən bir müddət müharibədən sonra hücumla almıb, xarab edilmişdi. Əmir Teymur bu şəhərə çox möhkəm bir hasar çəkdirdi. O bu şəhəri abad etmək fikrində idi..."

Teymurləngin Zaqafqaziya və Şərqə hərbi səfərlərindən bəhs açan A.Bakıxanov tez-tez onun Qarabağa gəlməsini də qeyd edir.

"...Əmir Teymur Dağıstan işlərini mümkün qədər yoluna qoyduqdan sonra... Hicri 798 (1396)-ci ilin baharında Dərbəndə gəldi... Bu səfərdə ona yoldaşlıq edən Şirvan valisi Əmir İbrahim, Əmir Teymurun şərəfinə bir neçə gün davam edən böyük ziyafət verdi, ləyaqətli hədiyyələr təqdim etdi. Özü də Sahibqranın lütf və ənamına nail olaraq mürəxxəs oldu. Əmir Teymur Qarabağa gəlib, Ağdam adlı yerdə Dərbənddən Bağdada və Həmədandan Rum sərhədinə qədər olan bütün əyalətlərin idarəsini oğlu Miranşaha tapşırdı..."[1].

Göründüyü kimi, Teymurləng və ondan əvvəl monqol istilaları dövründə də Qarabağ Azərbaycanın mühüm strateji mərkəzlərindən biri olmuşdur.

## 3. QARABAĞ BƏYLƏRBƏYİLİYİ QARABAĞ XANLIĞININ SƏLƏFİDİR

Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi" əsərində Qarabağın ərazisi barədə oxuyuruq: "Qədim tarix kitablarının yazdığına görə Qarabağ vilayətinin sərhədi belədir: Cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər ~ Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmsəddin və Dəmirçihəsənli camaatı arasındadır və Rusiya dövləti məmurları onu rus istilahı ilə Krasnıy most, yəni Qızıl körpü adlandırırlar.

Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla sərhədi Kür çayına qədər Kürən çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır.

Qərb tərəfdən Küşnək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlandır.

"Nəhayət, vilayətdə baş verən iğtişaşlarla əlaqədar olaraq İran, Rum və Türküstan padşahlan buralara gəlıb bu vilayətləri ələ keçirdikdə əlahiddə sərhədlər qoymuş, qalalar tikdirmiş və onlara ayrı-ayrı adlar vermişlər"[2].

"Qarabağnamə"lərdə Qarabağ vilayətinin belə ərazi böyüklüyünün qeyd edilməsi əbəs deyildi. Məsələ ondadır ki, həmin tarixçilər, əslində, Qarabağ bəylərbəyliyi ərazisini nəzərə çapdırırdılar.

İ.P.Petruşevski Azərbaycan və Ermənistanda feodal əlaqələrinin tədqiqinə həsr olunmuş əsərində yazır: "İrsiyyətlə keçən bəylərbəyiliklərindən ən səciyyəvi nümunə Ziyadoğlu sülaləsinin hakimiyyəti altında olan Qarabağ

1 Abbasqulu ağa Bakıxanov. "Gülüstani-İrəm", səh.83

2 Bax: "Qarabağnamələr", bu nəşrin II kitabı, səh.238

(Gəncə) bəylərbəyiliyidir. Onlar Qızılbaş Qacar tayfasının Ziyəddin oymağından idilər. Həmin bəylərbəyilik XVI əsrin birinci yarısından başlayaraq 300 ilə yaxın Ziyadoğlu sülaləsinin hakimiyyəti altında olmuşdur".[1] İskəndər bəy Münşi 1554-cü ildəki hadisələrdən söz açarkən Qarabağ bəylərbəyisi Şahverdi Sultan Ziyadoğlunu xüsusi olaraq təriflǝmişdir. Şahverdi Sultan Ziyad oğlu Gəncə şəhərini mərkəz seçərkən bütün Qarabağ vilayətini idarə edirdi. Sultan Ziyadoğlu Qacar hicri 975-ci ildə (1567-68) vəfat etdi. Onun yerinə İbrahim Sultan Qarabağ bəylərbəyisi təyin olundu. Ona xan titulu verildi. Az sonra İbrahim Sultan Şahzadənin tərbiyəçisi təyin edildi və bu münasibətlə Yusif xəlifə ibn Şahverdi Sultan Ziyadoğlu öz qardaşı əvəzinə Qarabağ bəylərbəyisi göndərildi. İskəndər bəy Münşi yazır ki, Şah Təhmasib ölərkən hələ Yusif Xəlifə Qarabağa göndərilməmişdi, sarayda idi[2].

Ona görə də II Şah İsmayılın əmrinə görə Yusif Xəlifədən bəylərbəyilik fərmanı alındı, onun əvəzinə əmisi oğlu Peykar Sultan Qacar həmin vəzifəyə göndərildi. Özünün gələcək hakimiyyətindən qorxan Peykar Sultan Yusif Xəlifəni öz evində öldürdü. II Şah İsmayıl Peykar Sultanı da Qarabağ bəylərbəyiliyindən qovdu və onun yerinə İmamqulu xanı bəylərbəyi təyin etdi.

O zaman Qarabağda Cavanşirlər, Kəbirlilər, Otuzikilər və İyirmidördlər tayfaları məşhur idi. Buna baxmayaraq, Qarabağ bəylərbəyləri həmişə qacarlardan təyin olunurdu. Bu vəziyyət Qarabağın adı çəkilən tayfaları arasında böyük narazılığa səbəb olmuşdur. Aydın məsələdir ki, XVIII əsrdə Cavanşir və otuzikilərin Qarabağ bəylərbəyliyindən ayrılaraq müstəqil Qarabağ xanlığı yaratmaq səyləri qacarların təzyiqi nəticəsi idi.

1578-ci ildə İmamqulu xan Qacar Qarabağ bəylərbəyisi təyin olundu. Məhəmməd şah taxta çıxandan sonra İmamqulu xan Qacarın Qarabağ bəylərbəyisi təyin olunmasını təsdiq etdi. Bir müddət Qarabağda sakitlik hökm sürdü. Lakin 1586-cı ildə Osmanlı türkləri Azərbaycan ərazisinə daxil olaraq şiddətli müharibəyə başladılar. Qarabağ bəylərbəyisinə kömək məqsədilə şah öz qoşunları ilə Bərdə-Gəncə istiqamətində hərəkət etdi. İmamqulu xanın qoşunları da şücaət göstərdilər. Qarabağ döyüşçüləri bir az əvvəl şah qoşunları ilə birlikdə Çuxur-Səəd uğrunda döyüşlərdə iştirak etmişdilər. Mənbələr göstərir ki, bu döyüşdə 150000 Qarabağ əsgəri iştirak etmişdir[3].

Qarabağın "otuziki" və "iyirmidörd" oymaqlarının döyüşçüləri Şirvanın türklərdən müdafiəsində də iştirak etmişlər. Xatırladaq ki, "iyirmidörd"lərin əsas tərkibi kəbirlilərdən ibarət idi.

1587-ci ildə İmamqulu xan Qacar öldü. Şahverdi xan Ziyadoğlunun nəvəsi Məhəmməd xan Qarabağ bəylərbəyisi təyin olundu. 1588-1589-cu illərdə Qarabağ türklərin hakimiyyəti altında idi. O zaman Arazbarda yerləşdirilmiş

---

1 И.П.Петрушевски. Очерки по истории феодальных отнешений, стр.122.

2 İskəndərbəy Münşi. Tarixi-aləm arayi-Abbasi, Tehran, 1255, səh. 86-88.

3 Nəqavət əl-esar, səh.207; Tarixi-alem arayi-Abbasi, səh. 233-235.

Qarabağ əmirləri Gəncənin türklərdən azad edilməsi üçün ciddi mübarizəyə başlamışdılar. Şah Abbasın türklərlə sülh danışığı apardığı bir şəraitdə Məhəmməd xan Gəncənin mühasirəsindən əl çəkmək haqqında göstəriş verdi.

İskəndər bəy Münşi Qarabağ vilayətindən danışarkən onun səfalı ab-havasının, bağ və meşələrinin, gözəl otlaqlarının dünyada misli-bərabəri olmadığını göstərir.

XVI əsrin sonu - XVII əsrin əvvəllərində, türklərin Gəncədə hakimiyyəti dövründə Qarabağ bəylərbəyisi Davud Paşa idi. O, Ziyəddin oymağından olan Astarabad hakimi Hüseyn xanın 7000 nəfərlik ordusu ilə Araz çayı kənarında vuruşmalı oldu. Hüseyn xan qarabağlıların "otuziki" tayfasının köməyi ilə Gəncəyə tərəf hərəkət etdi. Məhəmməd xan Ziyadoğlu 1610-cu ildə Gürcüstanda və 1611-ci ilin oktyabr ayında İrəvan altında vuruşmadan sonra daha böyük şöhrət qazandı. O, osmanlı türkləri ilə Gürcüstanda müharibə edərkən 1616-cı ildə öldürüldü[1].

İ.P.Petruşevski göstərir ki, onun ölümündən sonra oğlanları Mürşüdqulu və Məhəmmədqulu xan növbə ilə Qarabağ bəylərbəyiləri təyin edilmişdir[2]. Lakin İskəndər bəy Münşinin yazdığına görə, gürcülərin şah əleyhinə üsyanından sonra Məhəmmədqulu xan Qarabağ bəylərbəyliyindən azad edildi və onun yerinə Davud xan Allahverdi xan oğlu Qarabağ bəylərbəyisi təyin olundu"[3].

Səfəvilər dövründə ilk dəfə olaraq Qarabağ bəylərbəyiliyinə Qacar nəslindən olan Ziyadoğulların deyil, Davud Paşanın teyin olunması burada ictimai-siyasi həyatda heç bir mühüm dəyişikliyə səbəb olmadı. Sonrakı dövrdə Qacarların təsiri və köməyi nəticəsində yenidən Qarabağda onların vərəsəlik hüququ bərpa olunmağa başlandı, Davud xanın Qarabağ bəylərbəyisi olduğu dövrdə Gürcüstan hakimi Teymurazla birləşərək Gəncəyə daxil olmuş və xalqa olmazın əziyyət vermişdir. Nəticədə şahın fərmanı ilə Məhəmmədqulu xan Ziyadoğlu Qacar Qarabağ bəylərbəyisi təyin olundu. Gəncəyə tutulan divana əvəz olaraq Teymuraz vəzifəsindən götürüldü və Gürcüstan hakimi vəzifəsinə Xosrov Mirzə təyin olundu[4].

1636-cı ildə Qarabağ bəylərbəyisi Məhəmmədqulu xan Ziyadoğlu Qacar İrəvan altında osmanlı ordusu ilə vuruşdu. O, başqa vilayətlərin qoşun hissəsi ilə bərabər İrəvan qalasını mühasirəyə aldı və türkləri geri çəkilməyə məcbur etdi.[5]

1664-cü ildə Məhəmmədqulu xan Ziyadoğlunu həmin vəzifədə Murtuzaqulu xan əvəz etdi. Onun ölümündən sonra isə yaxın qohumu Uğurlu xan Qarabağ bəylərbəyisi təyin edildi[6]...

---

1 İskəndər bəy Münşi. Tarixi-alem arayi Abbasi. Tehran, 1350, səh.788-789.

2 И.П.Петрушевски. Очерки по истории феодальных отнешений, стр.123

3 İskəndər bəy Münşi. Tarixi-aləm arayi Abbasi. Tehran, 1350, səh.1365.

4 Xolda barin, vər.64b-65v.

5 Yenə orada, vər.l01a-104b

6 Xulaset-əs Siyyar, səh.77.

Səfəvilər hakimiyyəti dövründə Qarabağ bəylərbəyilərinin ilk qısa xronikası belədir: onlar erməni mənbələrinin göstərdikləri kimi, köçəri olmayıb, oturaq həyat keçirirdilər. Qarabağın həqiqi əhalisi isə cavanşirlər, otuzikilər, iyirmidördlər, baharlı və başqa oymaq və nəsillərdən ibarəti idi.

Şah İsmayılın başçılıq etdiyi Səfəvi dövləti Azərbaycanı idarə etməyi asanlaşdırmaq məqsədi ilə onu bir neçə bəylərbəyiliyə bölmüşdü. Azərbaycanın əsas ərazi mərkəzi Şamaxı şəhəri olmaqla Qarabağ bəylərbəyiliyi, Təbriz mərkəz olmaqla Təbriz bəylərbəyiliyi yaradılmışdı. Naxçıvan diyan əvvəlcə Təbriz, sonralar Çuxur Səəd bəylərbəyiliyi tərkibində idi[1].

Nadir şahın hakimiyyəti dövründə və XVIII əsrin ortalarında Gəncə bəylərbəyiliyi və Gəncə xanlığının başında dayananlar Ziyadoğlu nəslindən idi. Gəncəli Cavad xan da Ziyadoğlu Uğurlu nəslinə mənsubdur. Cavad xanın 1795-ci il hadisələri zamanı Ağaməhəmməd şaha rəğbət göstərməsi onun etnik cəhətdən Qacar nəslindən - tayfasından olması ilə əlaqədar idi.

XVIII əsrin ortalarında Azərbaycan ərazisində xanlıqların yaranması yerli əhalinin İran və Türkiyə işğalma, zülmünə qarşı narazılığının nəticəsi kimi, xalqların suverenlik əldə etmək arzusu ilə bağlı idi.

## 4. QARABAĞ XANLIĞININ TƏŞƏKKÜLÜ. PƏNAHƏLİ XAN

XVIII əsrin əvvəllərində Azərbaycanı ələ keçirmək uğrunda çar Rusiyası, Sultan Türkiyəsi və İran şahlığı arasında siyasi mübarizə kəskinləşmişdi.

Zaqafqaziya hüquqi cəhətdən İran şahlığına tabe olmasına baxmayaraq, I Pyotrun dövründə Xəzərsahili Azərbaycan ərazisi Rusiya tərəfindən zəbt olunmuşdu. İngiltərə və Fransa imperialistlərinin təhriki ilə XVIII əsrin 20-30-cu illərində Zaqafqaziyanın geniş ərazisi Osmanlı imperiyası tərəfindən işğal edilmişdi. Zaqafqaziya uğrunda hərbi-siyasi mübarizənin güclənməsinə İran mərkəzi dövlətinin zəifləməsi səbəb olmuşdur...

XVIII əsrin 30-cu illərində Nadir şah Əfşarın hərbi yürüşləri İranda və Zaqafqaziyada vəziyyəti müvəqqəti olaraq dəyişdi. Zaqafqaziya xalqları Nadir şahın mütləq hakimiyyəti altına keçdi. Onun ağır hərbi cəza tədbirləri çox baha başa gəldi. Azərbaycanın Şamaxı kimi qədim şəhəri viranəyə çevrildi. Azərbaycanı aclıq, səfalət bürüdü. Nadir şah əleyhinə narazılıq və üsyanlar ara vermədi.

Nadir şah iki əsrdən artıq mövcud olmuş Qarabağ bəylərbəyiliyinə də divan tutdu. Buna görə də, qarabağlıların bir qismi öz torpaqlarından Əfqanıstan sərhədlərinə köçürüldü. Bu qanlı cinayətə səbəb erməni Xəmsə məliklərinin təşəbbüsü və Nadir şahın Qarabağda ağılsız hərəkəti idi. 1736-cı il Muğan

1 Bax: Azərbaycan tarixi, c. I. Bakı, 1958, səh.263.

tacgüzarlıq qurultayında Qarabağ bəylərbəyiliyi Nadirin şah elan olunmasına etirazını bildirmişdi. XIX əsrin Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəy yazır: "Beləliklə, Gəncə xanları tamamilə öz hüquq və səlahiyyətlərindən məhrum oldular. Hakimiyyətin cilovu onların elindən düşdü və onlar qanadı sınmış quş vəziyyətində qaldılar..." Nadir şahın zülmü Azərbaycan xalqının istiqlaliyyət mübarizəsinə səbəb oldu. Nadir şah dövründə Azərbaycanda yalnız Quba və Talış xanlıqları mövcud idi. Nadir şahın vəfatından sonra Azərbaycan kiçik feodal dövlətlərinə - xanlıqlarına bölündü: Qarabağ, Şəki, Şirvan, Gəncə, Bakı, Ərdəbil, Xoy, Qaradağ, Dərbənd, Naxçıvan, Təbriz, Urmiya, Marağa, Maku xanlıqları...

Qarabağ xanlığının yaranması tarixi bir zəruriyyət idi. Qarabağ xanlığının banisi Pənahəli xan (1703-1763) Cavanşir nəslindən idi. O, uşaqlıqdan at minməyi, qılınc oynatmağı, nişan almağı yaxşı öyrənmişdi. Nadir şahın qoşununda xidmət edərkən igidliyə görə fərqlənmiş, Türkiyə ilə müharibədə onun xüsusi rəğbətini qazanmışdı. Qardaşı Fəzləli bəy də onun kimi igid idi. Bu səbəbdən hər iki qardaş şah sarayına aparılmışdı. Lakin Qarabağda Cavanşir, Otuziki, Kəbirli tayfalarının Xorasan yaxınlığına sürülməsi hər iki qardaşı narazı salmışdı. Bunu duyan Nadir şah əvvəlcə eşikağası vəzifəsində işləyən Fəzləli bəyi öldürdü, onun yerinə qardaşı Pənahəlini təyin etdi. Pənahəli isə qardaşı kimi öldürüləcəyini hiss edərək 1745-ci ildə İrandan Zaqafqaziyaya qaçdı... və partizan müharibəsinə başladı. Pənahəli bəyin gənc arvadı üç uşaqla (İbrahimxəlil ağa, Mehrəli bəy və Tahbxan bəy) birlikdə Sərəxsə sürülmüşdü. Atasının sarayından qaçıb qaçaqçılıq etdiyini bilən 15 yaşlı İbrahimxəlil ağa uzaq Əfqan sərhədindən Qarabağa gəlib tezlikle Çuxur Qəbələdə atasını tapdı.

"Qarabağnamə"lərdə Qarabağ xanlığının yaranması, təşəkkül tapmasını şərtləndirən ictimai-siyasi amillər ön plana çəkilir. Qarabağ xanlığı məhz Nadir şahın ölümündən sonra İranın siyasi, hərbi iqtidarının zəifləməsi nəticəsində mümkün olmuşdur...

Qarabağ xanlığının təşəkkül tarixini öyrənmək üçiin ən etibarlı mənbələrdən biri Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi" əsəridir. Mirzə Camal və onun oğlu Rzaqulu bəy digər "Qarabağnamə" müəlliflərindən fərqli olaraq öz əsərlərində siyasi məsələlərlə yanaşı iqtisadi məsələlərə də diqqət yetirmişlər.

Pənahəli xan hakimiyyətinin ilk illərində yeni şəhər və kəndlər salmağa xüsusi əhəmiyyət verirdi. 1750-ci ildə Azərbaycanın şöhrəti olan Şuşa şəhərinin salınması məhz onun adı ilə bağlıdır. Qarabağ xanları qədim Beyləqan ətrafında olan arxların bərpasına böyük əhəmiyyət verirdilər. O yazır: "Pənah xan və İbrahim xanın hökmranlığının ilk illərində bu arxlardan istifadə olunur və xanlar onlardan gəlir əldə edirdilər. Arxların adı belədir: Kürək arxı, Luvar arxı, Mehmənə arxı, Gəmiçi arxı, Sarı arxı, Ayaz arxı, Taşqay arxı, Xan arxı[1].

1 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.124.

Mirzə Camal yazır ki, torpağın məhsuldarlığı, suyun bolluğu hər arxın ətrafında 5-6 min ailənin yaşamasına imkan verirdi, həmin arxların suyu ilə suvarılan əkin yerlərində taxıl, çəltik, pambıq, çəkil (tut) və başqa hər cür bitki əkilərsə, bollu məhsul əldə etmək olar. Belə ki, bir çətvər buğdadan iyirmi, hətta ondan da artıq məhsul yığmaq olar. Xüsusilə buranın çəltiyi və dansı bol olur. Əgər bu bitkilərdən bir çətvər əkilərsə, təxminən əlli çətvər, hətta ondan daha artıq məhsul əldə edilə bilər[1]...

Əsərin "Qarabağ vilayətinin təbəəliyi, köhnə adət və qaydaları haqqında" adlanan ikinci fəslində Qarabağın son əsrlərdə siyasi və coğrafi vəziyyətindən söz açılır. Müəllif yazır ki, Qarabağ və ona daxil olan Xəmsə məlikləri (Dizaq, Vərəndə, Xaçın, Çiləbörd, Talış) Gəncə bəylərbəyiliyinə tabe olmuşlar.

Mirzə Adıgözəl bəyin "Qarabağnamə"si ilə Mirzə Camalın "Qarabağ tarixi" əsərlərinin müqayisəli təhlili göstərir ki, bu əsərlər biri-birini tamamlayır, zənginləşdirir.

Mirzə Adıgözəl bəyin əsərlərinin I fəsli "İranın tənəzzül dövründən, Nadir şahın taxta çıxmasından və emələ gələn başqa hadisələrdən" bəhs edir:

"Pənahəli bəy əslən Sancalı tayfasındandır... Gəncə vilayəti xanlarının işi tərəqqidə olduğu zaman o, Gəncə tərəfinə gedib onların (Gəncə xanlarınm) hüzurunda xidmət etdi. Uca hümmet sahibi olan Pənahəli bəy qulluq etməyi özünə layiq görmədi. O, Qarabağ vilayətinin Cavanşir oymağına gəldi. Şir qüvvət cavanın bəxti ona yar olub, çox varlandı. Evləndi, əziz və xoşbəxt bir oğlu oldu. O, yüksəklik səması parlaq ulduzunun adını Əli qoydu. Onun aləmi işıqlandıran sarı bənizi ata-ananın ürəyini, kəhrəba səmanı çəkən kimi, özünə cəlb edirdi. Buna görə onu "Sarıca Əli" deyə çağırırdılar"[1].

Daha sonra Mirzə Adıgözəl bəy yazır ki, hazırda Qarabağda mövcud Sarıcalı kəndi bu adı daşıyır. Çox dövlət və nüfiız sahibi olduğuna görə onun başına neçə naxırçı, muzdur, xidmətkər, çoban və ilxıçı toplandı və böyük bir oba oldu. O obanın adı isə "Sarıcalı" qaldı. Pənahəlidən sonra onun oğlu İbrahimxəlil atasına layiqli varis oldu: "...Bu dövlət və nüfiız İbrahimxəlil ağanın ixtiyarına keçdiyi zaman daha da artdı. O, böyük dövlət sahibi olduğundan adı dillərə düşüb məşhur oldu. Onun Ağdamdakı bağı və həsər-divarı, Araz kənarındakı mülkü, mal-qarasının otlaq və yataqları, yaylaqda "İbrahimxəlil qalası" adı ilə məşhur olan bir sıra imarəti onun varlı və böyük calal sahibi olmasına adil bir şahiddir"[2].

Rzaqulu bəy Mirzə Camal oğlunun "Qarabağnamə"si özünün qeyd etdiyi kimi, atası Mirzə Camalın "Qarabağ tarixi" əsərinin xülasəsindən başqa bir şey deyildir. Lakin Rzaqulu bəy bəzi məsələləri atasına nisbətən daha aydın şərh etmişdir. Rzaqulu bəy yazır: "...Mərhum Pənah xanın xatirindən hökumət qurmaq fikri keçdikdə Qarabağ kəndlilərinin, elatının əhalisini öz başına

---

1 B ax: "Qarabağnamolər", bu nəşrin I kitabı, səh.37

2 Yenə orada

toplamağa başladı. Iranda hökmü keçən nüfuzlu, müstəqil padşah olmadığından, həm də Gəncə hakiminin (Qarabağ bəylərbəyiliyi nəzərdə tutulur (N.A) öz hökmünü Qarabağ ellərində və kəndlərində yeridə bilmədiyindən Pənah xanın başına toplaşanlar ona itaət etdilər"[1].

Pənahəli xanın başçılıq etdiyi Qarabağ xanlığı heç bir dövlətdən asılı olmayan suveren feodal dövləti kimi yaradıldı. Rzaqulu bəy yazır ki, ...Pənahəli xanın Qarabağın bütün elatını və kəndlərini, həmçinin mahallarını ələ keçirib, hökmranlıq etdiyi dövrdə, onun vəfatından sonra isə mərhum İbrahim xanın müstəqil hakimiyyəti dövründə Qarabağ vilayətindən heç bir padşaha istər külli və istərsə də cüzi olaraq xərc və vergi verilməmişdir.

"Qarabağnamələr"də tez-tez "Otuziki" tayfasının adı çəkilir. (Hazırda Azərbaycanın İmişli rayonu ərazisində "Otuzikilər" adlı bir kənd vardır). Mənbələrdə göstərilir ki, bu adın yaranması XVI əsrə aiddir. Həmin əsrdə Qarabağda yerli tayfaların birləşməsi nəticəsində "Otuzikilər" yaranmışdır. Bu tayfalar içərisində Cavanşir tayfası sayca və qüdrətcə başqa tayfalardan seçilirdi. Cavanşirdən çıxanlar eyni zamanda "Otuziki"lərə başçılıq etmişlər. Həmin tayfaya aid kəndlərin bir çoxu XVIII əsrin sonu XIX əsrin əvvəllərində hazırkı Mirbəşir (indiki Tərtər), Kəlbəcər, Bərdə, Qasım İsmayılov (indiki Goranboy), Yevlax, Ağdam ərazilərində yerləşmişdir. Bu səbəbdən çarizm dövründə Yelizavetpol quberniyasının tərkibinə daxil olan Cavanşir qəzası (Mərkəzi Tərtər qəsəbəsi idi) əsasən həmin tayfalara mənsub yaşayış ərazisini əhatə etmişdir. Cavanşir qəzası Azərbaycanda Sovet hakimiyyətinin qələbəsinə qədər mövcud idi.

Pənahəli xan Qarabağın Gəncədən və Şirvandan asılı olmaması üçün müdafiə tədbirləri görməyə başladı: "...Məşvərətdən sonra Kəbirli mahalı içində olan Bayat qalasının əsası qoyuldu. Qısa bir zamanda möhkəm hasar və xəndək çəkdirdi. Bu qalada bazar, hamam və məscid tikdirdi. Bütün ailəsini, qohumlarını və el böyüklərinin əhl-əyalını oraya topladı. Ətrafda olan camaat, hetta xanın tərəqqisini, onun rəftar və məhəbbətini eşidən Təbriz və Ərdəbil vilayətlərinin bir çox əhalisi və sənətkarları belə öz ailələri ilə birlikdə Bayat qalasında yerləşdilər"[2].

Əhməd bəy Cavanşir Pənahəli xanın İran dövləti ilə diplomatik əlaqələri haqda yazır: "Nadir şah öldürüldükdən sonra İran taxtına onun qardaşı oğlu Adil şah çıxdı. İşğal edilmiş yerlər onun tərəfdarları arasında bölüşdürülərkən o zaman Zaqafqaziyanı da əhatə edən Azərbaycan valiliyi Sərdar Əmiraslan xanın payına düşmüşdü. Pənah xan isə məliklərə rəğbət bəsləyərək və ona həsəd aparan qonşu xanların fitnələrindən qorxuya düşüb, xaricdən kömək və ya himayə axtarmağa məcbur oldu. Buna görə də, o, Sərdar Əmiraslanın yanına

---

1 Bax: "Qarabağnamələr", bu neşrin II kitabı, səh.242.

2 Yenə orada, səh.243.

elçi göndərib şaha öz itaətini bildirdi. Yenicə Təbrizə gəlmiş olan və belə iğtişaşlı məmləkətdə müttəfiq tapmaqda çətinlik çəkən Sərdar Əmiraslan xan üçün bu göydəndüşmə bir şey oldu. Bundan bir az sonra Sərdar çoxlu qoşunla Bayata gəldi. Burada o, Pənah xanla birlikdə Şamaxı, Nuxa və Gəncə xanlıqlarını Adil şahın təbəəliyinə tabe etdi. Pənah xanın hökumətə göstərdiyi bu xidmət müqabilində Sərdarın xahişi ilə Adil şah tərəfindən verilmiş fərmana əsasən Qarabağ xanlığı xüsusi bir malikanə kimi ona verildi. Lakin Adil şahın və onun valisi Əmiraslan xanın hökmranlığı çox sürmədi: birincini (Adil şahı) Nadir şahın nəvəsi Şahrux Mirzə, ikincini (Əmiraslan xanı) isə qaradağlı Kazımxan öldürdü..."

Xanlığın ilk illərində İran feodal hakimləri ilə çox ehtiyatla rəftar etməsi Pənah xanın diplomatik manevri idi. Burada Pənahəli xanla Əmiraslan xan arasındakı yaxın dostluğun sirləri açılmamış qalır. Necə olur ki, Pənahəli xan ona Şamaxı, Nuxa və Gəncə xanlığının itaətə gəlməsində kömək göstərdi? Az sonra Təbrizin Əfqanlı Azad xan qüvvələrindən müdafiəsi üçün Pənahəli xan oğlu Mehrahbəyi üç minlik süvari ilə Məhəmmədhəsən xan Qacarın ordusuna köməyə göndərdi?

Məsələ burasındadır ki, heç bir mənbədə Nadir şahın sərkərdələrindən biri olan Əmiraslan xanın Pənahəli xanın ögey qardaşı olması haqqında məlumat verilmir. Yalnız P.Butkovun "Qafqazın yeni tarixi üçün materiallar" əsərində bu haqda danışılır[1].

Mirzə Adıgözəl bəy yazır ki, Bayat qalası 2 yanvar 1748-ci ildə tikilməyə başlanmış həmin ilin 22 noyabrında başa çatmışdır. Qalanın ətrafında səngər və başqa müdafiə tikintiləri də olmuşdur. "Pənahəli xan yaxın adamlarını yığıb dedi ki, "bundan sonra çöllərdə vaxt keçirməklə istənilən məqsədə çatmaq oltnaz. Yaxşısı və münasibi budur ki, möhkəm bir bina və qala tikilsin. Bir hadisə üz verdiyi zaman ora məskən... aman evi olsun. Çünki şir nə qədər heybətli olsa da, ona bir hin lazımdır..."[2].

Pənahəli xanın hakimiyyəti dövründə ilk müharibə Bayat qalasında, 1748-ci ilin son günlərində baş verdi. Bu müharibə şəkili Hacı Çələbi xanın Bayata hücumu ilə əlaqədar idi. Çələbi xanı Pənahəli xan üzərinə qızışdıranlar Xəmsə erməni məlikləri idi. Pənah xanı aradan qaldırmaq üçün Şirvan və Şəki hakimləri böyük qoşunla Bayat qalasına hücum edərək onu mühasirə etdilər... Həmin mühasirə bir aydan artıq davam etmişdir. Bu müddətdə Pənahəli xan dəfələrlə qaladan çıxaraq öz döyüşçüləri ilə Şəki və Şirvan qüvvələrinə zərbələr endirmişdir.

Mirzə Camal yazır: "Şirvan və Şəki xanları heç bir iş görə bilmədilər... Zəmanəsinin kamil adamlarından olan Şəki vilayətinin hakimi Hacı Çələbi

---

1 В ах: П.Бутков. Материалы для новый истории Кавказа, ч. I. СПб., 1896, стр.235-236.

2 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.40

qayıdan zaman bu sözləri dedi: "Pənah xan bir xan idi. Biz gəldik onunla dava elədik və bir iş də görə bilmədik. Biz indi onu şah edib qayıdırıq"[1].

Qarabağ xanlığının şöhrəti Bayat qalasındakı döyüşlərlə başlamışdır. Lakin bu böyük abidədən bu gün bir iz belə qalmamışdır.

Pənahəli xanın nəvəsi Məhəmməd bəy Cavanşirin həyatından povest yazmış Aqil Abbas doğma kəndi Bayatdakı tarixi qala haqqında yazır:

"Kəndimizdə bir qala vardı. Pənah xanın qalası deyərdilər. Və biz uşaqlıqda o qala divarlarının üstündə dava-dava oynardıq. Bir gün əmilər həmin qalanı elə sökdülər ki, indi heç bir arxeoloq haçansa bu yerlərdə qala olduğunu sübut eləyə bilməz. Qala söküləndə hamı tamaşasına yığılmışdı. Mən də nənəmin ətəyindən yapışıb baxırdım. Bir də gördüm ki, Əsmət nənənin gözlərindən yaş axır və qarı qalanı sökənləri lənətləyir. Bu qalanı niyə sökürsünüz, ay bala? Onu sizin babalar tikmişdi axı? Onların ruhundan qorxun. Bu qala Qacara can verməyən qaladı"[2].

Pənahəli xanın qat-qat güclü olan Şəki və Şirvan xanlığına qalib gəlməsi onun şöhrətini xeyli ucaltdı. Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sində oxuyuruq: "...Onlar (yəni Şəki və Şirvan xanları - N.A.) həmişə bu dövlətin yox olması uğrunda son dərəcə səy və qeyrət edirdilər. Onlar Xəmsə məliklərini də özlərinə həmməslək və müttəfiq etmişdilər. O zaman bütün Şirvanatda əbədi ixtiyar sahibi və hökmran olan Hacı Çələbiyə ərizələr yazdılar. Ona bildirdilər ki, Pənah xan burada taxta çıxmış, qala və səngər tikdirmişdir. Əgər dəfində bir qədər təxir edilsə, sonra onun qarşısında durmaq mümkün olmayacaqdır..."

"...Hacı Çələbi də bu hiyləyə aldanıb fitnəkarlığa başladı. Dərbənd, Car və Balakənədək bütün Şirvanat qoşununu cəm etdi... Saysız əsgər və hesabsız qoşunla, tam bir calal və vəsfgəlməz bir dəbdəbə ilə gəlib Bayat qalasını dörd bir tərəfdən mühasirəyə aldı. Pənah xan da qabaqcadan bütün elata bu əhvalatı bildirmiş və hamısını yığıb səngərə dolduraraq sığınaq etmişdi. Hacı Çələbi gəldi və mühasirə ilə məşğul oldu. Hər gün müharibə gedir, didişib-döyüşməkdən əl çəkmirdilər. Axırda Hacı Çələbi məqsədinə çatmadan, külli zərərlə qayıtmaq təbilini vurdurdu. O, yolda gedərkən dedi: "Pənah xan bu vaxtacan bir sikkəsiz gümüş idi. Biz gəldik ona sikkə vurduq və qayıtdıq". Bu söz xalqın dilində və camaatın ağzında bir məsəl olaraq qalmışdır"[3].

Pənahəli xan Bayat qalasının strateji baxımdan zəif olduğunu, orada qoşun saxlamağın çətinliyini, iqlimin istiliyini nəzərə alıb yeni müdafiə qalası tikdirməyi qərara aldı. "İndi Şahbulaq adı ilə məşhur olan Tərnəküt qalasının binası qoyuldu. Məsləhətə görə, Bayat qalasını tərk etdilər. Şahbulaqdakı böyük çeşmə

1 B ax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.127.

2 Aqil Abbas. Batman qılınc. "Ulduz", 1988, №1

3 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.41.

yanında qala tikərək, onun ətrafında yüksək yerdə geniş hasar hördülər. Bazar, çarsu (meydan), hamam və məscid tikdilər"[1].

Bayat qalası və orada Pənahəli xanın qələbələri, Tərnəkütdə Şahbulaq qalasının tikilməsi, Xəmsə məliklərinin itaət altına alınması Pənahəli xanın nüfuzunu sürətlə artırdı. Azərbaycan xanlıqları onu tanımağa, əlaqə yaratmağa səy göstərdilər. Bununla da, İran dövlətinin Pənahəli xanı Qarabağ ərazisinin müstəqil hakimi kimi tanınmasına siyasi şərait yarandı.

Pənahəli bəyə xanlıq fərmanı da məhz Bayat qalasında təqdim olunmuşdur.

Adil şahın hakimiyyəti də uzun sürmədi. Nadir şahın oğlu Şahrux Mirzə onu öldürdü və şahlıq taxtına oturdu. İranda mürəkkəb siyasi böhran davam edirdi.

Qarabağda isə Pənahəli xanın şöhrəti gün-gündən artırdı: "Şirvan, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Təbriz və Qaradağ xanları Pənahəli xanın yanına elçi və məktub göndərib, onunla dost və müttəfiq olmaq istədiklərini bildirdilər[2].

Pənah xan bir çox yeni əraziləri Qarabağa ilhaq etdi: "...Naxçıvan, Təbriz, Qaradağ hakimlərini hökmü altında olan Naxçıvanın Zəngəzur, Təbrizin Qapan və Qaradağın Çuldur və Meqri mahallarına əl uzadaraq hamısına sahib oldu.[3] Onları Qarabağın başqa rəiyyətlərinə qataraq, hamısına məliklər və sultanlar təyin etdi.

Pənahəli xanın Gəncə, İrəvan, Naxçıvan və xüsusilə Ərdəbil üzərində təsiri güclü idi: "Sarıcalı Dərgahqulu bəyi Ərdəbilə hakim təyin etmişdi"[4].

Pənahəli xanın Şahbulaqda möhkəmlənməsi ərəfəsində erməni Xəmsə məlikləri[5] ilə münasibətlərini qaydaya saldı. Xəmsə məlikləri XVI əsrdən bəri Qarabağ bəylərbəyiliyinə tabe idilər. Onlar Pənahəli xanın Qarabağ xanı elan olunması ilə razılaşmadılar. Xəmsə məliklərindən ilk dəfə könüllü olaraq Pənahəli xanın itaətini qəbul edən və onunla dostluq əlaqəsi saxlayan Vərəndə məliki Şahnəzər idi. Bundan bir qədər əvvəl isə Xaçın məlikinin silahlı qüvvələri Ballıqaya deyilən yerdə Pənahəli xanla üz-üzə gəlib məğlub olmuşdular.

Tərəddüddən sonra Xaçın məliki də Pənah xana "...Tabe oldu və mərhum Pənah xan tərəfindən ata-babasından qalmış… ayrıca mülkünə təyin edildi. Bütün Xaçın əhalisi itaət edərək tapşırılan xidmətləri düzgün yerinə yetirirdilər"[6].

Pənahəli xanın müstəqil Qarabağ xanlığı yaratmasına xüsusilə Talış və Çiləbörd məlikləri ciddi müqavimət göstərirdilər. Rzaqulu bəy yazır: "...Çiləbörd və Talış mahallarının qədim məlikləri olan Məlik Hətəm və Məlik

---

1 B ax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.129.

2 Yenə orada

3 Vaxtilə Qarabağ xanlığına tabe olan Zəngəzurun Qapan, Mehri, Gorus, Sisyan ərazisi Ermənistan SSR-ə 1920-ci ildə verilib.

4 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.130.

5 Xəmsə məlikləri ərəbcə beş sahibkar mənası ifadə edir; Xəmsə məlikləri XVII əsrdən başlayaraq onlara xalq tərəfindən verilən addır. Əsilləri qədim Alban knyazlıqlarındandır.

6 B ax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh. 128.

Usub bəy birləşərək, möhkəm və keçilməsi çətin olan yerlərdə Pənah xanla bir neçə dəfə vuruşdular, gah qalib gəlib, gah da məğlub oldular. Bu surətlə, Çiləbörd və Talış mahallarının əhalisi asudə dolanıb, əkin əkib, rahat yaşaya bilməyirdilər. Həmişə davada idilər. Pənah xanın atlı və piyada əsgərlərinin əlindən əziyyət çəkirdilər. Nəhayət, çətin keçilən yerlərdə, dərin dərələrdə və yüksək dağlarda yaşamaqdan təngə gəlib, evlərini, bağlarını və əkinlərini buraxıb ailələri ilə birlikdə cəlayi-vətən oldular. Onlar Gəncə tərəfə qaçıb Şamxor mahalında və Gəncənin dağlıq kəndlərində məskən saldılar. Bu yerlərdə onlar yeddi il qaldılar. Yeddi ildən sonra İbrahim xanın Qarabağda müstəqil hakim olduğu və Qarabağ vilayəti əhalisinin bütünlüklə ona tabe olduğu vaxtda Xaçın və Çiləbörd mahallarının əhalisi də Qarabağa qayıdıb, ürəkdən ona tabe oldular...."[1].

Əhməd bəy Cavanşir Xəmsə məliklərinin Pənah xanla münasibətlərini qısaca olaraq belə xülasə etmişdir: "...Pənah xanın igidliyi haqqında dillərə düşən dastan, o zaman Qarabağda yaşayan bütün müsəlman tayfalarını müharibəsiz olaraq onun təbəəliyinə tabe etdirdi. Bu hərc-mərclik dövründə bir növ müstəqilləşən erməni Xəmsə məliklərindən Şahnəzər könüllü surətdə Pənah xanın təbəəliyini qəbul etdi. Qalan dörd məlikdən Xaçın məliki Ulubab Balhca oymağı yanında oğlanları ilə birlikdə qılıncdan keçirildi. Qonşu vilayətlərdən toplanmış xəzinə pullarını saxlayan Tuğ və ya Dızaq məliki Yeqan öz oğulları və qohumları ilə birlikdə kəskin müqavimət göstərdikdən sonra onların bir hissəsi qırılmış, birhissəsi isə islam dinini qəbul etmişdi. Türklərə qarşı Nadir şahın müharibəsində öz igidliyinə görə Sultan rütbəsi almış Çiləbörd məliki Allahqulu - Sultan əvvəlcə onun təbəəliyini qəbul etmiş, lakin sonralar xəyanətdə ittiham edilərək Pənah xanın əmri ilə öldürülmüşdü. Onun qardaşı Məlik Hətəm Talışın beşinci məliki Məlik Usubla ittifaq bağlayıb, uzun müddət öz obalarını Pənah xan dəstələrinin hücumlarından müdafiə etmiş, lakin Mardakert kəndində uğradıqlan məğlubiyyətdən sonra Tərtər çayının yuxarılarında yerləşən alınmaz Çınnıx qalasına çəkilmişdilər. Bir ilə qədər qalada qaldıqdan sonra nəhayət, öz ailələri ilə birlikdə qürbət ellərdə nicat axtarmah olmuşdular. Lakin onlar bununla öz siyasi fəaliyyətlərini bitirmədilər. Belə ki, sonralar onların həm özləri və həm də övladları (birincinin oğlu Məlik Məcnun) daim Qarabağa hücumlar edirdilər..."[2].

Bu məliklər sonralar Gülüstan məlikləri adlandırılırdılar. Çünki onlar öz iqamətgahını Gəncədən cənub-şərqdə yerləşən İncəçayın yuxarısındakı Gülüstan qalasına köçürmüşdülər. Pənahəli xanın Xəmsə məlikləri ilə əlaqəsindən danışan Mirzə Yusif Nersesov yazır ki, Məlik Şahnəzər Qarabağ xanlıqları dövründə onlara çox xidmət göstərmişdir. Buna görə də böyük hörmətə malik idi. Hətta Məlik Şahnəzər işin və vəziyyətin yazşılaşması xatirəsi üçün qızı Hürzəti Pənah xanın oğlu İbrahim xana ərə verdi. Beləliklə, onların arasında yaxınlıq və qohumluq yarandı.

1 Bax: "Qarabağnamələr", bu nəşrin II kitabı, səh.245.

2 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh. 180-181.

Pənah xana ən çox müqavimət göstərən Çiləbörd məliki Allahqulu Sultan idi. Allahqulu Pənah xanla danışıq aparmaq üçün onunla Ağoğlanda görüşmüşdür. Bu görüşlərdə iştirak edən Naxçıvan xanı Heydərqulu xanın təhriki ilə Allahqulu Sultan öldürülmüşdür. Onun yerinə keçən Məlik Hətəm, qardaşının intiqamını almağa çalışırdı. Bu işə Talış məliki Məlik Usubu da cəlb etdi. Pənah xan onların yerləşdiyi Çırmıx qalasını almaq üçün dəfələrlə döyüşə girməyə məcbur oldu. Məlik Hətəm məğlub oldusa da, uzun müddət Qarabağ xanlığına qarşı düşmən münasibət bəslədi. Məsələn, 1795-ci ildə Ağa Məhəmməd şah Qacar Qarabağa hücum edərkən Məlik Hətəmin oğlu Məlik Məcnun onun yanında idi. Şuşanı ala bilməyən Ağa Məhəmməd şah Qacarı Tifiisə qədər müşayiət etmişdir. Mirzə Adıgözəl bəyin Xəmsə məlikləri barədə rəyi daha səhihdir. O yazır ki, Vərəndə məliyi Məlik Şahnozər əmisi Məlik Hüsünü öldürüb məlik olmuşdur. Bu səbəbdən Xəmsə məlikləri Vərəndəni qarət etdilər, Çanaqçı qalasını ala bilmədilər. Əhd etdilər ki, gələn bahar qalanı alsınlar. Bu səbəbdən Məlik Şahnəzər Pənah xana pənah apardı: "Məlik Şahnəzər özünü zəif və qol-qanadını sınmış gördü. O, gələcəyi gördüyündən, niyaz üzünü qul bəsləyən xanın kandarına sürtdü, itaət sırğasını qulağına asdı və xidmət komərini belinə bağladı. Xanın hüzurunda lazımi dərəcədə canfəşanlıq etdi və son dərəcə mehribanlıq göstərdi. İndiki Şuşa şəhərinin yerini mərhum xanın yadına salıb, ona tərif etdi. Sonra xanı gətirib bu yeri ona göstərdi. O da bu yeri bəyənmiş olduğundan, həmin şəhərin binasını qoyub orada məskən etdi. Bu qalanı da möhkəm... düzəldib ölkənin mərkəzi etdi... Pənah xan Mehri, Güney mahallarını Bərgüşada qədər Qaradağ hakiminin əlindən alıb özünə tabe etdi. Tatef və Sisyan mahallarını Naxçıvan hakimindən, Zəngozur və Qapan mahallarını Təbriz bəylərbəyisindən aldı..."[1].

Məşhur Şuşa şəhəri Xəmsə məlikləri itaətə alındıqdan sonra (1750-1751) salınmışdır. Yuxarıda adı çəkilən Məlik Cümşüd sonralar Qarabağ xanlığına qarşı çıxmış, İbrahim xanın xaincəsinə öldürülməsində iştirak etmişdir. O zaman Məlik Cümşüd çar hökumətindən 1400 manat təqaüd alıb Tiflisdə yaşayırdı.

Pənahəli xanı dinc quruculuq işi aparmağa qoymurdular. Şuşa tikildikdə Pənahəli xan Məhəmmədhəsən xan Qacara (1751), Fətəli xan Əfşara (1758) və başqa İran feodallarına qarşı hərbi əməliyyatlar aparırdı. V.N.Leviatovun yazdığı qeyddə deyilir ki, Məhəmmədhəsən xan Qacarın qoşunları Qarabağda olan zaman (1751) Şuşa qalası mövcud idi. Məhəmmədhəsən xan Qarabağda cəmisi bir aya qədər qalmış, sonra isə cənuba tərəf geri çəkilməyə məcbur olmuşdur.

Pənahəli xanın düşmənlərini narahat edən ən əvvəl Zaqafqaziyada tayı-bərabəri olmayan Şuşa qalasının tikilməsi idi. 1751 -ci ildən sonrakı siyasi hadisələrdə həmişə Şuşa şəhərinin adı çəkilir. Şuşa qalasını tikmək ərəfəsində Pənah xan Şahbulaqda geniş məsləhət şurası çağırmışdı: "Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu

1 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.42.

güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz kəsilməməlidir".

Mirzə Camal yazır ki, xanın etibarlı adamları qalanın yerini müəyyən etdilər. Lakin gələcək şəhəri su ilə təmin etmək müşkül məsələ idi: "...Qalanın içində iki-üç bulaqdan başqa axar su yox idi. Bu bulaqların suyu isə qala camaatma kifayət etməzdi. Ona görə, güman gedən yerlərdə quyu qazdırıb müəyyən elədilər ki, buranın bir çox yerlərində su quyuları qazmaq mümkündür. Bu xəbəri mərhum Pənah xana çatdırdılar. Xan sevinərək, bir neçə nəfər öz yaxın adamı ilə buraya gəldi, yerlə tanış olub, ezmlə qalanın binasını qoydu".

Şuşa şəhərində əvvəl orada "Şoşu" adlı şəhər olması barədə müasir erməni ekstremistlərinin uydurmalarını heç bir mənbə təsdiq edə bilməz. Şuşa şəhəri əvvəlcə Pənahabad adlanırdı...

Şuşa şəhərinin tikilib ohalinin istifadəsinə verilməsi misli görünmomiş bir sürotlə həyata keçirilirdi, artıq 1751-ci ildən əhalinin oraya köçürülməsinə başlandı. Şuşa şohəri salınana qədər onun ərazisində guya insan məskəni olması barədə uydurmanı Mirzə Camal belə rədd edir. Şuşa tikilənə (1756) qədər burada yaşayış evləri yox idi. İlk dövrdə Şuşaya köçürülənlər kimlər idi?.. Şahbulaq qalasının sakinləri olan bütün rəiyyətləri, mülazimləri, bir sıra kəndləri kəndxudalarının ailələrini köçürüb bu qalanın içində yerləşirdi... Xalqı yerləşdirib, hamıya, xüsusilə özü üçün yurd və imarət müəyyən etdikdən sonra mahir ustalar, ağıllı, işgüzar adamlarla qalanın hasarını çəkdirdi[1].

Bütün yuxarıda deyilənlərə əsasən müəyyən etmək olar ki, Şuşa qalasının bünövrəsi ən geci 1750-ci ilin ikinci yarısında qoyulmuşdur. T.İ.Ter-Qriqoryanın verdiyi məlumata görə erməni müəllifləri, o cümlədən Raffinin "Beş məliklik" və Barxıidaryanın "Arstax" adlı əsərlərində Şuşa qalası binasının tarixi Mirzə Camal Cavanşir Qarabaği və Mirzə Adıgözəl bəyin verdikləri məlumata əsasən qeyd olunur.

Pənahəli xanın Bayat qalasında şəkili Hacı Çələbi xanı məğlub etməsi, Şahbulaq və Şuşa qalasını bina etməsi, Gəncə, Naxçıvan, Qaradağ xanlığını öz təsiri altına alması, onun şöhrətini get-gedə artırır. Hacı Çələbi xan 1748-ci ildə Bayatdakı məğlubiyyətdən narahat idi, tez-tez Pənahəli xanı hədələyirdi. Digər tərəfdən Hacı Çələbi xanın Gürcüstan vadisi II İraklinin iki hücumunu müvəffəqiyyətlə dəf etməsi Pənah xanı daha da narahat etmişdi. Bu səbəbdən Pənahəli xan Qaradağ, Naxçıvan, Gəncə hərbi qüvvələrini birləşdirib Hacı Çələbiyə qarşı hücuma başladı. Onlar II İrakliyə xəbər göndərərək müttəfiq olması haqda razılığını almışdır. "Qarabağnamələr"dən göründüyü kimi, dörd hakimin birləşib Şəki xanını məğlub etmək məqsədi çox qəribə bir sonluqla nəticələnmişdi. II İrakli vədə xəyanət edərək Gəncədən azca yuxarıda Qızılqaya adlı yerdə dörd xanı (Qarabağ, Gəncə, Qaradağ və Naxçıvan xanlarını) həbs etmişdi.

---

1 B ax: "Qarabağnamələr", bu nəşrin II kitabı, səh.248.

Xanları II Iraklinin əsirliyindən azad etmək vəzifəsi şəkili Hacı Çələbi xanın öhdəsinə düşdü.

Pənahəli xanın qəhrəmanlığı və ədaləti bütün Zaqafqaziyaya digər qonşu xanlıqlardan Püsyan, Qaraçarh, Çinli, Dəmirçi gəlirdilər. Əhmədbəy Cavanşir yazır ki, Pənahəli xanın hakimiyyəti "...dövründə və bundan bir qədər sonra Gürcüstandan və digər qonşu xanlıqlardan Püsyan, Qaraçarh, Çinli, Dəmirçihəsənli, Qızılhacılı, Səfikürd, Boyəhmədli, Saatlı, Kəngərli tayfaları və bir çox başqaları Qarabağa, Pənah xanın yanına köçüb gəldilər"[1].

XVIII əsrin ortasında İranda hakimiyyət uğrunda mübarizədə daha təhlükəli bir qüvvə meydana çıxdı, Bu, Qacarlar sülaləsinin hakimiyyətinə yol açmış Məhəmmədhəsən xan Qacar idi (Ağa Məhəmməd şah Qacarın atası - N.A.).

Pənah xan onun şəxsində qorxulu bir düşməni görürdü.

Mirzə Camal yazır: "Qala tikilib qurtarandan bir il sonra Ağaməhəmməd şahın atası Məhəmmədhəsən xan Qacar İraq və Azərbaycan qoşunları ilə Şuşa qalasını tutmaq və Pənah xanı özünə tabe etmək üçün Arazdan keçib, qalanın dörd ağaclığında ordu qurdu. Mərhum Pənah xanı özünə tabe etmək və Şuşa qalasını ələ keçirmək üçün çox fikirləşdi, tədbirlər tökdü, lakin baş tutmadı. Bir ay orada dayandısa da, o qədər qoşunla qalaya yaxınlaşa bilmədi. Qarabağın qoçaq əhalisi onun ordusunun at, dəvə və başqa heyvanlarını gizlində və aşkarda qarət edib, Məhəmmədhəsən xanın qoşununa çoxlu ziyan vurdular"[2].

Pənahəli xanın təzyiqinə davam gətirməyən Məhəmmədhəsən xan Arazı keçib İrana qayıtmağa məcbur oldu. Bu tarixi hadisə Pənahəli xanı Azərbaycan və İran miqyasında ən güclü hakim kimi tanıtdı.

Məhəmmədhəsən xan Qacarın Pənah xan tərəfindən məğlub edilməsi haqqında Mirzə Yusif Nersesovun "Tarixi-Safi" kitabında da maraqlı faktlar vardır. O yazır ki, Məhəmmədhəsən xan Qacar Qarabağdan geri çəkilərək qarabağlıların əlinə qənimət olaraq iki top keçmişdi. Hasar topu adı ilə məşhur olan bu toplar Xatın arxında qalmışdı. İran qoşunları gedəndən sonra bu toplar Şuşa qalasına gətirildi. Müəllif qeyd edir ki, son İran-Rusiya müharibəsində (1826-1827-ci ildə) Şuşa qalası qızılbaşlar tərəfindən mühasirəyə alınarkən bu toplardan istifadə olunurdu. Rus soldatları həmin toplardan İran qoşunları üzərinə atəş açdılar.

Məhəmmədhəsən xandan sonra Nadir şahın sərkərdələrindən biri olan Urmiyah Fətəli xan Əfşar Pənah xanın yanına mahir elçilər göndərib onu itaətə və ittifaqa dəvət etdi. Lakin Pənah xan belə sərdarlara itaət etməyi haqlı olaraq, özü üçün əskiklik və ar bilib, elçiləri kobud cavablarla geri qaytardı. Beləliklə, Pənahəli xanın daha qorxulu düşməni Fətəli xan Əfşarla müharibəyə başlamasına zəmin yarandı: "...Fətəli xan Azərbaycan, Urmiya və başqa vilayətlərin əhalisindən çoxlu qoşun toplayıb qalanı almaq, Qarabağı ələ keçirmək

1 Bax: "Qarabağnamələr", bu nəşrin II kitabı, səh.182.

2 Yenə orada, səh.248.

və Pənahəli xanı aradan qaldırmaq məqsədilə Şuşa qalasına gəlib qalanın bir ağaclığında düşərgə qurdu".

Fətəli xanla Pənah xanın müharibəsi 7-8 ay çəkdi. Lakin Fətəli xan qələbə qazana bilmədi. Məsələni mürəkkəbləşdirən bəzi erməni məliklərinin həmin xarici işğala qarşı mübarizədə satqın mövqeyi idi. Mirzə Camal yazır: "Gizlində Pənah xana ədavət bəsləyən Çiləbörd və Talış mahallarının məlikləri Fətəli xanın yanına getdilər. Onlar 6 ay qalanın yaxınlığında oturdular. Hər neçə gündən bir mərhum Pənah xanın qoşunu ilə Fətəli xan ordusu arasında vuruşma üz verir və hər dəfə mərhum Pənah xanın qoşunu Qızılbaş ordusuna qalib gəlirdi. Bu müddətdə bir iş görə bilməyən Fətəli xan vəziyyətin gündən-günə çətinləşdiyini və məğlubiyyətinin artdığını müşahidə edirdi"[1].

Göründüyü kimi, Fətəli xana qarşı ölüm-dirim mübarizəsində Vərəndə və Xaçın erməni məlikləri Pənah xana kömək etmiş, Çiləbörd və Talış məlikləri isə düşmən tərəfdən vuruşmuşlar. Xocalı kəndi ətrafında baş verən müharibədə erməni məliklərinin xain çıxması faktını Mirzə Yusif Qarabaği də təsdiq edir: "O zaman Çiləbörd və Talış məlikləri - Məlik Hətəm, Məlik Usub da Fətəli xanın yanına gəlib onun qoşunu ilə birləşdilər və onun yanında özləri üçün səngər tikdilər. İran qoşunları 6 ay burada qaldı. Amma bir nəticə əldə edilmədi. Nəhayət, məliklərin köməyi ilə... qətiyyətlə döyüşə hazır bir halda müharibə meydanına qədəm qoydular. Pənah xan da düşmən öldürməkdə, sədaqətlə... tərifə ehtiyacı olmayan bir dəstə qarabağlılarla qarşıya çıxdı, düşmənlə müharibə etməyə başladı. Hər iki tərəf bu döyüşdə öz igidlik və rəşadətini göstərdi... Fətəli xan gördü ki, bu müharibədən bir nəticə çıxmayacaq və məqsədinə nail olmayacaq, bu qədər çalışmaq və səy hədər getdi..."

Mirzə Adıgözəl bəy yazır ki, Fətəli xanın Qarabağa yürüşünün əsas səbəbi Pənahəli xanın simasında əsas rəqibini görməsi idi: "Fətəli xan bilirdi ki, Pənah xandan başqa bir kimsə onun dövlət və şövkətini pozub dağıda bilməz. Buna görə onun ədavətini ürəyində gizli saxlayırdı. Zatının xəmirəsi ona (Pənah xana) qarşı bəslədiyi gizli ədavətin suyu ilə yoğrulmuşdu. O, mərhum xana qarşı hərb etmək məqsədi ilə 7 dəfə fitnə-fəsadı göylərə qaldırdı. Lakin hər dəfə məqsədinə çatmadan, külli tələfatla geri qayıtdı. Axırıncı dəfə ulduzlar qədər saysız qoşunla gəlib Ballıca çayı ilə Xacə Əlili çayı (hazırkı Xocalı çayı -7V.A) arasında olan geniş bir səhrada düşdü. Ümumi yol kənarında olan bu yerdə səngər düzəltdi. O səngərin asarı və barılarının divarı indi də durur. Xalq arasında "Fətəli xan səngəri" adı ilə məşhurdur. O, qış fəslini də burada keçirtdi.

Bu zaman Çiləbörd və Talış məlikləri - Məlik Hətəm və Məlik Usub da gəlib Fətəli xanın qoşunları ilə birləşdilər. Onların yanında bir səngər düzəltdilər. Bu səngərin də asarı və nişanəsi indiyə qədər durur. Altı ay burada oturdular. Fətəli xan arzusuna çatmaq məqsədi ilə hər gün canından keçib meydana atıhrdı. Lakin peşmançılıq və zərərdən başqa bir şey əldə edə bilmirdi.

1 B ax: "Qarabağnamələr", bu nəşrin II kitabı, səh.249.

Axırda o, məliklərlə bərabər böyük bir qüvvə ilə hücuma keçdi. İgidlik meydanına şücaət qədəm qoydu. Pənah xan da müharibə meydanında üz ağardan və düşməni qırmaq üçün ürəkləri lalətək dağlı olan Qarabağ qoşunu ilə müdafiəyə girmişdi. Fətəli xan gördü ki, arzusunun gözəli varlıq aynasında görünmür. Ciddi-cəhdinin ağacı zərər və peşmançılıqdan başqa bir səmərə vermir. Tədbirlər gördü, vasitəçilər saldı, saziş və barışıq binası qoydu. Ədavət və düşmənçiliyi aradan qaldırmaq istədi. Pənah xan da: "bacardığı" zaman müqəssiri bağışla; çünki bu gözəl bir işdir. Sözünün məzmununca, onun xahişini qəbul etdi. Onlar Ağa körpüsündə görüşərək sülh etdilər. Barışıq əhd və peymanla möhkəmləndi. Fətəli xan mərhum Pənah xana dedi: Bundan sonra dövlətlərimiz arasında ayrılıq və məmləkətlərimiz arasında düşmənçilik olmayacaqdır. Bunun əksini düşünmək ağılagəlməz bir xəyaldır. İndi sizdən dostcasına xahiş və ricamız budur ki, əgər mümkün olsa uca xasiyyətli xanzadəni bir neçə günlüyə bizim çadırımıza qonaq göndərəsiniz. Bu bizə qarşı böyük qonaqpərvərlik və (bizdən ötrü də) son dərəcə başıucalıq olar: çünki İbrahim ağanın məhəbbəti ürəyimizi kabab edib, gözlərimizi yaşla doldurmuşdur. Bu vasitə ilə biz də onun ziyarətinə nail olanq, onu görüb ürəyimiz təsəlli tapar. Sonra onu böyük bir ehtiramla və calalla hüzuruna göndərərik".

Mərhum Pənah xan da onun qəliz və yalan sözlərinə etibar etdi. Gözünün işığı olan igid oğlunu bilikli və natiq adamlarla Fətəli xanın ordusuna göndərdi. Bu xəbər Fətəli xana yetişincə, fərəh və şadlıq izhar etdi. Övlad və əqrəbasından, əmir və sərkərdələrindən bir neçə nəfərini İbrahim Xəlil ağanın istiqbalına göndərdi. (Xanzadə) sonsuz hörmət və hədsiz ehtiramla (Fətəli xanın ordugahına) yetişdi.

Bir neçə gün qaldıqdan sonra o baxıb gördü ki, qayıtmağa izin ala bilmir; hər gün bir xana, hər gecə bir əmirə qonaq olub, onların süfrəsi başında vaxt keçirməkdən bir şey çıxmır. (Buna görə) Pənah xana yazdı: "Belə məlum olur ki, Fətəli xan məni də özü ilə bərabər aparmaq fikrindədir. Mənim qaladakı (Şuşadakı) kürən atımı təcili surətdə mənə göndərin... səba yelitək mənzil kəsən o atın köməyilə qaça bilim". At, Fətəli xanın ordusuna yetişincəyə qədər, Fətəli xan köçmək təbilinin sədasını mavi göylərə yetirdi[1].

"Qarabağnamə"lərdə həmin müharibənin nəticəsi eyni şəkildə, gedişi isə müxtəlif variantlarda qələmə almır.

Fətəli xan Pənah xanın oğlu İbrahimxəlil ağanı əsir edib Urmiyaya aparmaqla ona böyük mənəvi əzab verdi. Pənahəli xan Fətəli xandan qisas alıb oğlunu xilas etmək fikrinə düşdü. Belə bir məqsədi həyata keçirmək üçün Pənahəli xan hakimiyyət uğrunda mübarizə aparan Kərim xan Zəndlə birləşdi.

Pənah xanın Fətəli xan əleyhinə mübarizə məqsədilə Kərim xan Zənd ilə ittifaq yaratmasını Əhməd bəy Cavanşir belə təsvir edir: "O zaman İranda Fətəli

1 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.53.

xandan başqa bir də Kərim xan Zənd məşhur idi. O, hakimiyyət arzusunda olmaqdan başqa, həm də döyüşdə onun qardaşını öldürən Fətəli xana qan ədavəti bəsləyirdi. Pənah xan bu ədavətdən istifadə edib onun anına qasidlər göndərdi. Onlar öz birgə hərəkətləri barəsində razılığa gəlib hər iki tərəfdən Fətəli xanın üzərinə hücuma keçdilər və onu məğlub edib özünü əsir aldılar və İbrahim xanı da sağ-salamat geri qaytardılar.

Ümumi düşmən üzərində əldə edilmiş birgə qələbədən sonra qaliblərdən yalnız biri üstün olmalı idi. Şübhəsiz ki, bu birincilik, artıq, demək olar ki, bütün İranı özünə tabe etmiş Kərim xan Zəndin elinə keçdi. Kərim xan təcrübəli bir məsləhətçi adı ilə həm onun özünü, həm də oğlunu Şiraza öz yanına apardı. Az sonra İbrahimxəlil ağaya xanlıq fərmanı və hədiyyələr verərək Qarabağa yola saldı. Pənah xan bir müddət sonra Şirazda vəfat etdi.

Mirzə Yusif Qarabaği Pənah xanın ölümü barədə yazır: "...Deyirlər ki, Pənah xan qəsdən özünü ölülüyə vurmuş idi: o, öz yaxın adamlarına vəsiyyət etmişdi ki, öləndən sonra onun cənazəsini Qarabağa aparsınlar. Bu hiylə və xüsusi məqsədlə Şirazdan çıxıb yolda ata minib Qarabağa getsin və burada da öz hökmranlığını davam etdirsin. Kərim xan Pənah xanın fikrini başa düşərək deyir: "Pənah xan mənim xeyirxah dostumdur. Buna görə də mən gərək onun cənazəsini tam hörmətlə Qarabağa göndərəm. Onun qarnını yarıb ədviyyat ilə doldurduqdan sonra Qarabağa yola saldı...".

A.Bakıxanov yazır ki, Kərim xan Zənd İbrahim xana fərman verərək onu Qarabağa hakim göndərmişdir[1].

Mirzə Adıgözəl bəy isə bu hadisəni belə qələmə almışdır: "Kərim xan Zənd ...İbrahimxəlil ağanı hüzuruna çağıraraq ona qiymətli xələt, cavahiratla bəzədilmiş bir qılınc, qızıl yəhər və yaraqlı bir at bağışladı. Qarabağ vilayətinin xanlıq fərmanını ona verib, evə qayıtmasına izin verdi"[2].

Əhməd bəy Cavanşir Pənah xanın vəfatı barədə aşağıdakı məlumatı verir: "Hicri 1174-cü ildə İbrahim xan Şuşaya qayıtdı, bundan iki ay sonra isə Şirazdan mərhum Pənah xanın cənazəsi gətirildi[3]. Əslində Pənahəli xan 1763-cü ildə vəfat etmişdi.

Mirzə Yusif Qarabaği "Tarixi-Safi" əsərində Pənahəli xan dövründə Şuşanın memarlıq abidələri haqqında da bəzi maraqlı məlumatlar verir. O yazır ki, Şuşa ilk dəfə tikilərkən onun dörd darvazası olmuşdur. Bu darvazalardan biri şəhərin şimali-şərq tərəfində yerləşirdi ki, Şuşakəndə tərəf idi və ona xalq arasında Müxətər darvazası adı qoymuşdular. İki darvaza isə şimal ilə qərb arasında idi. Bu darvazaların birinə İrəvan darvazası, digərinə isə Gəncə darvazası deyilirdi. Dördüncü darvaza isə cənuba tərəf açılırdı ki, bu darvazanı yenidən hörmüşdülər.

---

1 Bax: Abbasqulu ağa Bakıxanov. "Gülüstani-İrəm". Bakı, 1926, səh.131.

2 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.212.

3 Yenə orada, səh.185.

XIX əsrin əvvəllərində Şuşanın yalnız üç darvazası qalmışdı. Sonrakı dövrlərdə yalnız iki - giriş və çıxış darvazası qalmışdı ki, bunlardan biri İrəvan, biri isə Gəncə istiqamətində idi. "Qarabağnamə"lərdə Pənah xanın Şuşada hakimiyyətə başlamasından az sonra xüsusi zərbxana düzəldib pul kəsməsini qeyd edirlər. Mirzə Yusif yazır ki, Şuşada Pənah xan tərəfindən sikkəxana tikildi. Pənahi adı ilə bir misqal vəznində gümüşdən pul sikkəsi vurulurdu. Sikkənin bir tərəfindən Pənahabad, o biri tərəfində isə "Lailahəilləllah, Məhəmmədən Rəsullüllah" sözləri yazılmışdır. Pənahinin altısı bir manat, səkkizi isə Qarabağ tüməni adlanırdı. Pənah xanın buraxdığı pul Qarabağın Rusiya tərkibinə daxil edilməsindən sonra da öz dəyərini saxlamışdı.

Şuşa şəhərinin binası qoyularkən Pənahəli xan şəhərin ərazisini məhəllələrə (kvartallara) bölmüşdü. Mirzə Yusif Qarabağiyə görə, Şuşa şəhərindəki ilk məhəllələrin sırasında Qurdlar, Quyuluq, Çuxur, Hacıyusifli, Merdinli, Cuhudlar, Saatlı, Mamayı, Xoca Mərcanlı, Hamam arası və ümumən 16 məhəllə salınmışdır. Tədricən bu məhəllələrdə su quyuları qazılır, hamamlar tikilir, məscidlər bina olunurdu. Şəhərin bütün məhəllələrində çirkli suları şəhərdən uzaqlaşdırmaq üçün geniş kanalizasiya sistemi mövcud idi.

İbrahim Xəlil xan dövründə Şuşa şəhərində 17 məhəllə mövcud idi. Məhəllə məscidlərindən başqa ümumşəhər əhalisinin istifadəsi üçün iki Cümə məscidi tikilmişdir.

Pənahəli xan 1748-1759-cu illər arasında 12 il Qarabağ xanı olmuşdur. Onun hakimiyyəti dövrü aşağıdakı mühüm hadisələrlə səciyyələnir: Pənahəli xan iki əsrdən artıq davam edən Qarabağ bəylərbəyiliyinə son qoydu. Həmin ərazidə iki xanlıq: Qarabağ və Gəncə xanlığı yaratdı. Qarabağ Xəmsə məliklərini öz itaəti altına aldı. Kəbirli mahalında Bayat qalasını tikdi, həman qalada şəkili Hacı Çələbi xana qalib gəldi. Xanlığın müdafiə qabiliyyətini gücləndirmək üçün Şahbulaqda Tərənküt qalasını tikdi. Şirvan, Gəncə, Şəki, Naxçıvan, İrəvan, Qaradağ xanlıqlarını onunla hesablaşmağa məcbur etdi. Təbriz, Qaradağ, Naxçıvan xanlıqları hesabına Qarabağ xanlığının ərazisini genişləndirərək, Zəngəzur, Qapan, Mehri yaşayış ərazilərini Qarabağa birləşdirirdi. Nüfuzu artan Pənahəli xan daha böyük müharibələrə sinə gərmək üçün Şuşa qalasını tikdi. O, Şuşa qalası ətrafında Qarabağa hücum etmiş Məhəmməd Həsən xan Qacara qalib gəldi. Fətəli xan Əfşarın Qarabağda 8 aya yaxın davam edən müharibəsində onu geri oturtdu. Pənahəli xana qarşı hiylə işlədən və onun oğlunu xəyanətlə Qarabağdan Urmiyaya əsir aparan Fətəli xanı qəti ezmək üçün Kərim xan Zəndle ittifaqa girdi və onu Urmiya yanında məğlub etdi. Şirazda 1763-cü ildə vəfat edən Pənahəli xan öz vəsiyyətinə görə Ağdama gətirildi və ata-baba mülkündə dəfh olundu. Sonralar Qarabağ xanları və onların övladları, arvadları və yaxın əqrəbaları da Ağdamda xanlıq qəbiristanlığında dəfn edildilər...

# 5. QARABAĞ XANLIĞININ SİYASİ TARİXİ (1759-1805)

"Qarabağnamə" müəlliflərindən Mirzə Camal İbrahimxəlil xanın hakimiyyətə başlamasını 1760-cı il, Mirzə Adıgözəl bəy isə 1759-cu il göstərir. Bunlardan ikincisi həqiqətə daha uyğundur. Çünki İbrahim xana məhz 1759-cu ildə Kərim xan Zənd tərəfindən xanlıq fərmanı verilmiş və o dərhal Qarabağa gələrək xanlığı idarə etməyə başlamışdır. 47 il ərzində (1759-1806) İbrahimxəlil xan Qarabağda daxili və xarici siyasət sahəsində mühüm işlər görmüşdür. Mirzə Camalın "Qarabağ tarixi"nin birinci fəsli "Mərhum İbrahim xanın haki-miyyəti və o zamanın qaydaları və hadisələri" adlanır. Müəllif həmin fəslin əvvəlində bir az mübaliğəli şəkildə yazır: Mərhum İbrahim xan İran və Rum padşahlarına itaət etmədən və boyun əymədən müstəqil hökmranlıq etmişdir. Onun hökmü və fərmanı Şirvan, Şəki, Gəncə, Naxçıvan, Xoy, Qaradağ, Təbriz, Ərdəbil vilayətləri, hətta, İraq və Azərbaycan sərhədi olan Qaplanguhda belə işlərdi. Vilayətlərin xanları mərhum İbrahim xanın hökmü və əmri ilə təyin edilər və ya vəzifədən götürülərdi". Belə mübaliğəyə Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sində də təsadüf edirik. İbrahimxəlil xan Zaqafqaziyadakı xanlar və başqa hakimlərlə ittifaqı qohumluq əlaqəsi ilə möhkəmləndirirdi. Onun ən etibarlı müttəfiqi Car-Balakən ləzgilərinin başçısı Nüsəl xanın oğlu Ümmə xan idi. Mirzə Adıgözəl bəy yazır ki, İbrahimxəlil xan Ümmə xanın "hörmətli və əziz bacısı Bikə xanımı almışdır".

Sonralar İbrahimxəlil xan qızı Tutibikə xanımı Şəki hakimi Səlim xana ərə vermişdi. İbrahim xanın Car-Balakən hakimi Ümmə xan ilə qohum olması müsbət nəticə vermiş, onlar arasında hərbi siyasi birlik yaranmışdı. İbrahimxəlil xan atası Pənahəli xanın layiqli varisi oldu. Xanlığın güclənməsi üçün lazımi tədbirləri gördü.

Mirzə Adıgözəl bəy yazır ki, İbrahimxəlil xan "...lazım gəldiyi zaman Dağıstanın müzəffər qoşunlarının köməyi ilə ətrafdakı düşmənləri məhv edir və üsyan edənlərə qalib gəlirdi. O öz qoşunu və zəfər nişanəli Dağıstan əsgərlərinin köməyi ilə Qaradağ mahalını aldı... Qaradağ, Şahsevən və başqa tayfaların xanlarından bəzisi qohum olduğu üçün, bəzisi də zorla onun hökmünə tabe və fərmanına itaət etdilər. İbrahim xan bəzi vaxt ayrı-ayrı mahalları töhfə olaraq öz sərkərdələrinə bağışlayırdı ki, onlar bu yerlərin mədaxilindən mənfəətbərdar olsunlar"[1].

İbrahimxəlil xan erməni Xəmsə məliklərinin xəyanətinə son qoydu. O, Qarabağ xanlığının daxilində və onun xaricində sabitlik yaradıb, əhalinin dinc əməklə məşğul olmasına şərait yarada bilmişdi. Lakin fars və türk mənbələri bu həqiqəti ört-basdır edirlər. Qarabağdakı uzunmüddətli sülh şəraiti bir dövlət xadimi kimi İbrahimxəlil xanın və onun müdrik vəziri Vaqifin uzaqgörən siyasətinin müsbət nəticəsi idi. İbrahim Xəlil xan ətraf xanlıqlar və başqa hakimlər

---

1 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.57.

ilə dostluğu qüvvətləndirməkdə girov saxlamaq və ya özünün, övladlarının həmin vilayətlərdə qohumluq əlaqələrinə ciddi əhəmiyyət verirdi: "...Hətta Təbriz və Qarabağ vilayətlərinin bəzi mahallanın öz adlı-sanlı sərkərdələrinə bağışlamışdı ki, onların gəlirindən mənfəət götürsünlər... Adı çəkilən vilayətlərin xanlarının övladı həmişə Şuşa qalasında, mərhum İbrahimxəlil xanın yanında girov sifətilə yaşayırdılar"[1].

Xanlığın hakim sinfini feodallar təşkil edirdilər. Feodal ierarxiya sistemi mövcud idi. Ən yüksək mövqeyi xanlar, onlardan sonra isə sultanlar, bəylər, ağalar və məliklər tuturdular. Ali ruhanilər də feodallar sırasında idilər.

Xəmsə məliklərinjn yaşadığı ərazidə, xüsusilə Xaçın məlikliyində hələ Qafqaz Albaniyasında ənənəvi olaraq fəaliyyət göstərən xristian kilsələrinə məxsus vəqf yerləri və başqa variyyət var idi. Bu kilsələr alban dini, kultu olaraq 1836-cı ilə qədər fəaliyyət göstərmişdir...

İbrahimxəlil xan atasının suverenlik ənənələrini müvəffəqiyyətlə davam etdirirdi. Məlumdur ki, Pənahəli xan İranda baş verən ara müharibələri dövründə bir sıra xanları öz təsiri, hətta tabeliyi altına almışdı.

Mir Mehdi Xəzaninin yazdığına görə, Şuşa yaxın Şərqin məşhur şəhərlərindən biri olmuşdu. Şəhər üç ad daşımışdır. Pənahəli xanın şərəfinə Pənahabad, öz gözəlliyi və sıldının və şiş qayaları ilə əhatə olunmasına görə Şişə, xalq arasında isə zəmanəmizə qədər Qala deyirlər. Şuşada kustarlar, sərraclar, dəmirçilər, silah saxlayanlar, palanduzlar və başqa sənətkarlar da gün-gündən çoxalırdı.

"Qarabağnamələr"də bir qayda olaraq "Mərhum İbrahimxəlil xandan qalmış bina və imarətlərdən" bəhs açılır. Rzaqulu bəy əsərin bir bəhsini "Mərhum İbrahim xanın Qarabağda apardığı təmirat işləri" adlandırmışdır. O yazır: "Əvvələn indi də qalmaqda olan böyük məscidi göstərmək olar. Bu məscid şəhərin ortasında - qalanın içərisində 1182 (1766-cı ildə)-ci ildə tikilmişdir. Köhnə olduğu üçün mərhum İbrahim xanın qızı Gövhər ağa bu məscidi hicri 1198-ci ildə əsaslı surətdə təmir etdirmişdir. İkincisi, Şüşü qalasının hasar və divarıdır ki, indi də durur. Bunu mərhum İbrahim xan 1198-ci ildə tikdirmişdir. Bu hasar üç ilə tikilib qurtarmışdır. Bəzi yerləri köhnəlmişdi. Ali Rusiya dövləti təzəlikdə möhkəmlətmişdir.

Mərhum İbrahim xanın yadigarlarından üçüncüsü hər iki Əsgəran qalasıdır. Bu qalaları 1203 (1787)-cü ildə tikdirmişdi. Bu qalalar Şüşü qalasının dörd ağaclığında, dağın arasında, Qarqar çayının keçdiyi yerdədir. Şirvan, Şəki və Dağıstan vilayətləri mərhum Pənah xana düşmən olduğu vaxt böyük oğlu İbrahim xana vəsiyyət etmişdir ki, əgər fürsət tapmasam, sən Əsgəran dağının arasında iki qala tikdir ki, düşmən gələn zaman piyada qoşunları bu qalalarda olsunlar. Oradan Şüşü qalasına 8 verstə (əslində 24 km. -N.A.) qədər məsafə vardır. Düşmən oradan keçib qalaya gələ bilməz. Belə ki, bu qalaların ətrafı

1 B ax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.137.

möhkəm dağlar, meşələr, daşlar, qayalar və böyük səhralardır. Düşmənçilik zamanı elat xalqı və sairə burada sığınaq edərlər. Qalalarda tüfəngçilər qoyarlarsa, düşmən oradan keçib, zülm və talan etmək fikri ilə əlini uzadıb dörd-ayaqlılardan, mallardan və heyvanlardan qarət edə bilməz.

Mərhum İbrahim xan həmin vəsiyyətə görə, iki qalanı biri şərq, o biri qərb tərəfdə olmaqla daş və əhənglə tikdirib bürc və barı çəkdirmişdir. Ağa Məhəmməd şah gələndə əvvəl Şüşü qalasının üzərinə qoşun çəkdi. Şüşü qalasını tutmağı bacarmadığı üçün Şüşü kəndindən köçüb Tiflis tərəfə getdi. O zaman Qızılbaş qoşunu bu qalalardan köçüb gedə bilmədi. Bu qalalara bir neçe böyük top atdılarsa da, onların möhkəm binasına bir zərər yetirə bilmədilər. Nəhayət, Əsgəranla Şüşə qalası arasında 20 gün məəttəl qaldılar. Onun at, qatır və sair malları qarət edildi və tələf oldu.

Axırda mərhum İbrahim xanın əmri ilə Qarabağ qoşunu Əsgəran qalasını boşaldıb Şüşə qalasına gəldilər. Bundan sonra Ağa Məhəmməd şahın qoşunu oradan keçib Qarqar çayının kənarında ordu qurdular. Burada bir qədər dincəldilər, sonra Tiflisə getdilər.

Dördüncü imarət İbrahim xanın özünün imarətidir. Şüşə şəhərində Gəncə xanzadələrindən olan Mehdiqulu xanın anası üçün tikdirmişdi. Bu imarətdə polkovnik Xanlar ağa və Əhməd xanın anası Bikə ağa yaşayırdı. Bikə ağa Avar vilayətinin valisi dağıstanlı Ümmə xanın bacısı idi.

Beşincisi - Dərə xəzinəsinin imarət və otaqlandır. Şüşə qalasında dağların, daşların arasında olan imarətdir ki, mağaranın içində əhəng və daşla tikilmişdir. Buraya tək bircə yol vardır. Çox xərclə başa gəlmişdir. Bu yoldan piyada adamdan savayı heç kəs keçə bilməz. Buranın eni və uzunu təxminən 40-50 sajen həcmində olan bir yerdir. Burada çaya 100 sajenə qədər məsafə vardır. Yuxarısında olan qaya daşı 500 sajen hündürlüyündədir. Əgər qayanın başında bir tüfəng atsalar, çox olmaz, çaya düşər. O imarətin qarşısında Şüşü qalası tərəfində böyük bir mağara vardır ki, onun ucu-bucağı heç bilinməmişdir. Bu mağaranın ağzına yaxın bir yerdə Məlik Şahnəzər xanın bir neçə böyük otağı vardır ki, düşmənçilik vaxtı o mənzillərdə oturanlar bir-birlərinə kömək etsinlər. Düşməni Şüşü qalasına, habelə çay tərəfə gəlməyə qoymasınlar. Belə ki, 1826-cı ildə Şüşü kəndi əhalisi orada mənzil etdilər. Göstərilən bu evlərdə və mağaralarda sığınaq tikdilər. Qalaya və şəhərin içinə gedib-gəlirdilər. Qoşun və şəhər avadanlıqlarını götürə bilmədilər. Onlardan şəhərə və qalaya o zaman böyük fayda dəydi.

Altıncı - qalanın bir ağaclığında olan Xan bağı imarətləridir. Burada tövlələr, buzxana, dəyirmanlar və arxlar vardır. Həmçinin burada böyük bir cəbbəxana tikilmişdir ki, mərhum İbrahim xan vaxtının çoxunu burada keçirirdi. 1826-cı ildə Qızılbaş qoşunu bu imarətləri xarab edib yandırmışdır. Sonra Mehdiqulu xan bunları yenidən təmir etdirirdi.

Yeddinci - Ağdam bazarının hasarı və oranın ali günbəzləridir. Bu günbəzlər mərhum Pənah xanın və onun vəfat etmiş sair övladlarının qəbirlərinin

üzərində tikilmişdir. Orada ali otaqlar və imarətlər vardır. Bunlar İbrahim Xəlil ağanın qədim ocağı idi. Bura yonma daşdan tikilmiş tağbənddir. Ağa Məhəmməd şah bu yerlərdə ordu və Tiflis şəhərinə getdiyi zaman evləri və günbəzləri xarab etmişdi. Mərhum general-mayor Mehdi Qulu xan İbrahim xanın miras çatan oğlu olduğu üçün o yerləri bir daha təmir etdi. İmarətlər əvvəlkindən də zinətli oldular. Həmin qəbirlərə vəqf olaraq ehsan üçün elahiddə bir bağ saldırdı. Həmin bağın dörd tərəfinə daşla və əhənglə divar-barı çəkdirdi. Bu qəbirlərə ehsan olmaq üçün böyük bir buzxana düzəltdi. Elat, səhrada yaşayanlar və kəndlilər hər il yayda biçin vaxtı xəstələri üçün buradan buz aparardılar, ən azı min yük, bəlkə daha çox buz sərf olunurdu.

General Cəfərqulu xanın atası Məhəmmədhəsən ağa mərhum Pənah xanın imarətinin yanında ali imarət tikdirmişdi. Yaxşı və yaraşıqlı olduğu üçün özü orada otururdu. Ağa Məhəmməd şah qalanı alıb haman imarətə sakin oldu. Oranı özünə mənzil etmişdi. Onun içində də öldürüldü. Mərhum İbrahim xanın qədim evlərini mərhum xanın hərəmi üçün çox zinət ilə təmir etdirmişdi[1].

Mirzə Camalın və onun oğlu Rzaquhmun "Qarabağnamə"lərində Qarabağın siyasi tarixi ilə yanaşı Pənah xanın və İbrahimxəlil xanın təsərrüfat fəaliyyəti, xanlığın mədaxili, vergi sistemi, ilxıları, xanlıqdakı nizam və intizam, kargüzarlıq və divanxana əməliyyatları barədə də maraqlı məlumata rast gəlirik. Bu məlumatlar əsas fəsillərə əlavə olaraq verilmişdir. Bəzi əlavələr isə atası Mirzə Camalın "Qarabağ tarixi"nin təkrandır. Mirzə Camalın əserində bir fəsil "İbrahim xanın nizam-intizamı və hakimiyyəti zamanında olan qaydalar haqqında" adlanır. Bu bölmədə deyilir: "Qarabağın bütün elləri, adları dəftər və siyahıda yazılmış atlı qoşundan ibarət idi. Zərurət zamanında mahalların və kəndlərin piyada tüfəngliləri, mahal məlikləri ilə birlikdə qoşun sıralarında hazır olurdular. Qarabağ ellərindən töycü pulu alınmazdı. Lakin mahallardan və kəndlərdən hər il malçahat və töycü yığılırdı. Hərdənbir Dağıstandan ləzgi qoşunu gətirildikdə ləzgi qoşununun məvacibini ödəmək və ləzginin itmiş və ya ölmüş atının əvəzini vermək üçün ellərden töycü pulu, sursat, taxıl, qoyun və mal alınardı. Adları nökər və qoşun dəftərində qeyd olunmuş nökər və qoşun əhlindən heç bir şey alınmazdı. Onlar məaf idilər. Onların taxılı, atı və başqa ehtiyacı xanın öhdəsində idi. Qoşunun hər bir nökəri bir evə təhkim olunmuşdu. O ev həmin nökər və atlının ehtiyacını təmin etməli idi.

Hər il novruz bayramı günündə, mərhum xan, qoşunun bütün adlı-sanlı sərkərdələrinə və minbaşılarına xələt, ənam, at və qılınc bağışlardı. Azərbaycan vilayətləri, mahalları, habelə məliklər hər kəs öz rütbəsinə görə peşkəş gətirərdi.

Mərhum İbrahim xan səfərdə olduğu və ya bir yerdə ordu qurduğu zaman, xidmətində olan minbaşıların, yüzbaşıların, Azərbaycan bəyləri, ağaları və xanlıqlarının səhər, günorta, axşam xörəyi və atların arpası, habelə qoşun əhlinin bir parası və yasavulların bütün məxarici mərhum xanın xəzinəsindən

1 Bax: "Qarabağnamələr", bu nəşrin II kitabı, səh.280.

verilirdi. Bir çox gecələr minbaşılara və başqalarına taxıl, düyü və 30 qoyun sərf olunardı. Bu hesabla sərf olunan çörəyin, arpanın, yağın və şirniyyatın miqdarını təsəvvür etmək olar"[1].

Pənahəli xanın vəfatından sonra onunla dostluq etmiş bəzi xanlıqlar əhdi pozdular. İbrahimxəlil xan öz daxili işlərini nizama saldıqdan sonra ona itaət etmək istəməyən bir neçə xanlığa qarşı hərbi yürüşlər təşkil etdi. Mirzə Yusif Nersesov Qarabağinin "Tarixi-safi" əsərində bu yürüşlərdən ikisinin qısa təfsilatı verilmişdir. Burada deyilir: "O zamanlar Naxçıvan hakimi Kələbi xanla İbrahim xanın arasında ədavət törəmişdi. Buna görə də İbrahim xan Dağıstan ləzgilərindən kömək istədi və Dağıstan hakimi Ümmə xan öz qoşunu ilə İbrahim xanın köməyinə gəldi. İbrahim xan Qarabağın atlıları və könüllüləri ilə (çirik) birlikdə hərəkət etdi. Kəlbəli xana cəza vermək qərarına gəldi və onun olduğu Qarababaya yetişərək dayandı. Qoşuna kəndləri və əkin yerlərini dağıtmaq əmrini verdi. Qarababam mühasirəyə aldı. Kəlbəli xan da qabaqcadan İrəvan hakimindən kömək istəmişdi. O da ona bir qədər kürdlərdən və başqa ellərdən kömək göndərmişdi. Hər iki tərəfin qoşunu bir-birinə rast gəldi. Kəlbəli xan bir qədər geri çəkiləndən sonra Tiflis yolu ilə qaçmağa üz qoydu. Bunu görən Ümmə xan iti gedən atını onların dalınca çapdı... İbrahim xan könüllü qoşunu Qarababanın mühasirəsi üçün qoymuşdu. İbrahim xan çarəsiz qalıb yüzbaşıların yanına adam göndərdi, onlara geri qayıtmaq əmri verdi. Burada Kəlbəli xanla dostluq əsasını qoydu. Beləliklə, dostluq və məhəbbət əlaqəsi bu gündən etibarən davam etdi.

İbrahim xan qoşunu və çəriləri götürüb Qarabağa gəldi[2].

İbrahimxəlil xan qonşu xanlarla ümumi dil tapmadıqda onlara qarşı hərbi yürüşdə öz müttəfiqlərindən istifadə edirdi. Mirzə Yusif Nersesov Qarabaği daha sonra yazır: "İbrahim xan Naxçıvam zəbt etdikdən sonra öz bacarığına daha da güvəndi. Ağa Məhəmməd xanın İranda hökmranlıq etməyə başlamasına baxmayaraq işi helə də tərəqqi etməmişdi. Onun bu zaman fars və Şiraz tərəflərində olduğundan istifadə edərək İbrahim xan Xoy vilayətini özünə tabe etmək fikrinə düşür. O, 1203-cü ildə (təxminən 1789) ləzgi, Car, avar və Qarabağın könüllülərini və Qaracadağın qoşununu toplayıb sərhədi keçdi. Xoy hakimi Cəfərqulu xan da öz adamları ilə İbrahim xanın qarşısına çıxmaq üçün hərəkət etdi. Bu yürüşdə xanı bir çox ölkələrdə şöhrəti olan Molla Pənah Vaqif təxəllüs müşayiət edirdi... Vaqif hesab rəsm və astronomiya elmlərini də yaxşı bilirdi. O, əvvəlcə İbrahim xana dedi ki, sabahkı döyüşdə Xoy şəhəri bizim əlimizdə olacaqdır. Mərənd şəhəri yaxınlığında hər iki xanlığın qoşunu bir-biri ilə döyüşə başladılar. Şiddətli döyüş nəticəsində İbrahim xan qalib gəldi. İkinci döyüşdə İbrahim xanın qüvvələri məğlub edildi. Çoxlu əsir alındı. Əsirlər içə-

1 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.163.

2 Bax: "Qarabağnamələr", bu nəşrin II kitabı, səh.28-29.

risində Molla Pənah da var idi. Onları Xoy şəhərinə apardılar. Əsir alınanlar içərisində İbrahim xanın əmisi oğlu Fərzi bəy də var idi. O, istehza ilə Molla Pənaha demişdi ki, Xoy şəhərini tutmaq əvəzinə bizi əsir aldılar. İbrahim xan yeni qüvvə toplayaraq Cəfərqulu xanla danışığa girdi və öz adamlarını əsirlikdən azad etdi. Bu hadisə münasibəti ilə Molla Pənah yazmışdır:

Fərd Vaqifəm mən bu səfərdən ki səlamət qayıdım,
Tövbə gör bir də qiyamət günü çıxsam Qaladan.

Nəticə etibarı ilə Xoy xanlığı Qarabağ xanlığı ilə dostluq ittifaqı bağladı.

1791-ci ildə Gürcüstan valisi ilə İbrahim xan arasında narazılıq baş vermişdi. Mirzə Yusif Nersesov Qarabaği yazır ki, Ümmə xan çoxlu qoşunla Gürcüstan tərəfə gəlib, bacardığı qədər Gürcüstan torpağını qarət edərək Sığnaq və Gümüşxananı zəbt etdi... Qışı Axalsixdə keçirəndən sonra bahar fəslində geri qayıdaraq yenə də Gürcüstan torpağına daxil oldu. Ümmə xan yolun üstündə knyaz Abaşidzenin arvad-uşağı ilə yaşadığı möhkəm Adxan qalasını mühasirə edib zor ilə zəbt etdi. Oranın əhalisini qılıncdan keçirərək, bəzilərini də əsir etdi. Knyaz Abaşidzenin qızlarından Cavahir xanımı İbrahim xandan ötəri göndərdi və bir qızına da Ümmə xan özü evləndi[1].

M.M.Xəzani "Qarabağ tarixi" əsərində Qarabağda mədəniyyət məsələlərinə də geniş yer vermişdir. Əsərdə xanlığın mədəni həyatı, memarlıq abidələri haqqında olan məlumat başqa "Qarabağnamə"lərə nisbətən daha genişdir. İbrahimxəlil xanın yaşadığı evdən danışan Xəzani yazır ki, təpə üzərində yerləşən bu imarətdən İbrahim xan qalaya düşmən hücum edəcəyi təqdirdə onu müdafiə imkanına malik idi. Pənahəli xanın oğlanları Mehrəli bəy və Talıbxan bəy də belə yaraşıqlı binada yaşayırdılar. Sonralar İbrahimxəlil xanın böyük oğlu Məhəmmədhəsən ağa üçün tikdirdiyi bina Şuşanın ən mənzərəli binası oldu.

Pənahəli xan, İbrahimxəlil xan və Mehdiqulu xan dövrlərində Ağdamda bir sıra xanlıq abidələri inşa olunmuşdu. M.M.Xəzani yazır ki, 3 günbəzli məqbərələr Pənah xan və onun övladlarına aid idi. Pənah xanın bu məqbərələri ətrafında arxlar, yollar, su anbarları və ehsan bağı deyilən sahələr ilboyu nəzarətdə olurdu. Əsgəran qalaları və Qarqar çayının Şuşa Xəzinə qayası ərazisindən keçdiyi yerdə sıldırım qayada qazılmış otaqlar da böyük əhəmiyyətə malik idi. Azərbaycan ərazisində belə bir tikintinin misli-bərabəri yox idi. Yerin səthindən hündürdə, çox çətin və ensiz bir yola malik olan bu otaqlar, düşmənin Şuşa qalasına hücumu zamanı, xanın ailə və xəzinəsini mühafizə məqsədi ilə hazırlanmışdı. Ona görə də həmin tikinti olan qayaya Xəzinə qayası adı verilmişdir.

---

1 Bax: "Qarabağnamələr", bu nəşrin II kitabı, səh.30.

Xalisə torpaqlarından başqa Qarabağda İbrahimxəlil xan dövründə müəyyən inzibati və hərbi vəzifələrə malik sərkərdələrə verilən torpaqlar da var idi. Mirzə Camal və Mirzə Adıgözəl bəyin əsərlərində bu barədə söz açılır. Qarabağ xanlığında mövcud olan torpaq mülkiyyəti formalarından biri də "mülk" idi.

Mir Mehdi Xəzani eyni zamanda Bərgüşad, Dığ, Xınzirək, Qayadaşı, Gəlin daşı, Dəvə sürüncağı, Ağsu və başqa yerlərin İbrahim xan tərəfindən pul ilə alınmış qəbələli mülkləri olduğunu göstərir.

Xəzaninin "Qarabağ tarixi" əsəri faktların zənginliyi ilə maraq doğurur. Bununla belə bu əsər metodoloji baxımdan qüsurludur. İslam dini ehkamları təsiri ilə padşahlar, xanlar və yerli hakimlər haqqında yanlış mülahizələr irəli sürülmüşdür. M.M.Xəzani ruhani olduğu üçün ortodoks islam məfkurəsinə sadiq qalmışdır.

M.M.Xəzani kainatın, həyatın yaranmasını "Allah iradəsi" hesab etdiyi kimi, ictimai-tarixi hadisələri də dini mövqedən izah edirdi. Onun etiqadına görə, tarixi hadisələrin inkişafı prosesində əsas amil "Allahın iradəsi"ndən asılıdır. Onun fikrincə, hökmdarlar, sərkərdələr Allah tərəfindən təyin olunmuş şəxslərdir. Hökmdarların hərəkəti və fəaliyyəti də nəticə etibarı ilə "İradeyi küll"ün təzahüründən başqa bir şey deyildir.

Azərbaycan xanlıqlarının inzibati-ərazi bölgüsü də maraqlı idi. Qarabağ xanlığında 22 mahal var idi. Bu mahalları naiblər idarə edirdilər. Hər bir naibin ixtiyarında olan kəndlərdə darğalar, yüzbaşılar, kəndxudalar və başqa vəzifəli şəxslər olurdu. Darğalar polis vəzifəsini icra edir və vergi yığırdılar. Yüzbaşılar və kəndxudalar kənd ağsaqqalı hesab olunurdular.

Xanlığın hər bir mahalında axundlar və qazilər ali ruhani vəzifəsini yerinə yetirirdilər.

Qarabağ xanlığında mülki və cinayət işləri əsasən şəriət qanunları, islam adət və ənənələri əsasında həll olunurdu. Qazıların çıxardıqlan hökmləri darğalar, yüzbaşılar, kəndxudalar icra edirdilər. Xan özü ən böyük hakim kimi ölüm hökmləri, ağır cismani cəzalara qərar verirdi. Xanın ölüm hökmləri onun cəlladları tərəfindən icra olunurdu.

Y.V.Çəmənzəminli "Qan içində" romanında Qarabağ xanının verdiyi cəzalardan, darğaların özbaşınalığından da söz açır.

XVTII əsrdə kəndlilərin mülkləri tez-tez bəylər, tacirlər və sələmçilər tərəfindən satın alımrdı. Qarabağ kəndlərində tut bağlarının satın alınmasına dair XVIII əsrin qəbələ vəsiqələri bunu sübut edir[1].

Qarabağ xanlığı təsərrüfatın genişlənməsini təmin etmək məqsədilə əhalinin bir yerdə daimi yaşamasına, oturaq həyat keçirməsinə böyük əhəmiyyət verirdi. Müəyyən səbəblərdən doğma yurdlarını tərk edənləri öz yerlərinə qaytarırdılar. Məsələn, "...Qarabağ xanı İbrahimxəlil xan öz asılılığında olan

1 Azərbaycan tarixi, cild I, Bakı, 1958, səh.377.

Vərəndə məliki ilə barışıb və onun müsadirə olunmuş yerlərini özünə qaytarıb kəndxudalara əmr etmişdi ki, bütün qaçan və ora-bura dağılan rəiyyət toplansın və əvvəllər yaşadığı kəndlərdə sakin edilsin[1].

Qarabağ xanlığının mövcudiyyəti dövründə Qarabağda kəndlərin sayı və əhali sıxlığı təxminən iki dəfə artmışdı. İran, Türkiyə, Rusiya, Gürcüstan və Ermənistan əhalisinin Qarabağa "səfər etmələrinə" səbəb ilk növbədə, onun təbii sərvətləri, ab-havası, misilsiz torpaqları, çayları, bulaqları, meşələridir. Rzaqulu bəy yazır: "Qarabağ vilayəti hər cəhətdən yer üzünün behiştidir. Qarabağın ab-havası, məhsulu, əlbəttə, ali Rusiya dövlətinin məmurlarına da məlumdur. Qarabağın dağlıq. yerləri və yaylaqları Göyçə sərhədindən tutmuş Ordubada qədər başdan-başa cənnət otlaqlardan ibarətdir... Qışda mal-qara və heyvanları burada saxlamaq olur. Bu yerlər də Qarabağ səhrasının qışlaqlan kimi çox salamat olur və qışın şiddətindən heç zərər görmür. Dağlıq yerlərdə və dərələrin hamısında rəiyyətlərin kəndləri və məskənləri vardır. Rəiyyətlər qışda və yayda qoyun sürüsü, mal və heyvan saxlayırlar, həmi də taxıl əkirdilər, çox xoş dolanırdılar. Hal-hazırda kəndlərin çoxlu əkin yerləri və istifadə edilməyən yerləri vardır. Əgər bu yerləri rəiyyətlərə qanun üzrə və nizamla paylasalar kendləri abad edərlər, əkin əkərlər və heyvanlarını saxlayarlar. Bu, beş min, bəlkə də ondan artıq evə kifayət edər. Taxıl məhsulu artar... Xüsusən, bal arısı saxlayıb hədsiz-hesabsız fayda verər.

Qarabağ torpağı çox menfəətli və dövlətli torpaqdır. Heç bir məmləkətdə və iqlimdə bu cür torpağın olduğunu eşitməmişəm. Lakin Qarabağ rəiyyətləri pul qazanmaqda tənbəldirlər. Onlar sair vilayətlərin rəiyyətləri kimi pul qazanmağa, bağ salmağa və əkin əkməyə səy etsələr, onların var-dövlətlərinin sayı-hesabı olmaz. Burada əkin əkmək asandır. Burada bir baş atla əziyyət çəkmədən istənildiyi kimi cift sürülə bilər[2].

Qarabağ xanlığının təbii-coğrafi sərhədləri belə idi: Xanlıq şimali-qərb tərəfdən Kürək çayı və Qara çay sərhəd olmaqla Gəncə xanlığı ilə həmsərhəd idi. Qarabağ xanlığı cənubi-qərb tərəfdən Naxçıvan xanlığı ilə, eyni zamanda, Gəncə və Naxçıvan xanlığı arasında İrəvan xanlığı ilə həmsərhəd olmuşdur. Kür çayı boyunca şimali-qərb tərəfdən Şəki xanlığı ilə, yenə də Kür sərhəd olmaqla Şirvan xanlığı ilə qonşu idi. Qarabağ xanlığı o zaman bütün Azərbaycanın mədəni-siyasi mərkəzi olan Təbriz xanlığı və eləcə də Ərdəbil xanlığı ilə əsasən Araz boyu, cənub-şərq istiqamətində qonşu olmuşdur. Bu sərhədlər Pənah xan dövründə müəyyənləşdirilmişdi. Ondan əvvəlki dövrlərdə, xüsusilə iki əsrdən artıq bir müddətdə mövcud Qarabağ bəylərbəyiliyi dövründə Arazdan Gürcüstan sərhədinədək Xram çayı (Sınıq körpü – Красный мост) eninə Kür çayından Ermənistan yaylaqlarına qədər geniş ərazini əhatə edirdi. Arasıkəsilməz feodal müharibələri, xarici basqınlar və daxili çəkişmələr Pənahəli xanın

1 Azərbaycan tarixi, cild I, Bakı, 1958, səh.380.

2 Bax: "Qarabağnamələr", bu nəşrin II kitabı, səh.284.

hakimiyyətə başladığı dövrdə Qarabağ əhalisinin tərki-vətən olması və təsərrüfatın dağılmış vəziyyəti ilə səciyyələnirdi. Pənahəli xan və İbrahimxəlil xanın gördüyü tədbirlər nəticəsində yaşayış yerləri çoxaldı, gözəl və qüdrətli Şuşa şəhəri tikildi. XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Qarabağ əhalisi və yaşayış yerləri nəzərə çarpacaq dərəcədə artmışdı. Həmin dövrdə Qarabağ xanlığında bir şəhər - Şuşa və 638 kənd olmuşdur. Əhalinin ümumi sayı 90000 nəfər idi ki, bunlar 18563 ailədə birləşirdi.

Qarabağın təbii-coğrafi şəraiti burada həm əkinçiliyin, həm də heyvandarlığın inkişafına əlverişli şərait yaradırdı. Qarabağın bir hissəsini Kiçik Qafqazın orta və son hissəsi ehatə edir ki, buraya Böyük və Kiçik Kirs dağ silsilələri, Qırx qız və Murovdağ silsilələri, Xonaşen və Ziyarət silsilələri, Ala qaya və başqa dağ silsilələri təşkil edir. Bu dağ silsilələrindən bir çoxu dəniz səviyyəsindən 1800-3000 metr hündürlüyündədir. Həmin dağların aşağı hissəsi meşələr, yuxarı hissəsi isə gözəl alp düzənlikləridir ki, bura köçəri heyvanların təbii yaylaq - otlaq yerləridir.

Qarabağın nəinki dağlıq hissəsi, hətta ovalıqlarında sıx meşələr var idi. Bu meşələr qiymətli ağac növləri ilə zəngin idi. Meşələrdən daha çox yanacaq və tikinti məqsədilə istifadə olunurdu. Meşələrdə eyni zamanda çoxlu meyvə ağacları var idi. İpəkçiliyi inkişaf etdirmək məqsədilə çoxlu tut (çəkil) bağları salınmışdı. Xəmsə erməni məlikləri kəndlərində tut ağaclarının geniş yayılması ondan araq çəkilməsi məqsədi daşıyırdı. Xanlıq ərazisindən keçən üç yol məşhur idi. Bu yollardan biri Gəncə ilə Şuşarn, ikincisi Şuşa ilə Şəkini, üçüncüsü isə Şuşadan başlayıb Arazı keçməklə İrana gedirdi. Bu yolla Hindistana qədər getmək olardı. Araz üzərindəki Xudafərin körpüləri bir neçə dəfə təmir edilmişdi. Ağa Məhəmməd xanın hücumu ərəfəsində isə dağıdılmışdı. 1805-ci il Kürək çayı müqaviləsinə görə Şuşa - Gəncə yolunun təmiri nəzərdə tutulmuşdu. Cülfa şəhəri də xanlığın İranla əlaqə saxlaması üçün əlverişli idi.

Bundan əlavə Şuşa - Gorus və Naxçıvan arasında da yol işləyirdi. Qış vaxtlarında bu yoldan gedib-gəlmək çətin idi. Kəndlər arasında yol bərbad idi. Hərəkət və qoşqu vasitələri at, öküz, kəl, eşşək, qatır idi. Aran yerlərində dəvələrdən daha çox istifadə olunurdu.

Qarabağ xanlığının kend təsorrüfatı əkinçilik və heyvandarlıqdan ibarət idi. Əkin üçün torpaqlan hazırlamaq, onu daş və kollardan təmizləmək böyük zəhmət tələb edirdi. Bu səbəbdən ümumi torpaq sahəsi təxminən 1.354.000 hektar olan Qarabağ xanlığında yüz min hektara yaxın əkin sahəsi var idi ki, bundan adambaşına 1,1 hektar düşürdü. Ən yaxşı torpaqların çoxu suvarına sisteminin olmaması üzündən əkilmirdi. Torpağın əkilməsi, becərilməsi, məhsulun emah əsasən əl əməyi ilə və qoşqu heyvanlardan istifadə yolu ilə görülürdü. İbrahimxəlil xanın gəliri haqqındakı məlumat da çox maraqlıdır. Xanın gəliri "taxıl, barama və müxtəlif əkin məhsulundan əlavə, şəxsən xana məxsus olan kotanlardan məhsulla alınan malcəhətdən ibarət idi". "Yadımdadır, bir dəfə

mərhum... xanın taxıl zəmilərində işləyən xüsusi cüt və kotanlarını hesabladılar. Məlum oldu ki, xanın cütkotanı bütün Qarabağ əhalisinin cüt və kotanına bərabər, bəlkə də onlardan iki cüt artıqdır..."[1]. İcarə haqqı, peşkəşlər, zərbxana və vergi toplanmasından pulla və məhsulla çox gəlir hasil olurdu. Qarabağ xanının nəinki Azərbaycanda, habelə Türkiyədə şöhrət qazanan 3-4 min atdan ibarət ilxısı var idi. Əkinçilik təsərrüfatlarında taxıl, arpa, darı, çəltik, pambıq, kətan, küncüd, gənəgərçək və başqa bitkilər becərilirdi.

Qarabağ xanlığında, xüsusilə, İbrahim Xəlil xan dövründə ipəkçilik və bağçılıq geniş rövnəq tapmışdı. Şəxsən İbrahim xanın hindarxı ərazisində 26 tut bağı var idi. İllik ipək məhsulu 1700 pud idi. Pənahəli xanın Ağdamda 7 meyvə bağı var idi: Güllü bağ, Ərikli bağ, Kötən bağı, Çirayiş bağı, Bala bağ, Barlı bağ və Nurlu bağ. Sonuncu iki bağın məhsulu xeyrat və ehsan məqsədilə işlədilirdi. Bostançılıq da Qarabağ xanlığında çox inkişaf etmişdi. İbrahim xanın hindarxında olan bostanından Şuşaya hər il 50 araba qovun və qarpız göndərilirdi.

Məlumdur ki, uzun müddət feodal geriliyi şəraitində yaşayan Azərbaycan kəndlərində başlıca olaraq natural mal mübadiləsi yayılmışdı. Qarabağ xanlığında isə sənətkarlığın inkişafı, əhalinin peşələr üzrə "ixtisaslaşması", başqa amillər-pul dövriyyəsinin genişlənməsinə, bazarlara məhsul çıxarmağa şərait yaratmışdı. Xanlığın demək olar ki, hər bir ailəsində xırda toxucu dəzgahı mövcud idi. Onlar ipdən müxtəlif məmulatlar toxumağı bacarırdılar. Bu səbəbdən xanlıqda ən inkişaf etmiş kustar sənaye toxuculuq idi. Xanlıq dövründə Qarabağ xalçaları xarici bazara da çıxarılırdı.

Şuşada məşhur daş karxanaları ilə yanaşı, 2 kərpic zavodu olmuşdur. Burada 22 nəfər kərpickəsən işləyirdi.

Şuşada həmişə barıt istehsal edən müəssisə işləyirdi. Şəhərin 1826-cı il mühasirəsində döyüşçülərə hər gün 27 girvənkədən çox barıt verilirdi.

Şuşa zərgərləri bütün yaxın Şərqdə məşhur olmuşdur. Zərif incə naxışlar yalnız qızıl və gümüşə vurulmurdu. Şuşanın özündə olan mərmər tipli daşlar üzərində rəngarəng fiqurlar nəqş edilmiş, çoxlu kitabələr yazılmışdır. Şəhərin azərbaycanlı daşyonanları daşdan yüzlərlə müxtəlif ölçülü və xüsusi zövqlə işlənmiş əşyalar hazrrlayır və bunlar şəhərin bina və küçələrinə əvəzsiz memarlıq zənginliyi verirdi.

İbrahimxəlil xanın hakimiyyəti dövründə Qarabağ tacirləri Şəki, Şirvan, Gəncə xanlıqlarında istehsal olunan ipəyi alıb həqiqi mənada ipək monopoliyası yaratmış və onu xarici bazara çıxara bilmişdir. Məşhur Qarabağ atları, Qarabağ xalçaları da ticarətdə mühüm rol oynayırdı. İrana aparılan malların şəhərlər üzrə gömrük xərci müəyyən edilmişdi. Türkiyə-Qarabağ tacirlərini özünə cəlb etmək məqsədilə onları bu xərcdən azad etmişdi...

1 Bax: "Qarabağnamələr", bu nəşrin II kitabı, səh.282.

* * *

1783-cü ildə, Şimali Qafqazın Georgiyevski qəsəbəsində Rusiya ilə Gürcüstan arasında bağlanan müqaviləyə görə Gürcüstan Rusiyanın himayəsini qəbul etdi. Həmin ildə Böyük Qafqaz dağlarından çəkilməyə başlayan hərbi Gürcüstan yolu Şimali Qafqazla Zaqafqaziyanı sıx əlaqələndirirdi...

Qafqazı tutmaq, buranı Rusiyaya tabe etmək planı hələ I Pyotrun vaxtından hazırlanmışdı. Bu isə İranı ciddi narahat edirdi. XVIII əsrin 80-90-cı illərində İranda mərkəzi dövlət yarandı ki, onun da başında Qacar tayfasından olan Ağa Məhəmməd xan dururdu. Bu səbəbdən Qarabağ xanlığında Rusiyaya meyil güclənmişdi.

Mirzə Camal yazır ki, Ağa Məhəmməd xan Qarabağa hücumdan xeyli əvvəl İbrahim xanı sülh ilə itaətə gətirmək istədi. Bu münasibətlə onlar arasında hədiyyə və girovlar mübadiləsi də olmuşdur: Ağa Məhəmməd xan "İbrahim xana xələt, qılınc, qızıl yəhər və əsbablı at göndərib, itaətə dəvət etmişdi. Aralarında zahiri hörmət və dildə itaət var idi. Elçilər gəlib-gedirdi. O cümlədən İbrahim xan girov adı ilə şirin dilli, bacarıqlı bir şəxs olan Mirzə Vəli Baharlı ilə birlikdə əmisi oğlu Əbdüssəməd bəyi onun yanına göndərmişdi. Şah da onlara olduqca hörmət edib, öz yanında saxlayırdı. Bu arada Ağa Məhəmməd xan Kirmanda səltənət iddiasında olan düşməni, qoçaq və səxavətli Lütvəli xan Zəndə qalib gəlib, Kirman əhalisinin hamısını qırdı. İbrahim xanla Ağa Məhəmməd xanın arasını poza biləcək bəzi işlər üz verdi. Əbdüssəməd bəy, Mirzə Vəli Baharlı və bir neçə nəfər nökəri ilə Kirmandan qaçdı. Bunların ardınca atlılar göndərildi. Çaparlar gecə-gündüz yol gedərək, onlardan qabağa düşüb, Sərcəm kəndi əhalisinə xəbər verdilər. Atlı və piyadalar Qızıl Özən çayının kənarında yolun üstünü kəsib Əbdüssəməd bəylə vuruşdular. Əbdüssəməd bəy güllə ilə dizindən yaralandı. Onu yoldaşları ilə bərabər tutdular. Mirzə Vəli də tutuldu. Əbdüssəməd bəy həmin yaradan orada vəfat etdi. Başqa dustaqlan Mirzə Vəli ilə birlikdə şahın yanına aparıb, Tehran şəhərində həbs etdilər..."[1].

Məhəmmədhəsən xanın əməllərindən və oğlu Ağa Məhəmməd xanın zühurundan bəhs edən A.Bakıxanovyazır ki: "O, (Məhəmmədhəsən xan - N.A.) Nadir şah öldürüldükdən sonra gəlib Təbəristan, İraq və Azərbaycanı aldı, sərdarlıq ləqəbilə sikkə və xütbə sahibi oldu. Azad xan və Kərim xan Vəkil ilə müharibə etdi. Axırda, hicri 1176 (1759)-cı ildə öz nökərlərinin əlilə öldürüldü. Kiçik qardaşı Məhəmmədhüseyn xandan iki oğlan qalmışdı: biri Ağa Məhəmməd xan, o biri Hüseynqulu xan Vəkil, girov adı ilə bunları həmişə öz yanında saxlayırdı. Bu böyük əmirin vəfatından sonra Ağa Məhəmməd xan Astarabada gedib, gündən-günə cah-calalını və səltənət busatını artırdı. Zəndiyyəyə qalib gəlib tədricən İraq, Təbəristan, Gilan və Azərbaycan ölkələrini fəth etdi.

1 B ax: "Qarabağnamələr", bu nəşrin 1 kitabı, səh. 138.

Hicri 1209-cu ildə (1795) Qarabağı fəth etmək məqsədilə Xudafərin körpüsünü təmir edib, Pənahabad (Şuşa qalası) üzərinə yürüş etdi. İbrahim xan İran qoşununun bu tərəfə keçməsinə yol verməmək üçün bu körpünü xarab etmişdi. Ağa Məhəmməd xan topxana mənzilində yerləşib, qalanı mühasirə etməyə başladı. Təqribən bir aydan sonra Gürcüstana hərəkət etdi. Qətl və qarətdən və Tiflis şəhərini xarab etdikdən sonra qayıdıb Muğanın Cəhlinam adlı yerində qışladı..."[1].

A.Bakıxanovun çox yığcam şəkildə xülasə etdiyi bu tarixi hadisələr "Qarabağnamə"lərdə daha müfəssəl şərh olunmuşdur. Bu hadisələrin geniş təsviri isə Qarabağ xanlığı tarixini öyrənmək üçün vacibdir.

1791-ci ildə Ağa Məhəmməd xan Qacar 10 ildən artıq mübarizədən sonra İranın və Cənubi Azərbaycanın bütün əyalətlərini öz hakimiyyətinə tabe etdikdən sonra Zaqafqaziyanı da əsarət altına almaq fikrinə düşdü. Qərbi Avropa ölkələri, birinci növbədə, İngiltərə və Fransa Rusiyanın Qafqazda möhkəmlənməsi və irəliləməsinin qarşısını almaq məqsədilə Qacara kömək göstərirdilər. 1794-cü ildə Ağa Məhəmməd xan Qacar İbrahimxəlil xandan itaət etməyi, bu məqsedlə də oğlunu girov göndərməyi tələb etdi və rədd cavabı aldı, bunu görən Ağa Məhəmməd xan Qacar Qarabağa 8 minlik cəza qoşunu göndərdi. Lakin Əsgəran qalası yanında Ağa Məhəmməd xanın qoşunu məğlub olub geri oturduldu.

1794-cü ildə Ağa Məhəmməd xan Qacar qoşun və silahın sayını on qat artırmağa məcbur oldu. 1795-ci ilin yayında Arazı keçib Qarabağ istiqamətində bütün ərazidə hərəkət edən İran qoşunlarının sayı 85 min nəfərdən artıq idi. Bu səbəbdən Ağa Məhəmməd xan Qacarın 1795-ci ilin yay yürüşü yalnız Qarabağ üçün deyil, bütün Zaqafqaziya üçün təhlükə törədirdi. Həqiqətən, Qacarın son məqsədi bütün Zaqafqaziyanı - Azərbaycanı, Ermənistam, Dağıstanı əsarət altına almaq məqsədi daşıyırdı. Bu məqsədi həyata keçirməkdə əsas maneə Şuşa qalası idi.

Şuşa uğrunda mübarizədə Zaqafqaziyanın müqəddəratı həll olunurdu. İran qoşunları 1795-ci ilin iyun-avqust aylarında 33 gün Şuşanı mühasirə edib onu təslim etməyə cəhd göstərdilər.

Zaqafqaziya xalqları Ağa Məhəmməd xan Qacarın 1795-ci il yürüşü ərəfəsində həqiqi mənada dostluq və qardaşlıq ittifaqı yaratmışdılar.

Qarabağ uğrunda mübarizədə Xudafərin (xalq arasında Xudafərin) körpülərinin fövqəladə strateji əhəmiyyəti var idi. Araz çayı üzərində - bir-birindən 800 metr arah on bir və on beş aşırımlı bu körpülər çox qədimdən, hətta hicrətdən əvvəl də mövcud olmuşdur. Ərəb istilası dövründə və sonrakı əsrlərdə həmin körpülər Cənub ilə Şimalı birləşdirən mühüm mərkəz idi.

Qacarın 1795-ci il Qarabağ uğrunda mübarizəsini Mir Mehdi Xəzani daha müfəssəl işıqlandırmağa çalışmışdır. M.M.Xəzani, Şuşa qalasının İran ordusu

1 A.Bakıxanov, "Gülüstani-İrəm", 1951, səh. 180-181.

tərəfindən mühasirəsini ətraflı surətdə təsvir etdikdən sonra Ağa Məhəmməd xanın məğlubiyyəti səbəblərini izah edir. Müəllifə görə, İbrahimxəlil xanın Ağa Məhəmməd xana qalib gəlməsi səbəblərindən biri də yerli əhalinin istilaçı İran ordularına qarşı apardığı partizan müharibəsi idi. Mir Mehdi Xəzaninin yazdığına görə, Qarabağ əhalisi atlı və piyada olaraq, meşələrdə, Araz sahillərindən tutmuş Şuşa qalasına qədər uzanan yollar boyu düşmənə qarşı çıxır, İran ordusuna gələn ərzaq mallarını zəbt edib aparır, düşməni azuqəsiz qoyaraq zəiflədirdi. Atlarını və sair böyük heyvanların doydurmaq məqsədilə ot və ələf üçün ətrafa çıxan İran əsgərlərinə hücum edən əhali onları qırıb və qismən əsir alıb İbrahim Xəlil xana çatdırırdılar. Mütəşəkkil olmayan əhalinin daimi hücumlarına və qarətlərinə məruz olan İran ordusu Qalanın mühasirəsindən el çəkmək məcburiyyətində qalır. Beləliklə, İbrahimxəlil xan xalqın yardımı nəticəsində Şuşam Ağa Məhəmməd xanın istilasından müdafiə edir.

İbrahimxəlil xan siyasi xadim olduğu kimi böyük sərkərdəlik məharətini də 1794-1795-ci il İran - Qarabağ müharibələrində bir daha sübut etdi. Qacar Tiflis üzərinə yürüş edərkən gəncəli Cavad xan min nəfər atlı ilə Ağa Məhəmməd xanın yanına gələrək ona Gürcüstan səfərində kömək etmişdir. Gürcüstan üzərinə yürüşdə Qacara kömək edən Məlik Məcnun, Məlik Qulu və Məlik İsmayıl 600 atlı ilə onun yanına gəlmişdilər. Qubalı Fətəli xanın oğlu Şeyx Əli xan Qacara öz sədaqətini göstərmək üçün ona 5000 tümən pul göndərmişdi. Yuxarıda deyilənlərə onu da əlavə edək ki, Qarabağı işğal edib İbrahimxəlil xanı hakimiyyətdən devirmək üçün Ağa Məhəmməd xanın yanında erməni məliklərinin xüsusi nümayəndəsi Abraham Beknazaryans öz dəstəsi ilə bələdçi-məsləhətçi kimi işləyirdi. A.Beknazaryans Ağa Məhəmməd Qacarın Qarabağa bütün yürüşlərində iştirak etmiş, onun xatirələrini sonralar Barxudaryan "Qarabağın sirri" adı ilə 1886-cı ildə Peterburqda çap etdirmişdir. Qarabağa İran yürüşü qüvvətləndikcə erməni məliklərinin xəyanəti daha da artırdı.

İran qoşunlarının Şuşanı alması üçün xarici qüvvələrdən, eyni zamanda dövrün ən güclü silahlarından istifadə olunurdu: "Fransız zabitlərinin komandanlıq etdiyi düşmən topları şəhərin istehkamlarını dağıda bilmədi. Şuşalılar düşmən üzərinə cəsarətlə həmlə edirdilər. Bu dəfə gecə Əsgəran qalasının naibi Həsənbəy və Şuşa müdafiəçilərinin dəstələri düşmən düşərgəsinə birgə hücum etdilər. Qanlı döyüş baş verdi. Düşmənə ciddi tələfat verdirən həmlə iştirakçıları tezliklə qala divarlarının arxasına çəkildilər. Düşmən sərbazları qarabağlıların hələ də öz düşərgələrində olduğunu zənn edərək səhərə qədər bir-birini qırdılar"[1].

Ağa Məhəmməd xanla sülh danışığı qeyri-mümkün idi. O, Qarabağın suverenliyinə etinasız idi: "Ağa Məhəmməd şah Şuşa qalası altında olanda mərhum İbrahim xanın elçiləri hərdənbir onun yanına gəlib-gedirdilər. Bir gün ağa Məhəmməd şah İbrahim xanın sifarişlərindən qəzəblənib dustaqların edamı

1 Azərbaycan tarixi, cild I, səh.397.

haqqında fərman verdi. Onun əmrilə Mirzə Vəlini Tehranda topun ağzına bağlayıb atdılar. On nəfərdən ibarət olan başqa dustaqları da öldürdülər. Onlardan heç birini sağ qoymadılar..."[1].

Ağa Məhəmməd xanın bu qəddarlığı qarabağlılarda mübarizə əzmini daha da gücləndirdi.

Şuşa valisi şəhəri qəhrəmancasına müdafiə edirdi. Qalada 15 minlik xalq qoşunu yaradılmışdı. Şuşanın müdafiəsində nəinki kişilər, hətta qadınlar da iştirak edirdilər.

İbrahimxəlil xan hələ Şuşanın müdafiəsi zamanı hiss edirdi ki, Ağa Məhəmməd xan məğlub olarsa, Gürcüstana gedib oranı viran edəcəkdir. Mirzə Camal yazır: "Mərhum İbrahim xan, şahın hərəkətindən qabaq şövkətli Gürcüstan valisinə belə xəbər göndərdi: "Ağa Məhəmməd şah qalanı işğal etməkdə aciz qalmışdır, qoşununa və ordusunun minik heyvanına çoxlu ziyan dəymişdir. Bu məğlubiyyətini düzəltmək üçün Tiflisi almaq və Gürcüstanın kəndlərini qarət etmək fikrindədir. Onun fəsadının və istilasının qarşısını almaq tədarükündə olun"[2].

Şuşanı mühasirə etmiş Ağa Məhəmməd xan tez-tez qarabağlıları, şəxsən İbrahimxəlil xanı hədələyir, ona təhqiredici məktublar göndərirdi.

Ağa Məhəmməd xanın İbrahim xana göndərdiyi aşağıdakı beyt şirazlı Seyid Məhəmməd Ürfi təxəllüslü şairin qəsidəsindən seçilmişdir və əsli belədir:

Zi məncənəqi-fələk səngi-fitnə mibarəd,
To əbləhanə girifti miyani-Şişə qərar.

Həmin beytin tərcüməsi aşağıdakı kimidir:

Fələyin məncəqindən fitnə daşı yağır,
Sən əbləhcəsinə Şişə içərisində sığınmısan.

İbrahim xan bu beyti alan kimi vəziri Molla Pənah Vaqifə müraciət edir. O da şaha belə bir cavab yazır:

Gər nigahdarimən anəst ki, mən midanəm,
Şişəra dər bəğəli-səng nigəh midarəd.

Həmin beytin tərcüməsi belədir:

Əgər məni qoruyan mənim bildiyimdirsə,
O, Şişəni daşın qoltuğunda mühafizə edər.

---

1 B ax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.138.

2 Yenə orada, səh.140.

Həmin şeirləşməni Mirzə Adıgözəl bəy də buna bənzər şəkildə təsvir edir. Fərq budur ki, o, M.PVaqifi təmtəraqlı cümlələrlə tərifləyir: "Vaqif kamal ədəb və elm sahibi bir sima idi. Əgər Çinin fəsahət səhrasının ahusu, onun səlist təbinin sünbülstanında pərvəriş tapan qəzəllərin maralı ilə bərabərlik iddiası etsə, tamamilə səhvdir. Əgər Bədəxşanın ləli, onun sinəsinin xəzinəsində toplanmış parlaq beytlər və çox az tapılan qiymətli mirvarilər qarşısında xəcalətindən qızarsa, tamamilə düzgündür...

Ağa Məhəmməd şah məktubunun cavabım nəzərdən keçirdi. Qəzəbinin buxarı başına vurub, ağlı başından çıxdı. Əmr etdi ki, od səpən toplar şərarələr çaxmağa, ildırım yayan qumbaralara atəş yağdırmağa başlasınlar.

Ağa Məhəmməd şah baxıb gördü ki, burada durduqca qalibiyyət gözəli yoxluq pərdəsi dalından çıxmır. Əsgərləri də Qarabağ qoşunlarının mərdanə hücumlarından və cəsarətli çarpışmalarından qorxuya düşürdülər. Əgər bir neçə gün belə keçsə, qoşunu məğlub olar. Buna görə dövlətinin əmirləri, məmləkətinin böyük adamları və vəzirləri ilə məşvərət etdi. Məsləhət görüb dedi ki, zərərin yarısından qayıtmaq da mənfəətdir. Müsibətlə dolu olan bu təhlükəli yerdən at başı qaytarmaq ancaq xəzinəsinin açarıdır. Yoxsa çox çəkməz bütün qoşunumuz və heyvanlarımız bu dərin xunxarlıq dəryasında məhv olub gedər. Bizlərdən bir nəfər də olsun İrana salamat qayıtmaz. Sonra qayıtmaq bayrağını hərəkətə gətirdilər (yəni İran qoşunu geri çəkilməyə başladı)..."[1] Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sinin yaxşı cəhətlərindən biri hadisələri belə ardıcıl təsvir etməsidir.

Şübhəsiz, Ağa Məhəmməd xanın Zaqafqaziyadakı fitnə və fəsadları Qarabağ xanlığı və Tiflislə məhdudlaşmamışdı. Azərbaycanın bir sıra başqa xanlıqlarında İran qoşunlarının törətdiyi qanlı faciələr məlumdur. Şirvan üzərinə oniki minlik İran ordusu hücum edərək Şirvanı, sonra isə Şəki və Quba xanlıqlarını talan etmişdi. Şuşanı ala bilməyən Ağa Məhəmməd xanın qarətçi qoşunu 100 min başdan artıq mal-qaranı Azərbaycandan sürüb İrana aparmışdı. Bütün bunlar 1795-ci il yürüşündə Ağa Məhəmməd xanı qane etmədi. O, yeni daha dəhşətli müharibəyə hazırlaşdı. İranlıların Gürcüstanda törətdikləri özbaşınalıqların həddi-hesabı yox idi. Elə bil ki, Ağa Məhəmməd xan qəsb edə bilmədiyi Şuşanın hayıfını da gürcülərdən alırdı. Digər tərəfdən Gürcüstanın müdafiəsində mindən artıq qarabağlı süvarisinin iştirakı onu qəzəbləndirmişdi...

Ağa Məhəmməd xanın Gürcüstanda və ümumən Zaqafqaziyada özbaşınalıqları barədə Gürcüstan valisi II Yekaterinaya müfəssəl məlumat verib ondan kömək istəmişdi.

Onunla şərik olan İbrahim xan da Rusiyadan kömək almanın tərəfdarı idi və öz rəyini Rusiya dövlətinə bildirmişdi.

Qacar Tifiisi yandırıb qarət etdikdən sonra 1795-ci ilin payızında Muğana qayıtdı. Onun məqsədi burada qışlamaq, yazın başlanğıcında Şuşa qalasına

1 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.61.

hücum edərək onu təslim etmək idi. Lakin Məhəmməd xanın bu planı pozuldu. Yaz vaxtı İranda həyəcan və iğtişaşlar üz verdi.

O, 1796-cı ilin yazında tələsik Arazı keçib İrana çəkilməyə məcbur oldu. Digər tərəfdən, Qarabağ xanının və Gürcüstan valisinin xahişi üzrə II Yekaterinanın göndərdiyi güclü rus qoşunu Dərbəndi alaraq Azərbaycan sərhədlərinə yaxınlaşırdı...

Ağa Məhəmməd xan Qacar İrana qayıdıb üsyançıları itaətə gətirdi və 1796-cı ilin payızında özünü İran şahı elan edib, təntənəli tacgüzarlıq mərasimi keçirdi. Lakin o bilmirdi ki, bir ildən sonra Şuşa şəhərində həmin tac yerə çırpılacaq, İran tarixində "Axtaxan" ləqəbi ilə tanmıb milyonların nifrət və lənətinə səbəb olan bir hökmdarın başı, kindən-qəzəbindən qırışmış sifəti bədənindən üzülüb ayaqlar altına salınacaqdır. Qarabağ uğrunda canfəşanlıq onun bir ildən artıq şahlıq tacı gəzdirməyə imkan verməyəcəkdir.

Yuxarıda qeyd etdik ki, Ağa Məhəmməd xana kömək edənlər sırasında Gəncə xanı Cavad xan və Çiləbörd mahalının hakimi Məlik Məcnun da var idi. Təbii olaraq bu satqınlıq İbrahimxəlil xan tərəfindən şiddətli cəzaya məruz qaldı. "Haman yaz fəslində, şah Farsda olduğu zaman, İbrahim xan Dağıstandan qoşun gətirtdirib Gəncəni mühasirə etdi. Tiflisin bərbad olmasına (Cavad xan) bais olduğu üçün İbrahim xan bu işə Gürcüstan valisini də cəlb etdi. Oğlu və bacısını İbrahim xanın yanına girov göndərdi. Bir daha İbrahim xanın itaətindən çıxmayacağına söz verdi. Məlik Məcnun isə vuruşma zamanı öldürüldü"[1].

Cavad xanın Qacara köməyi onunla bağlı idi ki, onlar eyni nəslə mənsub idilər. Lakin Azərbaycan, o cümlədən Qarabağı xarici qüvvələr hədələdikdə erməni məliklərinin düşmən tərəfə keçmələri isə onların Qarabağ xanlığına düşmən gözü ilə baxmalarından irəli gəlirdi.

İran şahına qarşı 1795-ci il müharibəsi Qarabağla Gürcüstanı həmişəlik qardaşlaşdırdı.

XVIII əsrin 80-ci illərindən başlayaraq Qarabağ xanlığı ilə Rusiyanın hərbi-siyasi əlaqələrinin qüvvətləndirilməsinə xüsusi diqqət yetirilirdi. Çar Rusiyası da öz növbəsində Qafqazın bütün iqtisadi, hərbi-strateji əyalətlərini zəbt etmək üçün müxtəlif planlar hazırlayırdı.

1783-cü ildə İbrahim Xəlil xan məktubla II Yekaterinaya müraciət etdi və Peterburqa elçilər göndərərək, Qarabağ xanlığının Rusiya tabeliyinə qəbul olunmasını xahiş etdi. 1784-cü ilin mayında knyaz Q.A.Potyomkinin II Yekaterinadan aldığı fərmanda deyilirdi: "İbrahim xana gəlincə, onun Rusiya təbəəli-yinə qəbul olunmasında heç bir çətinlik və ya şübhə yoxdursa, görünür, İrakliyə qarşı yeritdiyimiz siyasəti rəhbər tutmaq olar, belə olduqda, onun Rusiya imperator taxtına tabe olması, mənim və xələflərimin onun özü və xələfləri üzərində

---

1 B ax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.140.

ali hakimiyyətini tapması haqqında müqavilə bağlanması barədə general-poruçik Potyomkinə tapşırıq verməyi yaddan çıxarmaym"[1].

II Yekaterina Qafqazda Rusiya mənafeyini genişləndirmək məqsədilə əsaslı tədbirlər planı həyata keçirməyə başladı. O, Rusiya təbəəliyinə keçmək istəyən Qarabağ xanlığının arzusunu da rəğbətlə qarşıladı: "1796-cı il yanvarın əvvəllərində II Yekaterina Zaqafqaziyaya göndəriləcək ekspedisiya korpusuna komandanlığı üzərinə götürməyi A.V.Suvorova təklif etdi. Feldmarşal bu haqda fikirləşmək üçün möhlət istədi. Lakin sonra fikrini dəyişdi. Belə olduqda komandanlıq general V.A.Zubova tapşırıldı.

1796-cı ilin aprelində general V.A.Zubovun komandanlıq etdiyi 30 minlik rus qoşunu Dərbəndə yaxınlaşdı. Bundan başqa Kaspi donanması, bir sıra piyada dəstələr, habelə bu zaman Gürcüstanda olan rus qoşunları da Zubovun sərən-camına verilmişdi[2].

Məlumdur ki, İbrahimxəlil xanın xahişi ilə köməyə gəlmiş Valerian Aleksandroviç Zubov (1771-1804) general-mayor rütbəsində idi. O, 1794-cü il Polşa üsyanının yatırılmasında iştirak etmiş və çöldə hərbi xəritə çəkərkən ayağından yaralanmışdı. Onun həmin ayağını sonralar kəsmişdilər... Xalq içərisində rus generalı qraf Valerian Zubov Qızılayaq adlanırdı.

General V.A.Zubovun hərbi qüvvəsinin gəlməsi xəbəri Qarabağda böyük sevincə səbəb olmuşdu. Bunu təsvir edən Əhməd bəy Cavanşir yazır: "Bu xəbərlərin həqiqiliyinə şübhə etməyən Xan sarayında rus qoşunlarını qarşılamaq üçün böyük hazırlıq görülürdü. Xanın oğlu Əbülfət ağa Qarabağ zadəganlarının, habelə bəzi vassal xanlıqların adlı-sanlı adamlarından təşkil edilmiş dəbdəbəli bir dəstənin müşayiəti ilə rus sərkərdəsini qarşılamaq və onunla danışıqlar aparmaq üçün Muğana, iki ay əvvəl Ağa Məhəmməd xanın durduğu yerə yola düşdülər. Düşərgədə xan oğlunu böyük bir ehtiramla qarşıladılar, gətirdiyi hədiyyələri qəbul edib, əvəzində ona qiymətli bəxşişlər verdilər... Ordunu İran sərhədlərinə qədər yeritmək üçün bir süvari dəstəsi tələb etmək təklifi edilmişdi. Səfərə belə bir hazırlıq zamanı Rusiyadan sərəncam alındı ki, imperator II Yekaterinanın vəfatı ilə (1796) əlaqədar olaraq, ordu Rusiyaya geri çağırılır. Xan oğlu və onun əshabələri bu pis xəbərdən son dərəcə məyus olub geri qayıtdılar"[3].

İbrahimxəlil xanla V.A.Zubovun mehriban dostluq şəraitində keçən diplomatik və hərbi danışıqları başqa xanları hərəkətə gətirdi. Talış xanı Mir Mustafa xan, Gəncə xanı Cavad xan və Yerevan, Naxçıvan, Xoy, Qaradağ xanları öz elçilərini İbrahimxəlil xanın yanına göndərdilər və onun məsləhətlərinə əməl etməyə hazır olduqlarını bildirdilər. Xanlar deyirdilər: "O, Rusiya dövlətinə itaət etməyi lazım bildiyi üçün biz də dostluq yolu ilə gedərək mərhəmətli Rusiya imperatriçəsinə itaət edəcəyik".

---

1 B ax: Azərbaycan tarixi, 3 cilddə, cild I, Bakı, 1950, səh.373.

2 Yenə orada, səh.400

3 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.188.

İbrahimxəlil xan xanların bu arzusunu general Zubova çatdırdı. Belə bir şəraitdə rus qoşunları Gəncəni, Cavadı, Salyanı, Şamaxını tutdular. General Zubov Cavad yaxınlığında, Kürün sol sahilində Yekaterinakerd şəhəri salmağı planlaşdırdı. Eyni zamanda, Bakının liman şəhəri kimi inkişafı barədə layihə də hazırlanmışdı. 6 noyabr 1796-cı ildə II Yekaterinanın vəfatı general Zubovun planlarını alt-üst etdi. 1797-ci ilin martında yeni rus çarı I Pavel Azərbaycandakı rus qoşunlarını geriyə çağırdı...

Ağa Məhəmməd şah Qacar 1794-1795-ci illərdə Qarabağı işğal edə bilmədi. Qarabağ xanlığı hiss etdi ki, gələcəkdə İran istilasına qarşı mübarizədə daha güclü müttəfiqlər lazımdır. Bununla belə kənardan kömək almadan Qarabağın və onun mərkəzi Şuşanın Ağa Məhəmməd xana sinə gərməsi xalqın vətənpervərliyini və mübarizə əzmini qat-qat gücləndirdi...

Rus qoşunları Azərbaycandan çəkilən kimi Ağa Məhəmməd Qacar daha güclü qüvvə ilə Qarabağı və onun sarsılmaz paytaxtı Şuşa şəhərini işğal etmək planını hazırladı.

1797-ci ilin martında Ağa Məhəmməd şah Qacar Azərbaycan və Dağıstan hakimlərinə fərman göndərərək onları hədələyib itaətə çağırdı. Lovğa şah yazırdı ki, guya "rus qoşunları məndən zərbə yeyəcəklərindən qorxaraq, geri qayıtmağa məcbur oldular".

Azərbaycan xanlarından heç bir cavab almayan Ağa Məhəmməd şah Qacar 1797-ci ilin yazında yenidən Arazı keçdi. Onun əsas qüvvələri Qarabağ xanlığına - Şuşa qalasına doğru hərəkət edirdi.

Şuşanı müdafiə etmək üçün lazımi, kifayət tədarükü olmadığından İbrahim Xəlil xan Şuşadan çıxıb müdafiə oluna-oluna Car-Balakənə doğru hərəkət etdi.

Ağa Məhəmməd şah Qacar 1797-ci ilin yazında Qarabağa hücum edərkən böyük ordu hissələri toplaya bilmişdi. Əhali isə hələ 1795-ci ilin qarət və talanlarından sonra özünü düzəldə bilməmişdi. Qarabağda quraqlıq aclıqla nəticələnmişdi. O günlərin canlı şahidi olan "Qarabağnamə" müəllifləri təsdiq edirdilər ki, "hətta bir çanax buğdanı o vaxtın pulu ilə 45 manata güclə almaq olurdu"[1].

"Belə bir vəziyyətdə Şuşa qalasının müdafiəsini 1795-ci ildəki kimi təşkil etmək mümkün deyildi. İbrahim Xəlil xanın Şuşanı tərk edib Car-Balakən istiqamətində hərəkət etməsini eşidən Ağa Məhəmməd şah onu təqib etmək üçün Şahsevən atlılarının bir neçə dəstəsini götürüb Car-Balakən tərəfə yolladı. İbrahimxəlil xanın yanında ayrı-ayrı xanlar - şəkili Səlim xan, mişkinli Ətaulla xan və Qarabağın seçilmiş və məşhur bəylərindən bir neçəsi onunla səfər yoldaşı olub birgə dərə-təpəli yerlər ilə yolla hərəkət edirdilər.

Ağa Məhəmməd xanın qoşunları Tərtər çayı sahilində köç və binadə onlarla rastlaşıb vuruşdular, amma bir iş edə bilmədilər. İbrahim xan öz adamlarını və sursatını sağ və salamət Kür çayından keçirib Car və Balakənə daxil oldu".

1 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.142.

Mirzə Camal yazır: "Ağa Məhəmməd şahın öldürülməsinin təfsilatı belədir: "İbrahim xan qaladan çıxıb Balakənə getdikdən sonra Ağa Məhəmməd şah ciddi maneəyə rast gəlmədən Şuşa qalasına girib bir həftə orada qaldı. Xoşu gəlmədiyi bir işə görə Səfərəli bəy və Abbas bəy adlı iki nəfər yaxın xidmətçisinə acıqlanıb dedi: "Səhər açılan kimi hər ikinizə ağır cəza verəcəyəm". Onlar bilirdilər ki, şah heç vaxt öz dediyindən dönmür. Odur ki, canlarının qorxusundan səhər açılana qədər onu öldürməyi lazım bildilər. Sübh açılan zaman şah yuxuda ikən şahın otağına girib iti xəncərlə onu öldürdülər. Qapıları bağladılar. şahın cəvahir bazubəndini, tacını və həmailini götürüb, Sadıq xan Şəqaqinin yanına getdilər və əhvalatı ona söylədilər"[1].

Lakin Qacarın baş sərkərdəsi Sadıq xan Şəqaqi əvvəlcə onların sözünə inanmırdı. Sonra şahın ölümünün həqiqət olduğunu gözləri ilə görür. Tacı, bazubəndi və həmaili götürüb guya Gəncə və Gürcüstana şah əmrini yerinə yetirmək üçün getdiyini bildirib Şuşadan çıxır...

Canilərdən biri Səfərəli bəy qalada qaldı. Abbas bəyi isə Sadıq xan özü ilə İrana apardı.

Az sonra şəhərdə şahın ölüm xəbəri yayıldıqda İran qoşunu dağınıq halda Şuşanı və Qarabağı tərk etdi.

Mirzə Camalın bu müxtəsər məlumatını başqa müəlliflər də təsdiq edir: Ağa Məhəmməd şah öldürüldükdən sonra Qızılbaş xanları bu hadisədən qorxuya düşüb özlərini itirdilər. Hər biri öz adamları ilə dəstə-dəstə qaçıb dağıldılar. Şəhər əhalisi tam bir hücumla Qızılbaş qoşunundan əsir düşənləri soyundurdular. Bu zaman İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy imarətə daxil oldu. Şahın yerdə qalan zinətlərini zəbt etdi. Ağa Məhəmməd şahın başını da Məhəmməd Rəfi bəylə Balakənə göndərdi. Bir neçə gündən sonra xan igid oğlu və vəliəhdi cənab Mehdiqulu ağanı da Qarabağ tərəfinə göndərdi...

Bir neçə müddətdən sonra behiştlik xan özü də Qarabağa gəldi və keçmişdə olduğu kimi, yenə hökumət taxtına oturdu.

Mirzə Camalın yazdığına görə, şahın Şuşada öldürülməsi xəbərini eşidəndən sonra İbrahimxəlil xan dərhal Şuşaya qayıtmadı. Bu faktı belə izah etmək mümkündür; İbrahimxəlil xanın qardaşı oğlu Məhəmməd bəy Şuşada ağalıq edirdi. Birdən-birə Şuşaya getmək qardaş qırğını ilə nəticələnə bilərdi. İbrahimxəlil xan əvvəlcə oğlanlarını Şuşaya yola saldı. Ağa Məhəmməd şah Qacarın öldürülməsi xəbəri Azərbaycan xanlarını da sevindirmişdi: "Çünki qüvvətli düşmən olan padşah artıq ölmüşdü. Bütün Azərbaycanın və başqa yerlərin xanları həmişə mərhum İbrahim xanın hökmü və itaəti altında olub, uzun müddət onun əzəmət və qüdrətini gördüklərindən hər şeydən əvvəl istəyirdilər ki, onun mübarək xatırını özlərindən razı salsınlar, onunla möhkəm əlaqə bağlasınlar.

Məhəmməd bəy isə mərhum İbrahim xan gələnə qədər Qarabağ vilayətindən hökumət işlərilə məşğul idi.

---

1 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.143.

Böyük Azərbaycan şairi və dövlət xadimi Molla Pənah Vaqifin və oğlu Əli bəyin haqsız edam olunması Məhəmməd bəyin bəd niyyətinin nəticəsi idi. Özündən müştəbeh Məhəmməd bəy, M.P.Vaqifin arvadı Qızxanımla gizli məhəbbət əlaqəsi yaratmışdı. O öz xain məqsədinə çatmaq üçün maneələri aradan asanlıqla qaldıra bildi... Vaqif və oğlu Əli bəy haqsız yerə öldürüldü.

Məhəmməd bəyin aqibəti də faciəli oldu. O, İbrahimxəlil xanın Şuşaya qayıtması xəbərini eşitcək qarət etdiyi var-dövləti götürüb M.P.Vaqifin arvadı Qızxammla birlikdə Qarabağdan çıxdı. Şəki hakimi Məhəmmədhəsən xana pənah gətirdi. Çünki o, İbrahimxəlil xandan ağır cəza alacağını əvvəlcədən bilirdi. Şəki xanı, Məhəmməd bəyi əvvəlcə hörmətlə qəbul etdi, az sonra onu həbsə aldı və Şirvan xanı Mustafa xana təhvil verdi. Mustafa xanın qisas hissi coşub daşdı. Atasının və qardaşının intiqamını Məhəmməd bəydən aldı. Məhəmməd bəyi Şamaxı yaxınlığında öldürdü. Bu hadisə 1797-ci ilin sonunda baş vermişdi.

Şuşaya qayıdan İbrahimxəlil xan Şah Qacarın nəşini İrana yola saldı. Baba xan adı ilə taxta çıxan Fətəli şaha hədiyyə, oğlu Əbülfət xanı girov göndərdi.

Ağabəyim ağa isə (1780-1832) Fətəli şaha ərə getdi. Vətənə vurğunluq hətta Fətəli şahın təmtəraqlı sarayında belə Ağabəyim ağanın qəlbini təmin etmədi:

Mən aşiqəm qara bağ,
Qara salxım, qara bağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ, - dedi.

Ağabəyim ağa şan-şöhrətə uymamış, öz taleyinin puçluğundan acı-acı şikayətlənmişdir:

Əfsus ki, yarım gecə gəldi, gecə getdi,
Heç bilməm ömrüm necə gəldi, necə getdi.

Ağabəyim ağanın tələbi ilə o, Tehran saray mühitindən aralı darüləman sayılan Qum şəhərində yaşadı, orada da 1832-ci ildə vəfat etdi. 1811-ci ildə İngiltərənin fövqəladə səfiri və onun xanımı Fətəli şah tərəfindən qəbul edilərkən səfir Böyük Britaniya kraliçasının etimadnamə və hədiyyələrini məhz Ağabəyim ağaya təqdim etmişdir. Çox gözəl, ağıllı, hazırcavab, geniş məlumat, dərin bilik və yüksək tərbiyəyə malik olan Ağabəyim ağa sarayda "Banuyi-hərəm" olmuşdur.

Ağabəyim ağa siyasi sahədə Fətəli şaha təzyiq göstərir, Rusiya - İran münasibətlərinin yaxşılaşmasına çalışırdı. Ağabəyim ağanın İranda olması və orada keçirdiyi həyat, müdrik qarabağlı qızının ağlı, tədbiri, zərif şeirləri

dildən-dilə düşdü və tarix səhifəsində yaşadı. O, Tehranda şah hərəmxanasında deyil, din-müqəddəs mərkəz sayılan Qum şəhərində yaşadı, orada da Qarabağ həsrətilə vəfat etdi.

Fətəli şah İbrahimxəlil xanın oğlu Əbülfət ağaya xanlıq rütbəsi verdi. O, şahın sərdarlan sırasında xüsusi tapşırıqları yerinə yetirdi, böyük qəhrəmanlıq göstərdi. Təəssüf ki, XIX əsrin əvvəllərində Əbülfət xanın bir neçə hərbi səfəri öz doğma yurduna, Qarabağa qarşı çevrildi. Lakin Qarabağ naxələf övlada layiqli cəza verdi. Əbülfət xanın anası erməni qızı idi. Bundan istifadə edən Fətəli şah XIX əsrin ilk illərində İbrahimxəlil xanı devirmək üçün hərbi səfərə bəzən Əbülfət xanı göndərirdi...

Beləliklə, aydın olur ki, 1797-ci il İranın Qarabağı və bütün Azərbaycan xanlıqlarını zəbt edib özünə tabe etmək uğrunda apardığı mübarizənin kulminasiya nöqtəsidir. 1797-ci ilin yayında Ağa Məhəmməd şah Qacarın Şuşam alması və orada öldürülməsi ümumən Zaqafqaziyada siyasi vəziyyətə təsir göstərmişdir. Bir tərəfdən, İranda Fətəli şah Qacarın hakimiyyəti ələ alması və Azərbaycanı itaət altına almaq səyləri, digər tərəfdən çar Rusiyasının Zaqafqaziyada öz hökmranlığını həyata keçirmək planlarını icraya başlaması Qarabağ xanlığını mürəkkəb siyasi yol ayrıcında qoymuşdu. Belə bir şəraitdə Qarabağda Rusiyaya meyil daha da güclənmişdi. Rusiya oriyentasiyasının ciddi tərəfdarı M.P.Vaqifin 1797-ci ildə öldürülməsi vəziyyəti müəyyən dərəcədə çətinləşdirirdi. Bununla yanaşı, Ağa Məhəmməd şah Qacarın 1797-ci ildə Şuşada öldürülməsinin təşkilində M.P.Vaqifin iştirakı versiyası da mövcuddur...

## 6. QARABAĞ XANLIĞININ RUSİYA TƏRKİBİNƏ DAXİL EDİLMƏSİ

1797-ci ildə İbrahimxəlil xan Car-Balakəndən Şuşaya qayıtdı. Ağa Məhəmməd şahın ölümündən qəzəblənmiş İran şahlığı ilə münasibətləri yaxşılaşdırmaq siyasəti yürütdü. Lakin İbrahimxəlil xanın 1797-1805-ci illərin əvvəllərində İranla dinc yanaşı yaşamaq siyasəti istənilən nəticəni vermədi. Fətəli şah öz sələfi Ağa Məhəmməd şah Qacarın cənazəsini ehtiramla İrana yola salan və əlavə olaraq oğlu Əbülfət xanı onun himayəsinə, qızı Ağabəyim ağanı şaha ərə verən İbrahimxəlil xana hörmətlə yanaşsa da, tezliklə onu özünə tabe etmək üçün yollar axtardı.

Buna rəğmən İbrahimxəlil xanın Rusiyaya dostluq, itaətkarlıq siyasətində ardıcıllıq var idi. Bu siyasət müxtəlif məktub və sənədlərdə, eləcə də 1805-ci ilin mayında Kürəkçayda bağlanmış sazişdə öz ifadəsini tapmışdır. Rus dövləti İbrahimxəlil xanın sədaqətini nəzərə alaraq onun əleyhinə nə XVIII əsrdə, nə də XIX əsrin əvvəllərində heç bir güc işlətməmişdir. Buna baxmayaraq, çarizmin milli müstəmləkə siyasətini icra edən dargörüşlü mayor Lisaneviç

Kürəkçay sazişindən bir il keçməmiş İbrahimxəlil xanın Rusiyaya sədaqətinə şübhə edərək, eləcə də erməni məliklərinin, xüsusilə Məlik Cümşüdün donosları əsasında xan ailəsi və yaxın adamları ilə birlikdə 11 iyul 1806-cı ildə Şuşa qalası yaxınlığında öldürüldü. Böyük dövlət xadimi, misilsiz sərkərdə, Rusi-yanın sədaqətli dostu İbrahimxəlil xanın öz "dostlarının" əlilə öldürülməsi Qarabağ ehalisini narazı saldı və onlar kütləvi etirazlarını çara bildirdilərsə də, bir nəticə vermədi. Əksinə Lisaneviçin hərbi rütbəsi artırıldı... O, əvvəlcə polkovnik, sonra isə general rütbəsi aldı. İbrahimxəlil xanın qətlindən sonra oğlu general-mayor Mehdiqulu xan Qarabağ xanı təyin edildi. Mehdiqulu xan Qarabağ xanlığının ləğvinə qədər (1822) xanlıq vəzifəsini icra etdi...

Mirzə Camal "Qarabağ tarixi"nin yeddinci fəslini "Ağa Məhəmməd şah öldürüldükden və İbrahim xan Balakəndən Qarabağa qayıtdıqdan sonra baş vermiş hadisələr haqqında" adlandırmışdır. Həmin fəsildə Ağa Məhəmməd şahın talançı hücumlarından sonra Qarabağ xanlığının dağılmış təsərrüfatının bərpasından, xalqın güzəranını yaxşılaşdırmaq tədbirlərindən söhbət açılır. Nəhayət, Qarabağ xanlığının Rusiya himayəsini təsdiq edən 1805-ci il Kürəkçay müqaviləsi və İbrahim xanın öldürülməsi səbəbləri göstərilməklə həmin fəsil tamamlanır. 1797-1804-cü illərdə İbrahim xanla Fətəli şah Qacar arasında dostluq əlaqəsi davam edirdi. Lakin Zaqafqaziyanın çar Rusiyası tərəfindən tutulması haqda geniş hərbi-siyasi plan bu dostluğun pozulmasına səbəb oldu.

İbrahimxəlil xan öz vəziyyətini möhkəmləndirmək və düşmənlərin Rusiyanı onun əleyhinə yönəltməsinin qarşısını almaq məqsədilə general-poruçik Q.A.Potyomkinə məktub yazıb bildirdi ki, Rusiya təbəəliyini qəbul edib ona bac verməyə hazırdır[1].

Bu mühüm sənəd göstərir ki, II Yekaterina hələ 1783 -cü ildə bütün Zaqafqaziyanı Rusiyaya tabe etməyə hazır idi.

İbrahimxəlil xan öyrəndi ki, knyaz Q.A.Potyomkin Asiyada xristian dövləti yaratmaq istəyir və bu məqsədlə Qarabağ məliklərinə arxalanmaq fikrindədir. Bu planın yerinə yetirilməsi İbrahimxəlil xan üçün hakimiyyəti itirmək demək idi[2].

Lakin o, Rusiya komandanlığı ilə özünü elə aparırdı ki, guya təbəəliyə keçmək meylindədir; o, ümid verir və lakin ondan gözlənilən addımı atmırdı. Niyyəti özünə sərfəli olan şərtlər barədə razılığa gəlmək idi. Bu məqsədlə o, 1784-cü ilin əvvəllərində Rusiyaya öz elçisi ilə məktub göndərib bildirdi ki, himayəni xahiş edir, bununla birlikdə onun daxili işlərinə qarışılmasını istəmir.

Eyni zamanda II Yekaterina İbrahim xanla daha çox maraqlanmağa başlamışdı. 1784-cü ilin mayında o, Q.A.Potyomkinə yazırdı: "Deyəsən, İbrahim

1 B ax: П.Бугков. Материалы для новой истории Кавказа, ч. II., СПб., 1869, стр.142.

2 Yenə orada, səh.l 15.

xanın məktubu türklərin və digər iranlıların mənə çatan məktubundan daha nəzakətli yazılıb. Xahiş edirəm, onu mənə tanıt. O, necə xan olub? Cavandırmı, qocadırmı, güclüdürmü, zəifdirmi, iranlılar ona meyillidirmi"[1].

Məlumdur ki, Qudoviçi baş komandan əvəzinə general Kovalevski əvez etdi. Bu dəfə İbrahimxəlil xan onun yanına "elçi ilə hədiyyələr göndərib, öz dostluğunu bildirdi. Həqiqətdə də general Kovalevski elçiləri böyük hörmətlə qarşılayıb, xüsusi sovqat və töhvələr göndərərək mərhum İbrahimxəlil xanın haqqında olduqca mehribanlıq göstərdi"[2]. Göründüyü kimi, Rusiyaya dostluq münasibətində qubalı Fətəli xanla yanaşı, ən ardıcıl olanı İbrahimxəlil xan idi.

Əhməd bəy Cavanşirin yazdığına görə, Rusiyanın Zaqafqaziyanı ələ keçirmək, burada İran mənafeyini alt-üst etmək və nəticədə Zaqafqaziyanı öz tərkibinə daxil etmək siyasətini həyata keçirməkdə Gürcüstan dayaq nöqtəsi idi.

Mirzə Adıgözəl bəy "Qarabağnamə"nin "Rusiya qoşunlarının Qafqazın bu tərəfinə təkrar gəlməsi və əmələ gələn hadisələr haqqındadır" adlandırdığı doqquzuncu fəslində XVIII əsrin sonu XIX əsrin əvvəllərində Qarabağ və ona qonşu əyalətlərdə baş verən hadisələri təsvir edir. Onun fikrincə, Gürcüstan valisi yenicə hakimiyyət başına keçən Fətəli şahdan qorxurdu və bu səbəbdən "öz böyük oğlu Davud Mirzəni yalvarıcı ərizələr və səmimi məktub"larla böyük imperator Pavel Petroviçin uca dərgahının astanasına göndərdi"[3].

Doğrudan da, Fətəli şah Cənubi Azərbaycandan sürətlə Zaqafqaziyaya yaxınlaşır, Rusiyaya meyil edən Qarabağ xanlığını, Gürcüstanı və başqa əraziləri tutmağa hazırlaşırdı.

Valinin məktubu Peterburqa yetişən kimi Davud Mirzə ilə Kovalevski bir polk soldatla valinin sərəncamma, Tiflisə yola salındı. Onunla birlikdə general-mayor Lazarev 1799-cu ildə Tiflisə daxil oldular.

Daha sonra Mirzə Adıgözəl bəy Ümmə xanla general Lazarevin hərbi toqquşmasını qələmə almışdır. General-mayor Lazarevin Ümmə xanla apardığı hərbi əməliyyatların prinsipial əhəmiyyəti var idi. Fətəli şah bu döyüşlərə böyük ümid bəsləyirdi. Lakin uzun sürən müharibədə Ümmə xan məğlub edildi. Ümmə xandan Cavad xan da narazı idi. Çünki onun qüvvələri Gəncə xanlığını qarət etmişdilər...

Ümmə xanın vəfatı Fətəli şahın ümidini boşa çıxardı və Tiflis üzərinə qoşun göndərmək fikrindən çəkindirdi.

II İraklidən sonra Gürcüstan hakimi olmuş XII Georgi 1800-cü il dekabrın 29-da vəfat etdi. General-leytenant Knorrinq Gürcüstanda rus movqeyini möhkəmlətmək meqsədilə 1801-ci ilin may ayında Tiflisə gəldi.

1 (Собственноручное письмо императрицы Екатрины II кн. Г.А.Потемкину. 28 мая 1784 г.).

2 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.130.

3 Yenə orada, səh.67.

Mirzə Adıgözəl bəy yazır ki, Knorrinq Gürcüstanı idarə etmək məqsədilə gürcü tavadlarından dörd nəfəri seçib divanbəyi təyin etdi. Mirzə Adıgözəl bəyin verdiyi məlumat tarixi həqiqətə də uyğun gəlir[1].

1803-cü ilin əvvəlinə qədər Zaqafqaziyada, o cümlədən, Qarabağda vəziyyət bu şəkildə inkişaf edirdi. 1803-cü ilin fevralında Sisianovun Gürcüstanı idarə etməsi ilə vəziyyət dəyişdi.

Gürcü vəliəhdlərini itaətə çağıran general-mayor Lazarev 1803-cü il aprelin 21-də çariça Dariya Georgiyevna tərəfindən öldürüldü. General Sisianovun əmrilə Dariya Georgiyevna 1803-cü il oktyabrın 26-da Rusiyaya yola salındı.

Bundan sonra Sisianov Azərbaycan xanlıqlarını Rusiyaya tabe etmək fikrinə düşdü. Mirzə Camal Sisianovun əməliyyatlarına geniş yer verir. 1803-cü ilin fevral ayında general Sisianov Tiflisə gəldi. Onun ilk tədbirlərindən biri Car və Tala ləzgilərinin Gürcüstana basqınlarına son qoymaq idi və tezliklə, öz məqsədinə nail oldu. Bundan sonra Sisianov gəncəli Cavad xanı aradan qaldırmağa çalışdı.

Mirzə Camalın yazdığına görə, Sisianovun qoşunları 1803-cü ilin axırlarında gəlib Gəncəni mühasirə etdi. Lakin Cavad xan son nəfəsinə qədər müqavimət göstərmək qərarına gəldi. Sisianov təslim olmaq barədə Cavad xana 29 noyabr və 9, 11, 26, 28, 29 dekabr tarixli məktublar yazdı[2].

Cavad xan qalanı döyüşsüz təslim etməyə razı olmadıqda 1804-cü il yanvar ayının üçündə Ramazanın axırmcı gecəsi xan, oğlu Hüseynqulu ağa ilə birlikdə ümumi hücumda qala divarları üzərində mayor Lisaneviç tərəfindən öldürüldü[3].

Gəncə qalası alınan kimi Sisianov Cavad xanın qatili mayor Lisaneviçi Şuşaya İbrahim xanın yanına göndərib itaət etməyə çağırdı və İbrahimxəlil xandan Rusiya himayəsinə keçməsi barədə məktub aldı. Bu səbəbdən Sisianov Gəncədən Qarabağa gəlmədi. Daha narahat saydığı başqa xanlıqlar üzərinə getdi.

1804-cü ilin yazında İrəvan xanı Məhəmməd xan və Naxçıvan hakimi Kəlbəli xan Sisianovdan kömək istədilər. Onlar yazmışdılar: "Fətəli şah oğlu və vəliəhdi Abbas Mirzəni İrəvan üzərinə göndərmişdir. Əgər Sərdar təşrif gətirib, bizə kömək etsə, biz İrəvan qalasını Sərdara verib, yüksək Rusiya dövlətinə tabe olmağı qəbul edərik".

Sisianovun hərbi qüvvələri İrəvana doğru yürüş etdi. 1804-cü ilin iyun ayında rus qoşunu ilə Abbas Mirzə qoşunu arasında Üçkilsə (Eçmiadzin) yaxınlığında şiddətli müharibə oldu. Həmin döyüşdə ruslar İran qoşunlarının hücumlarını dəf etdilər. Vəziyyətin gərginliyini görən Fətəli şah güclü qoşunla oğlu-nun köməyinə getdi. Məhəmməd Həsən xan və Kəlbəli xan Sisianova verdikləri vədi açıq-aşkar pozur, rus qoşunlarına qarşı vuruşurdular.

1 B ax: AKAK, I cild, sənəd 542, səh.425.

2 B ax: AKAK, II cild, sənəd 1172, 1178-1179, səh.588, 590-591.

3 Bax: "Rnyaz Sisianovun Qafqaz mülki qubernatoruna yazdığı 1804-cü il 8 yanvar tarixli 5 nömrəli teliqə, AKAK, II cild, sənəd 1189, səh.592.

Ermənilərin Rusiya
himayəsinə keçmək barədə hələ 1783-cü il müraciəti də özünü doğrultmadı, çətin vəziyyətdə qalan Sisianovun ordusu azuqə cəhətdən də korluq çəkirdi. Mirzə Camal və Mirzə Adıgözəl bəy bu xəyanəti ermənilərin ruslara qarşı xəyanəti kimi qələmə almışlar. Sənədlər də bu həqiqəti təsdiq edir[1]. Beləliklə, Sisianov İrəvan qalasını ala bilmədi və Tiflisə qayıtdı.

Məqsəddən uzaq düşməmək üçün burada Mirzə Adıgözəl bəyin İrəvan müharibəsi haqqında fikir və mülahizələrini şərh etməyə ehtiyac hiss etmirik. Bununla yanaşı, onu xatırlatmaq istəyirik ki, knyaz Sisianovun ağır döyüşlər nəticəsində ala bilmədiyi İrəvan 40 ildən artıq (1754-1797) Pənahəli xan və İbrahimxəlil xanın hökmranlıq etdiyi Qarabağ xanlığının itaəti və təsiri altında olmuşdur.

İrəvan qalası rus qoşunları tərəfindən 1804-cü il iyul ayının 2-dən etibarən mühasirəyə alınsa da təslim olmadı: "Şah, mərhum İbrahim xanla Rusiya sərdarı arasında dostluq əlaqəsinin olmasını və elçilərin gedib-gəlişini eşitdiyinə görə İrəvandan qayıtdığı zaman Əbülfət xana beş min nəfərlik qoşun verib, atasına yardım və kömək göstərmək adı ilə Qarabağa İbrahim xanın yanına göndərdi və tapşırdı ki, Məhəmmədhəsən ağanı bir neçə Qarabağ bəyzadələri ilə Fətəli şahın hüzuruna göndərsin, Əbülfət xan İbrahim xanın həyatının axırına qədər vəkil sifətilə Qarabağda qalsın və Əbülfət xandan icazəsiz və məsləhətsiz heç bir iş görməsin"[2].

Fətəli şahın təklifinin mahiyyəti aydın idi. O, İbrahimxəlil xanın suverenliyini pozmaq istəyir, özünün tabeçiliyinə almağa cəhd göstərirdi. Qarabağ xanlığı yaranandan beri ilk dəfə idi ki, İbrahimxəlil xana belə bir təlıqiranə təklif edilirdi. Bu səbəbdən İbrahim xan Fətəli şahdan incidi.

Mirzə Camal yazır: "Mərhum İbrahim xan Fətəli şahın belə təkliflərindən inciyib, Əbülfət xana ağır cavablar verərək, yazdı ki, Qarabağ torpağına girmədən geri qayıtsın. Əbülfət xan möhtərəm atasının sözünə baxmayıb, İbrahim xan və Məhəmmədhəsən xan Dizaq mahalının Tuğ kəndində olduqlarından, Qızılbaş qoşununu götürüb, o tərəfdəki dağların qoçaq tüfəngçilərini, özünün işgüzar nökərlərini və başqalarını toplayıb tam bir surət və böyük izdihamla mərhum İbrahim xanın və öz böyük qardaşı Məhəmmədhəsən ağanın hüzuruna gəldi. Hamin gecə Mehdiqulu xan da gəlib çatdı. Səhər Əbülfət xan böyük dəstə ilə Tuğ kəndinə hücum etdi. Mərhum xanın və oğlanlarının yanında olan qoçaq tüfəngçilər və adlı-sanlı atlılar hücuma keçərək Qızılbaş qoşununu məğlub edib, düşmən ordusunun bütün at və heyvanını qarət etdilər. Düşməndən çoxlu əsir düşən və ölən oldu. Əbülfət xan Arazın o tayına qaçdı"[3]. Anası erməni qızı

1 Sisianovun 1804-cü il 2 iyulda Rusiya qoşunlarının vəziyyoti barədə məktubu Bax: AKAK, II cild, sənəd 1168, səh.810.

2 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.151.

3 Yenə orada, səh. 150.

olan Əbülfət xan həm Fətəli şaha, həm də erməni məliklərinə xidmət göstərərək, İbrahimxəlil xan əleyhinə fəal mübarizə aparırdı.

Fətəli şah Əbülfət xanın məşhur Tuğ döyüşündə biabırcasına məğlub olmasından təşvişə düşdü. O, hər vasitə ilə İbrahimxəlil xanla Sisianov arasmda və ümumən onun Rusiya ilə dostlaşmasına mane olmağa çalışırdı. Bu məqsədlə Fətəli şah yeni diplomatik manevrə əl atdı. O, "... iki-üç nəfər xanı elçi adı ilə İbrahim xanın yanına göndərdi, Əbülfət xanı isə danlayıb, məzəmmət etdi. Kərim xan, Rəhim xan və Abdulla xandan ibarət olan bu elçiləri mülayim və şəfqətli sözlər, möhkəm təəhhüdlər və qəliz andlarla dolu fərmanla İbrahimxəlil xanın yanına göndərib söz verdi ki, bütün Qaradağ mahalını şah xəzinəsinə çatmalı olan mədaxili ilə birlikdə əbədi olaraq mərhum İbrahim xan nəslinə verəcəkdir, övladlarından iki nəfərini də Şuşa qalasına İbrahim xanın yanına girov göndərəcəkdir. Müqabilində İbrahim xan Şuşa qalasının üç ağaclığında Tifiis və Gəncə yolunun üstündə olan Əsgəranın hər iki qalasını (Qızılbaş) qoşununa təhvil verməlidir. Rus qoşununun qabağını kəsmək üçün hər iki qala möhkəmləndirilib içərisində qoşun saxlanmalıdır. Habelə qalanın bir ağaclığında olan çay, Şuşa qalasının üç verstliyindəki səngərlə birlikdə Qızılbaş qoşununun ixtiyarına verilməlidir..."[1].

Hələ bunlar az imiş kimi, Şahbulaq qalasının da Fətəli şaha verilməsi tələb olunurdu. Fətəli şah Qarabağda yerləşəcək bütöv bir ordunu pulla satın alınan ərzaqla təchiz etməyə söz verirdi. İbrahimxəlil xan Fətəli şahın təkliflərinə heç bir məhəl qoymadı. Onun qızı Ağabəyim ağa şahın hərəmi olmasına, oğlu Əbülfət xanın nüfuzlu mövqe tutmasına rəğmən İbrahimxəlil xan müdriklik və tarixi şəraitlə hesablaşmağı zəruri saydı. O, Tiflisə general Sisianovun yanına nümayəndə göndərərək onunla görüşmək və Rusiyaya itaət şərtlərini müəyyənləşdirməyi təklif etdi. Sisianov İbrahim xanın elçilərini "hörmət və ənamla geri qaytarıb" onunla 1805-ci ilin yazında görüşəcəyini bildirdi.

Əhməd bəy Cavanşir yazır: "Bu hadisədən sonra Məhəmmədhəsən ağa öz tərəfdarları ilə birlikdə qəti qələbə çaldı. Onun təkidi ilə bir neçə nəfər adlı-sanlı bəy xanın admdan knyaz Sisianova məktub apardılar. Həmin məktubda xan iranlıların pis niyyətlərindən şikayətlənib, rus imperatorunun təbəəliyinə daxil olmaq haqqında özünün əyanları və təbəələrinin qəti arzusunu bildirdi. Məktubun cavabını bir nəfər qərargah zabiti gətirdi; həmin cavabda müqavilə bağlanmasının vaxtı və yeri haqqında əvvəlcədən razılığa gəlmək təklif edilirdi.

Beləliklə, 1805-ci ilin mayında, xanlığın sərhədində, Kürəkçay sahilindəki düşərgədə (Yelizavetpolun 20 verstliyində) knyaz Sisianov Qarabağ xanlığının rus imperatoruna sədaqəti haqqında andını qəbul etdi..."[2].

---

1 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.151.

2 Yenə orada, səh.206.

Sisianovla İbrahim Xəlil xanın 1805-ci ilin mayında Gəncə yaxınlığındakı məşhur görüşü başlandı.

İbrahim Xəlil xanın Rusiya təbəəliyinə keçməsi haqqındakı traktat 1805-ci il may ayının 14-də, Səlim xanın isə Rusiya ilə bağladığı traktat həmin il may ayının 21-də imzalanmışdır[1].

Mirzə Camal traktatın bağlanması şəraitini belə qələmə alır: "Kürəkçayın qırağında bir neçə gün bayram, şənlik və qonaqlıq oldu. Sonra traktat və əhdnamə yazıldı. İbrahim xan və Şəki hakimi Səlim xan ona möhür basdılar, böyük sərdar isə ona qol çəkdi. Bir-birinə böyük hörmət ve ehtiram göstərdikdən sonra geri qayıtdılar. Şərtə görə, Məhəmmədhəsən ağanın ikinci oğlu Tiflisdə girov qalmalı idi. Mərhum İbrahim xanın xahişinə görə bir dəstə rus qoşunu topxana ilə həmişə Şuşa qalasında xanın yanında qalmalı idi. Həmin yığıncaqda İbrahim xana və Səlim xana general-leytenanthq, mərhum Məhəmmədhəsən ağaya və Mehdiqulu xana general-mayorluq, mərhum Xanlar ağaya isə polkovniklik rütbəsi verilməsi haqqında sərdarın vasitəçiliyi ilə padşaha ərizə yazıldı. Dörd aydan sonra bu iltifat və daimiməvacibli dərəcələrin verilməsi haqqında fərman gəlib çatdı"[2].

Kürəkçay müqaviləsi (may 1805) İran şahlığının qəzəbinə səbəb oldu. Fətəli şah bu müqaviləni pozmaq və böyük strateji əhəmiyyəti olan Şuşa qalasını, Əsgəran və Şahbulaq qalalarını almaq məqsədilə son dərəcə ciddi hazırlığa başladı. Kürəkçaydan qayıdarkən İbrahimxəlil xanla Lisaneviçin hərbi dəstəsi də gəlmişdi. Lisaneviçin hərbi bölməsi və topxanası hələlik Şuşanın 10 kilometrliyində olan Xan bağında yerləşdirilmişdi. Bu zaman İran hərbi qüvvələrinin Araz sahillərinə yaxınlaşdığı xəbəri gəldi. İranlılarla müharibə aparmaq üçün Məhəmməd Həsən ağanın rəhbərlik etdiyi Qarabağ süvariləri göndərildi. Mayor Lisaneviçin hərbi hissələri də Məhəmmədhəsən ağaya kömək edirdilər. İran qoşunu ilə Qarabağ döyüşçüləri arasında müharibə Cəbrayıl qəsəbəsi yanında baş verdi. Məhəmmədhəsən ağa İran qüvvələrinin güclü olduğunu nəzərə alaraq Şuşanın müdafiəsi məqsədilə qalaya qayıtdı. Qızılbaş qoşunu Şuşanın dörd ağaclığında olan Ağoğlana girdi. Beş minə yaxm İran qoşunu Əsgəran qalasını almaq üçün onu mühasirə etdi. Mayor Lisaneviç vəziyyət barədə Sisianova təcili çaparlar vasitəsilə xəbər verib kömək istəmişdi. Bu zaman İran vəliəhdi naibüssəltənə Abbas Mirzə yeni qüvvələrlə Çanaxçı kəndinə yaxınlaşıb hərbi düşərgə qurdu...

"...Şah özü Qarabağın Təxti-tavus adlı yerinə və naibüssəltənə də Ağoğlan və Çanaxçı yolundan Əsgəranın aşağısına gəldi. Naibüssəltənə Gəncədən bir dəstə soldatla Şuşaya gedən polkovnik Karyagin ilə döyüşə başladı. Polkovnik qayıdıb Şahbulaq yanında olan Tərnəküt qalasına gəldi..."[3].

1 AKAK, II cild, sənəd 1436, 1437, səh.700.

2 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.152.

3 A.Bakıxanov. "Gülüstani-İrəm", Bakı, 1951, səh.195.

Göründüyü kimi, 1805-ci ildə naibüssəltənə Abbas Mirzənin və sonra ona köməyə gələn Fətəli şahın müharibə yolu ilə Kürəkçay əhdnaməsini pozmaq səyləri boşa çıxdı.

Sisianov tərəfindən göndərilən rus hərbi qüvvələri polkovnik Karyagin və polkovnik Kotlyarevskinin komandası altında Qarabağ xanlığının köməyinə gəldi. Həmin döyüşün təfsilatını Mirzə Camal belə təsvir edir:

"Polkovnik Karyagin və podpolkovnik Kotlyarevski böyük sərdarın əmrinə görə qoşun və topxana ilə Şahbulaq qalasının yaxınlığına çatdılar. Naibüssəltənə Çanaxçıdan köçüb, polkovnik Karyaginin üstünə getdi. Bunlar vuruşa-vuruşa Əsgəranın yaxınlığına çatdılaf. Qızılbaş qoşunu hər yeri, bütün yolları və Əsgəran qalasını tutub möhkəmləndirdiyinə görə qoşunun və topların hərəkəti çətinliyə düşdü. Buna görə bir dəstə rus qoşunu orada səngərə girib, on bir gün ərzində, gecə-gündüz bütün Qızılbaş qoşunu ilə vuruşdu. Bundan başqa rus qoşununun səngəri sudan da uzaq idi. On bir gündən sonra polkovnikin (Karyaginin və Kotlyarevskinin) yaralandığına və rus qoşununun yarısının davada tələf olduğuna və yaralandığına baxmayaraq, üç yüzə yaxın soldat bütün topları götürüb, Vanya yüzbaşının bələdçiliyi ilə Şahbulağa qayıtdılar..."[1].

1805-ci ilin sonu 1806-cı ilin əvvəllərində Rusiya - İran müharibəsi daha geniş miqyas aldı. Əvvəlcə bu müharibə Qarabağı Rusiya himayəsindən çıxarmaq məqsədi daşıyırdı. Bu səbəbdən İran hərbi qüvvələri Qarabağ ərazisində cəmləşdirilmişdi.

Mirzə Camal Qarabağ uğrunda Rusiya - İran müharibəsindən sonra Sisianovun həyata keçirdiyi başqa tədbirlərdən söz açaraq yazır: "Həmin ilin (1805-ci il - N.A.) qış fəslində (knyaz) böyük Rusiya dövlətinin qoşunu ilə Kürdən keçib, Şirvan, Bakı, Quba və Dərbəndi tutmaq üçün Şəkiyə tərəf hərəkət etdi. Böyük Rusiya dövlətinə səmimiyyət bəsləyən İbrahim xan öz istəkli oğlu Mehdiqulu ağanı Qarabağ qoşunu və bir neçə bəyzadə ilə birlikdə padşah əsgərləri sırasına, tapşırılan vəzifələri yerinə yetirmək üçün sərdarın hüzuruna göndərdi. Böyük (Rusiya) dövləti itaəti altında olan Şəki hakimi Səlim xan sərdarı lazım olan tədarükat və layiqli peşkəşlərlə Şəki vilayəti sərhədindən götürüb Şirvan vilayəti sərhədinə çatdırdı.

Öz dövlətinə, gücünə və ölkənin çətin yollarına qürrələnən Mustafa xan bir neçə gün sərdara qürurla cavablar yazaraq itaətdən boyun qaçırtdı. Lakin qüdrətli rus əsgərləri, Qarabağ və Şəki qoşunu qarşısında müqavimət göstərə bilməyəcəyini və Qarabağ qoşununun fürsət tapıb Şirvan kəndlərinə əl uzatdığını gördükdə o, Mehdiqulu xanla Səlim xanın göstərişi ilə itaət edəcəyinə yalandan söz verdi. İbrahim xan və Səlim xan kimi müqavilə və əhdnamə yazıb, üzdə Rusiya dövlətinin itaəti altına girdi"[2].

1 B ax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh. 153.

2 Yenə orada, səh.155.

Mirzə Camal Sisianovun Bakı üzərinə yürüşü dövründə Qarabağda baş verən hadisələri və onun siyasi-ictimai həyata təsirini də qələmə almışdır: "Böyük sərdar Şirvandan gəlib Bakı tərəfə hərəkət etdi. Bu zaman mərhum İbrahim xanın xəstə olan böyük oğlu general-mayor Məhəmmədhəsən ağa Allah rəhmətinə getdi. Bu kədər gətirən hadisədən Qarabağ vilayətini qəm və pərişanlıq basdı. Ürəkdə rus dövlətinə itaət etməyə razı olmayan bir para adamlar Məhəmmədhəsən ağanın vəfatından, Mehdiqulu ağanın vilayətdən uzaqlaşmasından, mərhum İbrahim xanın xəstəliyi, yaşının çoxluğu və qüvvəsinin azlığından istifadə edərək müqavilə və əhdnamənin əksinə olan işlər görməyə başladılar. Buna görə böyük sərdar Mehdiqulu xanı Qarabağ qoşunu ilə birlikdə geri göndərməyi məsləhət bilərək, onu böyük ehtiram, izzət, layiqli ənam və xoş xəbərlər ümidi ilə Qarabağa qaytardı. Mərhum general-mayor Məhəmməd Həsən ağaya xüsusi səmimiyyəti və məhəbbəti olduğundan hörmətli cənab polkovnik Cəfərqulu ağaya sevgi və ehtiramını andıran məktub yazıb, mərhum Məhəmmədhəsən ağanın vəfatından son dərəcə təəssüfləndiyini, ona məhəbbət bəsləyib, qeydinə qalmağa hazır olduğunu bildirdi.

General-mayor Mehdiqulu xan Qarabağ qoşunu və bəyzadələri ilə möhtərəm atasının hüzuruna gəlib, böyük sərdarın məhəbbətli və ümidverici sözlərini söylədi, fəsadlıq törədən bəzi şəxslərin qarşısını almağa başlayıb, yüksək (rus) dövlətinin qanunlarının yerinə yetirilməsi uğrunda çalışırdı..."[1].

Mirzə Camal Cavanşir Bakıda Sisianovun öldürülməsinin Qarabağ xanlığında yaratdığı əhval-ruhiyyəni, xüsusilə İbrahim xana pis təsir etməsini də qələmə almışdır: "Bu zaman xəbər çatdı ki, Hüseynqulu xan və onun adamlarından alçaq və pis hərəkətlərin baş verə biləcəyini güman etməyən böyük sərdar, Bakı vilayətində iki nəfər bəyzadə ilə birlikdə (xanla) söhbət etməyə getmiş və bu zaman pusquda durmuş İbrahim bəy və iki nəfər başqa adam onu və yoldaşlarını güllə ilə yaralayıb öldürmüş və bununla da özlərini padşahın əsgərlərinə müxalif və düşmən olduqlarını bildirmişlər.

Bu xəbərdən İbrahim xan, övladı və vilayət əhli kədərlənib pərişan oldular. Çünki bunlar hələ Rusiya dövlətinin qayda-qanunlarından xəbərdar deyildilər. Fikirləri İrana gedirdi. Çünki orada belə bir böyük sərdar vəfat etsə idi, qoşunun və vilayətin işlərində böyük pozğunluq əmələ gələrdi. Əksinə, düşmənlə müharibədə rus dövlətinin neçə sərdarı və sərkərdəsi öldürülsə belə, ondan yüksək dövlətin möhkəm qayda-qanunlarına heç bir xələl dəyməz və ölkədə heç bir iğtişaş baş verməz.

Sərdar Sisianov vəfat etdikdən sonra general Nesvetayev Tiflis şəhərində qoşunu və vilayəti idarə etməyə məşğul oldu. Mərhum İbrahim xanın adamı (elçisi) məhəbbət və səmimiyyət andıran məktublarla generalın yanına getdi. Hər cəhətdən xatircəmlik əldə edildi".

---

1 B ax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.155.

Mirzə Camal 1806-cı ildə Rusiya - İran müharibəsinin yenidən başlanması ərəfəsində İbrahim Xəlil xanın öldürülməsini də qələmə almış, Qarabağ xanlığı uğrunda İran və Rusiyanın apardığı mübarizənin bəzi cəhətlərini işıqlandırmışdır: "Həmin il, yəni 1806-cı ilin yaz fəslində Qızılbaş qoşunu Qarabağ torpağına yenidən hücuma keçməyə başladı. Gizlincə adamlar göndərib, mərhum İbrahim xana yenidən vədə və ümidlər verməyə davam etdilər. Elə qüdrətli düşmənin qabağını almaq üçün Qarabağda mayor Lisaneviç və yeger dəstəsindən başqa qoşun olmadığından və məhsul vaxtı gəlib çatdığından İbrahim xan Qarabağ elləri və kəndlərinin ayaq altında dağıdılmaması üçün qızılbaşlarla xoşluqla rəftar etməyə başladı. O hər bir iş barəsində mayorla məsləhətləşirdi. Mayor isə yüksək rus dövləti qoşununun tezliklə gəlib çatacağını İbrahim xana vəd edirdi: həqiqətdə isə (rus) qoşunu çox yubandı. Qızılbaşlar və onların qoşunu qalanın iki ağaclığına çatmışdı. Mərhum İbrahim xan evini və köçünü Xan bağından köçürüb, qalanın yaxınlığına gətirdi. Dələduzların bir neçəsi mayora nə isə danışdılar. Gecə mayor bir dəstə qoşunla İbrahim xanın yaşadığı mənzilə getdi. Hökmü dəyişilməz olan fələkin qəzasından mərhum İbrahim xan bir neçə nəfər əhli-əyalı və yaxın adamı ilə orada öldürüldü"[1].

İbrahim Xəlil xanın ölçülüb biçilmədən, gizli donoslar nəticəsində öldürülməsi xalqın böyük narazılığına səbəb olmuşdu. Onun öldürülməsi haqqında çoxlu şikayətlər bürokratik quruluşda uzun müddət ləngidilmiş, nəticəsiz qalmış, hətta həmin hadisədən sonra mayor Lisaneviç general rütbəsinə yüksəldilmişdi. Buna baxmayaraq Mirzə Camal yazır ki, İbrahim xanın xələfləri onun ölümündən sonra Şuşada və bütün Qarabağda sabitliyi, Rusiya ilə bağlanmış Kürəkçay əhdnaməsini saxlamağa müvəffəq oldular: "General-mayor Mehdiqulu xan və polkovnik Cəfərqulu ağa qalanın içində idilər. Onlardan yüksək (rus) dövlətinə bəslədikləri səmimiyyət qaydalarını poza biləcək heç bir hərəkət baş vermədi"[2].

1806-cı ilin iyul ayında Xonaşen (hazırkı Martuni qesəbəsi) ətrafında Qarabağ və rus hərbi qüvvələrinin Abbas Mirzəyə qarşı müharibəsi başlandı:

"Naibüssəltənə öz qoşunu ilə köçüb müharibəyə gəldi. Xonaşen mənzilinin yaxınlığında iki qoşun üz-üzə dayandı. Müharibə odu alovlandı. Mehdiqulu xan, adamları və Qarabağ qoşunu ilə daim yol göstərir, kömək edir, döyüş zamanı isə Qızılbaş qoşununu məğlub etmək uğrunda bilavasitə çalışırdı.

İyul ayının 15-də Xonaşen mənzilində yeddi saat davam edən döyüşdən sonra generalın tədbiri, Kotlyarevskinin mərdliyi və Mehdiqulu xanın köməyi ilə Qızılbaş qoşunu məğlub edildi. Qoşunun bir parası öldürüldü, bir parası əsir düşdü (qalanları isə Araza tərəf qaçdı). Kotlyarevski də yaralandı. Otuz nəfərə yaxın zabit və əsgər yaralandı və öldürüldü.

1 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.156.

2 Yenə orada, səh.157.

General qoşun götürüb (düşmənin ardınca) Qozlu çaya qədər getdi lakin onlardan əsər tapmadı. Naibüssəltənə ağır yükünü atıb qaçaraq, iki günün ərzində Qızılbaş qoşunu ilə Arazın o tayına keçdi[1].

Fətəli şah tərəfindən təhrik edilən və erməni məliklərinə satılan Əbülfət xan Qarabağda ciddi pozuculuq işi aparırdı. Onun bir məqsədi də Qarabağın əsas tayfalarını İrana aparmaq idi. Əbülfət xan bu sahədə təxribata başlasa da qarabağlılar onun qeyri-vətənpərvər hərəkətini pozurdular.

İranlılar 1806-cı ilin payız və qış aylarında da Qarabağı işğal etmək üçün inadlı müharibə apardılar. Bu müharibələrdə Qarabağ əhalisi özünün Kürəkçay müqaviləsinə sədaqətini bir daha nümayiş etdirdi.

Mirzə Camal "Qarabağ tarixi"ni 1806-cı ilin sonunda Mehdiqulu xanın hakimiyyətə gəlməsi ilə bitirir. O, Mehdiqulu xanın 1807-1822-ci illərdə davam etmiş hakimiyyətini təsvir etməməsi səbəbini qısaca olaraq belə əsaslandınr

"Mehdiqulu xanın hakimiyyəti göstərilən tarixdən başlayaraq, 1822-ci ilin oktyabr ayına qədər davam etmişdir. Bunun təfsilatı yüksək dövlətin kargüzarları tərəfindən dəfələrlə qeyd edildiyinə görə sizə məlumdur və mənim ərz etməyimə ehtiyac yoxdur"[2].

1807-1828-ci illərdə Qarabağ ərazisində baş verən hadisələr, xüsusilə Rusiya və İran dövlətləri arasında bağlanan Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə gətirib çıxaran hərbi-siyasi hadisələr Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sində, Mirzə Yusif Nersesovun "Tarixi-safi" əsərlərində qələmə alınmışdır.

Məlumdur ki, "Gülüstan" müqaviləsinə əsasən İrəvan və Naxçıvan müstəsna olmaqla bütün Zaqafqaziya ərazisi Rusiya tərkibinə daxil edildi. Ermənilər dəfələrlə vədlərinə xilaf çıxıb İrəvan qalasının ruslar tərəfindən alınmasına mane oldular. "Gülüstan" müqaviləsindən narazı qalan İran dövləti Rusiya ilə yeni müharibəyə hazırlaşdı. Müharibəyə hazırlıqda İrana Fransa və İngiltərə hökumətləri yaxından kömək edirdilər. Bu səbəbdən naibüssəltənə Abbas Mirzənin koman-dası altında böyük bir ordu artıq 1825-ci ildə müharibəyə hazır idi... "...1813-cü ilin baharında isə İran dövləti ruslar tərəfindən alınan ölkələri geri qaytarmaqdan naümid oldu. Rum (osmanlı) barışığı və Xorasanda baş verən iğtişaş nəticəsində, şah barışığa meyil göstərdi. Mirzə Əbdülhəsən xan Şirazi İran dövləti tərəfindən vəkil edildi. Sərdar Rtişşev də gəldi. Qarabağın Gülüstan adlı yerində hicri 1228 (1813)-ci ildə, təşrini-əvvəl (oktyabr) ayının 12-də, Rusiya ilə İran dövləti arasında əhdnamə bağlandı. Bu əhdnaməyə görə İran dövləti Gəncə, Qarabağ Talış, Şəki, Şirvan, Bakı, Quba, Dərbənd xanlıqlarını, bütün Dağıstanı, Gürcüstanı və ona həmhüdud olan ölkələri Rusiya dövlətinə tərk etdi. Onlar haqqında hər cür iddiadan əl çəkdi. Rusiya imperatoru da öhdəsinə aldı ki, şah hansı bir övladını vəliəhd təyin etsə, ona yardım göstərsin və hüququnu müdafiə etsin"

1 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.157.

2 Yenə orada, səh.158.

Mirzə Adıgözəl bəy "Türkmənçay" müqaviləsi (1828) ilə nəticələnən 1826-1827-ci illər Rusiya - İran müharibəsini "Qarabağnamə"nin 12-ci fəslində qələmə almışdır. Həmin fəslə də müəllif maraqlı ad vermişdir: "Qızübaşların öz əhdlərini dübarə sındırıb əzəmətli dövlətə qarşı ədavət və inad göstərmələri haqqındadır".

Burada "Qızılbaşların öz əhdlərini dübarə sındırıb əzəmətli dövlətə qarşı ədavəti" ifadəsində İranın "Gülüstan" müqaviləsi şərtlərini pozaraq Rusiyaya qarşı müharibəyə başlaması fikri nəzərdə tutulmuşdur.

Həmin fəsli yazarkən Mirzə Adıgözəl bəy iştirakçısı olduğu bir sıra tarixi faktları nəzərə çatdırmış, bəzən xırda təfərrüatları da verməyə çalışmışdır.

Bu dəfə də İran-Rusiya müharibəsi İran qoşunlarının böyük hissələrinin 1826-cı ilin iyununda Xudafərin köıpüsünü keçib Qarabağ ərazisinə daxil olması ilə başlanmışdı[1].

Qarabağın və ümumən Azərbaycanın dincliyi yenidən pozulub müharibə meydanına döndü.

XIX əsrin I rübündə Azərbaycan ilə Rusiyanın birləşməsinə səbəb olan amilləri hər şeydən əvvəl biz ölkənin iqtisadi və ictimai həyatındakı gerilikdə və siyasi cəhətdən xanlıqlara parçalanmasında axtarmalıyıq.

Bu konkret tarixi şəraiti yaxından görən İbrahimxəlil xan çox yaxşı bilirdi ki, yalnız Rusiya dövlətinin tərkibinə daxil olmaqla xarici düşmənlərin hücumundan və dözülməz daxili feodal müharibələrindən xilas olmaq mümkündür.

Məlumdur ki, artıq 1822-ci ildən Qarabağ xanlığı ləğv edilmişdi. Bununla belə, Şuşanın müdafiəsini şuşalılar və onlara kömək edən rus hərbi hissələri həyata keçirirdilər. Mirzə Adıgözəl bəy yazır ki, 42-ci yeger polkunun komandiri polkovnik Reytt doqquz rotadan ibarət soldatla cəld Şuşaya gəldi. 1826-cı il iyulun 25-dən başlayaraq Şuşa qalası yenidən İran qoşunu tərəfindən mühasirə olundu. İran hərbi qüvvələri az sonra Şamxora qədər irəliləyə bilsələr də Şuşanı təslim edə bilmədilər.

Mirzə Adıgözəl bəy 1826-1827-ci illər İran-Rusiya müharibəsində iranlıların məğlub olma səbəblərini təfsilatı ilə göstərir. O, yeni Qafqaz canişini Paskeviçin müharibəyə son qoymaq səylərini işıqlandırır. İrəvanın çox çətinliklə alınması rus qoşunlarının Arazı keçib Təbrizə qədər irəliləməsinə şərait yaradır[2].

General V.Mədədovun Türkmənçay müqaviləsi ərəfəsində Azərbaycan xanları ilə pis münasibəti, onlarla hesablaşmaması nəticəsində bir çox xanlar, o cümlədən Mehdiqulu xan İrana getmişdilər. Paskeviç tezliklə Mehdiqulu xanın öz yaxın adamları ilə Qarabağa qayıtmasına nail oldu. Mirzə Adıgözəl bəy yazır: "Bu əsnada, Darlagəzdə olan Qarabağ hakimi həmail sahibi general-mayor Mehdiqulu xana Paskeviç arasında gəliş-gediş oldu. Mehdiqulu xan İran

---

1 Bax: General-leytenant Velyaminovun çara 1826-cı il 30 iyul tarixdə göndərdiyi raport - AKAK, c. VI, h. II, sənəd 651, səh.367.

2 Bax: AKAK, c. VI, h. II, sənəd 698, səh.385.

dövlətindən üz çevirib bu işıqlı dövlətin itaətinə gəlmək istəyirdi. Knyaz Abxazov Pankratiyevlə müşavirə etdi. İki batalyon qoşun götürüb Mehdiqulu xanın yanına getdi. İki dövlətin sərhədində olan Ağ karvansarada görüşdülər. Knyaz onu xatircəm etdi. Ona qoşulan və tabe olan adamları köçürməklə məşğul oldu"[1].

Mehdiqulu xan 1827-ci ildə Qarabağa qayıtdıqdan sonra ömrünün sonunadək (1845) dinc şəraitdə yaşamış, öz mülklərini və təsərrüfatını idarə etmişdir.

Mirzə Camal "Qarabağ tarixi" əsərinin sonunda "Mehdiqulu xanın varis və vəliəhd olmasının səbəbi" adlı əlavə bir fəsil də yazmışdır. Burada deyilir: "Mərhum İbrahim xan birinci dəfə Kürəkçay qırağında knyaz Sisianovla görüşdüyü zaman varislik və vəliəhdlik adı onun böyük oğlu mərhum Məhəmmədhəsən ağaya verilmişdi. O zaman Məhəmmədhəsən ağanın ikinci oğlu girov adı ilə Sisianovun yanına göndərildi. General-mayor Məhəmmədhəsən ağa mərhum İbrahim xanın sağlığında öldüyündən xanın yerdə qalan oğlanları içərisində ən böyüyü general-mayor Mehdiqulu ağa idi. Buna görə mərhum İbrahim xanın öz sağlığında varislik və vəliəhdlik kağızı, xanın və Qarabağın başqa əyalının möhrü ilə Mehdiqulu ağaya verildi, xan və varis adlandırıldı.

Bu səbəbə görə Lisaneviç, mərhum İbrahim xan öldükdən sonra general Nesvetayevin hüzuruna raport yazmış və ona əsasən 1807-ci ildə böyük imperator mərhum Aleksandr Pavloviçin fərmanı üzrə Mehdiqulu xana Qarabağın xanı adı, hakimiyyət bayrağı və cavahirə tutulmuş qılınc verildi..."[2].

Məhəmmədhosən ağanın oğlu Cəfərqulu ağa əmisi Mehdiqulu ağanın Qarabağa xan təyin edilməsindən narazı idi. O, əvvəllər Rusiyaya rəğbət bəsləməsinə baxmayaraq, bu dəfə ondan üz çevirməyə cəsarət etdi.

A.Bakıxanov yazır: "1811 -ci ilin axırında, İrana tərəfdar olması qəti zənn edilən polkovnik Cəfərqulu ağa Məhəmmədhəsən ağa oğlu həbsə alınıb, ruslardan bir dəstə piyada və bir neçə kazakla Tiflisə göndərildi. Tərtər çaymdan keçərkən, Cəfərqulu ağa atının cilovunu soldatın əlindən qapdı, özü ilə bərabər atın sağnsında oturan o biri soldatı suya salaraq, Cəbrayıllı elinin arasına qaçdı. Bu xəbər naibüssəltənəyə çatan kimi Qarabağa gəldi. Əmir xan Qacarı, Cəfərqulu ağa ilə Cəbrayıllı elini və Qarabağın sair elatını köçürməyə məcbur etdi. Özü isə Topxana və sərbazla Sultanbud səngəri üzərinə gəldi. Burada qarabağlı Mehdiqulu xanla bir rus batalyonu var idi. Bunları məğlub edib bir çoxunu öldürdü və sağ qalanlarını əsir aldı. Mehdiqulu xan isə qaçıb canını qurtardı.

Əmir xan və Cəfərqulu ağa beş-altı min ailəni Arazdan keçirib, naibüssəltənə ilə birləşdilər. Naibüssəltənə Qarabağ elatını yerbəyer edib, Qaradağ kəndlərinin hökumətini xanlıq ləqəbilə Cəfərqulu ağaya verdi. Özü də Təbrizə qayıtdı"[3]

1828-ci il Türkmənçay müqaviləsindən sonra Qarabağ bir müddət rus hərbi komendantlığı tərəfindən idarə olundu.

---

1 Bax: "Qarabağnamələr", bu nəşrin I kitabı, səh.98.

2 Yenə orada, səh.166.

3 A.Bakıxanov. "Gülüstani-İrəm", Bakı, 1951, səh.202.

XIX əsrin 20-60-cı illərində Qarabağ Mərkəzi Şamaxı şəhəri olan Şamaxı quberniyası tərkibinə verilmişdi. 1868-ci ildən başlayaraq Azərbaycanda Sovet hakimiyyətinin qələbə çaldığı 1920-ci ilə qədər Qarabağ, mərkəzi Gəncə şəhəri olan Yelizavetpol quberniyası tərkibində olmuşdur. Yaxın tarixi keçmişdə, yəni 1501-ci ildən başlayaraq Qarabağ Azərbaycan ərazisində mühüm inzibati ərazi olaraq əvvəl Qarabağ bəylərbəyiliyi (1501-1747), sonra Qarabağ xanlığı (1747-1822), XIX əsrin əvvəlindən isə yuxarıda qeyd olunan rus ərazi-inzibati bölgüsündə zəmanəmizə qədər öz Azərbaycan varlığını saxlamışdır. Əsrlər boyunca İrəvan xanlığı fars və Azərbaycan feodallarının, Türkmənçay müqaviləsindən (1822), sonra isə (1920-ci ilədək) çar general-qubernatorlarının idarəsində idi...

* * *

Qarabağ xanlığı (1747-1822) Pənahəli xan və İbrahimxəlil xanın hakimiyyətləri dövründə (1747-1806) öz suverenliyini saxlaya bilən Azərbaycan feodal dövləti idi. Onun paytaxtı Şuşa şəhəri yarım əsrdən çox Zaqafqaziyanın xarici istilalardan mühafizəsində əsas dayaq mərkəzi olmuşdur.

Qarabağ xanlığının daxili və xarici siyasətinə qarşı Qarabağ Xəmsə məliklərinin çoxu müxalifətdə olmuş və ağır müharibələrdə düşmən tərəfə keçmişlər. Eyni zamanda, Xəmsə məlikləri Qarabağın iqtisadi həyatında da əhəmiyyətli rol oynamamışdır.

Qarabağ xanlığının Rusiya tərkibinə daxil olmasını təsdiq edən Kürəkçay (1805), Gülüstan (1813), Türkmənçay (1828) müqavilələrindən sonra Qarabağda ermənilərin sayı mühacirət hesabına artdı. Buna Zaqafqaziyada hakimlik edənlərin xristian dininə mənsub olmaları da şərait yaradırdı. Xaçatur Abovyan "Ermənistan yaraları"nın sağalmasınım başlanğıcını məhz Zaqafqaziyada çar Rusiyasının hakimiyyəti ilə əlaqələndirirdi. Zaqafqaziyaya ermənilərin axmı yazıçıya bu fikri söyləməyə imkan verirdi.

1804-1813 və 1826-1828-ci illər Rusiya-İran müharibəsinin gedişində və onlardan sonra ermənilərin Zaqafqaziyaya, o cümlədən Qarabağa kütləvi surətdə köçməsi başlanır... "...Biz 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 mindən çox fars, 84 min türk ermənisi köçürmüşük. Onları erməni əhalisinin az olduğu Yelizavetpol və İrəvan quberniyalarındakı ən yaxşı dövlət torpaqlarında yerləşdirmişik. Bu məqsədlə 200 min desyatin dövlət torpağı ayrılmış, müsəlmanlardan 2 milyon manatlıqdan çox torpaq satın alınmışdır. Bu ermənilər Yelizavetpol quberniyasının dağlıq hissəsində və Göyçə (İndi Sevan - N.A.) gölünün sahillərində yerləşdirilmişlər. Köçənlərin sayı rəsmi məlumata görə 124 min olmasına baxmayaraq, əslində onların sayı 200 mini keçmişdir[1].

1 Н.Н.Шавров. Новая угроза русскому делу в Закавказье: Предстоящая распродажа Мугани инородцам. СПБ, 1911, 8ЭП.59-60.

Torpaqların köçənlərə verilməsi yerli azərbaycanlıları narahat etməyə bilməzdi. Bu hadisələrin şahidi, məşhur rus diplomatı və şairi A.S.Qriboyedov yazmışdır: "Biz onunla (knyaz Arqutinski ilə -N.A.) həmçinin müsəlmanların ağırlaşmış vəziyyətləri ilə necə barışdırmaq, ermənilərin onların torpaqlarını həmişəlik tutmayacaqlarına inandırmaq barədə də fikir mübadiləsi aparırdıq[1].

Ermənilərin Zaqafqaziyaya, o cümlədən Qarabağa köçürülməsi sonrakı illərdə də davam etdirilmiş və böyük vüsət almışdı: "...köçənlər içərisində çoxluq ermənilərə məxsusdur. Belə ki, hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfərin 1 milyondan çoxu yerli sakinlərə mənsub deyil və bizim tərəfimizdən köçürülmüşdür. Son 13 ildə köçürülən ermənilərin sayının çoxluğu aşağıdakı müqayisədən aydın görünür: 1896-cı ildə general-adyutant Şeremetyev Zaqafqaziyada yaşayan ermənilərin sayının 900 minə yaxın olduğunu, 1908-ci ildə isə 1 milyon 300 minə çatdığını qeyd edir. Başqa sözlə, bu müddət ərzində onların sayı 400 min nəfər artıb[2].

Qarabağ xanlığı Rusiyaya birləşərkən - 14 may 1805-ci ildə regionda ermənilər əhalinin cəmi beşdə birini təşkil edirdilər. 1823-cü ildə çar məmurlarının tərəfindən tərtib edilmiş "Qarabağ əyalətinin təsviri"ndə verilən məlu-matlara görə "...Qarabağ xanlığında 90 min əhali, 1 şəhər, 600 kənd (onların 150-si erməni kəndidir) olmuşdur. Şuşada təxminən 1948 azərbaycanlı, 474 erməni ailəsi yaşayırmış. Kəndlərdə bu rəqəmlər müvafiq surətdə belə imiş: 12.902 və 4.331".

Köçürmə Qarabağın dağlıq hissəsində milli tərkibin dəyişilməsinə səbəb oldu. Belə ki, XIX əsrin 80-ci illərinin sonunda Şuşa qəzasında (indiki Dağlıq Qarabağın təxminən bütün ərazisi onun tərkibinə daxil idi -N.A.) ermənilərin sayı əhalinin artıq 58 faizini təşkil edirdi[3].

Gətirilən rəqəmlər bu gün Dağlıq Qarabağ ərazisində ermənilərin nə üçün çox olduğunu sübut etmək üçün kifayətdir.

Türkmənçay müqaviləsinə qədər Şuşa şəhərinin yerləşdiyi dağın yuxarısı şəhər təsərrüfatı məqsədilə istifadə olunurdu. Lakin XIX əsrin 30-cu illərindən başlayaraq Şuşa şəhərinin yuxarı-hündür hissəsində sürətlə erməni məhəllələri salındı.

Şuşada komendantlıq illərində yeganə rus kilsəsi şəhərin bazarbaşı adlanan hissəsində tikilmişdi. Rus hərbi işçilərinə xidmət edən bu kilsə sovet dövründə 30 ildən artıq şəhər klubu kimi istifadə olunmuşdu.

XIX əsrin II yarısında Şuşada erməni kilsələri meydana gəldi. Çox qəribədir ki, bu kilsələr erməni Qriqoryan kilsələri kimi qotik üslubda deyil, qədim alban kilsələri memarlığı üslubunda tikilmişdir.

Əgər XVIII əsrdə Qarabağ öz iqtisadi və hərbi gücü ilə Zaqafqaziyada aparıcı rol oynayırdısa, XIX əsrdə Qarabağ ədəbiyyatı və incəsənəti bütün

1 А.С.Грибоедов. Соч. в 2-х томах, т. 2, М., 1971, səh..341..

2 N.N.Şavrov. Göstərilən əsəri, səh.59-61.

3 Вах: Кавказский календарь на 1896 г., стр. 48-61.

Zaqafqaziya xalqlarının qəlbini fəth etmişdi. Qarabağda doğulan və tərbiyətəhsil alan Q.Zakir, Aşıq Pəri, M.M.Nəvvab, X.Natəvan, C.Qaryağdıoğlu, Ü.Hacıbəyov, H.Vəzirov, Ə.Ağayev, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, F.Köçərli və onlarca başqaları mədəniyyət tariximizdə parlaq səhifələrdir.

Bizim günlərdə Şuşanı erməni mədəniyyəti mərkəzi adlandıran ekstremistlər faktik olaraq Qarabağda ədəbi-mədəni hadisə sayıla bilən bir nəfər belə erməni yazıçısının adını çəkə bilməzlər.

Şimali Azərbaycan Türkmənçay müqaviləsindən sonra (1828) Rusiyanın inzibati-ərazi bölgüsünə daxil edildi. Qarabağ xanlığı ərazisi əvvəlcə Şamaxı, sonra Yelizavetpol (Gəncə) quberniyasının Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur, bir qismi isə Cavad uyezdlərinə daxil olmuşdu. Böyük Oktyabr sosialist inqilabının qələbəsinə qədər Qarabağın inzibati-ərazi bölgüsü bu şəkildə idi. İki ilə yaxın davam edən, müsəlman Şərqində ilk demokratik respublika "Azərbaycan Demokratik Cümhuriyyəti" dövründə də ərazidə dəyişiklik edilməmişdir. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonrakı illərdə (1920-1923) sabiq Qarabağ xanlığı və Yelizavetpol quberniyasının inzibati-ərazi bölgü-sündə bir sıra ciddi dəyişikliklər edilmişdir. O cümlədən sabiqdə əsrlər boyu Qarabağ bəylərbəyiliyi və xanlığı ərazisi olan Zəngəzur mahalı (o cümlədən Mehri, Qapan (indiki Qafan - N.A.), Gorus və başqa ərazilər) Ermənistan SSR-ə verildi. Tarixdə ilk dəfə olaraq Qarabağın dağlıq hissəsində Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olundu (1923). Şuşa şəhərinin köməkçi hərbi və təsərrüfat qəsəbəsi olan Xan kəndi DQMV-nin mərkəzi elan olundu və bu qəsəbə Stepanakert şəhəri adlandırıldı. 10-dan artıq dağıdıcı müharibəyə sinə gərmiş, dörd yüzə qədər memarlıq abidəsi olan Şuşa şəhəri 1923-cü ildən sonra ikinci plana, Xan kəndi birinci plana keçdi... 1920-ci ildə 50 mindən çox əhalisi olan Şuşa şəhərinin hazırda 13 min, cəmi 1500 nəfərə yaxın əhalisi olan Xan kəndinin hazırda 50 minə yaxın əhalisi vardır. Bu tarixi ədalətsizlik, əhalinin tərkibini süni yollarla azaldıb-artırmaq 1988-ci ilin fevralından başlayaraq Dağlıq Qarabağ hadisələri adlanan hərc-mərcliyə gətirib çıxardı... Bu hadisələrin mahiyyətində ise yeganə bəhanə Dağlıq Qarabağda erməni əhalisinin azərbaycanlılara nisbətən sayca çoxluğudur.

Axı başqa inkarolunmaz - tarixi dəlillər də var: Qarabağ birdir; onun dağı da var, aram da. Hazırda Qarabağda milyon nəfərdən çox əhali yaşayır ki, onun yalnız onda bir hissəsi ermənilərdir. Digər tərəfdən Qarabağ tarixin heç bir mərhələsində Ermənistan torpağı olmamışdır.

Nazim Axundov

## MÜNDƏRİCAT

Tərtibçidən……………………………………………………………….5

**Mirzə Rəhim Fəna**
Tarixi-cədidi-Qarabağ
(Ön söz N.Axundovun, transliterasiya A.Ramazanovundur)…………………...7

**Baharlı**
Əhvalati-Qarabağ
(Ön söz və transliterasiya N.Axundovundur).……………………………….31

**Həsən İxfa Əlizadə**
Şuşa şəhərinin tarixi
(Ön söz, transliterasiya N.Axundovundur) ………………………………..75

**Həsənəli Qaradaği**
Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları,
Pənah xan, İbrahim xan və Mehdiqulu xan
əyyami-hökumətlərinin əksər vəqaye və hekayətləri
(Ön söz, transliterasiyası N.Axundovundur)…………………………..…121

**Abbasqulu ağa Bakıxanov**
Gülüstani-İrəm. V fəsil…………………………………………………...131

Son söz……………………………………………………………………...174

| | |
|---|---|
| Buraxılışa məsul: | Əziz Güləliyev |
| Texniki redaktor: | Rövşən Ağayev |
| Tərtibatçı-rəssam: | Nərgiz Əliyeva |
| Kompyuter səhifələyicisi: | Aslan Almasov |
| Korrektorlar: | Elnaz Xəlilqızı<br>Tutu Məmmədova |

Yığılmağa verilmişdir 25.07.2006. Çapa imzalanmışdır 14.12.2006.
Formatı 60x90 V16. Fiziki çap vərəqi 15,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 191.

DÜST 5773-90, DÜST 4.482-87
Tel/Fax:447 75 04.Tel.:447 75 05

Kitab "CBS-PP" MMC mətbəəsində çap olunmuşdur.
Bakı, Şərifzadə küçəsi, 3.

Azərbaycan Respublikasının Prezidenti
**İlham Əliyevin**
“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”
12 yanvar 2004-cü il
tarixli sərəncamı ilə nəşr olunur.